

Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.

**Heydər Əliyev**

# DÖVLƏT VƏ DİN

İCTİMAİ FİKİR TOPLUSU

№ 06 (53) NOYABR - DEKABR 2017

## REDAKSİYA HEYƏTİ:

| | |
|---|---|
| **Allahşükür Paşazadə** | Tarix elmləri doktoru, professor |
| **Bəxtiyar Əliyev** | Psixologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Əli Əhmədov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Həsənov** | Tarix elmləri doktoru, professor |
| **Fazil Mustafa** | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| **Gövhər Baxşəliyeva** | Filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Gülçöhrə Məmmədova** | Memarlıq doktoru, professor |
| **İlham Məmmədzadə** | Fəlsəfə elmləri doktoru, professor |
| **Mübariz Qurbanlı** | Tarix elmləri üzrə fəlsəfə doktoru |
| **Nizami Cəfərov** | Filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Sabir Həsənli** | İlahiyyat üzrə fəlsəfə doktoru |
| **Sakit Hüseynov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Səlahəddin Xəlilov** | Fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Teymur Kərimli** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Urxan Ələkbərov** | Biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Vasim Məmmədəliyev** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Yaqub Mahmudov** | Tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |

---

**Redaktor: Sadiq Mirzəyev**
**İxtisas redaktoru:** Güney Namazova
**Texniki redaktor:** Raman Dadaşov

**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12.
Telefon: (+99412) 492-65-23
Qeydiyyat № 1674 / Tiraj: 800 / www.scwra.gov.az

Toplunun "Rəsmi guşə"sində AzərTAc-ın materiallarından istifadə edilib.
Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
Jurnal "Azərbaycan" nəşriyyatında çap olunub.

**İSSN 2220-8542**

# BU SAYIMIZDA


## RƏSMİ GUŞƏ

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda "2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda keçirilən beynəlxalq konfransın açılışında iştirak edib.....5

## GERÇƏKLİK

*Mübariz Qurbanlı* – İlham Əliyevdən zəngin milli-mənəvi dəyərlərin və mütərəqqi tarixi ənənələrin qorunmasına böyük töhfə.....13

*Səadət Məmmədova* – Azərbaycanda sosial dövlətin formalaşmasının nəzəri-ideoloji əsasları.....21

*İradə Zərqan* – Milli-mənəvi dəyərlərin qorunmasında varislik ənənəsi.....30

## CƏMİYYƏT VƏ DİN

*Səbinə Nemətzadə* – İslam kalliqrafiyasının dini əlyazmalardakı tətbiq sahələri.....36

*Asəf Orucov* – Türk-İslam mədəniyyəti ilə bağlı inam yerləri: pirlər (Naxçıvan şəhəri materialları əsasında).....43

*Əbülfət Vəliyev* – Qiraət elmində "yeddi qiraət" məsələsi.....48

*Həsənağa Məmmədli* – Müasir dinşünaslığın təkamül prosesi və metodoloji problemləri.....55

## ARAŞDIRMA

*Zaur Rəşidov* – Spinoza və İslam.....62

*Üzeyir Zeynalov* – Müsəlman şərqində mədəniyyət fenomeninin sosial-fəlsəfi təhlili.....76

*Bəhruz Gülmalıyev* – Din, əxlaq, mənlik, estetika və ictimai baxışlar sisteminin formalaşmasında şüurun rolu.....82

*Aygün Məmmədova* – Son Şirvanşah Bürhan Əli dövrünə dair sikkələrin səciyyəvi xüsusiyyətləri (yeni numizmatik tapıntılara istinadən).....91

## ŞƏXSİYYƏTLƏR

*Rəhim Həsənov* – Tarixi-mifoloji personajlar Cavid romantizmi fövqündə.....99

*İbrahim Erol* – XIX əsrdə Azərbaycanda nəqşibəndiliyin inkişafında Şeyx Mahmud Almalılının xidmətləri.....106

*Elmira Mustafayeva* – Xanımana Əlibəylinin yaradıcılığında dini motivlər.....114



**www.scwra.gov.az**
**e-mail: redaksiya@scwra.gov.az**

# Bakıda "2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfrans keçirilib

*Azərbaycan Prezidenti İlham Əliyev konfransın açılışında iştirak edib*




Dekabrın 21-də Bakıda, Heydər Əliyev Mərkəzində "2017 - İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransın açılış mərasimində iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən "İslam Həmrəyliyi İli"nin yekunlaşması ilə bağlı keçirilən konfrans Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən birgə təşkil olunub.

Beynəlxalq konfransın açılışında 40-a yaxın ölkədən 150-dək nümayəndə, o cümlədən tanınmış dövlət, din və elm xadimləri, 8 beynəlxalq təşkilatın rəhbərləri və təmsilçiləri, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələri, dini konfessiya rəhbərləri, hökumətin və parlamentin üzvləri, diplomatik korpusun və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Konfrans müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda nitq söyləyib.



## Prezident İlham Əliyevin nitqi

-Hörmətli din xadimləri.

Hörmətli xanımlar və cənablar.

Bildiyiniz kimi, 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilmişdir. İl ərzində Azərbaycanda və bir çox ölkələrdə beynəlxalq konfranslar, tədbirlər keçirilmişdir. Sonuncu beynəlxalq konfrans isə bu gün Bakıda öz işinə başlayır. Mən konfransda iştirak etmək üçün ölkəmizə gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram, onlara "Xoş gəlmisiniz!" deyirəm. Qeyd etməliyəm ki, bu gün konfransda 40-a yaxın ölkədən 150-dək xarici qonaq iştirak edir. Hörmətli qonaqlarımızın iştirakı bu konfransın və bu mövzunun əhəmiyyətini bir daha göstərir.

Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfələr verir. Bu məsələ bizim üçün prioritet məsələlərdən biridir. Azərbaycan qədim tarixə malik olan bir ölkədir. Azərbaycan xalqı əsrlər boyu öz milli mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir.

Xalqımız qədim tarixə malikdir. Bizim dini memarlıq abidələrimiz bunun əyani sübutudur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş, Azərbaycan xalqı tərəfindən qorunmuş və bir neçə il bundan əvvəl əsaslı şəkildə bərpa edilmiş Şamaxı Cümə məscidi bizim böyük sərvətimizdir. Bu məscid onu göstərir ki, Azərbaycan qədim müsəlman diyarıdır. Bizim digər tarixi dini abidələrimiz də milli sərvətimizdir.

Azərbaycan beynəlxalq aləmdə müsəlman ölkələri ilə çox yaxın münasibətlər qura bilmişdir. Biz cəmi 26 ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Bu illər ərzində ikitərəfli və üçtərəfli formatlarda, beynəlxalq təşkilatlar çərçivəsində müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir, gündən-günə güclənir. Biz BMT-də və digər beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik.



Keçən il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı çox önəmli qətnamə qəbul edilmişdir və Kontakt Qrupu yaradılmışdır. Onu da qeyd etməliyəm ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının çox fəal üzvüdür, ölkəmizdə bir çox konfranslar, tədbirlər keçirilmişdir. Azərbaycanın təşəbbüsü ilə İƏT-in Gənclər Forumu, Əmək Mərkəzi və Jurnalistlər Assosiasiyası yaradılmışdır. Eyni zamanda, Azərbaycan ISESCO-nun fəal üzvüdür. ISESCO İslam aləminin təhsil, elm, mədəniyyət təşkilatıdır və bu təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir. Beləliklə, ISESCO və bütün müsəlman aləmi Azərbaycana daim diqqət və dəstək göstərir. Bir neçə il bundan əvvəl ISESCO tərəfindən Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilmişdir və bir il ərzində ölkəmizdə, Bakıda bir çox tədbirlər keçirilmişdir. Qeyd etməliyəm ki, gələn il isə bizim digər qədim şəhərimiz – Naxçıvan İslam mədəniyyəti paytaxtı adına layiq görülübdür.

Ölkə daxilində İslam həmrəyliyi tam təmin olunubdur. Biz çalışırıq və çalışmalıyıq ki, bütün müsəlman aləmində birlik, həmrəylik təmin olunsun. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir, önəmli addımları atır. Bizim beynəlxalq təşkilatlar çərçivəsində və dünya gündəliyində duran məsələlərin həlli işində onlara münasibətimiz bir daha göstərir ki, İslam həmrəyliyi bizim üçün, sadəcə olaraq, bir şüar deyil, bizim üçün bu, əsas istiqamətlərdən biridir.

Bununla bərabər, Azərbaycanda bütün dinlərin nümayəndələri eyni, bərabər hüquqlara malikdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, heç bir ayrı-seçkilik yoxdur, olmayıb və ola da bilməz. Bu, bizim böyük sərvətimizdir.

Ölkəmizdə dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu qeyd edə bilərəm. Bir neçə dəfə keçirilmiş və ənənəvi xarakter alan Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Humanitar Forumu da, ilk növbədə, öz işini dinlərarası, mədəniyyətlərarası

dialoqa həsr etmişdir. Belə beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi təbiidir. Çünki ilk növbədə, Azərbaycan sivilizasiyalar arasında həmişə müsbət rolunu oynayıb və Asiya ilə Avropa arasında həm coğrafi, həm mədəni və bu gün siyasi baxımdan bir körpü rolunu oynayır. Digər tərəfdən, Azərbaycan o ölkələrdəndir ki, burada dini, milli zəmində heç bir problem yoxdur, heç bir - hətta kiçik bir anlaşılmazlıq yoxdur. Əksinə, Azərbaycanda yaşayan bütün millətlər, bütün dinlərin nümayəndələri bizim dəyərli vətəndaşlarımızdır və ölkəmizin ümumi inkişafına öz töhfələrini verirlər. Ona görə məhz Azərbaycanın dinlərarası dialoq işində fəal olması təbiidir.

Mən bir daha qeyd etmək istəyirəm ki, ölkə daxilində bu məsələlər ən yüksək səviyyədə həllini tapıbdır. Biz istəyirik ki, həm müsəlman aləmində, həm Avropada, ümumiyyətlə, dünyada dinlərarası dialoq güclənsin. Əfsuslar olsun ki, son vaxtlar biz tam əks mənzərə ilə üzləşirik - dözümsüzlük, islamofobiya, ksenofobiya, antisemitizm artır. Bu, bəşəriyyət üçün böyük təhlükədir və böyük bəladır. Din xadimlərinin, ictimai xadimlərin, siyasətçilərin, geniş ictimaiyyətin bu məsələ ilə bağlı fikri və mövqeyi əlbəttə ki, dünya ictimaiyyəti üçün də çox önəmlidir. Bakıdan, yüksək mötəbər kürsülərdən dəfələrlə dünyaya çağırış edilmişdir ki, dinlərarası münasibətlər hər bir ölkə üçün önəmlidir. Dünyada əksər ölkələr çoxmillətli və çoxkonfessiyalı ölkələrdir. Belə olan halda bu mövzu vətəndaş sülhü, vətəndaş həmrəyliyi üçün, hər bir ölkə üçün xüsusi əhəmiyyət kəsb edir. Biz öz tərəfimizdən ölkə daxilində bütün məsələləri ən yüksək səviyyədə həll edirik. Eyni zamanda, əminəm ki, bölgədə və dünyada Azərbaycan təcrübəsi öyrənilir.

Azərbaycan keçən ili "Multikulturalizm İli" elan etmişdi. Multikulturalizm bizim dövlət siyasətimizdir, eyni zamanda, həyat tərzimizdir. Azərbaycanda yaşayan bütün dinlərin, millətlərin nümayəndələri bunu təsdiq edə bilərlər. Multikulturalizmin alternativi yoxdur. Alternativ dünyanı, ölkələri sarsıdan çox təhlükəli meyillər - islamofobiya, ksenofobiya, antisemitizmdir. Dünya Azərbaycanın timsalında görür ki, multikulturalizm yaşayır. Lakin multikulturalizmlə bağlı bəzən çox bədbin fikirlər səslənir, özü də yüksək səviyyədən. Buna baxmayaraq, biz hamımız çalışmalıyıq ki, bu ülvi dəyərləri qoruyaq, möhkəmləndirək. Multikulturalizm hər bir ölkə üçün adi hala çevrilməlidir.

Qeyd etdiyim kimi, Azərbaycanın İslam ölkələri ilə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həm özəl münasibətləri var, həm də Azərbaycan bu təşkilat çərçivəsində fəal rol oynayır və böyük dəstəyə malikdir. Eyni zamanda, bizim Avropa ölkələri ilə də sıx əlaqələrimiz var. Avropa İttifaqına üzv 9 ölkə ilə Azərbaycan strateji tərəfdaşlıq sənədi imzalamışdır. Yəni, bu da Avropa İttifaqının üzvlərinin üçdəbir hissəsidir. Avropa İttifaqı ilə də bizim çox sıx əlaqələrimiz var. Bir sıra məsələlər ətrafında çox ciddi iş gedir və bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək saziş üzərində iş başlamışdır. Bu, bir daha ölkəmizin həm beynəlxalq gündəlikdə duran məsələlərə münasibətini, eyni zamanda, bizim siyasətimizi əks etdirir. Azərbaycan xalqı öz milli mənəvi köklərinə çox bağlıdır. Müstəqil Azərbaycan dövlətinin təməli məhz bu milli dəyərlərdir. Bizim milli dəyərlərimiz isə ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Həm coğrafi yerləşməyimiz, bizim tariximiz, sivilizasiyaların Azərbaycan ərazisindəki keçmişi və rolu, əlbəttə ki, Azərbaycanı, bax, dinlərarası, mədəniyyətlərarası dialoqun aparılmasında əvəzolunmaz ölkəyə çevirir.

Bir məsələni də qeyd etməliyəm ki, əlbəttə, bu istiqamətdə dövlət siyasəti aparılır və

aparılacaq. Ancaq bizim bu istiqamətdəki siyasətimiz ictimai rəyə söykənir. Çünki Azərbaycan cəmiyyəti, Azərbaycan xalqı bu duyğularla, bu fikirlərlə yaşayır. Bizim uğurlu inkişafımız göstərir ki, dinlərarası, millətlərarası münasibətlər lazımi səviyyədə olanda inkişaf da, sabitlik də olur və bütün Azərbaycan vətəndaşları gələcəyə də nikbinliklə baxırlar.

Bu il biz İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə keçirmişik. IV İslam Həmrəyliyi Oyunları Bakıda keçirilmişdir. Əllidən artıq ölkədən 3 mindən çox idmançı, minlərlə qonaq gəlmişdi. Bu, həm böyük idman yarışı idi, eyni zamanda, bu, bir dostluq bayramı, qardaşlıq bayramı idi. Bütün İslam ölkələrinin aparıcı idmançıları Bakıda idilər. Əlbəttə, biz fəxr edirik ki, Azərbaycan milli komandası bu yarışların qalibi oldu, birinci yerə layiq görüldü. Amma əsas məsələ bunda deyil. Əsas məsələ ondadır ki, bu Oyunlar bir daha göstərdi ki, İslam həmrəyliyi var və gənc nəsil gərək gələcəkdə bu gözəl dəyərləri daim dərk etsin və gücləndirsin. İki il bundan əvvəl isə Bakıda tarixdə ilk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Digər qitə oyunlarından fərqli olaraq, Avropa Oyunları 2015-ci ilə qədər heç vaxt keçirilməmişdir. İlk Avropa Oyunları Azərbaycanda keçirilmişdir və Avropadan 5 mindən çox idmançı burada yarışırdı, minlərlə qonaq gəlmişdi. Azərbaycan komandası bu Oyunlarda ikinci yerə layiq görüldü.

Yəni, bu iki hadisə özlüyündə bir göstəricidir. Əlbəttə ki, bunlar böyük, möhtəşəm idman tədbirləri idi. Amma, eyni zamanda, həm Avropa, həm İslam Oyunlarının iki il ərzində bir şəhərdə, bir ölkədə keçirilməsi həm Avropa, həm İslam aləminin bizə olan münasibətini göstərir, həmçinin onu göstərir ki, bir daha dediyim fikirlərə qayıdıram - Azərbaycan sivilizasiyalar, dinlər və qitələr arasında nadir rol oynayır.

Digər önəmli təşəbbüs 2008-ci ildə Azərbaycan tərəfindən irəli sürülmüşdür. Bildiyiniz kimi, Azərbaycan, eyni zamanda, Avropa Şurasının üzvüdür. Biz belə qərara gəldik ki, Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət edək. Tarixdə ilk dəfə olaraq iki təşkilatın nazirləri Bakıda görüşdülər. Çox səmərəli görüş keçirilmişdir, çox səmimi fikir mübadiləsi aparılmışdır. Biz hesab etdik ki, bu təşəbbüsün davamı olmalıdır, yəni, bu, sadəcə olaraq, bir görüş olmamalıdır. Bu məqsədlə növbəti il biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin tədbirini keçirdik və Avropadan nazirləri dəvət etdik. Yəni, bu, artıq ənənəyə çevrildi və sonra bu təşəbbüsə "Bakı Prosesi" adı verildi. Bu gün "Bakı Prosesi" yaşayır, inkişaf edir. Gələn il biz "Bakı Prosesi"nin on illik yubileyini qeyd edəcəyik. "Bakı Prosesi" bütün beynəlxalq mötəbər təşkilatlar tərəfindən, xüsusilə BMT tərəfindən çox yüksək qiymətləndirilir. Bu, İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurası arasında əlaqələrin inkişafı üçün dünya miqyasında nadir bir platformadır. Yenə də təşəbbüs Azərbaycan tərəfindən gəldi.

Əminəm ki, biz belə təşəbbüslərlə ümumi işimizə töhfə veririk. Ümumi məqsədimiz ondan ibarətdir ki, dünyada sülh, qarşılıqlı hörmət, qarşılıqlı anlaşma olsun, ölkələr bir-birinin işinə qarışmasın. Belə olan halda müharibələr də olmayacaq və bütün dünyada sülh bərqərar olacaq.

Azərbaycan gənc müstəqil dövlətdir. Müstəqilliyimizin cəmi 26 yaşı var. Müstəqilliyin ilk illəri çox ağır keçmişdir, çox faciəvi hadisələr baş vermişdir. 1993-cü ilə qədər Azərbaycan demək olar ki, idarəolunmaz vəziyyətdə idi. Ölkədə xaos, anarxiya, iqtisadi böhran hökm sürürdü, inflyasiya min faizlərlə ölçülürdü, bütün sənaye müəssisələrimiz, demək olar ki,

fəaliyyətsiz qalmışdı və ölkənin inkişafı üçün perspektivlər çox qaranlıq idi. Bundan əlavə, o vaxtkı hakimiyyət Azərbaycanda vətəndaş müharibəsinə start verdi və qardaş qanı axıtdı. Mənfur qonşu Ermənistan bundan istifadə edərək torpaqlarımızın bir hissəsini işğal etmişdir. Yəni, Azərbaycan demək olar ki, uçurum kənarında idi. Belə vəziyyətdə Azərbaycan xalqı özünə xas olan müdriklik göstərərək böyük lider Heydər Əliyevi hakimiyyətə dəvət etmişdir və 1993-cü ildən bu günə qədər Azərbaycan inkişaf və tərəqqi yolu ilə gedir. 1993-cü ildən başlanan siyasi, iqtisadi islahatlar, beynəlxalq arenada rolumuzun artması, ölkə daxilində bütün qanunsuz silahlı birləşmələrin tərksilah edilməsi, vətəndaş müharibəsinin dayandırılması, yeni Konstitusiyanın qəbul edilməsi və ölkəmizin strateji inkişafı ilə bağlı çox dəqiq qərarlar xalqımızı ağır vəziyyətdən çıxara bildi və bu gün də Azərbaycan uğurla inkişaf edir. Eyni zamanda, müstəqilliyin ilk illərində Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər də demək olar ki, pozulmuşdu. Yumşaq desək, bu sahədə, çox böyük səhvlər, dəqiq desək, cinayətlər törədilmişdir. Məhz Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycanda bu sahədə də dönüş yarandı, dövlət-din münasibətləri lazımi səviyyədə quruldu. Bu gün dövlət-din münasibətlərinin səviyyəsinə və mahiyyətinə görə Azərbaycan bir çox ölkələr üçün nümunə ola bilər.

Bu gün 26 ildir müstəqil dövlət kimi yaşayan Azərbaycan ayaqda möhkəm dayanır. Əlbəttə ki, bizim əsas problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bildiyiniz kimi, Ermənistan beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımızın 20 faizini 20 ildən çoxdur ki, işğal edib. Bu torpaqlardan bir milyondan çox vətəndaş qovulub, qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənilər qanlı cinayət – Xocalı soyqırımını törətmişlər. Erməni quldurları tərəfindən 600-dən çox günahsız, dinc insan, onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq qətlə yetirilmişdir. Xocalı soyqırımını 10-dan çox ölkə artıq soyqırımı kimi tanıyıb.

BMT münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz geri çəkilməlidir. Ancaq bu qətnamələr kağızda qalıb. Bu qətnamələri qəbul edənlər bu məsələyə biganə qalırlar. Ermənistan da bundan istifadə edərək öz işğalçı siyasətini davam etdirir. İşğal edilmiş torpaqlarımızda bütün binalar dağıdılıb. Bizim tarixi, dini abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıb. Bu dağılmış məscidlərin fotoşəkilləri indi internetdə kifayət qədər dərc edilib, bunu hər bir insan görə bilər. Bütün infrastruktur dağıdılıb. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərmişdir. O missiyalar dediyim mənzərə ilə üzləşmişlər və öz məruzələrində bunu əks etdirmişlər.

Münaqişə ilə bağlı Azərbaycan dövlətinin mövqeyi beynəlxalq hüquqa tam əsaslanır. İlk növbədə, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır, tarixi torpağıdır, digər tərəfdən, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Belə olan halda münaqişə yalnız və yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, BMT Təhlükəsizlik Şurasının qətnamələri, - bu sənədlərdən daha üstün sənəd dünyada yoxdur, - tam icra edilməlidir və ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycan dövləti və Azərbaycan xalqı öz torpağında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək.

O ki qaldı, xalqların öz müqəddəratını təyin etməsi məsələsinə, bu məsələ ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Qeyd etdiyim kimi, dünyanın əksər ölkələri çoxmillətli, çoxkonfessiyalı ölkələrdir. Ermənistan xalqı öz müqəddəratını təyin edib, onların öz dövlətləri var. İkinci erməni dövlətinin tarixi Azərbaycan torpaqlarında yaradılmasına Azərbaycan heç vaxt imkan verməyəcək. Bu, əslində çox zərərli, təhlükəli və xəstə bir məntiqdir. Ermənilər bir çox ölkələrdə yaşayırlar. İndi əgər onlar yaşadıqları bütün ölkələrdə Azərbaycandakı kimi öz müqəddəratını təyin etmək arzusuna düşərlərsə və aqressiv separatizmə əl atarlarsa, onda baxarıq o ölkələrin siyasəti necə olacaq.

Bu gün dünyada gedən proseslər bizim mövqeyimizi dəstəkləyir və gücləndirir. Qeyd etdiyim kimi, həm beynəlxalq hüquq, həm tarix, həm potensial baxımından bizim mövqeyimiz kifayət qədər güclüdür. Ancaq bu gün Avropa da separatizmlə üzləşir. Görün, Avropa ölkələrində separatizmə qarşı hansı addımlar atılır. Bizim problemimiz aqressiv separatizmdir. Əli silahlı erməni quldur dəstələri soyqırımı törətmişlər, zor gücü ilə torpaqlarımızı işğal etmişlər, günahsız insanları bu torpaqlardan qovmuşlar və bu gün bu torpaqlarda qanunsuz fəaliyyətlə məşğuldurlar. Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Bunun üçün bütün imkanlar var və son hadisələr – keçən ilin hadisələri bunu bir daha göstərir. Ölkəmizin ərazi bütövlüyü bütün başqa ölkələrin ərazi bütövlüyü qədər qiymətlidir və dəyərlidir.

Bu böyük və çətin problemə baxmayaraq, ölkəmiz uğurla inkişaf edir. Biz beynəlxalq arenada çox etibarlı tərəfdaşa çevrildik, bir neçə il bundan əvvəl 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Bu, bizim böyük siyasi qələbəmiz idi. Çünki o vaxt Azərbaycan cəmi 20 il idi ki, müstəqil ölkə kimi yaşayırdı və bu illər ərzində beynəlxalq ictimaiyyətin rəğbətini qazana bilmişdir. Ölkədə çox ciddi iqtisadi islahatlar aparılır. İqtisadi inkişaf baxımından Azərbaycan son 14 il ərzində dünyada ən sürətlə inkişaf edən ölkədir. İqtisadiyyatımız, ümumi daxili məhsul 3 dəfədən çox artmışdır.

Biz, eyni zamanda, çox ciddi sosial siyasət aparırıq və bunun nəticəsində Azərbaycanda işsizlik və yoxsulluq 5 faiz səviyyəsindədir. İnsan kapitalına böyük sərmayə qoyulur. Son 14 il ərzində ölkəmizdə üç mindən çox məktəb, 600-dən çox tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir, 12 min kilometr yol inşa edilmişdir və digər lazımi sosial infrastruktur yaradılır. Beynəlxalq maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir. Sadəcə bir rəqəmi demək kifayətdir ki, bu barədə təsəvvür olsun: Ümumdünya Davos İqtisadi Forumu Azərbaycanı ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görüb. Yəni, bu, çox böyük göstəricidir və biz bu göstəriciyə enerji resursları hesabına çatmamışıq. Əlbəttə ki, Azərbaycanın zəngin enerji resursları var və bu resurslardan biz səmərəli şəkildə istifadə edirik. Amma ölkələrin rəqabətqabiliyyətliliyi digər parametrlər üzərində hesablanır və bu göstərici bizi dünya miqyasında 35 ən rəqabətqabiliyyətli iqtisadiyyatlar arasına daxil edir.

Məndə və bilirəm ki, cəmiyyətdə ölkəmizin gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var. Bu gün reallaşan nəhəng enerji layihələri, 40 milyard dollar dəyəri olan “Cənub Qaz Dəhlizi” və bizim digər layihələrimiz ölkəmizin uzunmüddətli uğurlu, dayanıqlı inkişafını dəstəkləyəcək.

Azərbaycan bölgədə çox önəmli nəqliyyat mərkəzinə çevrilir. İki ay bundan əvvəl

istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu qitələri - Asiyanı Avropa ilə ən qısa yolla birləşdirdi. Hazırda biz "Şimal-Cənub" nəqliyyat dəhlizi üzərində işləyirik. Bu istiqamətdə də çox önəmli nəticələr var. Biz ilin sonuna qədər növbəti nəticələri gözləyirik ki, qısa müddətdə – bəlkə də iki-üç il ərzində bu yolu da biz qonşu ölkələrlə birlikdə istifadəyə verək. Beləliklə, bundan sonra həm Şərqdən Qərbə və əks istiqamətə, həm də Şimaldan Cənuba və əks istiqamətə dəmir yolları Azərbaycan ərazisindən keçəcəkdir. Bu, bizə əlavə iqtisadi mənfəət və əlbəttə ki, siyasi dividendlər gətirəcək. Bu, regional əməkdaşlığa da çox ciddi müsbət təsir göstərəcək. Eyni zamanda, əminəm ki, bu, bizim bugünkü konfransımızın burada yazılan mövzusuna da öz müsbət təsirini göstərəcək. Çünki millətlərarası, dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün hesab edirəm ki, sadəcə olaraq, söz danışmaq kifayət deyil. Konkret layihələr, konkret maraqlar olmalıdır, maraqların uzlaşması, balansı və qarşılıqlı asılılıq olmalıdır. Bizim regionda icra etdiyimiz layihələr bu qarşılıqlı maraqları təmin edir.

Əlbəttə ki, bütün bu nailiyyətləri biz qonşularımızla birlikdə əldə etmişik. Tranzit olmaq istəyən hər bir ölkə gərək öz qonşuları ilə yaxın münasibətlər qursun. Bizdə də bu, belədir. Biz qonşularımızla çox sıx əlaqələr qurmuşuq. Əlbəttə ki, bu, regional təhlükəsizliyə və sabitliyə də öz müsbət təsirini göstərir.

Bir sözlə, əziz dostlar, mən hesab edirəm ki, Azərbaycan müstəqillik dövründə mədəniyyətlərarası dialoqun inkişafında və İslam həmrəyliyinin güclənməsi işində öz rolunu oynayıb. Biz bundan sonra da bu yolla gedəcəyik.

Fürsətdən istifadə edərək, sizə - bütün qonaqlara Bakıya gəldiyiniz üçün bir daha təşəkkürümü bildirirəm və konfransa uğurlar arzulayıram. Sağ olun.

* * *

Daha sonra çıxış edən İran Prezidenti Aparatının rəhbəri Mahmud Vaezi İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin, Türkiyənin Diyanət İşləri Başqanı Əli Ərbaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Özbəkistan Respublikası Prezidentinin dövlət müşaviri Rüstəm Kamilov Prezident Şavkat Mirziyoyevin, Fransa Mitropoliti və Ekümenik Patriarxlığın eqzarxı Emmanüel Adamakis Konstantinopol Patriarxı I Varfolomeyin, Novqorod və Starorus Mitropoliti Lev Moskva və bütün Rusiyanın Patriarxı Kirillin, Axaltsixi və Tao-Klarcet Mitropoliti, Katolikos-Patriarx II İliyanın Vikarisi və xüsusi nümayəndəsi Teodor Ümumgürcüstan Katolikos-Patriarxı II İliyanın konfransa müraciətini oxuyub. Həmçinin konfransda ISESCO-nun baş direktoru Əbdüləziz əl-Tuveycri və Müqəddəs Taxt-Tacın adından Vatikanın Dinlərarası Dialoq üzrə Pontifik Şurasının İslam ilə dialoq departamentinin rəhbəri Xaled Akaşe çıxış ediblər. Sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri, MDB Dinlərarası Şuranın həmsədri Şeyxülislam Allahşükür Paşazadənin çıxışı dinlənilib.

Sonda xatirə şəkli çəkdirilib.

Beynəlxalq konfrans işini plenar iclasla davam etdirib.

# İLHAM ƏLİYEVDƏN ZƏNGİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN VƏ MÜTƏRƏQQİ TARİXİ ƏNƏNƏLƏRİN QORUNMASINA BÖYÜK TÖHFƏ

***Mübariz QURBANLI,***
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının icra katibinin müavini*

***Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu bu sahəyə sistemli dövlət qayğısının bariz nümunəsidir.***

Cəmiyyətdəki dəyərlərin və yaşayış tərzinin sintezindən ibarət olan mədəniyyət fərdlərin öyrənib bölüşdüyü münasibətlər və davranışlar kimi tanınır. Dəyər isə bir şeyin yaxşı və diqqətəlayiq olduğuna inamdır. Mədəniyyətin mühüm hissəsini təşkil edən dəyərlər fərdlərin və qrupların davranışlarına istiqamət verən əsas prinsiplərdir.

Bu baxımdan hər bir cəmiyyətin özünəməxsus milli-mənəvi dəyərləri onun mədəniyyətinin formalaşmasında mühüm rol oynayır. Bu dəyərlər cəmiyyəti meydana gətirən fərdlərdə milli həmrəylik, birlik ruhunu oyatdığı və toplumun üzləşdiyi yad təsirlərdən, təhlükələrdən qoruduğu üçün onu mühafizə və təbliğ etmək labüddür.

**Mənəvi dəyərlər qloballaşmanın hədəfində**

Mənəvi dəyərlərin qorunması və təbliği vətənpərvərlik hisslərinin möhkəmlənməsi ilə birbaşa əlaqəlidir. Belə ki, bəşər övladı tarix boyu yaşadığı coğrafi ərazini qorumağı, orada kök salmağı və oradan hərtərəfli faydalanmağı özünə vəzifə bilmişdir. Öz mövcudluğunu təmin edə bilmək, fəaliyyət göstərmək üçün müəyyən yerə bağlı qalmaqla yanaşı, həm də vətən adını verdiyi həmin yeri qorumaq onun üçün qaçılmaz olmuşdur.

Yaşadığı torpaqları vətənləşdirən bəşər övladı müəyyən dəyərlərə yiyələnmiş və zaman keçdikcə bu dəyərlərlə yoğrulub millətə çevrilmişdir. Milli-mənəvi dəyərlər adını verdiyimiz həmin dəyərlər millətin özünəməxsusluğunu, başqa sözlə desək, onun milli kimliyini ortaya qoyur. Məhz vətənpərvərlik hissi sayəsində fərd bu dəyərlərə sahib çıxır, həm onları, həm də aid olduğu vətəni, təmsil etdiyi milləti qorumaq üçün canından belə keçməyə hazır olur.

Müasir dövrdə dünyanın sürətlə qloballaşması fərdlərin və cəmiyyətlərin həyatına böyük təsir göstərir. Belə ki, qloballaşma prosesinə qarşılıqlı əlaqələr nəticəsində meydana gələn beynəlmiləlləşmə, ticarət mübadiləsinin genişlənməsi, Qərbə məxsus dəyərlərin və texnologiyanın bütün dünyada aktuallıq qazanması və s. aid edilir. Fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, dialoqa nail olunması, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı bir tərəfdən müsbət dəyişikliklərə səbəb olsa da, digər tərəfdən milli-mənəvi dəyərlər sistemini təhlükə altına atır.

Mədəniyyətlərin mübadiləsi ilə müşahidə olunan qloballaşma milli identiklik və milli

özünəməxsusluğu aradan qaldırır. Həyatın bütün sahələrini öz təsir dairəsinə alan qlobal proseslər milli-mənəvi dəyərlərin aşınaraq vahid dünya ictimai sisteminin yaranmasına, "köhnə" dəyərlərin məhv edilərək onların yerində böyük boşluqların əmələ gəlməsinə səbəb olur. Odur ki, mənəvi dəyərlərin, əxlaq normalarının ictimai şüurda möhkəmlənməsi, eyni zamanda milli-mədəni sərvətin qorunub saxlanılması və yaşadılması dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

**Qloballaşmanın təhlükəsini necə azaltmalı**

Əslində, qloballaşmanın gətirdiyi sosial dəyişikliklər ümumbəşəri və qaçılmazdır. Amerikalı tarixçi Henri Stüart Hyüsün təbirincə desək, dəyişiklik tarixin mahiyyətindədir. Heç bir mədəniyyət qarşılıqlı təsirlənmələrdən sığortalanmamışdır. Sadəcə həmişə tərəflərdən biri daha çox təsir göstərən, digəri isə daha çox təsirə məruz qalan rolunu oynayır. Bu qarşılıqlı təsirlənmələr fonunda cəmiyyət onun üzvlərinin davranış və münasibətlərinə istiqamət verən müəyyən dəyərlər və normalar əsasında mövcudluğunu qoruyur.

Zaman keçdikcə dəyişikliklərə məruz qalan bu dəyər və normaların təsiri azalır, onlar ya yeni dövrə uyğunlaşır, ya da tamamilə yeniləri ilə əvəz olunur. Ancaq bu əvəzlənməyə, dəyişikliklərə nəzarət olunmaması, laqeyd yanaşılması bir çox problemlərin ortaya çıxmasına, radikal meyillərin yaranmasına, xüsusilə gənclərin qeyri-ənənəvi cərəyanların təsir dairəsinə düşməsinə, milli-mənəvi dəyərlərin deqradasiyasına gətirib çıxara bilər.

Qloballaşmanın yad təsirlərindən istifadə edən qüvvələr, xüsusilə müasir texnologiyaların köməyilə yad ideya və ideologiyaları yaymağa cəhd göstərirlər. Radikal meyilli ideologiyaların intişar tapması bunun bariz nümunəsidir. Həmin radikal ideologiyalar məhz kollektiv milli kimliyin nüvəsini təşkil edən loyallıq hissinin aradan qaldırılmasına yönəlmişdir. Loyallıq hissini itirmiş fərd kollektivə yadlaşır və özünü onun bir parçası olaraq hiss etmir. Hətta bəzən ona qarşı düşmənə çevrilir ki, bu, olduqca təhlükəli tendensiyadır.

Bütün bunların qarşısını almaq məqsədilə dövlətlər elmin, təhsilin inkişafı və özünün sahib olduğu mənəvi dəyərləri qorumaq istiqamətində mühüm addımlar atmalıdır. Bu istiqamətdə iş görən dövlətlər üçün qloballaşma təhlükəli və qorxulu tendensiya olmayıb, əksinə, onların inkişafına rəvac verəcəkdir. İlk növbədə ona görə ki, ölkələr bir-birilərinin elmi-texnoloji sahədəki nailiyyətlərindən istifadə edə bilirlər. Digər tərəfdən, qarşılıqlı ünsiyyətdə milli mədəniyyətlər həm özləri zənginləşir, həm də başqa millətlərin mədəniyyətlərini, mənəvi dəyərlərini zənginləşdirirlər.

**Milli-mənəvi irs Azərbaycan xalqını bütövləşdirən və zənginləşdirən dəyərdir**

Bu baxımdan Azərbaycan xalqı özünün milli-mənəvi irsinə - onu bütövləşdirən və zənginləşdirən komponentlərə - dil, din, adət-ənənə, eyni zamanda birgəyaşayış mühiti və tolerantlıq kimi xüsusiyyətlərə söykənərək bəşəriyyətin mürəkkəb və ziddiyyətli ictimai-siyasi sınaqlarından məharətlə çıxa bilmiş, dünya xalqları arasında öz varlığını, dövlətçilik ənənələrini qoruyub saxlamağı bacarmışdır. Tarixi hadisələrin gedişatı göstərdi ki, minilliklər ərzində formalaşmış milli-mənəvi sərvətimiz milli mənlik şüurumuzu oyadaraq müstəqil dövlətçiliyimizin bərpasına səbəb olan əsas amildir.

Mənəvi aləmimizi zənginləşdirən, birliyimizi təmin edən, tariximizi və mədəni irsimizi ucaldan milli dəyərlərimizi qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur. Vətən sevgisi, ailə birliyi, dini dəyərlər, adət-ənənələrimiz, yardımsevərlik kimi milli mental keyfiyyətlərimizi özündə təcəssüm etdirən mənəvi dəyərlərimiz, bütün dövrlərdə olduğu kimi, bu gün də gündəlik həyatımızda, bir növ, əxlaqi meyar rolunu oynayır. Bu dəyərləri yaşatmaq, gələcək nəsillərə ötürmək xalqın keçmişini, onun varlığını qorumaq deməkdir.

Hər bir ailənin möhkəm əsaslar üzərində dayanmasında, onun üzvlərinin sağlam mənəvi keyfiyyətlərə malik olmasında ailə başçıları mühüm rol oynadığı kimi, hər bir xalqın da maddi-mənəvi dəyərlərinin qorunaraq sonrakı nəsillərə çatdırılmasında cəmiyyətin bütün üzvləri ilə yanaşı, dövlət başçıları da əhəmiyyətli rol oynayır. Bu baxımdan Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın yüksək mənəvi dəyərlərini qoruyaraq bütövlükdə sağlam cəmiyyətin formalaşmasına təsir göstərmək, onun tarixi yaddaşını, milli-mənəvi dəyərlərini gələcək nəsillərə ötürmək kimi tarixi vəzifəni məhz Ulu Öndər Heydər Əliyev öz üzərinə götürmüş və bu missiyanı böyük uğurla həyata keçirməyə nail olmuşdur.

Azərbaycana rəhbərlik etdiyi illərdə Ulu Öndər xalqımızın milli-mənəvi dəyərlərini sevərək öz varlığında yaşatmış, əməllərində bu dəyərləri müqəddəs, toxunulmaz bir xəzinə kimi qorumuş, onun əbədiyaşarlığını təmin etmişdir. Dahi şəxsiyyət hələ Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə sovet ideoloji-siyasi maneələrini dəf edərək Azərbaycan xalqının milli özünüdərkini, milli heysiyyətini gücləndirmək, onu öz şanlı keçmişinə, soy-kökünə qaytarmaq, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün mühüm tədbirlər həyata keçirmişdir.

**Heydər Əliyev nümunəsi**

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra xalqın təkidi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev həyata keçirdiyi dövlət quruculuğu işləri ilə bərabər, milli-tarixi yaddaşın bərpasına da xüsusi önəm vermiş, mədəniyyətimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirmişdir. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə dərindən bağlı olan Ümummilli Lider bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durmuşdur.

"Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi xalq ola bilməz. Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir", - deyən Heydər Əliyevin həyata keçirdiyi ardıcıl tədbirlər nəticəsində milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişmiş, vaxtilə qadağalara məruz qalan xalqımızın özünəməxsus adət-ənənələri, milli və dini bayramları xalqa qaytarılmışdır.

Azərbaycan xalqının yenidən öz milli-mənəvi dəyərlərinə qayıdışı prosesində İslam dini xüsusi yer tutmuşdur. Ona görə də Ulu Öndər İslam dininin mədəniyyətimizin formalaşmasındakı, milli-mənəvi dəyərlərimizin nəsildən-nəslə ötürülməsindəki rolundan danışarkən xalqımızın mənəviyyatına, dünyagörüşünə böyük təsir göstərdiyini, adət-ənənələrimizin bir çox hallarda

İslam dini vasitəsilə günümüzədək yaşadığını, ölkədə vətəndaş həmrəyliyinin, birliyinin yaranmasında böyük əhəmiyyət daşıdığını bildirmişdir.

Ulu Öndərin həyata keçirdiyi uğurlu din siyasəti nəticəsində ölkədə etiqad azadlığının həyata keçirilməsi üçün tam şərait yaradılmış, dini dəyərlərə, ibadət yerlərinə və din xadimlərinə xüsusi qayğı göstərilməyə başlanılmış, dövlətlə din arasında qarşılıqlı anlaşma və əməkdaşlıq güclənmişdir. Bütün bunların əsasında Azərbaycanda dövlət-din münasibətlərinin özünəməxsus modeli formalaşmışdır.

**Dövlət-din münasibətlərinin uğurla və sağlam məcrada tənzimlənməsi**

Ulu Öndərin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri də 21 iyun 2001-ci ildə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması olmuşdur. Yaradıldığı gündən komitə din sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, habelə dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər görür.

Eyni zamanda, Dövlət Komitəsi qanunvericiliyə uyğun olaraq, dini icmaların fəaliyyətinin təşkilində, dini maarifləndirmə işinin həyata keçirilməsində, eləcə də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında və milli-mənəvi irsimizin təbliğində Qafqaz Müsəlmanları İdarəsi ilə birgə fəaliyyət göstərir. Bunun bariz nümunəsi ötən il "Multikulturalizm İli" və bu il "İslam Həmrəyliyi İli" çərçivəsində həyata keçirilən tədbirlərdir.

Belə ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə "İslam Həmrəyliyi İli" çərçivəsində Bakıda, Finlandiya, İran, Türkiyə, Özbəkistan, İspaniya və Rusiyada beynəlxalq konfranslar keçirilmişdir.

Milli-mənəvi dəyərlərimizin qorunması və beynəlxalq miqyasda təbliği istiqamətində Qafqaz Müsəlmanları İdarəsi ilə birgə fəaliyyətimiz bundan sonra da davam edəcəkdir.

**İlham Əliyev dini etiqad azadlığının, multimədəni harmoniyanın əsas təminatçısı və himayədarıdır**

Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev də milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunmasını prioritet vəzifə kimi qarşıya qoymuşdur. "Azərbaycan xalqı həmişə öz milli-mənəvi dəyərlərinə sadiq olub. Bu gün Azərbaycan dövləti milli dəyərlərimizin qorunması üçün ardıcıl siyasət aparır. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik", - deyən Prezident İlham Əliyevin dövlət-din sahəsində həyata keçirdiyi siyasət əslində Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin şaxələndirilmiş şəkildə davamıdır.

Dövlət başçısı tərəfindən aparılan uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən nümunəvi model kimi qəbul olunur və bəyənilir.

Cənab Prezidentin rəhbərliyi ilə böyük tarixə malik məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir.

Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycan hökumətinin vətəndaşların etiqad azadlığı haqqını təmin etmək sahəsində həyata keçirdiyi tədbir və qəbul etdiyi qərarlar öz müsbət bəhrələrini verməkdədir. Hazırda Azərbaycan Respublikasında dini durum sabitdir, ölkədəki dini tolerantlığın səviyyəsi yüksəkdir, dini mövzularda beynəlxalq konfranslar və görüşlər keçirilir, dini əqidəsinə görə vətəndaşlar arasında heç bir ayrı-seçkiliyə yol verilmir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər.

Eyni zamanda, dövlət başçımız ölkədə dini etiqad azadlığının və multimədəni harmoniyanın əsas təminatçısı və himayədarıdır. Ümumiyyətlə, müstəqilliyimizin ilk illərindən başlayaraq dövlət-din münasibətləri sahəsində irəli sürülən ideyaların bu günün reallıqları kontekstində oynadığı müsbət rol daha aydın görünür.

**Etnik-dini tolerantlıq Azərbaycan cəmiyyətinin nümunəvi normasıdır**

Hazırda mütərəqqi dünyada demokratik dəyərlərdən biri kimi qəbul edilən etnik-dini tolerantlıq Azərbaycan cəmiyyətinin nümunəvi normasına çevrilmişdir. Ölkədə dövlət-din münasibətləri qanunlara, ən əsası, ölkə Konstitusiyasına, həmçinin beynəlxalq hüquq prinsiplərinə və normalarına, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrə əsaslanır. Dövlətimiz dünyada dini azadlıqların qorunması ilə bağlı bütün səyləri dəstəkləyir.

Çoxmillətli və çoxkonfessiyalı dövlət kimi Azərbaycan Respublikası bu gün dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir. Bununla belə, ölkənin hüquq sistemi ekstremizm təhlükəsinin real olduğu şəraitdə dini təşkilatlara kənardan təsiri məhdudlaşdırır, potensial təhlükəli radikal ideyaların təbliğ edilməsinə imkan vermir. Azərbaycan hökuməti vətəndaşların əqidə seçiminə hörmətlə yanaşmaqla bərabər, dini ekstremizm, dözümsüzlük ideyalarının təbliğinin qarşısını qətiyyətlə alır və bundan sonra da alacaqdır.

Son illər tarixi mədəniyyət abidələrinin, məscid və ziyarətgahların, yəhudi və xristian məbədlərinin bərpası və təmiri Azərbaycan gerçəkliyini əks etdirən sağlam dini-mənəvi durumun göstəricisidir. İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildiyi 2003-cü ildən indiyədək ölkədə dövlətin dəstəyi ilə 250-dək məscid tikilmiş və ya bərpa edilmişdir. Bunların arasında Azərbaycan xalqı üçün böyük dəyər kəsb edən və Cənubi Qafqazın ən böyük məscidi olan Heydər Məscidi, Bibiheybət, Təzəpir, Əjdərbəy, Gəncə "İmamzadə" dini kompleksi də var.

İyirmi iki il sonra - 2016-cı ilin aprel ayının 2-də Azərbaycan Ordusunun ermənilərin təxribatına layiqli cavab verməsi nəticəsində Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlının bərpası ilə bağlı Prezident İlham Əliyevin 24 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən kənddə Şuşadakı Gövhər Ağa məscidinin bənzəri olan məscidin inşası dövlət başçısının milli-mənəvi dəyərlərimizə diqqətinin və verdiyi önəmin bariz göstəricilərindəndir.

**Heydər Əliyev Fondunun fədakar missiyası**

Xalqımızın milli-mənəvi irsinin qorunması, təbliği, tədqiqi və onun gələcək nəsillərə ötürülməsi istiqamətində Heydər Əliyev Fondunun gördüyü işlər xüsusi vurğulanmalıdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu çoxşaxəli fəaliyyəti ilə milli-mənəvi dəyərlərimizin yorulmaz təbliğatçısına və etibarlı müdafiəçisinə çevrilmişdir. Azərbaycanın birinci xanımının milli-mənəvi dəyərlərin qorunması və dünyada təbliğ olunması üçün həyata keçirdiyi layihələr onun əsl vətəndaşlıq mövqeyinin, yüksək mənəvi keyfiyyətlərə malik olmasının bariz nümunələridir.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən çoxsaylı layihələrdən olan "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində istər ölkə daxilində, istərsə də ölkə xaricində bir çox dini, tarixi abidələrin yenidən qurulması və bərpası Azərbaycanın birinci xanımının milli-mənəvi dəyərlərimizin tərkib hissəsi kimi dini ənənələrimizə mühüm töhfəsidir.

Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbəsi yüksək səviyyədə bərpa edilmişdir. Daşkəsən şəhər Cümə məscidi, Gəncə şəhər Şah Abbas və Həzrət Zeynəb məscidləri, Mərdəkan qəsəbəsi Pirhəsən ziyarətgahı və Heydər Cümə məscidi, Binə qəsəbəsində Möhsün Səlim və İmam Rza məscidləri, Buzovna qəsəbəsi Cümə məscidi, Şamaxı Cümə məscidi əsaslı surətdə təmir olunmuşdur. Qəbələ şəhərində Heydər Əliyev Fondunun sifarişi ilə yeni məscid tikilmişdir.

Eyni zamanda, cəmiyyətimizin tolerantlıq ənənəsini fəal təbliğ edən fond digər dinlərə mənsub abidələrin də qorunmasına və bərpasına böyük diqqət yetirmişdir. Belə ki, Fondun dəstəyi ilə Bakıdakı Pravoslav və Müqəddəs Məryəm kilsələrində təmir-bərpa işləri aparılmışdır.

Fərəhləndirici haldır ki, Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən tədbirlər respublikanın hüdudlarını aşmışdır. Belə ki, Fondun Fransanın Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, Strasburq və bu ölkənin digər regionlarındakı kilsələrin təmirində, eləcə də Romadakı katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında yaxından iştirakı, Həştərxanda Müqəddəs Knyaz Vladimirin şərəfinə abidənin ucaldılması da məhz ayrı-ayrı xalqların, konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir.

**Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması tarixi zərurətdən irəli gələn təşəbbüsdür**

Dövlət səviyyəsində görülən işlərin davamı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il oktyabrın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında imzaladığı Fərmanla milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə verdiyi yüksək qiyməti və dəstəyi bir daha nümayiş etdirmişdir. Prezidentin bu addımı eyni zamanda zəngin mənəvi irsimizin, ümumiyyətlə, Azərbaycan həqiqətlərinin dünya miqyasında tanıdılmasına növbəti töhfəsidir.

Nəzərə alınmalıdır ki, Azərbaycanda dini proseslər camaat sisteminə dayanmır, dini dünyagörüşü "köçürmə" mahiyyəti kəsb edir. Belə ki, bəzi qüvvələr digər müsəlman dövlətlərinin özünəməxsus dövlət-din modelinin ölkəmizə inteqrasiyasına çalışırlar. Bu amil

özlüyündə vətəndaşlarımızın milli-mənəvi dəyərlərdən uzaq düşməsinə xidmət göstərir. Bu baxımdan belə bir fondun yaradılması böyük əhəmiyyət kəsb edir. Onun nizamnaməsindən də aydın olur ki, fond xalqımızın tarix boyu formalaşdırdığı mənəvi irsini, onun əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, milli kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək düşüncəsini özündə ehtiva edir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis edilməsi dini mənsubiyyətindən asılı olmayaraq ölkədə fəaliyyət göstərən konfessiyalara dəstəyi, mənəvi dəyərlərin qorunması və inkişafını, habelə bu sahəyə dövlət qayğısını daha da gücləndirəcəkdir. Belə ki, Fond mənəvi-dini dəyərləri araşdıracaq, dini qurumların və vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətin həyata keçirilməsinə, “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarda), audio və videomateriallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materiallarının hazırlanmasına dəstək verəcəkdir. Din sahəsində ixtisaslı mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər verəcək, dini təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılmasına, məscidlərin və digər dini abidələrin tikintisinə, bərpasına yardım göstərəcəkdir. Eləcə də dini radikalizmdən, alkoqolizmdən, narkomaniyadan əziyyət çəkən şəxslərin cəmiyyətə yenidən inteqrasiyasına, təhsilalanların sosial müdafiəsinin gücləndirilməsinə, istedadlı şəxslərin təhsilini davam etdirməsinə, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına kömək edəcəkdir.

Həmçinin Fond vətəndaşlarla birbaşa münasibətdə olaraq onların maddi-sosial problemlərinin həlli istiqamətində müxtəlif layihələr həyata keçirəcək. Belə ki, aztəminatlı ailələrə dəfn xərclərinin ödənilməsinə, Qarabağ müharibəsi və 20 Yanvar şəhidlərinin ailələrinə, habelə müharibə əlillərinə, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslərə, valideynlərini itirdiyinə və ya valideyn himayəsindən məhrum olduğuna görə sosial xidmət müəssisələrində yaşamış şəxslərin həmin müəssisələri tərk etdikdən sonra yaşayış xərclərinin ödənilməsi üçün maddi yardım göstərmək də Fondun vəzifələrinə daxildir.

**Qeyri-maddi mədəni irsin nikbin gələcəyinə etibarlı əsas**

Əhalinin sosial problemlərinin həlli dövlət siyasətinin prioritet istiqamətidir. Hökumət əhalinin, xüsusən aztəminatlı ailələrin maddi-sosial şəraitinin yaxşılaşdırılması istiqamətində sosial proqramları davamlı həyata keçirmək üçün bütün imkanlardan istifadə edir. Bu sahədə aparılan işlər, görülən tədbirlər Prezident İlham Əliyevin ölkənin hər bir vətəndaşına xüsusi diqqət və qayğı ilə yanaşmasının sübutudur.

Xüsusən yeniyetmə və gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasının aktuallıq qazandığı günümüzdə Mənəvi Dəyərlərin Təbliği Fondunun bu sahədə genişmiqyaslı fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Çünki danılmaz faktdır ki, milli-mənəvi dəyərlərimizə varislik prizmasından yanaşma həm dövlətçilik, həm də mənəvi irsimiz baxımından zəruridir. Gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasında təhsilin xüsusi yeri vardır ki, Fond təhsillə bağlı qarşısına geniş məqsədlər qoymuşdur.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 26 oktyabr 2017-ci ildə “Milli-mənəvi dəyərlərin təbliği: dünən, bu gün, sabah” mövzusunda təşkil etdiyi konfrans da Mənəvi Dəyərlərin

Təbliği Fondunun yaradılmasının ictimaiyyət tərəfindən yüksək qiymətləndirildiyini bir daha təsdiqlədi. Tədbirdə iştirak edən deputatlar, ziyalılar, elm və din xadimləri, QHT nümayəndələri, ölkədə fəaliyyət göstərən müxtəlif konfessiya rəhbərləri Prezidentin bu təşəbbüsünü və addımını təqdirəlayiq hesab etdilər. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Fərmanın tarixi zərurətdən irəli gəldiyi bir daha qeyd olundu.

Beləliklə, milli-mənəvi dəyərlərimizin qorunmasına dövlət qayğısının gündən-günə artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlərin sistemli aparılması məqsədilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır.

# AZƏRBAYCANDA SOSİAL DÖVLƏTİN FORMALAŞMASININ NƏZƏRİ-İDEOLOJİ ƏSASLARI

***Səadət MƏMMƏDOVA,***
*AMEA-nın Elm Tarixi İnstitutunun*
*"Elmşünaslıq və elmin sosial problemləri" şöbəsinin*
*aparıcı elmi işçisi, sosiologiya üzrə fəlsəfə doktoru,*
*saadet.baki@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *sosial dövlət, sosial ədalət, sosial məsuliyyət, multikulturalizm, Azərbaycançılıq.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *социальное государство, социальная справедливость, социальная ответственность, мультикультурализм, азербайджанство.*
***KEY WORDS:*** *social state, social justice, social responsibility, multiculturalism, Azerbaijanism.*

Bəşər tarixinin ən yeni mərhələsi kimi xarakterizə olunan post-neokapitalizm dövründə insanların həyat keyfiyyətinin yüksəldilməsi, sosial ədalətin təmin edilməsi, sosial əməkdaşlığın və insanların qarşılıqlı sosial məsuliyyətinin möhkəmləndirilməsi, sosial qeyri-bərabərliyin aradan qaldırılması, insanın bütün hüquq və azadlıqlarının təmin edilməsi və ona layiqli həyat şəraitinin yaradılmasına yönələn sosial dövlət növbəti "ideal idarəçilik" modeli kimi qəbul edilir. Sosial dövlətin üstün tərəflərindən biri onun dövlət – cəmiyyət – vətəndaş münasibətlərində qarşılıqlı fəaliyyətə və dəstəyə əsaslanan dövlət quruluşu olması ilə bağlıdır.

Müasir Azərbaycan Respublikasının ən yeni tarixi sosial dövlət qurmaq istiqamətində müəyyənləşdirilib. Azərbaycanda formalaşan sosial dövlət modeli özündə milli ənənələri ehtiva edir, həmçinin müasir inkişaf meyillərini nəzərə alır və əsas ideyası Azərbaycançılıqdır. Azərbaycan dövlətçilik tarixinin ən yeni dövrünün yaradıcısı olan Heydər Əliyev də *çıxışlarında* qeyd edirdi ki, "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır". Ümummilli Liderə görə, "Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafını təmin etmək deməkdir" [1, s. 25, 17]. Ə.M.Həsənovun bildirdiyi kimi, "Heydər Əliyev birləşdirici Azərbaycançılıq ideyasının – Azərbaycanın müstəqil dövlətçiliyi üzərində qurulmuş milli inkişaf siyasətinin ideoloji əsaslarını qoydu" [2, s. 42]. Ulu Öndər milli inkişaf siyasətinin və ya milli ideologiyanın mahiyyətini belə açıqlamışdır: "Azərbaycanın suverenliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, Azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası hər bir

vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, təminatları, Azərbaycanın milli bayrağı, himni – bütün bunlar mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasını təşkil edən prinsiplərdir. Gənclərimizi təhsil, tərbiyə sahəsində, ailə həyatında bu prinsiplər əsasında formalaşdırmaq, inkişaf etdirmək və fəaliyyətə cəlb etmək lazımdır" [3].

Ulu Öndər Heydər Əliyev Azərbaycançılıq ideologiyasının əsas prinsiplərini 7 fevral 1994-cü il İstanbulda keçirilən Beynəlxalq "Sülh və Səbir" Konfransındakı çıxışında bir daha vurğulamışdır: "Azərbaycan çoxmillətli dövlətdir. Respublikamızda bir çox millətlər əsrlər boyu birlikdə yaşayırlar. ...Azərbaycanda İslam dini ilə yanaşı, Xristianlıq və İudaizm dinləri də var və onlar bir-biri ilə çox mehriban şəraitdə fəaliyyət göstərirlər. ...ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq..." [4, s. 23]. S.Xəlilovun qeyd etdiyi kimi, "Azərbaycançılıq ideologiyası mühüm funksional elementlərlə zəngindir. "Azərbaycançılıq" ...real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bu gün "Azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir" [5]. Onu da qeyd etmək lazımdır ki, "milli-ideoloji baxışlar sisteminin formalaşması prosesində Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipi saxlanıldı və onun birləşdirici ideya kimi irəli sürdüyü "Azərbaycançılıq" ideologiyasına müraciət edildi. Azərbaycançılıq ideyasına tamamilə yeni məzmun verildi və bu ideya ölkənin milli-etnik xüsusiyyətlərinə, müasir inkişafının tələblərinə və dünyanın yeni şəraitinə uyğunlaşdırıldı. Heydər Əliyev Azərbaycançılıq ideyasını bütöv bir xalqın vahid milli birlik platformasına çevirdi" [5, s. 57-58].

İ.Həbibbəyli qeyd edir ki, "Heydər Əliyevin Azərbaycançılıq təlimi dünya azərbaycanlılarını tarixi vətən və vahid ideologiya ətrafında birləşdirir". Onun sözlərinə görə, "Ümummilli Lider Heydər Əliyevin milli, müstəqil dövlətçilik təlimi Prezident İlham Əliyevin fəaliyyət strategiyasını təşkil edir..." və "bu mənada Prezident İlham Əliyev daim inkişafda olan, yeniləşib zənginləşən Heydər Əliyevçi siyasi təlimin, yeni dövlətçilik nəzəriyyəsinin yaradıcısıdır [6, s. 895-899]. N.Cəfərov isə azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsini fərqləndirir və bu mərhələnin XXI əsrin 10-cu illərinin əvvəllərindən başladığını vurğulayır [7]. Azərbaycançılıq ideologiyası İlham Əliyev mərhələsində zamanın tələblərini bilavasitə nəzərə alan sosial və siyasi istiqamətlərin inkişafına – Azərbaycan dövlətinin mövqeyinin dünya siyasi arenasında düzgün dərk və təbliğ edilməsinə, Azərbaycan dövlətinin və xalqının milli-məkan birliyinin və müstəqilliyinin qorunub saxlanmasına, Azərbaycan vətəndaşlarının rifah halının yüksəldilməsinə və bu yöndə onların hüquq və azadlıqlarının təmin edilməsinə yönəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu ideologiyanın bir istiqaməti kimi multikulturalizmi dövlət siyasəti elan etmişdir: "Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir" və "Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir" [8]. Qeyd edə bilərik ki, multikulturalizm siyasəti Azərbaycançılıq ideologiyasının əsaslarının və prinsiplərinin yeni müstəvidə inkişafı ilə bağlıdır.

Belə ki, bu siyasətin əsas məqsədi ölkədə yaşayan xalqların etnik-mədəni, dini dəyərlərinin qorunmasına, inkişafına və cəmiyyət daxilində bu xalqların inteqrasiyasına nail olmaqdır [9], yəni azərbaycanlı şüurunun, ümumi vətən ideyasının inkişaf etdirilməsi, milli ayrı-seçkiliyə yol verilməməsi ilə bağlıdır. N.S.Kirobayev hesab edir ki, "Multikulturalizm müxtəlifcinsli mədəni qrupların eyni həyat məkanında münaqişəsiz mövcudluğu haqqında nəzəriyyə, təcrübə və siyasətdir". Multikulturalizm siyasəti şəxsiyyətin sosiallaşması ilə bağlı müxtəlif modellərin fəal inteqrasiyasının əsası kimi milli strategiyanın innovasion inkişafının vacib amili və sürətlə dəyişən dünyada millətin yeni rolu və yerinin axtarışına əsas ola bilər [10].

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında da Azərbaycançılıq ideyasından çıxış edərək, göstərilir ki, "Mədəniyyətlərin qovşağında yerləşən Azərbaycanın zəngin və tolerant tarixi irsinin, müxtəlif etnoslara və dinlərə aid çoxsaylı tarix və mədəniyyət abidələrinin tədqiqi, qorunması və təbliği üçün görülən işlər sistemli şəkildə davam etdiriləcək... Ölkədə xüsusi sosial qrupların mədəniyyət obyektləri və xidmətlərindən istifadə etmə imkanlarının genişləndirilməsini nəzərdə tutan fəaliyyət inkişaf etdiriləcəkdir" [11, s. 36-37].

Göründüyü kimi, xalqların etnik-mədəni dəyərlərinin qorunması Azərbaycan Respublikasının ümumi inkişafının mühüm hədəflərindən olan demokratik inkişafın, insanların hüquq və azadlıqlarının müdafiə olunmasının tərkib hissəsidir. Bu mənada multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasətinin vasitəsi kimi ölkənin suverenliyini, ərazi bütövlüyünü, demokratik inkişafını, milli təhlükəsizliyini, xüsusilə də, multikultural təhlükəsizliyini, vətəndaşlarda vətənpərvərlik şüurunun inkişafını, əhalinin rifah və etnik-mədəni dəyərlərini təhdid edən etnik millətçilik, etnik separatçılıq, dini separatçılıq və digər dezinteqrasiya proseslərinin qarşısının alınmasında istifadə olunur [9]. Beləliklə, multikulturalizmin inkişafı həm qlobal, həm də lokal səviyyədə milli identikliyin formalaşdırılmasına və milli qarşıdurmaların qarşısının alınmasına yönələn addımdır. Məlum olduğu kimi, milli identiklik (özünütəyinetmə) yüksək tənzimləmə xüsusiyyətlərinə malikdir [12]. Bu fikirlərə əsasən demək olar ki, Azərbaycan hökumətinin həyata keçirdiyi multikulturalizm siyasəti separatçı və terrorizm meyillərinin qarşısının alınmasına yönəlmişdir. Bu baxımdan Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlərdə dünyada milli və dini tolerantlığın gücləndirilməsi, multikulturalist dəyərlərin təbliği, dini zəmində ekstremizmə və ayrı-seçkiliyə qarşı birgə mübarizə yollarının araşdırılması, fərqli dinlərin və mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında dialoq və qarşılıqlı anlaşmanın bərqərar edilməsi və s. aktual problemlər geniş müzakirə olunur [13].

Məlum olduğu kimi, multikulturalizm ideyası Qərbdə formalaşıb və inkişaf edərək, milli dövlətlərin sosial inkişafının əsas istiqamətlərindən birinə çevrilmişdir. Belə ki, Qərb dövlətləri əhalinin loyallığına nail olmaq, öz siyasi legitimliyini təmin etmək və qoruyub saxlamaq, unitar milli identikliyə nail olmaq üçün həm yerli əhalinin, həm də immiqrantların sosial müdafiəsini təmin etməyə çalışan sosial siyasət həyata keçirirdi [14]. Multikulturalizmin əsas prinsipləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- Etnomədəni müxtəlifliklərə pozitiv münasibət. Mədəni müxtəliflik cəmiyyəti zənginləşdirir və onu daha çox həyata davamlı edir;

- Mədəni müxtəliflik hüququ. Bütün birlik üzvləri öz mədəniyyətlərinin qorunub saxlanması hüququna malikdirlər;

- Mədəni bərabərlik və qarşılıqlı dözümlülük;

- Şəcərəli struktura malik olan ikili (çoxtərəfli) identiklik;

- Çoxluqda təklik. Qrupun mədəni müstəqilliyi çoxluğun əsas dəyərlərinə müxalif olmayan səviyyədə qəbul edilir;

- Fərdin özünü bu və ya digər etnomədəni qrupla identikləşdirməsi onda sabit özünüdərk formalaşdırır, onun psixoloji müdafiəsinə kömək edir, etnomədəni qruplarla münasibətlərinin açıq və tolerant olmasına zəmin yaradır;

- Bərabər şanslar hüququ. Mədəni müxtəliflik qeyri ayrı-seçkilik və sosial sahədə bərabərlik prinsipi ilə tamamlanır;

- Siyasi idarəçilik. Multikulturalizm özünü inkişaf etdirən fenomen deyil, onun formalaşması və inkişafı üçün siyasi iradə və dəstək zəruridir [15].

Göründüyü kimi, multikulturalizm mədəni plüralizmin qəbul edilməsi və ona dəstək konsepsiyasıdır. Müasir cəmiyyətlərdə mədəni birlik yaradılmasının və mədəniyyətlərin universallaşmasının əksinə olaraq, multikulturalizm mədəni müxtəlifliyi təbliğ edir və onu müdafiəyə çalışır [16, s. 445].

Beləliklə, multikulturalizmin əsas ideyası xalqların və mədəniyyətlərin qarşılıqlı fəaliyyətinin qarşılıqlı anlaşma və razılaşma, tolerantlıq, dialoq və əməkdaşlıq [12] prinsipləri üzərində qurulması ilə bağlıdır. Bu prinsiplər bilavasitə Azərbaycançılıq ideologiyasının əsasları kimi təzahür edir. Ümummilli Lider Heydər Əliyev də öz siyasi fəaliyyətində bu prinsiplərdən çıxış etmişdir. Onun siyasi fəaliyyətində müxtəlif dinlərə və millətlərə xüsusi barışdırıcı münasibəti müşahidə etmək olar. Heydər Əliyev Peyğəmbərin mövludu, Ramazan və Qurban bayramları, Məbəs bayramı (Məhəmmədə peyğəmbərlik verilən gün), Aşura günü mərasimlərində, o cümlədən İsa peyğəmbərin mövludu günü, Azərbaycandakı pravoslav icmasının Pasxa bayramı, Milad bayramı münasibətilə, Yəhudi xalqının müsibəti günü münasibətilə keçirilən mərasimlərdə bilavasitə iştirak etmiş, həmçinin Azərbaycandakı dini konfessiyaların başçıları ilə görüşlər keçirmişdir [4, s. 24]. Göründüyü kimi, milli-mənəvi, milli-dini dəyərlərin yüksək formada qorunması, qarşılıqlı inteqrasiya etdirilməsi, xüsusən də tolerantlıq mədəniyyətinin formalaşdırılması birbaşa Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır [17, s. 172].

Bildiyimiz kimi, dünya dinləri yüksək normativ kodlar vasitəsilə onlara aid olan etnomədəni lokusları birləşdirir. Bir çox sivilizasiyalar polikonfessional (çoxdinli) hesab edilirlər [18]. Odur ki, müasir dövrdə sivilizasiyaların, xalqların mənəvi yaxınlaşması tələbatı yaranır. A.Toynbiyə görə, məhz mənəvi vəhdət gələcək ümumdünyəvi cəmiyyətin əsası ola bilər. Onun fikrincə, "dörd ali din – Xristianlıq, İslam, Hinduizm və Buddizmin mahayanist forması ümumdünyəvi missiya daşıyır" [19]. Bu missiya yüksək əxlaqi dəyərlərin qorunub saxlanması, o cümlədən xalqlar və insanlar arasında dialoq, mənəvi bağlılıq, barışdırıcı ünsiyyət yaradılması ilə bağlıdır. Mənəvi yaxınlaşmanın əsasında tolerantlıq prinsipi dayanır. Belə ki, məhz tolerantlıq

bərabərliyə hörmət və onu qəbul etmə, hakimlik və zorakılıqdan imtina, bəşər mədəniyyətinin, davranış normalarının rəngarəngliyinin qəbul edilməsi, ümumi nəzər-nöqtəsinin əldə edilməsi ilə bağlıdır. Mədəni tolerantlıq mədəniyyətlərarası ünsiyyət prosesində yaranır, bu zaman digər xalqlara, onların ənənələrinə, dəyərlərinə və nailiyyətlərinə hörmət hissi formalaşır, dünyanın etnik və mədəni müxtəlifliyi dərk və qəbul edilir [12].

Müasir dövrdə dünya mədəniyyətlərinin yaxınlaşması bəşəriyyətin təhlükəsizliyinin sivil yolla təmin edilməsinin strateji əsaslarına çevrilir. UNESCO-nun məlumatlarına görə XX əsrin sonlarında artıq dünyada heç bir monoetnik dövlət qalmamışdır. Bununla əlaqədar olaraq yeni nəsillərin digər xalqlar və onların mədəniyyətlərinə hörmət ruhunda tərbiyə edilməsi, onların digər mədəniyyətlərlə ünsiyyətə və dialoqa hazır olması zərurəti yaranmışdır [20].

Bu mənada Azərbaycançılıq özündə bəşəri mahiyyət daşıyan, lakin müəyyən məkana aid olan ideologiyadır. Bu ideologiyanın mahiyyətinin analizi göstərir ki, o, ciddi nəzəri və konstitusion əsaslara malikdir. Belə ki, 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası bütün ölkə vətəndaşlarının qanun qarşısında bərabər olduğunu təsdiqləyir. Konstitusiyaya əsasən, dövlət mənşəyindən, irqindən, milliyyətindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörməti və sosial bərabərliyi təmin edir [21, maddə 25]. Konstitusiyanın 44-cü maddəsinə isə deyilir ki, "hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz" [21].

Ə.Abbasovun fikrincə, "milli ideologiyanın əsasında ictimai mənafe dayanır. ...Bu ideologiya yalnız ayrı-ayrı qrup və təbəqələrin, icma və birliklərin maraqlarını deyil, dövlətin ərazisində yaşayan bütün sosial, etnik, dini qrup və birliklərin mənafeyini ifadə edir". Müəllif milli ideologiyanın "suverenlik, demokratiya, respublikaçılıq, ədalət, millilik, azərbaycançılıq, müxtəlif vasitələrlə birliyə cəhd etmə, tolerantlıq, sinergizm, zəruri məhdudiyyət, sosial rekonstruksiya" kimi prinsiplərini müəyyənləşdirir [22, s. 205-222]. R.Əhmədli isə qeyd edir ki, "Milli dövlətçilik ideologiyası kimi Azərbaycançılıq ...real müstəqilliyə nail olmağın, vahid bölünməz Azərbaycanın qorunub saxlanması və möhkəmləndirilməsinin siyasi əsasıdır. Azərbaycançılıq ölkədə yaşayan bütün etnosların qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və Azərbaycanın bütövlüyü və inkişafı uğrunda mübarizənin ümumi tarixi təcrübəsidir " [23, s. 296].

S.Xəlilov ideya-nəzəri və siyasi baxımdan Azərbaycançılıq və neokonservatizmin bir-biri ilə sıx bağlı olduğu fikrini irəli sürür. Belə ki, "Azərbaycançılıq coğrafi məkan baxımından, sanki neokonservatizmin bir hissəsi, milli şəraitdə bu ideologiyanın əlavəsidir. Bu ideologiya Azərbaycanda vahid birlik, vahid sosium formalaşdırır. Azərbaycançılığın mahiyyəti müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdətidir" [5].

Qeyd etmək lazımdır ki, neokonservatizm siyasi norma və baxışlar sistemi kimi 1960-70-ci illərdə klassik konservatizmin ideoloji böhranından sonra Böyük Britaniya və ABŞ-da formalaşmışdır. O, müəyyən dərəcədə Qərb cəmiyyətində "rifah dövlətinin" yaradılmasına reaksiya kimi meydana çıxmışdır. Ümumilikdə neokonservatizm ənənəvi konservatizmin müddəalarına söykənir [24, s. 190-195].

Neokonservatorlar dövlətin cəmiyyətin həyatında fəal iştirakını sistemli tənqid edir,

dövlətin iqtisadi və sosial proseslərə müdaxiləsinin zərər gətirdiyini bildirir, ideologiyaların müasir dövrlə bağlı münasibətlərini qeyri-adekvat hesab edirlər. Onlar cəmiyyətin rifah halının yüksəlməsində dövlətə deyil, "vasitəçi təşkilatlara" – ailə, kilsə, icmalara böyük ümid bəsləyirlər. Onlar "azad bazar iqtisadiyyatı" tərəfdarı deyillər və siyasi islahatların müvəffəqiyyətli olmasını sosial və mədəni amillərlə bağlayırlar [25, s. 57].

Neokonservatizm ideologiyasında əxlaqi-etik məsələlər mərkəzi mövqedədir. Neokonservatorların fikrincə, hazırda cinayətkarlıq və narkomaniya, ailələrin dağılması, təhsilin keyfiyyətinin aşağı olması, mədəni ənənələrin unudulması həlli vacib məsələlərdəndir. Onlar ictimai sabitliyin əsası olan ailə institutuna xüsusi diqqət yetirirlər. Onların nəzərincə, bu sırada təhsil də əsaslı rola malikdir. Neokonservatorlar qeyd edirlər ki: "Uşağın ala biləcəyi ən böyük miras – yaxşı təhsildir". Beləliklə, müasir konservatorların əsas məsələsi insanın "istehsalı" ilə bağlı sahələrin – təhsil, mədəniyyət, sağlamlığın mühafizəsi və s. inkişaf etdirilməsidir [26, s. 143-146]. Belə demək olarsa, neokonservatorlar cəmiyyətin inkişafında bilavasitə sosial institutların rolunu vurğulayır, cəmiyyətin özünüinkişaf ideyasını təbliğ edirlər. Bu və ya digər ölkənin tarixi inkişafı ilə bağlı olan çoxsaylı fərqliliklərə və sosial iqtisadi vəziyyətin özünəməxsusluğuna baxmayaraq, konservatizm aşağıdakı ümumi müddəalarla çıxış edir:

1.İlk növbədə ənənəvi dəyərlərin qorunması, ənənələr şəcərəsinə əməl edilməsi, nüfuzlu insanlara, nizam-intizama, əxlaqa, fərdin normaları və məsuliyyətinə, əsas ictimai institutlar olan ailə, din, icmalara hörmət edilməsi;

2.Mədəni böhran mövzusu, o cümlədən Qərb mədəniyyəti üçün təhlükə hesab edilən eqalitarizm (bərabərlik) qarşısında qorxu;

3.Sabitlik ideyası və qeyri-sabitliyin əhəmiyyətli sosial dəyişikliklərə mane olmasının dərk edilməsi;

4.Cəmiyyətin iqtisadi strukturunda bazarın öncüllüyü mövzusu.

5.Cəmiyyətin nüfuzlu himayəçisi rolunda çıxış edən və bürokratiyanın hakimliyinə səbəb olan "Ümumi rifah dövlətinin" tənqidi [27].

Neokonservatizmin üstün tərəflərindən biri onun "ümidlərlə dolu" olmasıdır, "o, gələcəyə baxır, keçmişə görə darıxmır, o, şən əhval-ruhiyyəyə köklənib, qüssəli və əzgin deyil. XX əsrdə Teodor Ruzvelt, Franklin Delano Ruzvelt və Ronald Reyqan neokonservator olublar. Neokonservatizmin əsas ideyası belədir ki, cəmiyyətin bütün təbəqələrinin rifahı mülkiyyətçiləri və vergi ödəyicilərini eqalitar xülyalar və demaqoq çağırışlar üçün daha həssas və əsas iqtisadi hesablar üçün daha rasional edir. Neokonservatorlar dövlətin xidmətlərinə konsentrasiya olunmağı düzgün hesab etmirlər və onlar bu xidmətlərin təqdim edilməsilə bağlı alternativ yollar axtarırlar [28].

Neokonservatizmin ümumi ideyalarına əsaslanaraq qeyd edə bilərik ki, neokonservatorlar sosial dövlətin cəmiyyətin özünütəşkilatlandırması, özünüidarəetməsi, özünütənzimləməsi ideyasını inkişaf etdirirlər. Digər tərəfdən neokonservatizm cəmiyyətlərin özünəməxsusluğunu qoruyub saxlamağa yönəlib və məhz bu özünəməxsusluq fərqli sosial dövlət modellərinin yaranmasına gətirib çıxarır.

Azərbaycan cəmiyyətində neokonservativ baxışların genişlənməsi XX əsrin 90-cı illərinin sonlarına aiddir. 1994-cü ildə atəşkəs elan edildikdən sonra Azərbaycanda siyasi, iqtisadi,

sosial və mədəni islahatlar dövrü başlamışdır. Məhz bu dövrdə bir tərəfdən qloballaşma, digər tərəfdən isə milli özünütəyinetmə prosesi genişlənmişdir. Müasir dövrdə Azərbaycanda modernləşmə prosesinin növbəti mərhələsi müşahidə olunur və bu mərhələdə mənəvi-əxlaqi dəyərlərin transformasiyası nəzərə çarpır. Bu transformasiya Azərbaycançılıq ideologiyasının və bu ideologiyanın multikulturalizm istiqamətinin təbliği və təşviqi ilə bağlıdır.

Məhz neokonservatizmə əsaslanan Azərbaycançılıq ideologiyası Azərbaycanda yaranan sosial dövlətin mahiyyətinə özünəməxsusluq verir və fərqli sosial dövlət modelinin yaranmasına şərait yaradır.

## ƏDƏBİYYAT


**1.** Azərbaycançılıq - birliyimizin əsasıdır. (2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında və "Gülüstan" sarayındakı rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi). Bakı: Azərbaycan Nəşriyyatı, 2002.

**2.** Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: "Zərdabi LTD", 2016.

**3**. Heydər Əliyevin 1999-cu ilin fevralında gənclərin ikinci forumundakı çıxışı. "Azərbaycan" qəz., № 51(2163), 1999.

**4.** Heydər Əliyev siyasəti: Tolerantlıq (çıxışlar, nitqlər, görüşlər, təbriklər). Bakı: "Elm və Təhsil", 2015, 504 səh.

**5.** Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi (müəllif-tərtibçi: prof. S.Xəlilov). Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 2002, 232 səh.

**6.** Həbibbəyli İ. Azərbaycançılıq idealının rəmzi. "Yeni Azərbaycan", 2013, 11 aprel, № 62, s. 4 / H.Əliyev haqqında məqalələr (2009-2014-cü illər) / http://dq.mia.gov.az/upload/2.pdf

**7.** Cəfərov N. Azərbaycançılıq ideologiyasının təkamülündə yeni mərhələ - İlham Əliyev mərhələsi / http://525.az/site/?name=xeber&news_id=48477

**8.** İlham Əliyev: "Multikulturalizm Azərbaycanın dövlət siyasətidir" / http://musavat.com/news/meneviyyat/ilham-eliyev-multikulturalizm-azerbaycanin-dovlet-siyasetidir-foto_171713.html

**9.** Multikultural təhlükəsizlik: II Dəyirmi masa, 2015. Etibar Nəcəfovun çıxışından, Bakı, 2015 / http://www.ebooks.az/book_cNe07QRP.html

**10.** Медведева О.О. Дискуссия о мультикультурализме и актуальные проблемы социальной политики государства. «Политика и политические науки», 2009 / https://elibrary.ru/item.asp?id=12896134

**11.** "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir / http://www.president.az/files/future_az.pdf

**12.** Косов Ю.В. Современная глобалистика об угрозе смерти человечества // Альманах «Фигуры Танатоса», Философский альманах. Пятый специальный выпуск. СПб.: 1995.

**13.** Nəzərli Ş. Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir. İnteraz,10 Mart 2014 / http://www.interaztv.com/society/13838

**14.** Боммес М. Международная миграция и дерегуляция коллективных форм социальной идентичности в национальных государствах [Электронный ресурс] // Центр независимых социологических исследований / http://www.cisr.ru/files/publ/Migr_Bommes.pdf

**15.** Geißler R. Multikulturalismus in Kanada — Modell fuer Deutschland? [Elektronische Ressource] // Bundeszentrale fuer politische Bildung / http://www.bpb.de/apuz/27564/multikulturalismus-in-kanada-modell-fuer-deutschland

**16.** Большой толковый социологический словарь. Т.1, А – О. М.: Вече – АСТ, 1999.

**17.** Alıyev Y. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Tarixi və milli-mənəvi dəyərlər kontekstində Azərbaycan milli kimliyi (məqalələr toplusu). Bakı: 2014.

**18.** Баранов Н.А. Ведущие геополитические парадигмы и современная методология геополитики / http://nicbar.ru/geoproblemy_lekzia2.htm

**19.** Две концепции столкновения цивилизаций / https://www.islamnews.ru/news-21608.html

**20.** Бедалова Н.Ч. Толерантность и формы ее проявления в условиях глобализации / http://psychology.az/tolerantnost.php

**21.** Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Qanun", 2005.

**22.** Abbasov Ə.F. Milli maraqlar və milli ideologiya. Bakı: "Təknur", 2012.

**23.** Əhmədli R.A. Azərbaycan dövlətçilik fəlsəfəsinə dair. Bakı: "Təknur".

**24.** Мюллер Д.Г. «Новый консерватизм» в современной России (реальность и перспективы). Казанский государственный университет, 2001.

**25.** Громыко А. Метаморфозы американского неоконсервативизма: идеология на излете. Внешнепоитический аспект / http://observer.materik.ru/observer/N8_2007/056_067.pdf

**26.** Смирнова В.И. "Консерватизм: между прошлым и будущим" // Вісник СевНТУ: зб. наук. пр. Вип. 112/2010. Серія: Політологія. Севастополь: 2010.

**27.** Осипова Е., Соколова Р. Кризис цивилизации и неоконсерватизм. 1993 / http://ecsocman.hse.ru/data/986/771/1217/008ons3-93-0094-106.pdf

**28.** Ирвинг Кристол. Неоконсервативное убеждение. ЛОГОС 6 (45), 2004. Перевод с английского: Артема Смирнова / http://www.ruthenia.ru/logos/number/45/14.pdf

Саадат Маммадова

# КОНЦЕПТУАЛЬНО-ИДЕОЛОГИЧЕСКИЕ ОСНОВЫ ФОРМИРОВАНИЯ СОЦИАЛЬНОГО ГОСУДАРСТВА В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

В эпохе пост-неокапитализма, которая характеризуется как новый этап в истории человечества, социальное государство, направленное на повышение качества жизни людей, обеспечение социальной справедливости, укрепление социального партнерства и взаимной социальной ответственности, обеспечение всех прав и свобод личности и создание достойных условий жизни, принимается как следующий новый модель «идеального управления». Один из лучших сторон социального государства является тот факт, что это государственная структура, основанная на взаимной деятельности и поддержке в отношениях между государством, обществом и гражданином. Новейшая история современного Азербайджанского государства определена в направлении создания социального государства. Модель социального государства, сформированная в Азербайджане, охватывает национальные традиции, а также учитывает новые тенденции развития. Его главной идеей является азербайджанство.

Концепция азербайджанство общенационального лидера Гейдара Алиева является концептуально-идеологической основой построенного в Азербайджане социального государства.

Saadat Mammadova

# CONCEPTUAL AND IDEOLOGICAL FOUNDATIONS FOR SOCIAL STATE FORMATION IN AZERBAIJAN

## SUMMARY

In the era of post-neocapitalism, which is characterized as a new stage in the history of mankind, a social state aimed at improving the quality of people's lives, ensuring social justice, strengthening social partnership and mutual social responsibility, ensuring all the rights and freedoms of the individual and creating decent living conditions is accepted as the next new model of "perfect management". One of the best aspects of a social state is the fact that it is a state structure based on mutual activity and support in relations between the state, society and the citizen. The contemporary history of the modern Azerbaijan is defined in the direction of creating a social state. The model of the social state, formed in Azerbaijan, covers national traditions, and takes into account new development trends. Its main idea is Azerbaijanism.

National leader Heydar Aliyev's concept of Azerbaijanism is the conceptual and ideological basis of the social state built in Azerbaijan.

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASINDA VARİSLİK ƏNƏNƏSİ

***İradə ZƏRQAN,***
*AMEA-nın Fəlsəfə İnstitutunun*
*İslam fəlsəfəsi şöbəsinin dosenti,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*

***AÇAR SÖZLƏR:*** *Azərbaycan, milli-mənəvi dəyərlər, varislik, Nəriman Nərimanov, Heydər Əliyev.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Азербайджан, национально-духовные ценности, наследственность, Нариман Нариманов, Гейдар Алиев.*
***KEY WORDS:*** *Azerbaijan, national and spiritual values, heredity, Nariman Narimanov, Heydar Aliyev.*

Tarixən Azərbaycan ərazisində yaşayan xalqlar cəmiyyətdaxili və millətlərarası ayrı-seçkilikdən uzaq olmuş, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra isə mövcud ənənə ideoloji məzmun kəsb etmişdir. Müstəqil Azərbaycan dövlətinin ideologiyasının formalaşmasında xalqın milli-mənəvi xüsusiyyətlərinin, adət-ənənələrinin daşıyıcısı, ötürücüsü olan şifahi və yazılı ədəbiyyat nümunələrinin böyük rolu vardır. Əsrlər keçməsinə baxmayaraq, zamanımıza qədər gəlib çatan əxlaqi fəzilətlər, ümumiyyətlə, hələ də mövcudluğunu davam etdirən yaxşı nə varsa, maddi-mənəvi irs və ona sahib çıxa bilən insanların adı ilə bağlıdır.

Azərbaycan xalqının tarixinin, etnik yaddaşının, arxaik təfəkkürünün güzgüsü olan "Kitabi Dədə Qorqud"u Ümummilli Lider Heydər Əliyev milli varlığımızın mötəbər mənbəyi adlandırırdı [1, s. 8-9]. Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti, milli-mənəvi dəyərlərinin əks olunduğu qəhrəmanlıq eposu həm də coğrafi ərazi, dil, məfkurə, stereotiplər, rituallar sistemi baxımından elmi-nəzəri, fəlsəfi əhəmiyyət kəsb edir. Bu cəhətdən qədim irsə milli ruhun maddi qaynağı kimi baxmaq olar.

Keçən əsrin əvvəllərində Nəriman Nərimanov yazırdı: "Bir şairin, ya bir ədibin əsəri olan kimi bütün bir qövmün, elin də özünə münasib əsəri ola bilər. Bir ədibin əsəri onun ruhunu, fikrini, bütün əqidəsini bildirən kimi, ümumiyyətlə, bir qövm və ya el tərəfindən yaranmış əsər haman qövmün ruhunu, fikrini və əqidəsini bildirər... Qövmün fikrini, qanacağını sözlərdən, mətləblərdən bilmək olursa, el düzəldən mahnıların havacatından da onun ruhuna dair çox şeylər bilmək olar..." [2, s. 388-389]. Bu fikirlərdə qədirbilən vətən oğlunun ürək döyüntüləri hiss olunur, xalqının, el-obasının milli-mənəvi dəyərlərini canına hopduran, onun bir parçasına çevrilməyi bacaran məhrəmiyyət sevdası duyulur. Bir dövlət xadiminin xalqın istedad və bacarığı, maddi imkanları və ehtiyacları ilə yanaşı, ruhi tələbatını da anlaması və idarəçilik fəaliyyətinin bəşəri funksiyasını dərk etməsi böyük əhəmiyyət daşıyır.

Şanlı tariximizə nəzər saldıqda situasiya, hadisə və proseslərin xronologiyasından asılı olmayaraq, xalqımızın vətəndaşlıq mövqeyi, insansevərlik və yurdsevərlikdə varislik

ənənələrinə sadiqliyini görməmək mümkün deyildir. Azərbaycanın varislik ənənələrinin mayası əzəli yaranış fitrətinə - insanlığa sadiqliklə elə yoğrulmuşdur ki, həyatın gərdişləri, xəyanət və fitnəkarlıqlar onu dəyişə bilmir.

Yalnız "...Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı?" [3, s. 126] hikmətini mənimsəyən bir xalq əleyhinə yönəlmiş fitnəkarlıqların cavabına tələsmədən - yaxşılığa, sülhə və həmrəyliyə səfərbər ola bilər. Eləcə də "Qəlbində zərrə qədər kini olan insan cənnətin qoxusunu belə ala bilməz" hikmətini dərk edən insan talanlara, işğallara qol qoya bilməz, insan haqlarına göz yumaraq torpaq iddiasında ola bilməz... və təbii ki, nə düşüncədə, nə də fəaliyyətdə qeyri-qanuni məsələlərə laqeyd qala bilməz.

N.Nərimanovun V.İ.Leninə məktubunda Azərbaycanın SSRİ tərkibinə daxil edilməsinin acı nəticələri ilə barışa bilməyən dövlət xadiminin daxili əzabı və fitnəkarlığa qarşı etirazı əks olunmuşdur. Hazırda AMEA-nın Azərbaycan Tarixi Muzeyinin elmi arxivində N-2041N inv. sayı ilə qorunan həmin məktubda yazılır: "...Mərkəz Azərbaycanın tamamilə mübaliğəsiz ərazilərini Ermənistana verir. ...həmişə Denikini müdafiə etmiş ermənilər müstəqillik qazanmış, üstəlik, Azərbaycanın ərazilərini almışlar. İndiyə qədər ikili siyasət aparan gürcülər müstəqillik əldə etmişlər... Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir. ...Mərkəzdən hər gün nümayəndələr gəlib əllərində olan mandatlara əsasən bizə göstəriş verirlər... Siz bizim dəlillərə diqqət yetirməsəniz, məcbur olacağıq ki, geri çağırılmağımız barədə mərkəz qarşısında məsələ qoyaq" [2, s. 466]. Lakin çox gec idi, olan olmuşdu. Azərbaycan torpaqlarının böyük bir hissəsi, müsəlman əhalinin əsrlər boyu yaşadığı qədim Azərbaycan əraziləri Ermənistana verilmişdi.

Beləliklə, Azərbaycana münasibətdə I Pyotrun siyasətini V.İ.Lenin başqa motivlərlə davam etdirmiş oldu. Bu barədə "Milli Azərbaycan hərəkatı" kitabında yazılır: "Bütün İslam aləmində və bütün türk dünyasında ilk respublika olan Azərbaycan yenidən rus istilasına məruz qaldı" [4, s. 130]. Bu hadisə bir daha təsdiq edir ki, "Azərbaycan məsələsi beynəlmiləl bir məsələ" idi və o zaman "firqələr Azərbaycan ideyasını propaqanda etməklə deyil, mövcud faktın siyasətən, hüquqən və xaricən müdafiəsilə məşğul olmalı" idilər... [4, s. 114-115]. Bu və sonrakı rus imperializmi nümayəndələrinin siyasi oyunlarından qanı və canı bahasına qurtularaq, bu günlərə gəlib çatan Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması dövlətin öz daxili işi olmaqla yanaşı, beynəlxalq aləmi təmsil edən qurumların da həssaslıqla müdafiə etməli olduğu məsələdir. Çünki beynəlxalq aləmdə yaxşı nümunənin - lokal, dayanıqlı struktur yaradan mədəni formaların varlığı ümumi təhlükəsizlik üçün olduqca önəmlidir.

Ümummilli Lider Heydər Əliyev milli-mənəvi dəyərlərimizi, xalqımızın vətənpərvərlik hisslərini diplomatik yolla siyasi müstəviyə gətirmişdir. Ulu Öndər qloballaşan dünyaya yeni mədəni universalı multikultural model kimi təqdim edərək varislik ənənəsini layiqincə yaşatmışdır. Heydər Əliyev: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. ...və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət ənənələrini yaşatmalıyıq" deyərkən, Azərbaycanın dünya mədəniyyətinin kiçik, eyni zamanda möhkəm halqası olması və dövlətlərarası münasibətlərdə tərəfdaşlıq imkanları yada düşür. O, xarici dövlətlərə səfərlərində, dünya siyasətçiləri ilə görüşlərində bəşəriyyətin gələcək təhlükəsizliyi naminə qiymətli fikirlərini həmkarları ilə bölüşmüş, onları dünyanın əmin-amanlığı və insanların birgə rifahı haqqında ciddi düşünməyə dəvət etmişdir.

Bəşəriyyət lokal mədəniyyətlərdən ibarət nəhəng orqanizmdir və bu orqanizmin sağlamlığı hər bir üzvün sağlamlığından asılıdır. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası olan Azərbaycançılıq milli-mənəvi varislik nümunəsi olmaqla yanaşı, həm də dünyaya ünvanlanan sülh mesajı, sosial-siyasi təcrübə məktəbi, həyat fəaliyyəti mexanizmidir.

Son illərdə Azərbaycanın milli dövlətçilik ideologiyasının müxtəlif aspektlərinin tədqiqi, o cümlədən Azərbaycançılığın ədəbi, siyasi, elmi-fəlsəfi, bədii-estetik təhlili sahəsində xeyli iş görülmüşdür. Buraya Azərbaycançılığın ideya qaynaqlarının nəzəri təhlili, etnik müxtəliflik və milli birlik problemləri, Azərbaycançılığın konseptual aspektlərinin araşdırılması, milli ideologiyanın formalaşması və inkişaf dinamikasının təyini, dövlət müstəqilliyinin hüquqi, sosial-siyasi, iqtisadi, məfkurəvi-ideoloji istiqamətlərinin müəyyənləşdirilməsi və s. məsələlər daxildir. İndiyədək Azərbaycanda milli dövlətçilik fəlsəfəsi, habelə Azərbaycançılığın nəzəri-praktik problemləri ilə R.Mehdiyev, Y.Qarayev, N.Şəmsizadə, Ə.Tağıyev, Anar, N.Cəfərov, S.Xəlilov, S.Vəliyeva, F.Ələkbərov, R.Əhmədov, M.Yusifov, Ə.İbrahimov və başqaları məşğul olmuşlar.

Tədqiqatlar [5; 6; 7; 8] göstərir ki, Azərbaycançılıq Qədim Azərbaycan mifologiyasından, nağıl və dastanlardan, dini mətnlərdən, folklor nümunələrindən, Nizaminin, Füzulinin, Nəsiminin... irsindən, xalq qəhrəmanlarının azadlıq ruhundan və istiqlal mübarizəsindən qaynaqlanır. Azərbaycançılığın ideya əsasları Azərbaycan xalqının milli varlığı, tarixi, adət-ənənələri, nəsri, poeziyası, ümumiyyətlə, zəngin maddi və mənəvi mədəniyyətidir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində M.A.Şaxtaxtinskinin, M.Ə.Rəsulzadənin, Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, Ə.Topçubaşovun, H.Zərdabinin, Ü.Hacıbəyovun və digərlərin fəaliyyətlərində pərvəriş tapan milli istiqlal məfkurəsi Hüseyn Cavid, Məmməd Araz, Xəlil Rza, Bəxtiyar Vahabzadə və digərlərinin poeziyasında daha da cilalanmış, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən nəzəri-praktik həllini tapmışdır. Azərbaycançılığın dövlətçiliyə tətbiqi məhz bu dahi şəxsiyyətin adı ilə bağlıdır.

Müasir dünyada baş verən müharibələrin, terror bəlasının, ekstremizm və zorakılığın əsas səbəbləri yuxarı təbəqələrdə şovinizm və diktatorluqdursa, sadə kütlə arasında cəhalət və məlumatsızlıqdan qaynaqlanır. Azərbaycanda müstəqilliyin bütün vasitələrlə qorunmalı olduğunu artıq hamı dərk edir. Ümummilli Lider Heydər Əliyev tərəfindən irəli sürülən Azərbaycançılıq ideologiyası tarixi Azərbaycan ərazilərində və onun hüdudlarından kənarda yaşayan bütün vətənsevərlərin vahid dövlətçilik ənənələri altında birliyini ifadə edir.

Nəriman Nərimanov oğlu Nəcəfə məktubunda bolşevizmi nəzərdə tutaraq yazırdı: “Hakimiyyət çoxlarını korlayır... Onlar nəhəng dövlətin taleyini əllərinə alaraq hesabat vermədən diktatorluq etmək qərarına gəldilər...” [2, s. 469]. N.Nərimanovun fikirləri bu gün də aktualdır. İraqda və Suriyada minlərlə insanın öldürülməsi, kimyəvi silahlardan dinc əhaliyə qarşı istifadə edilməsi diktatorların ümumbəşəri dəyərlərə etinasızlığından, ilahi hikməti unutmalarından və peyğəmbərlərdən miras qalan bəşəri varisliyə sahib çıxa bilməmələrindən qaynaqlanır.

Azərbaycanın ictimai dövlət xadimi N.Nərimanov sələflərindən aldığı və öz şəxsi təcrübəsində sınadığı hikməti oğluna çatdırarkən, vəzifə dalınca qaçmamasını tövsiyə edirdi. O, oğlunun simasında gələcək nəsillərə öyüd-nəsihət verərək başa salır ki, adamı yaxşı tanımaq, onun bütün daxili aləminə bələd olmaq istəyirsənsə, onu bir müddətə vəzifə başına qoymaq

lazımdır. Tezliklə bütün müsbət və mənfi cəhətləri üzə çıxacaq. Bu baxımdan əgər sən kütlələri hiyləsiz-yalansız öz arxanca aparmağa hazır deyilsənsə, yaxşısı budur ondan imtina edəsən. Əgər kütlə səni dəyərləndirərsə, hakimiyyətdə iştirakını zəruri hesab edərsə, sənə etibar edərsə və sən bu etibara əsasən ümumi işə müəyyən fayda verəcəyinə əmin olarsansa, onda imtina etmə [2, s. 469].

Nəriman Nərimanovun oğlu Nəcəfə məktubu XX əsrin əvvəllərində ictimai düşüncəni əks etdirən bir fraqment olmaqla yanaşı, Azərbaycançılıq fəlsəfəsinin elementlərindən birini ifadə edən kiçik ədəbi nümunədir. Bu sadə nümunədə Azərbaycan xalqının əsrlər boyu təkrarlanan, nəsildən-nəslə ötürülən, unudulmayan və dəyişməyən milli-mənəvi meyarı əks olunur. Burada ata-oğul münasibəti ilə yanaşı, hikmətin ötürülməsi və varislik mədəniyyətinin xarakteri meydana çıxır.

Heydər Əliyevin zəngin milli-mənəvi dəyərləri üzə çıxararaq təqdir etməsi, kənar stereotipləri qıraraq Azərbaycan oğullarını bir bayraq altında birləşdirmək cəhdini Nəriman Nərimanov haqqındakı düşüncələrində də görmək olur. O yazırdı: "Nəriman Nərimanovun əməkçi kütlələri maarifləndirmək əzmi, insanlara xidmət etmək kimi nəcib bir arzusu, hadisələri dərindən başa düşməsi, istedad və bacarığı onu Azərbaycan demokratik və ictimai-siyasi fikir nümayəndələrinin ön cərgəsinə çıxarmışdı.

...Bizdən ötrü Mirzə Fətəli Axundov da, Əhməd bəy Ağayev də, Məmmədəmin Rəsulzadə də, Nəriman Nərimanov da böyük şəxsiyyətlərdir. Ancaq son zamanlar Nəriman Nərimanovdan başlayaraq Azərbaycanda bütün siyasi xadimlərin Azərbaycana düşmən olmaları barədə deyilən fikirlərlə heç cür razılaşmaq olmaz..." [2, s. 4].

Heydər Əliyevin vurğuladığı məsələlər gələcək nəsillərin bir an belə yaddan çıxarmamalı olduğu məqamlardandır. Ümummilli Lider situasiyanı qiymətləndirməyi və məharətlə ələ almağı bacardığı kimi, insanların fəaliyyətlərinə də kompleks yanaşan müdrik və uzaqgörən şəxsiyyət idi. O, Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri olan digər ziyalılarla yanaşı, Nəriman Nərimanovun da əməyini yüksək qiymətləndirirdi. Heydər Əliyev özü qədirbilən olduğu üçün Azərbaycan xalqı da onun qədrini bilir - onu sevir və ona etbar edirlər. Azərbaycançılıq Heydər Əliyevin sələflərindən alaraq təkmilləşdirdiyi və xələflərinə, xalqına əmanət etdiyi milli-mənəvi dəyərlərdəndir.

Ulu Öndər Azərbaycançılığı Azərbaycanın milli ideologiyasının əsas prinsiplərindən biri kimi xarakterizə edir: "Azərbaycanın suverenliyi, bütövlüyü və bölünməzliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, Azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası, bu konstitusiyada hər bir vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, Azərbaycanın milli bayrağı, gerbi, himni – bütün bunlar, mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasının əsasını təşkil edən prinsiplərdir" [9, s. 1].

Müasir Azərbaycanda tolerantlığın, mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin edən multikulturalizm siyasəti Azərbaycançılıq məfkurəsinin beynəlmiləl cəhətinin əyani ifadəsidir. 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması mövcud ənənəvi varisliyin məntiqi nəticəsi, müstəqil dövlət siyasətinin növbəti mərhələsidir. İslam

həmrəyliyi ideyası insanları vahid, dəyişməz, ümumbəşəri dəyərlər ətrafında – Allah xatirinə sevgi və qardaşlıq bağları ilə birləşməyə yönəltdiyindən Azərbaycançılıq ideologiyası ilə heç bir ziddiyyət təşkil etmir. Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti Azərbaycançılıqda varislik ənənəsinə bir nümunədir və bu ənənənin davam etməsi Azərbaycanı yaşadan, inkişaf etdirən, dünyaya inteqrasiyanı asanlaşdıran faktorlardandır.

## ƏDƏBİYYAT


1. Əliyev Heydər. Milli varlığımızın mötəbər qaynağı / Dədə Qorqud dünyası. Məqalələr. Bakı: "Öndər", 2004, s. 6-17.
2. Nərimanov Nəriman. Seçilmiş əsərləri. Bakı: "Lider" nəşriyyatı, 2004, 496 s.
3. Kitabi Dədə Qorqud. Bakı: "Yazıçı", 1988, 265 s.
4. Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Bakı: "Nicat", 1992, 246 səh.
5. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı: 2005, 304 səh.
6. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: "Elm", 1983.
7. Heydər Əliyev – 90. "Azərbaycan mədəniyyəti və incəsənəti Heydər Əliyevin azərbaycançılıq ideologiyasının ideya-fəlsəfi əsası kimi" mövzusunda elmi-nəzəri konfransın materialları. Bakı, 7 may, 2013, 354 səh.
8. Cəfərov Nizami, Sərvərov Vüqar, Cəfərov Altay. Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları. Bakı: "Elm və təhsil", 2016, 216 səh.
9. Respublika gənclərinin ikinci forumunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi / Milli özünüdərketmə / Beynəlxalq elmi kollokviumun tezisləri. Bakı: 21-24 aprel 1999, 260 s.

Ирада Зарган

## ТРАДИЦИЯ НАСЛЕДСТВЕННОСТИ В СОХРАНЕНИИ И ЗАЩИТЕ НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ

### РЕЗЮМЕ

В статье рассматриваются вопросы национально-нравственных ценностей азербайджанского народа. Анализируется причины устойчивости и самобытность преемственности, созданной на географической территории, где исторически мирно проживали различные группы людей с точки зрение языка, мировоззрения, стереотипов, системы ритуалов. Также проводится научно-теоретический анализ традиций преемственности азербайджанцев, сохранивших культурную самобытность и устойчивость, не смотря на влияние зарубежных империй. Приводятся научные результаты об основах азербайджанизма, мультикультурализма, толерантности, миролюбия и солидарности, приобретающие ныне политико-идеологическое содержание, отраженные в азербайджанской устной и письменной литературе, продолжающейся на примере жизни и деятельности видных государственных деятелей, в числе Наримана Нариманова и Гейдара Алиева.

Irada Zargan

## HEREDITY TRADITION IN PRESERVATION AND PROTECTION OF MORAL AND NATIONAL VALUES

### SUMMARY

The article examines the issues of national and moral values of the Azerbaijani people. The reasons of stability and originality of the continuity created on the geographical territory, where historically peacefully lived various groups in terms of language, worldview, stereotypes, system of rituals, are analyzed. There is also a scientific and theoretical analysis of the traditions of the continuity of Azerbaijanis, who despite the influence of foreign empires have preserved their cultural identity and stability. Scientific results on the foundations of Azerbaijanism, multiculturalism, tolerance, peacefulness and solidarity are obtained. They now acquire the political and ideological content reflected in the Azerbaijani oral and written literature continuing on the example of life and activity of prominent statesmen on the example of Nariman Narimanov and Heydar Aliyev.

# İSLAM KALLİQRAFİYASININ DİNİ ƏLYAZMALARDAKI TƏTBİQ SAHƏLƏRİ

***Səbinə NEMƏTZADƏ,***
*AMEA-nın Elm Tarixi İnstitutunun*
*elmi işlər üzrə direktor müavini,*
*ilahiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*nematzadesabina@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *İslam kalliqrafiyası, müqəddəs Quran, əlyazma, Bəsmələ.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *исламская каллиграфия, Священный Коран, рукопись, Басмала.*
***KEY WORDS:*** *the Islamic calligraphy, the Holy Quran, manuscript, Basmala.*

İslam kalliqrafiyasının dini əlyazmalardakı tətbiq sahələri geniş və rəngarəngdir. İslam incəsənət tarixində möhtəşəm yol keçmiş xətt sənəti dünya mədəniyyətinə bir-birindən gözəl, heyrətamiz əsərlər bəxş etmişdir. Böyük bir ideologiyanı özündə tərənnüm etdirən sənət əsərləri ortaya qoymuşdur.

İslam mədəniyyətində əlyazmalarla bağlı sənət növləri müqəddəs Quranın, dini mətnlərin, hilyələrin, qitələrin, dini lövhələrin bədii tərtibatı ətrafında inkişaf etmiş, formalaşmış, dünya mədəniyyətinə şah əsərlər qazandırmışlar. Böyük zaman ərzində bir yandan Quranın imla qaydalarına riayət edilərək düzgün oxunulması üçün əmək sərf edilmiş, digər tərəfdən əlyazma sənətkarları – xəttatlar xəttin gözəlləşməsi üçün hünər göstərmiş, İslam kalliqrafiyasının misilsiz nümunələrini, İslam incəsənətinin incilərini miras qoymuşlar.

Xətt sənətində Qurani-Kərimdən sonra ən çox işlənən sahə Həzrət Məhəmmədin adı, nümunəvi şəxsiyyəti və sözləri ətrafında meydana gəlmişdir. Hədis kitabları arasında təhsil və təsbit məqsədilə yalnız oxunaqlı olmasına diqqət edilənlərlə yanaşı, peyğəmbər sözünə layiq, gözəl xətlərə bürünmüş, sənət dəyəri daşıyan bir çox kitab və məcmuə də var [1, s. 89].

**Hilyəyi-şərif** – Məhəmməd peyğəmbərin (s) fiziki xüsusiyyətlərini təsvir edən ədəbi əsərlər və eyni mövzuda hüsnxətlə yazılmış lövhələr üçün istifadə olunan termindir.

Lüğətdə "bəzək, zinət, boyunbağı" kimi mənalara gələn hilyə məcazi mənada "yaradılış, surət və gözəl vəsflər (sifətlər, xüsusiyyətlər)" deməkdir. Səhabələr Allah Rəsulunun özəlliklərini öz elm və idrakları nisbətində təsvir etməyə çalışmış, bu da hilyə mövzusunda fərqli rəvayətlərin ortaya çıxmasına səbəb olmuşdur [2, s. 44].

"Həzrət Əli Rəsulullahı belə təvsif edərdi: Peyğəmbərimiz nə çox uzun, nə də çox qısa idi; o, qövmünün orta boylusu idi. Saçları nə qıvrım, nə də dümdüzdü; yüngülcə dalğalı idi. Üzü bir az dəyirmi və dolğun idi. Üzünün rəngi çəhrayı-ağ, gözləri qara, kirpikləri sıx və uzun, sümüklərinin oynaq yerləriylə çiyinləri iri idi. Bədəni tüksüz olub, yalnız sinəsindən göbəyinə doğru enən incə bir tük zolağı vardı. Əl və ayaq barmaqları qalın idi. Gedərkən əyri və kələ-kötür bir yolda gedirmiş kimi ayaqlarını sürtmədən sərt şəkildə qaldırar və addımlarını uzun atardı.

Birinə baxdığı zaman yalnız başını çevirməzdi, bütün vücudu ilə o tərəfə dönərdi. İki kürək sümüyü arasında peyğəmbərlər zəncirinin son halqası olduğunu göstərən peyğəmbərlik möhürü vardı. İnsanların ən comərdi, ən doğru sözlüsü, ən yumşaq xasiyyətlisi və ən dostcanlısı idi. İlk dəfə onu görənlər məhabəti qarşısında sarsılar, fəqət dostluq münasibəti qurub, həmsöhbət olanlar onu çox sevərdilər. Əfəndimizi təriflәmək istəyən kimsə "Mən ondan əvvəl və sonra tayı-bərabərini, bənzərini görmədim" deyərdi. Allahın səlat və salamı onun üzərinə olsun!" [3, s. 48].

Müsəlmanların ən çox oxuduğu mətnlər müəyyən surə və ayələri, Allahın adlarını, salavat və duaları ehtiva edən **əvrad** (Allaha yaxınlaşmaq üçün müəyyən zaman daxilində müəyyən qədər edilən ibadət, dua və zikri bildirən təsəvvüf terminidir. Qeyd etmək lazımdır ki, sufilərdə yazı vasitəsi ilə də həyata keçirilir), **dəlailül-xeyrat** və **dua risalələridir.** Quranın Həzrət Peyğəmbərə səlatü-səlam gətirməklə əlaqədar tövsiyələrindən (Əhzab, 56) hərəkətlə dini həyatı daha feyzli yaşamaq, Peyğəmbərin şəfaətini tələb etmək məqsədilə oxunan bu dua kitabları xətt ustadları tərəfindən böyük diqqətlə yazılmış, təzhib və cild sənətinin də incəlikləriylə birləşərək İslam incəsənətini zənginləşdirmişlər [1, s. 91].

**Qitə** xətt sənətində "parça, hissə, qisim" anlamına gəlir. Qitənin yazılmasında istifadə edilən xətt növü bu sözün başına gətirilməklə qitə növünü bildirmiş olur: Süls-nəsx qitə, süls qitə, mühəqqəq-reyhani qitə, təliq qitə və s. kimi.

Hər qitənin müştərək cəhəti kağızın bir üzünə yazılmasında və düzbucaqlı formalı olmasındadır. Kvadrat formasında qitə ancaq zərurət halında tətbiq olunmuşdur. Qitələrin düzbucaqlı sahəsi yerinə görə dik, yerinə görə də yana meylli ola bilər.

Qitələrdə başqa bir müştərək xüsusiyyət xəttin yazıldığı kağızın vərəq halında qalmayıb, bir kartona yapışdırılması və bəzəmək üçün dörd tərəfində də bərabər boşluğun qoyulmasıdır [3, s. 484-485].

**Mürəqqə** gözəl yazı nümunələrinin, qitələrin bir araya gətirilməsiylə hazırlanan albomdur.

Mürəqqələr İslam incəsənətinin rəng, naxış, miniatür və kalliqrafiya baxımından zövqlə işlənmiş ən zəngin əsərləridir. Cəli yazıların inkişafından əvvəl xətt sənətinin ən gözəl nümunələri daha çox əlyazma kitablarda və mürəqqələrdə yer alırdı [4, s. 205].

XV əsrdən bəri xəttatların müxtəlif xətlərlə yazdıqları qitələrin bir araya gətirilməsiylə hazırlanan mürəqqələrin əsas mövzusu hədisi-şəriflərdir. Dünya muzey və kitabxanalarında qorunan, İslam mədəniyyətinin çatdığı sənət səviyyəsini göstərən minlərlə mürəqqə Allah Rəsulunun ərdəmli və dinc həyat prinsiplərini öyrədən sözlərini ehtiva edir. Bunlar yazı, təzhib və cild sənətlərinin oyandırdığı zövq və heyranlıq duyğuları içində Həzrət Peyğəmbər sevgisinin könüllərdə daha canlı və davamlı qalmasını təmin etmişdir [5, s. 176].

**Lövhə.** İslam mütəfəkkir və şairlərinin Həzrət Məhəmməd, Əhli-beyt və əshabına duyduqları sevgini, şəfaət və tərifləri dilə gətirmək məqsədilə söylədikləri kəlamlar da, əxlaqi mənzumələri də cəli xəttlərlə yazılmış, divarlara asılmış, beləcə müsəlmanların sənət zövqünü tətmin etmişdir [1, s. 92].

Hilyəyi-şərif, qitə və məşqlər lövhə xarakteri daşıyırlar. Lövhələr evlərin, iş yerlərinin, müəssisələrin divarlarını sənət əsəri kimi bəzəməklə yanaşı, Allaha imanı, islami dəyərlərə dərin hörmət və ehtiramı əks etdirir. İslam incəsənəti tarixi boyunca lövhələrin hazırlanmasında

sənətkarlar böyük və dərin ibadət yolunu keçmişlər. Çünki xəttat üçün gözəl xətlə yazmaq Allaha yaxınlaşmaq, vüsala yetişmək üçün bir "yoldur". Onlar bu arzu və niyyətlə İslam mədəniyyətini inkişaf etdirmiş, bununla yanaşı, möminlərin əqlinə və qəlbinə xitab edə biləcək şah sərlər ortaya qoymuşlar.

Məşq hüsnxətt, təzhib, musiqi kimi sənətlərin tədrisində ənənəvi üsuldur [6, s. 373]. Məşq üç növ ola bilər: "nəzəri" (baxma), "qələmi" (yazma) və "xəyali" (düşünmə). Nəzəri məşq ustadın xəttini öyrənməkdən ibarətdir. "Qələmi məşq" nümunə xəttin üzünü köçürməkdən ibarətdir ki, ilk yazmağa başlayan əvvəlcə nümunəvi yazılmış ustad xətlərindən mümkün qədər çoxlu miqdarda toplayıb, onların üzərində məşq etməlidir. "Xəyali məşq" ustad xəttinə baxıb təkrar yazmaq deyil, təsəvvür, fantaziya sayəsində xüsusi üslubla yazıb, məharət göstərməkdən ibarətdir. Məşhur xəttatların hər birinin özünəməxsus üslub və səliqəyə malik olmalarına "xəyali məşq" səbəb olmuşdur [7, s. 59-60].

Xəttatlığı öz-özünə öyrənmə üsulu xətaya meyilli və səmərəsiz olmaqla yanaşı, həm də çox vaxt aldığından mənimsənməyən bir yoldur. Bundan əlavə, sənət qabiliyyətinin qısa zamanda nizama salınması və inkişafının ənənəvi üsulda yetişmiş bir xəttatın məşq üsulu tədrisiylə yaxından əlaqədar olduğunu Həzrət Əliyə nisbət edilən bu söz ortaya qoymaqdadır: "Gözəl yazı müəllimin təlimində (məşq) gizlidir; püxtələşməsi çox yazmaqla, davamı da İslam dinini yaşamaqla olur".

XV əsrdən günümüzə qədər davam edən tətbiqlərə görə qabiliyyətli bir tələbə müfrədat və mürəkkəbat məşqlərini mükəmməlləşdirdikdən sonra yazı tədrisini tamamlayır. Tələbəyə seçiləcək yazı növünə görə "əlif"dən "yə" hərfinə qədər təkrarən hərflərin həndəsəsi, nisbətləri və şəkilləri şəxsən müəllim tərəfindən yazılaraq öyrədildikdən sonra "bə ilə əlif", "bə ilə bə", "bə ilə cim"... "bə ilə yə", daha sonra "cim ilə əlif", "cim ilə bə", "cim ilə cim"... "cim ilə yə" şəklində bir yol izlənilir və şəkil baxımından bir-birinə bənzəyən hərflərdən bir nümunə yazmaq surətiylə bunların hər birinin digər hərflərlə birləşmələri və nisbətləri göstərilir. Xətt öyrənilməsində bu mərhələyə "müfrədat məşqi" deyilir. Yalnız süls və nəsx yazıya "Rəbbi yəssir və lə tüassir rəbbi təmmim bil-xeyr" duasının yazılması ilə başlanılır [6, s. 373].

**İcazət.** Xəttatlıq üzrə ixtisaslaşan tələbə öz ustadı tərəfindən icazət (diplom) alır. Yalnız icazət aldıqdan sonra xəttat yazısında imza qoya bilər. Xətt sənətində bu icazətlər də öz-özlüyündə bir sənət əsəri sayılırlar.

Hər icazətin (diplomun) sonunda ustadın imzası olmalı idi. Bu, icazəti alan şagirdə yazdıqlarına imza atmaq səlahiyyəti verirdi. İmza isə ərəbcə belə ifadə olunurdu: "kətəbəhu" (tərəfindən yazılmışdır); "harərahu" (tərəfindən tərtib edilmişdir) və ya "səvvədəhu" (tərəfindən üzü köçürülmüşdür). Beləliklə, icazət vasitəsilə tələbə lisenziyalı xəttat olurdu və ona imza atmaqla yanaşı, özünə şagird qazanmaq haqqı da verilirdi.

İcazətli bir xəttatdan dərs alan tələbə müəyyən periodlarla müəlliminə məşq yazılarını göstərir və bütün hərfləri bu şəkildə tamamladıqdan sonra mürəkkabat deyilən mətnləri yazmağa başlayır. Bunları da müvəffəqiyyətlə tamamlayarsa, müəllimin tələbinə əsasən əski ustadlardan birinə aid qitə və ya hilyəyi-səadət kimi bir əsəri eynilə təqlid edir. Lazım gələrsə, bunun üçün uzun müddət çalışması tələb oluna bilər. Əgər müəllimi tələbəsinin bu yazısını müvəffəqiyyətli hesab edərsə, elə həmin xətt nümunəsinin altına icazət (diplom) mətnini yazır.

Bəzən bir tələbəyə birdən çox xəttat icazət mətni yaza bilər. Beləliklə, icazəti almağa haqq qazanmış şəxs də "xəttat" adını alır və daha sonra eyni üsul ilə eyni mərhələlərdən keçən bir başqasına icazət mətni yaza bilir. Eyni zamanda, öz əsərlərinə imza qoymaq hüququ da əldə edir [8, s. 159].

Uzun illər yazı ilə məşğul olmasına baxmayaraq, icazət almayan tələbə mənəvi məsuliyyət baxımından imza qoymaq hüququna malik deyil.

Bir xəttat tələbə imza qoymaq səlahiyyəti əldə etsə belə, hələ bu sənətin incəliklərini mənimsəyə bilməsi, məsləyinə qarşı şərəfli davrana bilməsi düşüncəsi ilə müəlliminə bağlılığını davam etdirir. İmza cümlələrində qürur və üstünlük ifadələri yerinə, "Allahın fəqir və günahkar qulu" kimi təslimiyyət duyğularını əks etdirən cümlələrdən istifadə edir. Bu duyğu və düşüncələr onu kiçiltmir, əksinə, həm sənətdə, həm cəmiyyət qarşısında, həm də ona bu sənəti bəxş edən Allah-Təalanın dərgahında ucalmağına yol açır [9, s. 110-111].

Buradan tam aydın şəkildə görünür ki, İslamda əxlaqi dəyərlər olduqca yüksəkdir. Və İslam sənətindəki etik davranışlar bu dinin yaşam tərzi, onun əxlaqi dəyərlər məcmusudur.

Osmanlılarda icazətlərin çox gözəl nümunələri vardır ki, onlardan biri Mir Əli Eyyubzadəyə aiddir. Bu icazətin (tarixi 1179/1765) kənarları təzhibli haşiyələrlə işlənmişdir. Bəsmələ ilə başlayan hədisi-şəriflə tərtib olunmuşdur. Musa Əfəndinin tələbəsi olan Mustafa Hilmi Mir Əli Eyyubzadəyə "kətəbəhu" ifadəsi ilə imza çəkmək haqqı vermişdir.

**Bəsmələ.** Demək olar ki, hər bir xəttat Bəsmələni gözəl yazmağı ibadət halına gətirmişdir. Bəsmələ "Bismilləhir-Rəhmanir-Rəhim" kəlamının qısaldılmış şəklidir və dilimizə "Rəhman və Rəhim olan Allahın adı ilə" şəklində tərcümə olunur.

Allah Bəsmələni Lövhi-Məhfuza, Adəmin alnına, Cəbrayılın qanadına, Musanın əsasına, Süleyman və İsanın dilinə nəqş etmişdir. Həzrət Məhəmmədin "Kim bəsmələni gözəlləşdirərək yazarsa, Allah onu əfv edər, bağışlayar" sözünü düstur edən xəttatlar 1400 ildir ki, bu eşq və həyacanla bir-birindən gözəl minlərlə Bəsmələyi-şərif yazmış, təxəyyül sərhədlərini aşaraq orijinal əsərlər ortaya qoymuşlar [10, s. 28].

Xətt sənətindən bəhs edən "Gülzari-Səvab" adlı əsərdə Bəsmələnin necə yazılmasına dair hədislərin olduğu deyilir: "Həzrət Məhəmməd Bəsmələnin gözəl yazılması üsulunu bəyan üçün Müaviyəyə belə buyurdu: "Hoqqaya liqa qoy, qələmi iri kəs, Bəsmələnin (bə)sini dik et, (sin) in diblərini yaxşıca göstər, (mim)in gözünü kor etmə, Ləfzi-Cəlalı gözəl yaz, rəhim kəlməsini də gözəl yaz" [10, s. 29].

Peyğəmbərimizin Bəsmələ ilə bağlı "Kainatın bir dili varsa, o da Bəsmələdir" hədisi xəttatları çox qüvvətli bir işığın pərvanələri özünə çəkməsi kimi Bəsmələyə doğru çəkir. Bu cazibəyə qapılan xəttatlar aylarını, illərini verərək, bədəl ödəyərək, var güclərini sərf edərək fövqəladə Bəsmələ kompozisiyalarına imza atmışlar. Bəzi dərviş xəttatlar özlərinin əzəmətli əsərlərində Allaha qarşı duyduqları ədəbdən imzalarının yerinə "lə ədri" (bilinməyir) təxəllüsü qoymuşlar, bu cazibəyə təslim olub, özlərini gizlətmişlər. Beləliklə, xəttatlar ixlasları nisbətində mötəbər sayılmışlar [10, s. 29].

Bəsmələ yazısında fərqli bir cazibənin olduğunu söyləyən Benefşe Yusuf Çoşkun yazır: "İstər ifadə etdiyi məna etibarilə, istərsə də istifadədəki zəngin estetika və cəzbetmə Bəsmələ yazısında olduğu qədər heç bir yazıda yoxdur. Bəsmələ yazarkən xəttat yaşadığı duyğuların

fərqli olduğunu bütün qəlbiylə hiss edir. Bu duyğu heç bir duyğuya bənzəmir”. Daha sonra o, xəttat Sami Əfəndinin bununla bağlı fikirlərini nəzərdən keçirir: “Xəttat kimin adını yazdığından qafil olmazsa, ən gözəl yazılmağa layiq olan Yaradanın adını yazdığını dərk edərsə, kürəyini Ona dayayarsa, qələmə güc verən əlin O olduğunu təfəkkür edərsə, hadisənin fövqəltəbii mərtəbəsinə çatar. Bu hal xəttatın orijinal Bəsmələ kompozisiyasını meydana gətirməsinə səbəb olar” [10, s. 31].

Tarix boyunca olduğu kimi, günümüzdə də əhəmiyyət və sirrini qoruyan xətt sənəti İslam mədəniyyətində “gözəl yazı yazmaq” mənasını daşıyır. “Cismani alətlərlə meydana gətirilən ruhani bir həndəsədir” şəklində ifadə olunan xətt sənəti xəttatların “qamış qələm, ahərli kağız, hiss mürəkkəbi kimi yazı vəsaitlərinin köməyilə və daima gözəllik axtarmaq səylərilə ərəb hərflərini şəkilləndirməsi”dir [11, s. 59].

Xəttatlıq İslam düşüncəsini, zövqünü, səbri, Allaha olan sevgini, imanı özündə əkz etdirir. Bəzi araşdırmalarda xətt sənətinin yüksəldiyi şəkil və xətt zənginliyi hədislərdə canlı varlıqların təsvirini qadağan edən hökmlərlə əsaslandırılmışdır. Bu əsaslandırmalarda qadağa qarşısında çalışmalı olan və dar bir sahədə qalan sənətkarın bütün gücünü yazı və naxış sənətinə verdiyi ifadə edilmişdir. Bu fikirlərlə qismən razılaşmaqla yanaşı, qeyd etmək lazımdır ki, müsəlman sənətkarların xətt sənətində nail olduqları ifadə, güc və forma zənginliyini İslamın təlqinlərində, tövhid inancında və anlayışında, sənətkarın imanında axtarmaq lazımdır. Yalnız xəttatlıq deyil, digər İslam sənətləri də Allah inancının və hissinin ətrafında formalaşmışdır. Bir mərkəz ətrafında hörülən naxış, memarlıq, musiqi və xətt sənətlərinin təfərrüatında və ərsəyə gəlmiş əsərdə birlik, yekparəlik, təmkin və məntiqli bir üslub görülür.

İslam coğrafiyasında siyasi, iqtisadi, memarlıq və mədəniyyət sahəsində görülən inkişafa paralel olaraq xəttatlıq və İslama xas digər sənətlər Quran və hədislər ətrafında formalaşmış, yüz illər ərzində fərqli üslublar qazanaraq, zənginləşmişdir. Bu mücərrəd cizgilər fövqəladə musiqili ifadə gücünə çatmış, dini təsir gücünə malik olmaqla yanaşı, bəzi Qərb modernist rəssamlarını da öz ağuşuna ala bilmişdir [5, s. 174].

## ƏDƏBİYYAT


1. Muhittin Serin. Hat Sanatı. İslam Sanatları Tarihi. Eskişehir: Anadolu Universitesi Yayınları, 2013.
2. Mustafa Uzun. Hilye. İslam Ansiklopedisi, cilt 18. İstanbul: 1998.
3. Uğur Derman Murakka. Osmanlı İstanbulunda Hat Sanatı. Osmanlı İstanbulu 484-485.
4. Uğur Derman Murakka. İslam Ansiklopedisi, cilt 31. İstanbul: 2006.
5. Avcı Casim. Son Peygamber Hz. Muhammed (Hayatı, Şahsiyeti, İslam Dini ve Kültüründeki Yeri). İstanbul: İSAM yayınları, Mart, 2007.
6. Muhittin Serin. Meşk. İslam Ansiklopedisi, cilt 29. İstanbul.
7. Q.A.Darabadi. Kalliqrafiya. Bakı: ADU nəşriyyatı, 1953, 208 s.
8. The Islamic Manuscript Tradition: Ten Centuries of Book Arts in Indiana University Collections. (Editeted by Christiane Gruber). Indiana University, 2010.
9. Fatih Özkafa. Cümhuriyyet Döneminde Türk Hat Sanatı. Hat ve Tezhip Sanatı. Ankara: T.C. Kültür ve Turizm Bakanlığı Yayınları, 2009.
10. Benefşe Yusuf Çoşkun. Besmeleye gönül veren hattatlar // İsmek El Sanatları Dergisi, Sayı 6, İstanbul, 2008.
11. Abdulhamit Tüfekçioğlu. Osmanlı Sanatının Oluşumunda Yazı. Hat ve Tezhip Sanatı. Ankara: T.C. Kültür ve Turizm Bakanlığı Yayınları, 2009.

Сабина Нематзаде

**СФЕРЫ ПРИМЕНЕНИЯ ИСЛАМСКОЙ КАЛЛИГРАФИИ В РЕЛИГИОЗНЫХ РУКОПИСЯХ**

АННОТАЦИЯ

Сферы применения исламской каллиграфии в религиозных рукописях являются многогранными. Искусство каллиграфии, прошедший великий путь в истории исламской культуры, подарил миру прекрасные и великолепные произведения. Эти произведения воплощают в себе великую идеологию.

Искусство рукописей в исламской культуре была развита и сформирована вокруг художественного оформления Священного Корана, религиозных текстов, хилья, кита, религиозных таблиц и подарили мировой культуре великие шедевры.

Sabina Nematzade

**THE APPLICATION AREAS OF THE ISLAMIC CALLIGRAPHY IN RELIGIOUS MANUSCRIPTS**

ABSTRACT

The application areas of the Islamic calligraphy in religious manuscripts are broad and diverse. Calligraphy that passed the magnificent road in the history of the Islamic art, has provided the world culture with beautiful and wonderful works. It has exhibited a great work of art that reflects a great ideology.

The art of manuscripts in the Islamic culture has been developed and shaped around artistic designs of the Holy Quran, religious texts, hilan, qitas, and religious boards, bringing masterpieces to the world culture.

***Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə yerinə yetirilmişdir.***

***Grant № EİF-Mob-5-2014-2(17)-14/09/5***

# TÜRK-İSLAM MƏDƏNİYYƏTİ İLƏ BAĞLI İNAM YERLƏRİ: PİRLƏR (Naxçıvan şəhəri materialları əsasında)

***Asəf ORUCOV,***
*AMEA-nın Naxçıvan Bölməsi,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

***AÇAR SÖZLƏR:*** *pir, İslam, ibadət, inanc.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *пир (место поклонения), Ислам, поклонение, вера.*
***KEY WORDS:*** *pir (place of worship), Islam, worship, belief.*

Dini-mənəvi mədəniyyətin bir hissəsini təşkil edən müqəddəs yerlər (ziyarətgahlar, pirlər, türbələr) millətin mənəvi dəyərlərini ortaya qoyur. Əsrlər öncə bu torpaqlarda yaşayan əcdadlarımızın bizə miras qoyduqları bu qiymətli türk-İslam abidələrini araşdırmaq maddi və mənəvi mədəniyyət tariximizi zənginləşdirmək baxımından böyük elmi əhəmiyyət kəsb edir. Bu qədim inanc yerləri xalqın tarixinin izlərini yaşadan və keçmişlə bu gün arasında körpü yaradan mənəvi sərvətlərimizdəndir. Odur ki, bu məqaləmizdə Naxçıvan şəhərində bugünədək qorunub saxlanılan inanc yerləri - pirlər haqqında məlumat vermək istərdik.

M.Nemət yazır ki, "pir" türk sözü olub, "bir"lə əlaqəlidir. Bəzi kitabələrdə və orta əsr mənbələrində bu söz "birə" mənasında işlədilib. "Pir", "bir", yaxud "birə" sözü çox güman ki, birinci, yəni öndə gedən, mürşid mənasını bildirir [1, s. 6]. AMEA-nın müxbir üzvü H.Səfərli qeyd edir ki, "pir" eyni zamanda sufi təriqəti rəhbərlərinə verilən ən yüksək tituldur [2, s. 96]. Müəllif həmçinin vurğulayır ki, onların xanəgahları olurdu. Xanəgahda yaşayan təriqət başçısı - "pir" öz ətrafına çoxlu müridlər toplayırdı. Onların tərbiyəsi ilə məşğul olur, öz ideyalarını mənimsədir və onlar vasitəsilə yayırdı [3, s. 187]. Qeyd edək ki, Naxçıvanda inam yerləri çox vaxt "ocaq" adlandırılır.

Pirlərdə həm İslam dininin, həm də İslamdan öncəki inancların izləri özünü açıq şəkildə büruzə verir [4, s. 24]. Bu müqəddəs yerlər əsasən ayrı-ayrı müqəddəs şəxslərin adları, daş, ağac, su-bulaq, qəbir və s. ilə əlaqələndirilir. Buna baxmayaraq, pir və ocaqların ziyarət edilməsi səbəblərini birləşdirən ümumi cəhətlər də var. Pir və ocaqların daha çox müalicəvi xüsusiyyətə malik olması, müəyyən xəstəliklərin sağaldılması, sonsuz qadınların niyyətlərinin gerçəkləşməsinə olan inam əsas ziyarət səbəblərindəndir [5, s. 16].

Yuxarıda pirlərin ayrı-ayrı müqəddəs şəxslərin adı ilə bağlı olduğunu qeyd etmişdik. AMEA-nın müxbir üzvü, professor H.Səfərli qeyd edir ki, ziyarətgah-pirlərin indiyədək xalqın diqqət mərkəzində olmasının bir səbəbi onların şiə imamlarının övladları ilə əlaqədar olmasıdırsa, digər səbəbi onların orta əsrlərdə əhali arasında böyük hörmət və nüfuza malik ruhani alimlərin, o cümlədən sufi şeyxlərinin, dini və dünyəvi elmlər sahəsində tanınmış alimlərin, ümumiyyətlə, ölkənin sosial-siyasi və mədəni-ideoloji həyatında böyük rol oynayan və mühüm mövqe tutan bir sıra görkəmli şəxsiyyətlərin qəbirləri ilə bağlı olmasıdır [3, s. 215]. Belə pirlərdən biri Naxçıvan

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

şəhərindəki **Mir Yaqub** və ya **Yaqub piridir.** Qeyd edək ki, xalq arasında bura Pir Yaqub piri və ya Pir Yaqub xanəgahı da deyilir. Pir haqqında XX yüzilliyin 30-cu illərində rus alimi K.N.Simirnov da məlumat vermişdir. Mənbələrə görə, Pir Yaqub Bəktaşiyyə Sufi cəmiyyətinin rəhbəri olmuşdur [6, s. 398]. Bu pir haqqında F.Bağırov yazır: "Naxçıvan şəhərindəki Mir Yaqub piri Möminə Xatun türbəsindən şimalda təpə üzərindədir. Pir iki tikilidən ibarət olub, torpaq sürüşməsindən uçub. Yanında yeni binalar tikilib. Pirin binası bişmiş kərpiclə hörülüb, iki kiçik otaqdan ibarət olub. İkinci otaqda simvolik müsəlman məzarları vardır. Onlar mərhum Mir Əli ilə Mir Yaqub adlı mömin şəxslərindir. Pirin yaranması tarixi isə belə izah edilir. XIX əsrin axırlarında İraqın Kərkük əyalətindən zəvvarlar Naxçıvandakı müqəddəs Əshabi-Kəhf ziyarətgahını görməyə gəlirlər. Gələnlərdən ikisi - Yaqubla Əli şəhərdəki orta əsr Cümə məscidində mücavirlik edərək ömürlərini də burada başa vururlar. Yaşca böyük olan Mir Əli vəfat etdikdən sonra Naxçıvan möminləri mərhumun cənazəsini şəhər qəbiristanlığında dəfn edirlər. Bir müddətdən sonra tənha qalan Mir Yaqub da vəfat edir və vəsiyyətinə görə cənazəsini yaşadığı məscidin həyətindəki daxmasında basdırırlar. Şəhərin mötəbər şəxslərinin tələbi və qazinin fətvası ilə Mir Əlinin də cənazəsinin sümükləri qəbiristanlıqdan gətirilərək daxmada yenidən torpağa basdırılır. Həmin daxma xalq arasında Mir Yaqub piri adı ilə insanların inanc yerinə çevrilir. 1955-60-cı illərədək Mir Yaqub pirində qurbanlar kəsilib ehsanlar verilərdi" [7, s. 22]. Müstəqillik əldə ediləndən sonra insanlar yenə həmin yeri ziyarətgaha çevirmişlər.

Naxçıvan şəhərində yerləşən pirlərdən biri də Şahab məhəlləsindəki Kəffarə və ya **"Süddü nənə"** piridir. Pirdəki inanc sistemi xalq arasında "qara daş" inancı ilə bağlıdır. T.Qədirzadə belə daşlarla bağlı yazır ki, pirlərdə mövcud olan bu daşlar müqəddəs hesab edilir və "ocaq daşı" adlanır [8, s. 163]. Şahab məhəlləsinin yaşlı sakinləri bura göydən qadını xatırladan bir daş düşdüyünü söyləyirlər. Daş "Süddü nənə" adlanır. İnanca əsasən, südü olmayan gəlinlər bu piri ziyarət edirlər. Ziyarət zamanı özləri ilə qovrulmuş buğda gətirirlər, yol boyunca bu buğdaları müəyyən yerlərə qoyur və heç kimlə danışmırlar. Ziyarətdən geri qayıdarkən bu buğdalardan götürüb yeyirlər. İnanca, görə "Süddü nənə" onların südünün olmasına yardım edir. Belə ki, buğda artıb-çoxalmaq, bolluq, bərəkət rəmzidir. Rəvayətə görə, "Süddü nənə" adlandırılan bu qadın ərə getməmiş, bütün ömrünü kimsəsiz uşaqlara baxmaqla keçirmişdir. T.Qədirzadə yazır ki, burada maraqlı cəhət həmin qadının "Südlü nənə" adlandırılmasıdır. Günümüzdə də birinin uşağını başqa qadın əmizdirəndə həmin qadın uşağın "Süd anası" sayılır [8, s. 164].

Oxşar inam Şahbuz rayonunun Badamlı kəndində də var. Babək rayonunun Sirab kəndində də "Süddü nənə" adlandırılan daş yarığından 3 dəfə keçməklə niyyətin qəbul olunacağına inanılır. Bu inanc sistemi ilə əlaqəli M.İsmayıllı yazır ki, əski dastan yaddaşında bu inanc cənnətdə olan süd gölü ilə oxşarlıq təşkil edir. Xalq arasında olan inanca görə, bu daşların yanına su qoymaq lazımdır. Çünki daşların suya ehtiyacı var. Xalq arasında çoban daş, gəlinqaya, gəlin daş haqqında gəzən əfsanələr və onların pirlərə, ocaqlara, bir sözlə ziyarətgahlara çevrilməsi əski türk inanc sistemi ilə bağlıdır. Daşa dönmə, daşla bağlı inanclar, daş motivi ilə bağlı əfsanələrin belə geniş yayılması xalqımızın qədim mifoloji, tarixi dünyagörüşündən irəli gəlir [9, s. 62]. AMEA-nın müxbir üzvü Qadir Qədirzadə yazır ki, Naxçıvanda daşın, xüsusən qara daşın müqəddəsliyi ilə bağlı bir neçə xalq deyimi mövcuddur. Pis övlad haqqında "Sən doğulunca, bir qara daş doğulaydı", "Qara daş səndən yaxşıdır" və s. deyilir. Naxçıvanda bu gün də daşla bağlı

inanc sisteminə, daha doğrusu, daş kultuna demək olar ki, hər tərəfdə rast gəlmək mümkündür. Onu da qeyd edək ki, bu kimi inanc yerlərini Novruz bayramında ziyarət etmək adəti geniş yayılmışdır.

**Xədicəbəyim piri və ya Xədiceyi Kübra ocağı.** Pir Naxçıvan şəhərində "Zaviyə məscidi"ndən cənubda yerləşir. F.Bağırov öz tədqiqatlarında yazır ki, bir əsr öncə həmin ərazidə (Təbrizlə Zaviyə məhəllələrinin kəsişdiyi yerdə) şəhərdəki mötəbər adamlar evlər tikmiş, orada tacir və baqqal dükanları, bazar meydanı və karvansara binaları salmışlar. 1960-cı illərdə ərazidə söküntü aparılaraq yerində beşmərtəbəli ictimai binalar tikilmişdir. Söküntü zamanı pirin yeri "müqəddəs" ziyarətgah kimi xalq tərəfindən qorunub saxlanılmışdır. Xədicəbəyim pirinin yaranma tarixi dəqiq məlum olmasa da, yaşlı nəslin sözlərinə əsasən, pirdə qadın məzarı olmuş, başdaşı üzərində ərəb əlifbası ilə "Mömինə Xədicəbəyim" sözləri yazılmışdır. Tarixdən məlumdur ki, Möminə Xədicəbəyim adlı nüfuzlu qadın ərdəbilli Şeyx Səfinin oğlu Şeyx Cüneydin zövcəsi olmuşdur. Xədicəbəyim Şah İsmayılın ata nəslindən olan şiə müsəlmanlarının yeddinci imamı Museyi Kazımın şəcərəsindən ehtimal olunur. Savadlı və xeyirxah olduğuna görə xalq arasında ona "Xədicə kübar" (Xədiceyi-kübra) demişlər. Çox təəssüf ki, mərhumənin məzarı üzərində tarixi lövhə əllinci illərdə götürüldüyündən onun şəxsiyyəti haqqında dəqiq məlumat vermək mümkün deyil. 1995-ci ildən pirdə yenidənqurma-təmir işləri aparılmış, məzar yeri düzəldilmiş və üzərində piramidaşəkilli sərdabə binası tikilmişdir. Sərdabənin qapısı üstünə "Xədicəbəyim piri" sözləri yazılmış kaşı lövhə vurulmuşdur [7, s. 23]. Pirdə tez-tez məhəllə adamları tərəfindən Quran oxunur, ehsanlar verilir. İnsanlar pirə nəzir (pul, qənd, çay) deyirlər. Niyyətləri, arzu-istəkləri qəbul olarsa, aparıb pirin içərisinə nəzirlərini qoyurlar. Bu puldan oranın təmizliyinə, pirlə bağlı müəyyən işlərin görülməsinə xərclənir.

**Fatiməbəyim piri**. Naxçıvan şəhərində yerləşən pirlərdən biri də Fatiməbəyim piridir. Pir Naxçıvan şəhərindəki Əlixan məhəlləsindəki köhnə qəbiristanlıq ərazisindədir. Məhəllənin yaşlı sakini, mərhumə Həcər xanım Məşədi Əbdül qızının sözlərinə görə 30-40-cı illərdə İrandan Naxçıvan şəhərinə mühacirlər gəlmişdir. Onlar şəhərin ayrı-ayrı məhəllələrində məskunlaşmış, yerli camaatla qaynayıb qarışmışlar. Gələnlərdən biri də Səyyid Əbdüllah adlı mömin şəxs olmuşdur. O, ailəsi ilə birlikdə Əlixan məhəlləsindəki Məşhədi Yusif kişinin həyətində (indiki 20 yanvar küçəsi, ev №25) yaşamışdır. Həmin illərdə Naxçıvandakı "iranlı mühacirlərə" demokratlar damğası vurulmaqla müxtəlif təzyiqlər göstərilmişdir. Əlacsız qalan Əbdüllahın ailəsi təkrar İrana köçməli olmuşdur. 1939-cu ildə Mirəbdüllah Fatiməbəyim adında qızını İrandakı bir ruhaniyə vermişdir. Bu nigahdan Fatiməbəyimin bir oğlu olmuşdur.

Fatiməbəyimin valideynləri İran xəfiyyəsi tərəfindən tutularaq sorğu-sualsız zindana salınmışlar. İranda iztirablı günlər keçirən Fatiməbəyim xeyirxah adamlar tərəfindən təkrar Naxçıvana gətirilmişdir. Naxçıvanda onu əvvəllər yaşadıqları həyətin sahibi Məşhədi Yusif kişi himayəyə götürmüşdür. Bir müddət sonra Fatiməbəyimin himayədarı da dünyasını dəyişmişdir. Tənha qalan Fatiməbəyimə məhəllənin xeyirxah qonşuları tərəfindən maddi köməkliklər göstərilmişdir. Qonşusu Səriyyə İmran qızı (Həcər xanımın anası) Fatiməbəyimlə siğə bacı (Siğə qardaş, siğə bacı – qardaş və ya bacı olmayıb müəyyən dini mərasimlə əhd-peyman bağlamaqla qardaş, ya bacı olmuş oğlan və ya qız) olaraq ona maddi və mənəvi dayaq olmuşdur. Yeganə körpəsinin həsrətini çəkən Fatiməbəyim 1956-cı ildə 42 yaşında dünyadan köçmüşdür.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Fatiməbəyim Mir Əbdullah qızının cənazəsi məhəllənin adamları tərəfindən dəfn edilmiş və məzarı ziyarətgaha çevrilmişdir [7, s. 24].

Son olaraq qeyd edək ki, bu kimi inanc yerləri Naxçıvan şəhərinin sosial-ictimai və ideoloji həyatında mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Nemət M. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.
2. Səfərli H. Naxçıvanın türk-İslam mədəniyyəti abidələri. Naxçıvan: Əcəmi, 2017, 216 s.
3. Səfərli H. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Elm, 2003, 392 s.
4. Paşayeva M. Azərbaycanın qədim diyarı Xınalıq. Azərnəşr: Bakı, 2006, 60 s.
5. Abbasova A. Naxçıvan və Kəlbəcər bölgələrinə aid müqəddəs yerlər / Tarixi İpək yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri (konfrans materialları. 16-17 oktyabr 2015) s. 59-60.
6. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, İstanbul, 522 s.
7. Bağırov F. Nuh yurduna ziyarət. Naxçıvan, 133 s.
8. Qədizadə T. Məhsuldarlıqla bağlı inam yerlərimiz: Süddü nənə piri // NDU elmi əsərləri, Humanitar elmlər və pedaqogika seriyası, Naxçıvan, №1 (21) 2007, s. 162-164.
9. İsmayıl M. Naxçıvan əfsanələri. Bakı: Elm, 2008, 208 s.

Асеф Оруджов

**СВЯЗАННЫЕ С ТЮРКСКО-ИСЛАМСКОЙ КУЛЬТУРОЙ МЕСТА ПОКЛОНЕНИЯ: ПИРЫ**
(на основе материалов города Нахчыван)

АННОТАЦИЯ

В статье исследуются места поклонения, связанные с тюркско-исламской культурой - пиры в городе Нахчыван. Среди них можно отметить «Сюдду нана», «Хадиса бейим», «Пир Ягуб», «Фатма бейим» и др. В итоге было выяснено, что пиры в городе Нахчыван, принадлежащие как к исламскому, так и доисламскому периоду, сохранили следы древних верований. Эти пиры с идеологической точки зрения также имеют большого значение.

Asaf Orujov

**PLACES OF WORSHIP RELATED TO THE TURKISH-ISLAMIC CULTURE: PIRS**
(based on materials of Nakhchivan city)

ABSTRACT

The article examines places of worship associated with the Turkic-Islamic culture - pirs in the city of Nakhchivan. These include “Suddu nana”, “Khadisa bayim”, “Pir Yagub”, “Fatma bayim”, etc. As a result, it was found that the pirs in the city of Nakhchivan, belonging to both the Islamic and pre-Islamic periods, preserved traces of ancient beliefs. These pirs are also of great importance from the ideological point of view.

# QİRAƏT ELMİNDƏ "YEDDİ QİRAƏT" MƏSƏLƏSİ

***Əbülfət VƏLİYEV,***
*AMEA-nın M.Füzuli adına*
*Əlyazmalar İnstitutunun dissertantı*

***AÇAR SÖZLƏR:*** *Quran, mütəvatir, qiraət imamları, yeddi qiraət, rəvayət, qare.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Коран, мутаватир, имамы Кираата, рассказ, «семь чтений», чтец Корана.*
***KEY WORDS:*** *the Quran, mutawatir, imams of recitation, story, "Seven Recitations", reader of Quran.*

Qurani-Kərimin qiraəti məsələsi Allahın Rəsulunun (s) dövründən etibarən böyük əhəmiyyət daşımış və bir qrup səhabə Quran qiraətini birbaşa Həzrət Peyğəmbərdən (s) öyrənmişdir. Bunlar arasında Əli ibn Əbu Talib, Osman ibn Əffan, Abdullah ibn Məsud, Ubeyy ibn Kəb, Zeyd ibn Sabit, Əbu Musa əl-Əşəri və Əbu Dərda kimi böyük səhabələrin (r.a) adlarını qeyd etmək olar. Peyğəmbərin (s) vəfatından sonra bu səhabələrin qiraətləri məşhurlaşaraq müsəlmanlar arasında geniş yayılmış və həmin şəxslərin adlarına uyğun olaraq İbn Məsudun qiraəti, Ubeyy ibn Kəbin qiraəti, Əbu Musanın qiraəti və s. kimi formalaşmışdır.

Qurani-Kərimin fərqli qiraət formaları ilə oxunuşu tarix boyu elmi araşdırmaların, diskussiyaların mövzusu olmuşdur. Bəziləri Quranın Allah kəlamı olmadığına dair dəlil axtararkən "qiraət müxtəlifliyi" məsələsini önə çəkmiş, bundan sui-istifadə etməyə çalışmışlar. İslam alimləri müshəflər və qiraətlərlə bağlı həmin iddiaları cavablandırmış, Quran qiraətlərinin etibarlılığını sübuta yetirmişlər. Həmçinin, alimlər qiraətlərin nəsildən-nəsilə ötürülməsi yollarını da araşdırmış, yaranan fərqlilikləri öyrənərək onların mötəbərliliyini şərtləndirən meyarları göstərmişlər [1, s. 67].

Üçüncü xəlifə Osman ibn Əffan (r.a) müsəlmanlar arasında qiraət məsələsində ixtilaf yaranmasın deyə Quran müshəflərini çoxaldaraq müxtəlif şəhərlərə göndərmişdir. Həmin şəhərlərin sakinləri Quranın qiraətini Peyğəmbərdən (s) mənimsəmiş səhabələrdən öyrənmiş və öyrəndikləri kimi oxumuşlar. Beləliklə, hər bir şəhər müshəfinə uyğun qiraətləri qoruyub saxlamış və həmin qiraətlər oxunduqları şəhərdə yayılmışdır. Bu müshəflər nöqtəsiz və hərəkəsiz olduğuna, o cümlədən kəlmələrinin yazılış şəkillərinin müxtəlif qiraət variantlarını əhatə etdiyinə görə Quran qiraətini rəvayət və tələqqi (əldə etmək) etməkdə əsas ölçü müshəflərin xətti olmuşdur [2, s. 337].

Bundan sonra qiraət alimləri çoxalaraq böyük şəhərlərə yayıldılar. Beləliklə, nəsillər dəyişərək qiraət alimləri bir-birini əvəzlədilər və təbəqələrə bölündülər. Bunların içərisində qiraəti və rəvayəti ilə məşhur olan etibarlı qarelər olduğu kimi, bu xüsusiyyətlərə malik olmayanlar da vardı. Buna görə də qarelər arasında ixtilaflar çoxalaraq səhih qiraətlərlə batil olanların bir-birinə qarışmaq təhlükəsi yarandı. Bu əsnada İslam ümmətinin mütəxəssis alimləri

ayağa qalxaraq əllərindən gələni etdilər və qiraətləri topladılar, vəch və rəvayətləri qiraət imamlarına nisbət etdilər, "səhih və qeyri-səhih" qiraətləri təsbit etdikləri üsullarla bir-birindən ayırdılar. Bu səbəblə müsəlmanlar hər şəhərdən doğruluğu ilə tanınan və rəvayətində əmanət sahibi olan məşhur qiraət imamlarını seçdilər. Onlar bütün ömürləri boyunca qiraətləri təlim etməklə məşğul oldular [3, s. 244-245].

Bu mərhələdə məşhur olan qarelərin sayı "yeddi imam"dan çox olmuşdur. İlk dövr qiraət alimləri yeddi və ya on qiraətdən olmadığı halda "səhih qiraət"in şərtlərini daşıyan bütün qiraətləri doğru hesab etmiş və onların sayının iyirmidən artıq olduğunu bildirmişlər. İbnul-Cəzəri isə "səhih qiraət"in şərtlərini daşıyan həmin qiraətlərin məşhurlaşmamasını və üzərilərində icma olmadığını əsas gətirərək onları tərk edib, "yeddi" və ya "on" qiraətin xaricində tutmağın daha məqsədəuyğun olduğunu söyləmişdir [4, s. 88]. Qiraət imamları arasında yeddi imamdan daha çox qurra olmasına baxmayaraq, yeddi qiraət alimi ilə kifayətlənməyin əsas səbəbi məhz həmin imamlardan rəvayət edənlərin həddən artıq çox olmasıdır. Qiraətlərə verilən əhəmiyyət azalan kimi müshəfin rəsminə uyğun və öyrənilməsi rahat olan qiraətlərlə kifayətlənməyə başlanılmış və xəlifə Osmanın (r.a) müshəf göndərdiyi hər şəhərdən bir qiraət imamı qəbul olunmuşdur.

Hicri II əsrdə qiraət sahəsində mütəxəssislərin meydana gəlməsi ilə bu sahə özünün çiçəklənmə dövrünü yaşamış və elə həmin əsrin əvvəllərindən etibarən İslam şəhərlərində müsəlmanların öz qiraətlərini digər şəhərlərdəki qiraətlərdən üstün tutması nəticəsində "yeddi qiraət" təbiri formalaşmağa başlamışdır [5, s. 63]. Beləliklə, Məkkədə Abdullah ibn Kəsrin (v.h.120/m.737), Mədinədə Nafinin (v.h.169/m.785), Bəsrədə Əbu Əmr (v.h.154/m.770) və Yaqubun (v.h.205/m.820), Kufədə Həmzə (v.h.156/m.772) və Asimin (v.h.127/m.744), Şamda isə İbn Amirin (v.h.118/m.736) qiraəti məşhurlaşmışdır. Bu imamların içərisində İbn Amir və Əbu Əmrdən başqa digər imamlar ərəb olmamışlar [3, s. 245].

Yeddi imamın qiraəti hicri III əsrin sonlarına qədər müstəqil olaraq tədvin (yazılmadan) edilmədən qalmışdır. Nəhayət, İbn Mücahid yeddi imamın qiraətini ilk dəfə müstəqil bir kitabda toplamışdır. Lakin o, Yaqubun yerinə Kisainin (v.h.189/m.804) qiraətini seçmişdir. İbn Mücahid qiraətləri toplayarkən mötəbərlik baxımından məşhurlaşmış, uzun müddət qiraət təlimi ilə məşğul olmuş və rəvayətində ittifaq olunmuş qarelərin qiraətinin qəbul edilməsini şərt qoşmuş və ancaq həmin yeddi imamın qiraətlərinin bu şərtlərə cavab verdiyi nəticəsinə gəlmişdir [2, s. 339]. İbn Mücahiddən sonra gələn alimlərin əksəriyyəti də qiraətlərin təsnifatında onun yolu ilə getmişlər. Bunun nəticəsində bu gün tanıdığımız yeddi qiraət imamı məşhurlaşmış və onların xaricində qalan qiraətlərin (bəzilərinə görə) səhih olmadığı şəklində səhv bir anlayış yaranmışdır. Belə bir fikir isə mənbələrə görə doğru deyil [6, s. 192]. Əksinə, "on qiraəti" tamamlayan digər üç imamın qiraəti də səhih qiraətlərin şərtlərinə cavab verir və yeddi qiraətdən heç də geridə qalmır. Sadəcə yeddi qiraətin səhihlik dərəcəsi digərlərinə nisbətən daha etibarlıdır. Bu yeddi qiraətə üç imamın qiraətini əlavə edərək onların da qiraətlərinin digərləri kimi məşhur olduğunu iddia və isbat edən İbnul-Cəzəri olmuşdur [5, s. 64]. Ona görə, "bir yönü ilə də olsa, ərəb dilinə və Osman (r.a) müshəfinə uyğun, isnadı doğru olan hər bir qiraət" səhih sayılır. Belə qiraətlər Quranın nazil olduğu "yeddi hərf"dən hesab olunur və qəbul olunması vacibdir. Bu üç şərti daşıyan qiraətin istər yeddi imama, istərsə də məqbul olan digər imamlara nisbət edilməsinin fərqi yoxdur.

Yeddi qiraətin arasında isə Nafi və Asim qiraətləri sənəd etibarilə ən səhih və qiraətlərin ən doğrusu sayılır. Əbu Əmr və Kisainin qiraəti isə ərəb dilinin fəsahətinə ən uyğunudur [3, s. 280].

İslam alimlərinin əksəriyyətinin fikrinə görə, "yeddi qiraət" mütəvatirdir. Qiraətlə bağlı ilkin dövrlərdə yazılan əsərləri araşdırarkən görürük ki, sonrakı dövrlərdə qiraətlərin qəbul olunmasında əsas götürülən "bir qiraətin sənəd etibarilə mütəvatir (ardıcıl) yolla nəql edilmiş olması" şəklində şərt irəli sürülməmiş, onun əvəzində sadəcə "səhih sənədlə" nəqli əsas götürülmüşdür. Lakin onun yerinə bu meyarlar arasında "çoxluğun qiraətinə tabe olmaq", "ümumun qiraətini üstün tutmaq" kimi ifadələr istifadə edilmişdir. Bu vəziyyətdə bir qiraətdə İbnul-Cəzərinin yuxarıda qeyd etdiyimiz üç şərti varsa həmin qiraət məqbul sayılmışdır. Əhli-sünnə alimlərinin fikrinə əsasən, "on qiraət"dən yeddisi "mütəvatir", qalan üçü isə "məşhur" qiraət hesab olunur.

Zərkeşi "yeddi qiraət"in təvatürü məsələsində bunları qeyd etmişdir: "Cümhura görə, yeddi qiraət mütəvatirdir. Məşhur olduğunu söyləyənlər də olmuşdur. Lakin bu, zəif görüşdür. Bu qiraətlərin Peyğəmbərdən (s) təvatürlə ötürülməsinə gəldikdə isə bu, şübhəlidir. Yeddi imamın qiraətlərlə əlaqəli isnadları qiraət kitablarında mövcud olan əhəd (xəbəri-vahid) nəql illədir ki, bununla da təvatür şərti tamamlanmır" [7, s. 224].

Bəzi alimlər yeddi imamın isnadlarının əhəd yolla gəldiyinə əsaslanaraq qiraətlərin mütəvatir olmadığı fikrini irəli sürmüşlər. Əhli-sünnə alimlərinin isə demək olar ki, hamısı yeddi qiraətin mütəvatir olduğunu qəbul etmişlər. İmamiyyə məzhəbi alimlərinin fikirlərinə gəldikdə isə bu haqda Seyid Əbülqasim əl-Xoyi yazır: "Quranın qiraəti haqqında bir neçə nəzəriyyə irəli sürülmüş və onun mütəvatir olmaması bir neçə dəlil vasitəsilə sübuta yetirilmişdir" [8, s. 142]. Sonra müəllif həmin isbatın dəlillərini adı çəkilən əsərində sadalamaqdadır. Bu dəlillərin başında isə həmin rəvayətlərin əhəd yolla nəql olunması dayanır.

Göründüyü kimi qiraətlərin mütəvatirliyinə qarşı yönəldilən etirazların mənşəyini bu qiraətlərin Peyğəmbərə (s) əhəd isnadla çatması təşkil etməkdədir. Lakin əhli-sünnə alimlərinə görə, bu isnadların bir qrup raviyə aid edilməsi digərlərindən bu qiraətlərin gəlməsinə maneə təşkil etmir. Təlim və tədrisdə rahatlığı təmin etmək üçün qiraətlər bir qisim imamlara nisbət edilmişdir. Bu imamlardan hər biri də bir bölgənin xalqını təmsil edir. Bir bölgənin xalqı isə təvatür üçün kifayətdir. Çünki müsəlmanlar başlanğıcdan etibarən Qurani-Kərimin qiraətini cəm şəkildə bir-birilərindən öyrənmiş və yeni nəslə ötürmüşlər [3, s. 281].

Lakin yuxarıda da qeyd etdiyimiz kimi, Cəfəri məzhəbi alimlərinin fikrinə görə, qiraətlər mütəvatir olmayıb, ictihad nəticəsində meydana çıxmışdır. Daha çox mütəqəddim (klassik) imamiyyə alimlərindən ibarət bu qrup iddialarında Əhli-beyt imamlarından nəql edilən bəzi rəvayətlərə əsaslanırlar. Bu rəvayətlərdən birində İmam Məhəmməd Baqirin (ə) "qiraət ixtilaflarının ravilərdən ortaya çıxdığı"nı söyləməsi qeyd olunur [9, Fəzlül-Quran, Nəvadir-3]. Digər bir hədisdə isə İmam Cəfər Sadiqin (ə) "Quran bir olan (Allah) tərəfindən bir hərf üzərində nazil edilmişdir" söylədiyi bildirilir [9, Nəvadir-13]. Bundan başqa, imamiyyə alimləri hər qiraət imamının öz qiraətinin doğru olduğunu irəli sürərək, digərlərini rədd etməsini və bəzi tədqiqatçı alimlərin bəzi qiraətləri inkar etməsini də qiraətlərin mütəvatir olmamasına dəlil kimi irəli sürmüşlər. Məsələn, İbn Cərir ət-Təbəri İbn Amirin qiraətini qəbul etməmiş, bəzi alimlər

Həmzənin, bir qismi də Əbu Əmrin və İbn Kəsirin bəzi qiraətlərini rədd etmişlər. Onlara görə, əgər bu qiraətlər Peyğəmbərin (s) oxumasına əsaslanan mütəvatir rəvayətlərdən ibarət olsaydı, bu alimlər həmin qiraətləri inkar edə bilməzdilər [8, s. 123-124].

Cəfəri məzhəbinin bəzi alimləri isə əhli-sünnə alimləri kimi düşünərək qiraətlərin mütəvatir olduğunu qəbul etmiş və "yeddi qiraət"in hər hansı biri ilə namaz qılmağa icazə vermişlər. Bununla əlaqədar Ayətullah Məhəmməd Hadi Mərifət bunları qeyd etmişdir: "Əksər fəqihlər yeddi qiraətin icazəli olması qənaətindədirlər. Mərhum Seyyid Kazım Yəzdi "Ürvə əl-Vüsqa", mərhum Seyyid Əbul-Həsən İsfəhani "Vəsail ən-Nəcah" kitabında namaz qılanın yeddi qiraətdən kənara çıxmamasını ehtiyata uyğun hesab etmişlər. Doğrudur, onların fətvası hər bir qiraətlə - istər yeddi qiraət, istərsə də digər qiraətlərlə - qılınan namazın doğru olmasıdır. Fəqihlər İmam Sadiqin (ə) "Quran vahiddir, Vahid tərəfindən nazil olunmuşdur, ixtilaf isə rəvayətçilər tərəfindəndir" hədisinə baxmayaraq, imamların məşhur qiraətlərin hər birinə uyğun oxunmasına icazə verdiyini bildirmiş, "insanların oxuduğu kimi oxuyun" hədisini bu müddəaya dəlil kimi göstərmişlər. Onların fikrincə, sözügedən hər iki hədisi nəzərə alsaq, əsl qiraətin məşhur qiraətlərin arasında olduğunu başa düşmək mümkündür. Deməli, insanların işini asanlaşdırmaq üçün yalnız bir qiraəti bilib, ona uyğun oxumağı vacib saymamışlar. Lakin ehtiyat odur ki, yeddi qiraətdən kənara çıxılmasın. Çünki "insanların oxuduğu kimi oxuyun" hədisində böyük ehtimala görə məqsəd yeddi qiraətdir" [10, s. 138-139 ].

Alimlərin əksəriyyətinə görə, qiraətlərin mütəvatir olduğunu qeyd etmişdik. Buna baxmayaraq, təvatürün hansı cəhətdən olduğu mövzusunda alimlər fikir ayrılığına düşmüşlər. Bu mövzuda irəli sürülən əsas fikirlər aşağıdakılardır:

1. Bəzi alimlər qiraətlər haqqında mübaliğəli düşünərək yeddi qiraətin hər yönü ilə mütəvatir olduğunu və bunu qəbul etməyənlərin küfrə düşəcəklərini irəli sürmüşlər. Onlara görə, yeddi qiraətin mütəvatirliyini qəbul etməyən Quranın mütəvatirliyini inkar etmiş olur. Lakin bu fikrin əsaslandığı dəlil güclü deyildir. Çünki yeddi qiraətin təvatürünü qəbul etməmək Quranın mütəvatirliyini inkar etmək mənasına gəlmir. Quran ilə qiraətlər arasında bəzi fərqlər vardır. Belə ki, Qurani-Kərim bütün qiraət alimlərinin ittifaq etdikləri miqdarda mütəvatirdir. Yeddi qiraət isə qiraət imamlarının ixtilaf etdikləri və hər təbəqədə rəvayətlərində icma olmadığı miqdarda mütəvatir deyildir. Buradan aydın olur ki, qiraətlərin hər cəhətdən mütəvatirliyini qəbul etməmək Quranın mütəvatirliyini inkar etmək mənasına gəlmir [2, s. 353-354].

2. Bəzilərinə görə digər qiraətlərlə yeddi qiraət arasında heç bir fərq yoxdur. Bütün qiraətlər əhəd yolla sabit olmuşdur. Bu görüş yeddi qiraətə laqeyd yanaşmaqdır. Qiraətlərdən hər hansı birini qəbul etməyənin küfrə düşəcəyini qəbul etməsək də, mütəvatir olduğunu bildiyi halda inkar edənin küfrə düşəcəyində şübhə yoxdur. Bir qiraət bəzi alimlərə görə mütəvatir, digərlərinə görə isə mütəvatir olmaya bilər. Buna görə də yeddi qiraətin mütəvatirliyini qəbul etməyənlər hər halda ixtilaf edilən yerləri nəzərdə tutmalıdırlar [2, s. 353].

3. İbn Hacib (v. h. 646/m. 1248) "yeddi qiraət"in mütəvatir olduğunu, lakin bunun "mədd", "imalə", "həmzənin təxfifi" və s. kimi əda yönündən olmadığını irəli sürmüşdür. Ona görə, təvatür əda yönündən ola bilməz [6, s. 190]. Zərkəşi bu görüşün zəif olduğunu qeyd etdikdən sonra bunları əlavə etmişdir: "Bil ki, Quran və qiraətlər bir-birindən fərqli iki həqiqətdir. Quran Məhəmmədə (s) bəyan və icaz üçün endirilmiş bir vəhydir, qiraətlər isə enən

vəhyin ləfzlərini yazarkən və ya tələffüz edərkən meydana gələn "təxfif" (yüngülləşdirmək) və "təsqil" ("hə" əvəzliyini uzun tələffüz etməmək) kimi fərqliliklərdir". Doğru olan budur ki, "mədd" və "imalə" mütəvatirdir. Lakin alimlər məddin miqdarında ixtilaf etmişlər, bəziləri məddi uzatmış, digərləri isə onu qısaltmışdır. Deməli məddin özü mütəvatirdir, ixtilaflar isə onun keyfiyyətindədir [3, s. 224].

4. Məşhur qiraət alimi Əbu Şaməyə (v. h. 665/m. 1266) görə, yeddi qiraət qurradan nəql edilən təriqlərin birləşdiyi yerlərdə mütəvatir, təriqlərin ixtilaf etdiyi yerlərdə isə mütəvatir deyildir. Bu ixtilafın kəlmənin ədasında və ya ləfzində olması arasında fərq yoxdur [6, s. 190].

Əbu Şamə bu mövzuda bunları söyləmişdir: "Klassik və onların davamçısı olan bir qrup qiraət alimi arasında məşhur fikir yeddi qiraətin tamamilə mütəvatir olmasıdır. Yəni, yeddi imamdan rəvayət edilən qiraətlərin hər biri ayrı-ayrılıqda mütəvatir hökmündədir. Bəzi qiraət alimləri bunların (təriqlərin) qətiyyətlə Allah tərəfindən endirildiyinə inanmağın vacib olduğunu deyirlər. Biz də bunu qəbul edirik, lakin imamlardan nəql edilən təriqlərin birləşməsini, hər imamın bir-birinə zidd olmadan ittifaq halında olmalarını şərt qoşuruq. Bəzi qiraətlərdə bu şəkildə təvatür gerçəkləşmirsə, ən azından bu şərtlər (qiraətlərin mötəbərliyi üçün qəbul edilən üç şərtin) olmalıdır" [6, s. 182].

Qiraətlərin mütəvatirliyi haqqında irəli sürülən fikirlərdən ən qüvvətlisi və həqiqətə uyğun olanı Əbu Şamənin fikridir [3, s. 285]. Yəni, yeddi və ya on imamın qiraətləri ittifaq etdikləri yerlərdə mütəvatirdir, ixtilaf etdikləri yerlərdə isə sənəd baxımından mütəvatir deyildir. Çünki qarelərin isnadları Peyğəmbərə (s) əhəd yolla çatır. Lakin bu qiraətlərin mütəvatir olmaması səhih olmadığı mənasına gəlmir. Belə ki, bir qiraət sənəd baxımından təvatürlə sabit olmamışsa, qiraətlərin səhihliyi üçün lazım olan üç şərt axtarılmalıdır. Əgər bir qiraət üç şərti tamamilə özündə daşıyırsa, mütəvatir olmasa da, səhih (məşhur) qiraət sayılır. Buradan belə nəticəyə gəlmək olar ki, qiraətlərin əksəriyyətində ittifaq olduğuna görə yeddi imamdan rəvayət edilən qiraətlərin əksəriyyəti mütəvatir, ixtilaf edilən yerlər isə mötəbərlik şərtlərinə cavab verdiyi üçün məşhur (səhih) qiraətlər hesab olunur.

# ƏDƏBİYYAT


1. Mahir Qəniyev. Quran elmləri ilə tanışlıq. Bakı: "Digital media" MMC, 2015, 248 səh.
2. Məhəmməd Əbdul-Əzim əz-Zərqani. Mənahilul-İrfan fi Ulumil-Quran, c. I. Beyrut: Darul-Kitabil-Arabiyyi, 1996, 395 səh.
3. İsmail Karaçam. Kurani-Kerimin Nüzulu ve Kıraatı. İstanbul: İFAV Yayınları, 2016, 438 səh.
4. Abdulhamit Birışık. Kıraat ilmi ve tarihi. Bursa: Emin Yayınları, 2014, 219 səh.
5. İsmail Karaçam. Kurani-Kerimin faziletleri ve okunma kaideleri. İstanbul: İFAV Yayınları, 2013, 502 səh.
6. Cəlaluddin Əbdurrəhman əs-Suyuti. Əl-İtqan fi Ulumil-Quran (trc. Dr. Sakıp Yıldız, Dr. Hüseyin Avni Çelik), c. I. İstanbul: Madve Yayınları, tarixsiz.
7. Bədruddin əz-Zərkəşi. Əl-Bürhan fi Ulumil-Quran, c. I. Beyrut: əl-Məktəbətul-Asriyyə, 2004, 342 səh.
8. Seyid Əbülqasim əl-Xoyi. əl-Bəyan fi təfsiril-Quran. Dəruz-Zəhra, 1975.
9. Məhəmməd ibn Yəqub əl-Küleyni. Əl-Üsul minəl-Kafi. İntişarati Üsvə, tarixsiz.
10. Ayətullah Məhəmməd Hadi Mərifət. Quranın tarixi. Xəzər Universiteti Nəşriyyatı, 2013, 188 səh.

Абульфат Велиев

## ВОПРОС О «СЕМИ ЧТЕНИЯХ КОРАНА» В НАУКЕ КИРААТ

РЕЗЮМЕ

Вопрос о «Семи чтениях Корана» является одним из значимых областей исследования науки Кираат. Так как не изучая эту область, невозможно овладеть правильным и совершенным чтением священного Корана. Поэтому во все времена мусульманские ученые, особенно занимающиеся корановедением, обращались к данному вопросу и выдвигали различные теории.

Наряду с изучением теорий мусульманских ученых по данной теме, в статье также представлены наши взгляды относительно данного вопроса.

Abulfat Valiyev

## “7 STYLES OF RECITATION” IN THE SCIENCE OF QIRAAT

SUMMARY

One of the crucial research field of the science of Qiraat is “7 Styles of Recitation” as it’s impossible to fathom the true recitation of the Quran without knowing it. Hence all the mighty Muslim scholars in all ages, specially the ones who have gone into the Quranic sciences, have plunged into this knowledge and contributed various theories to solve the issues.

In this article we have mentioned the theories of those Muslim schoolars and studied their opinions while adding our attidude.

# MÜASİR DİNŞÜNASLIĞIN TƏKAMÜL PROSESİ VƏ METODOLOJİ PROBLEMLƏRİ

***Həsənağa MƏMMƏDLİ,***
*AMEA-nın Fəlsəfə İnstitutunun*
*"İslam fəlsəfəsi" şöbəsinin elmi işçisi,*
*h.h.mammadli@gmail.com*

***AÇAR SÖZLƏR:*** *dini düşüncə, müasir dinşünaslıq, metodoloji problemlər.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *религиозное сознание, современное религиоведение, методологические проблемы.*
***KEY WORDS:*** *religious creation, modern religiousism, methodological problems.*

Dinşünaslığın predmetinə dinin yaranmasının, inkişafının və funksiyasının qanunauyğunluğunu tədqiq etmək, onun müxtəlif səpgili fenomenlərini, cəmiyyət tarixində dinlərin yerini açıqlamaq, mədəniyyətin başqa sahələri ilə dinin qarşılıqlı əlaqəsini və təsirini aşkarlamaq kimi vəzifələr daxildir. Dinşünaslıq əsasən fəlsəfi məzmun daşıyır, bu da iki səbəbdən irəli gəlir. *Birincisi,* burada mərkəz rolunu oynayan obyektin araşdırılmasında universal anlayış və nəzəriyyələrin olmasıdır. Bu anlayış və nəzəriyyələrin konkret elmlər – tarix, folklorşünaslıq, dilçilik, hüquqşünaslıq, etnoqrafiya, sənətşünaslıq və s. baxımından təhlil edilməsi onların anlaşılmasına çox kömək olur. *İkincisi,* dinşünaslıq dinin, o cümlədən insan, dünya və cəmiyyətin araşdırılmasına fəlsəfi nöqteyi-nəzərdən yanaşır. Bu zaman o, fəlsəfi fikir irsinə, təbiət və ictimai elmlərə, həmçinin müasir elmi-texniki inqilabın nəticələrinə, dinin elmi izahına istinad edir. Dinin fəlsəfəsi dinşünaslığın əsas bölməsi hesab olunur. Fəlsəfə öz inkişaf yolunda dinə həmişə tədqiqat predmeti kimi baxmışdır. Dinin dərk olunması fəlsəfi-tarixi prosesin tərkib hissəsini təşkil etmişdir.

Dinin tədqiqində metodoloji araşdırma olmadan dinşünaslığın müasir vəziyyətini (hətta, ümumi vəziyyəti) təsəvvür etmək çətindir. Ona görə də problemin işıqlandırılması baxımından az da olsa, kənara sapma dinin təkamül prosesinin metodoloji cəhətdən öyrənilməsinin vacibliyi haqqında təsəvvür yaradacaqdır. Çünki metodoloji araşdırma dinin spesifik xüsusiyyətlərindən irəli gəlir. Bunu dinin sinkretikliyi lüzumlu edir.

Qərb dinşünasları arasında dinin təbiətinin və funksiyasının öyrənilməsində yekdil fikir yoxdur. Müasir dinşünaslıq fənlərarası tədqiqat kompleksi kimi təqdim olunur. Din araşdırmaçıları müxtəlif məqsədlər güdürlər: onlar müxtəlif fəlsəfi dünyagörüşləri olan mövqedə dayanırlar, həmin mövqelər müxtəlif dini adət-ənənələrə bağlıdırlar. Bu da öz növbəsində hədəflərin və tədqiqat obyektlərinin müxtəlif məzmun daşımasına səbəb olur.

Dinşünaslıq bir tərəfdən teoloji məzmun kəsb etməklə yanaşı, digər tərəfdən dünyəvi akademik normalara uyğun funksiya daşıya bilər. İkinci halda söhbət akademik dinşünaslıqdan gedir.

Akademik dedikdə, ilk növbədə, ideoloji *neytralizm* nəzərdə tutulur. Bu mövqe akademik

tədqiqatçı üçün daha məqbuldur. Əslində, bu, obyektiv və hər şeyə açıq müşahidəçinin mövqeyidir. Çünki bu, imkan verir ki, teologiyanın təsir dairəsinə düşməyəsən, həm də dünyəvi kritisizmə, nihilizmə və ateizmə aludəçilik hisslərindən uzaq olasan.

Müasir dinşünaslıq keçmiş dövrün dinşünaslığından xeyli fərqlənir (xüsusən də XIX əsr dinşünaslığından), çünki dinin dünyəvi araşdırılması teologiya ilə tənqidin bir-birindən ayrılmasından keçir. Dinin təbiətinin araşdırılması özü ilə metodoloji yükü örtülü formada daşıyır, ona görə ki, insanın hər hansı bir maraq dairəsində olan fəaliyyəti tələb edir ki, o fəaliyyətin xarakterini də müəyyənləşdirsin. “Din həm nəzarət olunmayan həyat qüvvəsini, həm də insanda kök salmış, nəzarət olunan həyat nizamını təcəssüm etdirir. Bununla da insanın əsas və hərtərəfli oriyentasiyası təmin olunur” [1, s. 33].

Dinşünaslıq din deyildikdə nə başa düşüldüyünü göstərməlidir. Bu, dinin bu və ya digər anlayışlarını açmaq və aydınlaşdırmaq imkanı verir. Söhbət bu suala cavab verilməsindən gedir: “Hansı anlayışlar, məsələlər və mümkün rabitələr dinin müəyyən anlayışlarından istifadə etdikdə araşdırma sahəsinə düşür, hansılar isə yox?” [2, s. 15-24].

Din anlayışına aydınlıq gətirmək baxımından məşhur din tədqiqatçısı Vaardenburqun verdiyi izah yerinə düşərdi. O hesab edir ki, “biz dini abstrakt səviyyədə “oriyentasiya” kimi, dinləri isə “oriyentasiya sistemləri” kimi qəbul edirik” [2, s. 34]. Onun fikrincə, dünyaya “məna qazandıran çərçivə” olaraq oriyentasiya sistemi bu çərçivədən dünyaya uyğunlaşmağa imkan verir.

Dinşünaslıq tədqiqatları hər hansı bir metafizik ideyaya və ya “dini substansiyaya” maraq göstərməkdən daha çox mövcud cəmiyyətin və ya mədəniyyətin “dini aspektlərinə” konkret olaraq istiqamətlənməlidir. Vaardenburqa görə:

1. Demək olmaz ki, hansısa bir inanc və ya başqa reallıq özündə mütləq bir müqəddəslik ehtiva edir, əks təqdirdə, ona öz-özlüyündə din deyilər. Belə inanclar ümumilikdə dini formalaşdıran elementlərdən biridir.

2. Dini təcrübə. Söhbət təkcə paraqnostik təcrübələrdən və ilhamlanmalardan getmir. O özündə bütöv bir spektr yaradan kosmik-bədən, ekstativ, inspirativ, mistik təcrübələri ehtiva edir. Bütün bunlar əqli baxımdan və ya dini ənənələr çərçivəsində hər hansı bir reallığın və ya başqa reallığı olan kommunikasiyanın təzahürü kimi izah edilir.

3. Dini şərh verilən normalar. Bütün dinlərdə mütləq normalara, qaydalara və qanunlara ilahi yaradılışı təsdiqləyən amil kimi baxılır. Onlar hətta halal-haram, müqəddəs-əyyaş kimi əks anlayışlara da bağlana bilirlər.

Bundan başqa, din həmişə dünyanın və həyatın təzahürlərilə təmasdadır, faktların müqayisəsi onu həmişə empirik olaraq əlçatmaz edir. Ona görə də bütün dinlərdə dünyanın və həyatın təzadları ilə “başqa” təzahürlər arasında gərginlik yaşanıb. “Nə zaman ki, hər hansı bir təzahür düşünülürsə, təqdim olunursa və ya “başqa” təzahürlə manipulyasiya olunursa, onda o, dəyərli simvola və ya əlamətə çevrilir” [2, s. 24].

Dinə “özgə din” formasında da rast gəlinə bilər, yəni başqa bir cəmiyyətin dinləri və ya adət-ənənəsi kimi. Bu problematikanın tədqiqi dairəsində sonrakı əsas istiqamətləri göstərə bilərik: birincisi, dinşünaslığa aid işlərin müxtəlif nəticələrini sintez etmək bacarığı olan ümumi dini nəzəriyyəni müəyyən etmək cəhdi; ikincisi, dinşünaslığa aid fənlərin vahid metodologiyası

haqqında düşünmək; üçüncüsü, müasir dinşünaslığın ümumi xüsusiyyətlərinin üzə çıxarılması imkanlarını araşdırmaq.

Birinci iki istiqamət dinin fəlsəfəsilə dinşünaslıq arasında olan münasibətlərə aydınlıq gətirməyi zəruri edir. Çünki ənənəvi olaraq hesab edilir ki, məhz dinin fəlsəfəsi məzmunlu sintez funksiyasını həyata keçirmək imkanındadır və vahid metodologiyanı onun vasitəsilə tərtib etmək olar. “Dinin araşdırılması mütləq – Frenk Ueylinqin dediklərinə görə − özünün nəzəri metodlarını fəlsəfi ümumiləşməyə və inteqrasiyaya yönəltməlidir” [1, s. 36].

Dinşünaslıq fənlərinin tədqiqinin nəticələrinin sintezi onu göstərir ki, dinin fəlsəfəsi çox əhatəli elmə çevrilir, daha dəqiq desək, dini çoxluğu və müxtəlifliyi ilə birgə əhatəli şəkildə öyrənir. Başqa sözlə, dinin fəlsəfəsi dinin ümumi nəzəriyyəsi olmalıdır.

İndiki zamanda bizim nöqteyi-nəzərimizdən, belə bir vəziyyət, belə bir yanaşma praktiki olaraq mümkün deyildir. Dinşünaslıq fənləri dinin fəlsəfəsinə heç bir maraq göstərmirlər. Bu, onunla bağlıdır ki, dinşünasların fikrinə görə, dinin fəlsəfəsi praktiki olaraq dinin fənlər əsasında elmi cəhətdən öyrənilməsini təmin edə və bu xüsusda heç nə də təklif edə bilmir. Bundan əlavə, dinşünaslar əvvəlki kimi hesab edirlər ki, dinin fəlsəfi tədqiqi dəyərlər səviyyəsində ölçüləndə obyektiv, neytral deyildir, “elmiliyi” aşağıdır. Onlar belə bir baxış bucağını ona görə sərgiləyirlər ki, dinin fəlsəfəsinin əsas və bəlkə də başlıca vəzifəsi dinin həqiqilik problemini həll etməkdən ibarətdir.

Lakin dinin fəlsəfəsi də öz növbəsində dinşünaslıq kompleksinə təsirini belə izah edir ki, o, ictimai şüurda dinin təbiəti və funksiyasının mövcud vəziyyətini nəzəri olaraq tematikləşdirir. Eyni zamanda, dinin fəlsəfəsi özü bu baxışların formalaşmasında bilavasitə iştirak edir. Bu da onun dinşünaslığa kifayət qədər təsir gücünə malik olmasını göstərir.

Tədqiqat məsələlərinin düzgün yönəlməsi istiqamətində ümumi fənlər kompleksinin formalaşmasına cəhd edilir. Həmçinin ümumi şərtlərin üzə çıxması, ümumi, yaxud unifikasiya olunmuş metodologiyanı tərtib etmək, dinşünaslığın imkanlarının və idrak sərhədlərinin kompetensiyasını dərk etmək zamanın tələbidir.

Çox vacib metodoloji problemlərdən biri də dinşünaslıq tədqiqatlarının dil problemidir. Təəssüflər olsun ki, metodoloji diskussiyalarda bu problemə az diqqət ayrılır. Burada etnoqrafik dinşünaslığı qeyd etmək yerinə düşərdi, ona görə ki, dinin etnoqrafik tədqiqatı olmadan dini problematikanın mahiyyətini açmaq mümkün deyildir. Çünki o, dinin yaranış mənbəyini açıqlayır. Digər tərəfdən, dinin genezisinin mahiyyətinin təhlili dinin fəlsəfəsi tərəfindən özünə diqqət tələb edir.

*Etnoqrafik dinşünaslıq* – dinin mənşəyini və ilkin formalarını, ibtidai sinfi cəmiyyətə qədər olan dövrü, həmçinin sinfi cəmiyyətin dini həyat tərzini öyrənir. Onu əsasən ilkin ictimai inkişaf dövrünə gedib çıxan qədim inanclar və kultlar maraqlandırır. Əsas mənbə təzahürlərin bilavasitə müşahidə edilməsidir. O, təkcə müasir təzahürləri fiksasiya etməklə kifayətlənmir, həm də onların tarixi baxımdan yetkinləşməsini və inkişafını, qarşılıqlı əlaqəsini, asılılığını izləyir. Başqa sözlə, etnoqrafik dinşünaslıq dini inancların və kultların formalaşma tarixini və inkişafını tədqiq edir. Etnoqrafik dinşünaslığın materiallarından dinin müqayisəli-tarixi tədqiqində geniş istifadə olunur. O, dinin tarixilə daha çox təmasda olur. Onların predmet sahələri tez-tez üst-üstə düşür.

İbtidai cəmiyyətdə dindən əlavə etnoqrafik dinşünaslığı maraqlandıran başqa cəhətlərdən biri də ictimai şüurun digər formalarını da aşkar etməkdir: incəsənət, ibtidai etika, dinlə bağlı olan müsbət bilgilərin əsasları (bunlar da ibtidai ideoloji sinkretizmlə əlaqədardır). Bunlar da ibtidai mifologiyaya aiddir, çünki onların formalaşmasında dini anlayışlar mühüm rol oynayır. Bundan əlavə, ibtidai cəmiyyətin həyatında dinin yeri və əhəmiyyəti o zaman həqiqi anlamını tapacaq ki, o, bütövlükdə cəmiyyətin həyatı ilə sıx əlaqədə və qarşılıqlı fəaliyyətdə tədqiq olunsun. Çünki ibtidai cəmiyyətin xüsusiyyətlərindən biri də bundan ibarətdir ki, onun daxilində olan dini inanclar və adət-ənənələr onun bütün sferasına daxildir.

Etnoqrafik dinşünaslıq tarixi baxımdan sinfi cəmiyyətə qədər olan dini inancları bu cəmiyyətlərin müstəmləkə dövründə gedən prosesləri də, yeni yaranmış sinkretik kultlar da daxil olmaqla öyrənir.

Dinin yaranma problemləri çox böyük ümumfəlsəfi əhəmiyyətə malik olduğu üçün qədim dünya mütəfəkkirləri tərəfindən hələ o vaxtlar ortaya qoyulmuşdu. Lakin onun həqiqi elmi təhlili yeni dövrdə mümkün olmuşdur. Belə ki, o daha çox etnoqrafiya və arxeologiyanın nailiyyətlərinə istinad etdiyinə görə faktoloji materiallar həqiqi elmi mənzərəni yaratmağa yardımçı olmuşdur.

Arxeologiya çox qədim dini inancların və kultların maddi izlərini bilavasitə bizə çatdırır, etnoqrafiyanın materialları isə arxeologiyadan alınan informasiyanı bizə şərh edir. Bu, inancların və kultların rekonstruksiya olunmasına və onların qarşılıqlı asılılıqda olmasına zəmin yaradır. Etnoqrafiyanın elmi əsasla verilmiş izahları rekonstruksiya məqsədi daşısa da, onlar bəzən xüsusi metodoloji problemlər doğurur. Etnoqrafiya mənbə bazası kimi öz materiallarına istinad edərək nəinki dini formaların təşkilini və inkişafını rekonstruksiya etməyə cəhd göstərir, həmçinin bütöv bir sistem kimi arxaik dini komplekslərə də təsir etməyə çalışır. Bu məqsədlə ictimai inkişaf səviyyəsinin ən aşağı inkişaf dövrünün öyrənilməsi baxımından xalqların inanc və kultlarının müxtəlif elementlərindən istifadə edir. Əlbəttə, bu cür rekonstruksiyanın imkanları məhduddur, nəticələri isə hipotetikdir. Lakin irəli sürülmüş ehtimallar eyni tərtibdə olan faktlara istinadda daha əsaslı görünür. Beləliklə, dinin yaranma mənşəyinin böyük və çətin probleminin etnoqrafiyaya da aidiyyəti var.

Sinifli cəmiyyətin dinlərini xalq mədəniyyətinin bir hissəsi kimi tədqiq edərkən həmin cəmiyyətdə hakim dini sistemin (Buddizm, Xristianlıq, İslam və i.a.) necə qırılmasına diqqət yetirmək lazımdır. Dünya dinləri əsasında yaranmış sektant hərəkatlar (onlarda sosial təbəqələrin və qrupların mədəniyyəti əks olunur) öyrənilmədən dinin təkamül prosesinin yaranmasında zəncirvari ötürmə qırılır. Buraya ibtidai dini inancları (Xristianlığa və İslama qədərki dövr) və kultları da əlavə etmək olar; çünki onlar sinifli cəmiyyətin mədəniyyətində qorunub saxlanılıblar və hakim dinlə münasibət qura biliblər (paralel mövcudluq, onlara təsiri, qarşılıqlı əlaqə, onlar tərəfindən ərimə və i.a.). Qeyd etmək lazımdır ki, burada hakim dinin etnik adət-ənənələrlə təmasda olması və onların bu dinə müəyyən təsirləri problem kimi qalmaqdadır. Bu cızılmış çəmbərə daxil olmuş problemlərin təkcə nəzəri deyil, həm də tətbiqi əhəmiyyəti vardır.

Dinin ictimai inkişafın müxtəlif səviyyələrində ictimai institutların sosial strukturu ilə müxtəlif bağlılığı vardır; bu bağlılıq ibtidai cəmiyyətlərdə daha dərindir. Bu əlaqələrin xarakterinin araşdırılması, dinin müxtəlif sosial-mədəni və etno-mədəni mühitdə (konfessiya

cəmiyyətləri daxil olmaqla, onlar etnoqrafik qrupların bəzi keyfiyyətlərinə malikdir) sosial funksiyalarının açıqlanması qarşımıza qoyduğumuz məsələlərdən biridir. Söhbət etnoqrafik boyası daha çox nəzərə çarpan konfessional cəmiyyətlərdən gedir. Burada istər-istəməz sosial dinlərlə də üzləşirsən. Onların predmet sahəsi bu cür sərgilənir: ictimai cəmiyyətlə təmasda olduğun hər yerdə mahiyyət etibarilə ibtidai inancların sosiologiyası ilə rastlaşırsan, çünki o həm ibtidai inancları, həm də cəmiyyəti tam həcmdə öyrənir. Özlüyündə sinifli cəmiyyət tədqiq olunur, sosial funksiyalar və onların dinlə əlaqələri etnomədəniyyət aspektində öyrənilir. Dinin sosiologiyası ilə kəsişən dinin psixologiyası da vacib bir atribut kimi mövcuddur. Bu halda bütövlükdə ibtidai inancların sosial psixologiyası tədqiqat predmetinə çevrilir və ya etnoqrafik spesifikasiyası olan etnik icmaların inancları sosial psixologiya kontekstində araşdırılır.

Dinin tarixi inkişafında gedən təkamül proseslərini daha dolğun anlamaq üçün etnolinqvistikanın mühüm əhəmiyyəti vardır. Nitqin etnik xüsusiyyətlərini və dinin funksiyasını, onların etnik semantikasını bilmədən qədim dinlərin rekonstruksiyası və etnosun tarixi-dini xarakteristikasını öyrənmək mümkün deyildir.

*Etnolinqvistika* – etnos ilə dilin müxtəlif təzahürləri arasındakı qarşılıqlı münasibətləri öyrənən elmdir. Predmet sahəsində humanitar biliklərin bir çox istiqamətlərilə – sosiolinqvistika, psixolinqvistika, paralinqvistika, etnologiya, folkloristika, mifologiya, dinşünaslıq, poetika – kəsişir. Metodoloji əsas kimi dilin semiotik izomorfizmi və işarə sistemlərində etnik mədəniyyət götürülür. Həmçinin, dünya dinlərinin etnik icmalarla müqayisəsi, dilin etnointeqrasiya və etnodifferensiasiya funksiyasının yerinə yetirilməsi əsas istinad mənbəyi olur. Dil özünün etnik aspektində etnolinqvistikanın obyekti və etnosun dil xarakteristikası kimi çıxış edir. Predmet həddindən artıq genişdir və etnogenez, etnik tarix kimi sahələri əhatə edir: etnodil prosesləri – həm daxili, həm də etnoslararası əlaqələr; etnik icmaların formalaşmasında və funksiyasında dilin rolu; dil və ənənəvi mədəniyyət; dil və düşüncənin etnik spesifikası; dünya dinlərinin etnolinqvistik təsnifatı və i.a. Etnolinqvistikanın bu cür geniş predmet sferası çox sayda nəzəri və metodiki yanaşmaları və müəyyən dərəcədə nəzəri natamamlığı özündə əks etdirir [3, s. 97, 106].

Beləliklə, yuxarıda deyildiyi kimi, etnolinqvistika nəzəriyyəsində mərkəzi mövqe tutan əsas problem dilin mədəniyyətdə olan yeridir, dilin etnosla və ya etnik mədəniyyətlə birgə qarşılıqlı fəaliyyətidir. Bu vasitə ilə dil və mədəniyyətin qeyri-verbal formaları arasında qarşılıqlı əlaqə yaranır, burada dil mədəniyyətin iştirakı ilə gerçəkliyi əks etdirir və müəyyən dərəcədə mədəni kodların formalaşmasına, etnomədəni informasiyanın mənimsənilməsinə təsir göstərir. Ona görə də dil etnik funksiyaların aydın ifadəsini özündə əks etdirir və buna adətən, etnik arealın əsas əlamətlərindən biri kimi baxılır. Etnosda dilin spesifik mövcudluğunun olması vacib deyildir; dilin differensial və inteqral funksiyalar daşıması daha önəmlidir. N.İ.Tolstoy hesab edir ki, mədəniyyət "dildə istifadə və təsvir olunan əlamətlər toplusu ilə dilçiliyin istifadə etdiyi anlayışlar əsasında formalaşır və mahiyyət etibarilə ümumi məntiqi aparata aid edilir. Çünki dilə və xalq mədəniyyətinə müxtəlif semiotik (simvollar, işarələr) fenomenlər kimi baxılır, bu da hər hansı bir müəyyən sosium ilə əlaqədardır, əsas odur ki, bu müəyyənləşmiş etnosla baş verir" [4, s. 188].

Qərb məktəbləri üçün etnosemantikaya, koqnitiv kateqoriyaların öyrənilməsinə və

qapalı terminoloji sistemlərə diqqət xarakterik hal hesab olunur. Fritç Ştoltç dinşünaslıq araşdırmalarının dilini dini dilə münasibətdə metadil kimi başa düşür. O, dini anlayışları "Dinşünaslıq dili" adlandırır və nizama salır. Ştoltçın yazdığına görə, "Bu dildə dini təzahürlər, dini anlayışlar yenidən rekonstruksiya olunur. Beləliklə, biz bunu metadil adlandıra və simvolik sistemlərin izahından istifadə etməklə onların mahiyyətini hərtərəfli, dolğun göstərə bilərik" [2, s. 230].

Metodoloji baxımdan Ştoltç çox vacib bir məsələyə toxunur. Metadil vasitəsilə dinə məxsus dili simvolik sistemdən "ayırmaq" həmçinin dinin həyatın özündən ayrılması deməkdir.

Dinşünaslığın təhlilində istifadə olunan elmi aparat "dinin istisnalığını" inkar edir. O deyir: "Bu o deməkdir ki, dinin əsas ölçüsü kimi qəbul edilmir. Dinlər məhz insan tərəfindən nəzarət edici distansiyasını yaxın buraxmadıqları üçün belə ifadə edilir. Teologiya fəlsəfəsinin ənənəvi kateqoriyaları ilə desək, din həqiqətə iddialıdır, üstəlik, elə bir həqiqətə ki, bu həqiqətin elmi-nəzəri mahiyyətindən çox kənara çıxır... Dinşünas hər hansı bir dinlə yaxından tanış olduqca, bu həqiqət bir o qədər qabarıq şəkildə özünü göstərir. Buna baxmayaraq, o metodiki surətdə və bilərəkdən onu mötərizədən kənara çıxarır. Bununla da təhlil müəyyən mənada predmetin planlı təhrifini təmin edir" [2, s. 237].

Ümummetodoloji problematikaya müasir dinşünaslığın sintetik qiymətinin izahını məşhur filosof və dinşünas Ninian Smartla başa vurmaq daha məqsədə uyğun olardı. Beləliklə, bu qiymət təkcə qeyd etdiyimiz məqamlara (xüsusən də metodoloji baxımdan) toxunmur, həm də müzakirə olunan bəzi məsələləri də istiqamətləndirir.

Smart müasir dinşünaslığın bəzi məqamlarını ayrıca verir. Birincisi, plüralistikdir; bir çox dinlərlə və dünyəvi dünyagörüşlərilə məşğuldur. İkincisi, ənənəvi dinlərin sərhədlərindən kənara çıxan sistem və inancların, simvolların öyrənilməsi üçündür. Üçüncüsü, o, dünyagörüşlərini həm tarixi, həm də sistematik araşdırır, "strukturlaşmış empatiya" vasitəsilə dindarların baxışını dəstəkləyir, onlar tərəfdə olur. Dördüncüsü, tematik müqayisələri həyata keçirir, belə ki, bu, ayrı-ayrı ənənələri işıqlandırmağa kömək edir. Beşincisi, o polimetodikdir: müxtəlif fənlərin – incəsənət tarixi, filologiya, arxeologiya, sosiologiya, antropologiya, fəlsəfə və i.a. metodlarından istifadə edir. Altıncısı, o, dini ideyaların və təcrübənin hakimliyini, həm də onların insan həyatının bir çox aspektlərilə qarşılıqlı münasibətini göstərmək istəyir. Yeddincisi, o, dünyanın və inancların müxtəlif sistemlərini başa düşmək üçün şərait yarada bilir, həm də ruhani həqiqətin axtarışında da böyük köməklik göstərir [2, s. 15-20].

## ƏDƏBİYYAT


1. Идеализм и религия. Реферативный сборник. М.: 1977, 295 с.
2. Зарубежные концепции философии религии. Реферативный сборник. М.: 1977, 266 с.
3. Этнография и смежные дисциплины. Этнографические субдисциплины. Школы и направления. Методы. / под ред. М.В.Крюкова, И.Зельнова. М.: Наука, 1988, 223 с.
4. Толстой Н.И. О предмете этнолингвистики и ее роли в изучении языка и этноса // Ареальные исследования в языкознании и этнографии. Язык и этнос. Л.: 1983.

Гасанага Маммадли

## ПРОЦЕСС ЭВОЛЮЦИИ И МЕТОДОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ СОВРЕМЕННОГО РЕЛИГИОВЕДЕНИЯ


### РЕЗЮМЕ

В представленной статье предпринята попытка разработать новые подходы к определению природы и сущности религии. Чтобы раскрыть сущность происхождения и развития религии, на наш взгляд следует обратиться к ней с позиций эволюционно-исторического подхода.

Проблемы методологии научного исследования все более настоятельно требуют специального изучения и на этой основе методология науки обнаруживает растущую тенденцию к системному подходу в современной науке.


Hasanagha Mammadli

## EVOLUTIONARY PROCESS AND METHODOLOGICAL PROBLEMS OF MODERN RELIGIOUS STUDIES


### SUMMARY

In this article, new approaches to the study of the nature and essence of religion have been initiated. In our view, it is necessary to approach it from a historical-evolutionary point of view to the essence of religion’s creation and development.

Firstly, the study of the methodological problems in scientific research requires a special approach and, based on this, the methodology of science has a growing tendency to systematic approach to modern science.

# SPİNOZA VƏ İSLAM

***Zaur RƏŞİDOV,***
*AMEA-nın Fəlsəfə İnstitutunun*
*"Azərbaycan fəlsəfə tarixi"*
*şöbəsinin elmi işçisi,*
*zaur20@mail.ru*

***AÇAR SÖZLƏR:*** *Əndəlüs, İslam, sufizm, rekonkista, marranlar, morisklər, səfəradlar, mozərəblər, spinozizm, averroizm, aljamiado, ivrit.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Аль-Андалус, ислам, суфизм, реконкиста, марраны, мориски, сефарды, мосарабы, спинозизм, аверроизм, альхамьядо, иврит.*
***KEY WORDS:*** *Al-Andalus, Islam, Sufism, Reconquista, marrano, morisco, sephardi Jews, mozarabs, Spinozism, Averroism, aljamiado, Hebrew language.*

## Giriş

Tarixdən məlum olduğu kimi, Pireney yarımadasının böyük bir qismi uzun müddət ərəb xilafətinin tərkib hissəsi olmuşdur. Geniş ərazilərə malik olan xilafətin Əndəlüs əmirliyi (indiki İspaniyanın cənubundakı tarixi vilayət ilə qarışdırılmamalıdır) kimi tanınan bu əyalətdə X-XII əsrlərdə elmin və mədəniyyətin bütün sahələrində ümumi yüksəliş baş vermişdir. Bu məkandakı intibah nəticəsində bütövlükdə dünya mədəniyyəti də zənginləşmişdir. Orta əsrlərdə Əndəlüsdəki bu inkişaf həm də fəlsəfə tarixinə çoxsaylı nəhəng filosoflar bəxş etmişdir. Belə ki, istər Qərbin, istərsə də Şərqin digər bölgələrində arasıkəsilməz qanlı müharibələrin getdiyi bir dövrdə insanpərvərliyin və sülhün hökm sürdüyü Əndəlüsdə İslam, xristian və yəhudi mədəniyyətlərinin qarşılıqlı vəhdətindən formalaşan böyük bir alim ordusu yetişmişdir. Qeyd etdiyimiz əsrlərdə Əndəlüsdə hakimiyyətdə olan xəlifələrin saraylarında bütün dinlər bərabər hüquqa malik olmuşlar. Eləcə də, bu torpaqlarda əsas danışıq dilinin ərəb dili olması həmahəng surətdə, qarşılıqlı inkişaf edən fərqli fəlsəfi məktəblərin və onların ideyalarının da vəhdətinə gətirib çıxarmışdır. Bu müsbət cəhətlər həm də qeyd etdiyimiz hər üç aparıcı dini təmsil edən mütəfəkkirlər arasında qırılmaz elmi əlaqələrin qurulmasına da təsir etmişdir. Beləliklə, fərqli adət-ənənələri, din və mədəniyyətləri təmsil edən Əndəlüs mütəfəkkirlərinin ortaq nailiyyətləri nəticəsində olduqca zəngin və bənzərsiz bir fəlsəfi irs meydana gəlmişdir. Bununla yanaşı, müxtəlif dövrlərdə Əndəlüsü idarə edən xəlifələrin göstərişləri, lazımi yardımları, hətta, bir qisminin birbaşa iştirakı ilə Antik dövr filosoflarının əsərləri də kütləvi şəkildə ərəb dilinə, eləcə də ərəb-İslam mütəfəkkirlərinin əsərləri də latın və bəzən digər Qərb dillərinə tərcümə edilmişdir.

Amma XIII əsrin sonlarından başlayaraq hakimiyyətdə olan ərəblər ilə qonşu ispan və portuqal qraflıqları arasında baş verən aramsız və amansız müharibələr nəticəsində bu mədəni yüksəliş xeyli dərəcədə zəiflədi. XIV əsrdə isə, Əndəlüs vilayətinin böyük bir qismi xristian monarxları tərəfindən zəbt olundu. XV əsrin sonunda (1492-ci ildən sonra) ərəblərin və eləcə

də müəyyən mənada bu əsrlər ərzində onlara qaynayıb-qarışmış yəhudilərin Əndəlüsdən qovulması prosesi adlanan rekonkista hərəkatı başa çatdıqdan sonra Pireney yarımadasının böyük qismində hakimiyyət ispanların əlinə keçdi. Üç əsas dinin qəyyumu olmaqdan imtina edən ispan kralı II Ferdinandın (1452-1516) əmri ilə hələ də bu ərazidə (əsasən İspaniyanın cənub əyalətlərində) yaşayan yerli ərəb və yəhudilər kütləvi şəkildə təqib olunmağa başlandı. Dinc əhalinin bu dözülməz təqiblərə qarşı 1609-1614-cü illərdə qaldırdıqları sonuncu üsyanlar da uğursuzluqla nəticələndikdən sonra öz yüksək ziyalılıqları ilə seçilən morisk[1] və marranların[2] da İspaniyadan qovulması ilə əsrlər ərzində toplanan və müxtəlif mədəniyyətlərin birgə vəhdətindən doğan ərəb elmi də bu məkandan həmişəlik köçmüş oldu. Beləliklə, ümumilikdə Əndəlüs*dəki* Əndəlüs *ərəb mənəvi mədəniyyəti* də tənəzzülə uğradı. Bu proseslər nəticəsində çox keçmədən bütün Pireney yarımadasında ərəb-İslam fəlsəfəsi də tamamilə unuduldu. Eləcə də, ərəblərə qarşı yerli xristian krallıqlarının apardıqları azadlıq mübarizələrinin dini zəmində köklənməsi unudulma prosesinə öz mənfi və sonda isə həlledici təsirini göstərdi. Amma İslam bütövlükdə Avropanın cənubunu tərk etsə də, ərəb-İslam fəlsəfəsi Avropadan tamamilə ayrılmadı. Bu torpaqlardan təqib olunaraq qovulan ərəb filosoflarının əbədi olaraq yaddaşlardan silinməsi mümkün olmayan zəngin və çox əsrlik fəlsəfi irsi öz mövcudluğunu bir qisim yəhudi filosoflarının düşüncəsində şəkil dəyişmiş formada olsa da, qoruyaraq davam etdirdi. Belə ki, XV əsrin sonu-XVI əsrin əvvəllərində ərəblərin Avropadan kütləvi şəkildə qovulması ilə Əndəlüs mühitində ərəb dili öz əhəmiyyətini itirmiş olsa da, elə bu əsrlərdə öz inkişafının zirvəsinə çatan Avropa İntibah dövrü (renesans) ərəblərin unudulmuş mədəniyyətini, eləcə də fəlsəfəsini ivrit dilində qəbul etdi. Qeyd etmək lazımdır ki, bu qovulma prosesində ərəblər əsasən bir vaxtlar gəldikləri Məğrib ölkələrinə, öz qədim inanc, eləcə də dini adət-ənənələrini qoruyan yəhudilər isə geniş Osmanlı imperatorluğunun müxtəlif əyalətlərinə, əsasən də Yaxın Şərqə üz tutdular. Rekonkista bitdikdən sonra ispanlaşmış yəhudilər olan səfəradlar (səfərad termini də ispan sözünün şəkildəyişməsidir) isə İspaniya və Portuqaliyanı tərk edərək Avropanın müxtəlif ölkələrinə, əsasən də XVII əsrdə mədəni yüksəlişin zirvəsində olan Niderlanda köçdülər və müəyyən qədər öz təfəkkürlərində yaşatdıqları ərəb mənəvi mədəniyyətini, ərəb dili və əsasən də ərəb düşüncə tərzini özləri ilə apardılar. Səfəradların ivrit ilə yanaşı, ladino adlanan öz danışıq dilləri də nitqdə bir çox ərəb kəlmələrini hifz edərək qorudu. Bununla yanaşı, hələ XVI əsrin ortalarınadək Pireneydən köçüb Avropaya yayılan səfəradlar da ərəb dilini tam unutmamışdılar. Eləcə də, ərəblərin Pireney yarımadasından qovulmasından sonra uzun müddət Avropada öz əhəmiyyətini itirməyən aljamiado[3] yazı üslubu da səfəradlara miras qaldı. Beləliklə, "xalqların böyük köçü" nəticəsində səfəradlar Əndəlüs məkanının zəngin ərəb dilli fəlsəfi irsinin Qərbdəki yeni təmsilçilərinə çevrildilər.

Məlum olduğu kimi, orta əsrlərdə, xüsusilə də kilsənin ən qüdrətli olduğu XI-XIII əsrlərdə hələ qədimlərdən Antik dövr filosofları tərəfindən qələmə alınan çoxsaylı elmi-fəlsəfi əsərlərin

1 Zorla xristianlıq qəbul etdirilmiş ərəblər.

2 Rəsmi surətdə xristianlığı qəbul etsələr də, gizli olaraq iudaizmə də sitayiş etməkdə davam edən yəhudilər.

3 Roman dillərində olan müxtəlif dini, elmi, fəlsəfi, bədii mətnlərin ərəb hərfləri ilə yazılma üsulu.

böyük bir qisminin əlyazmaları apologetika[4] və sxolastika (məktəb fəlsəfəsi) nümayəndələri tərəfindən Xristianlığa zidd yazılar kimi qələmə verilərək məhv edilsə də, Antik dövrün zəngin irsi demək olar ki, tam şəkildə (Qədim Roma imperiyasının iki qismə bölünməsindən orta əsrlərin ortalarınadək çatmış antik irs) ərəb dilinə tərcümə olunaraq dünyaca məşhur olan Əndəlüs kitabxanalarında qorunurdu. Bu cəhətdən Avropa İntibahı birbaşa olaraq antik fəlsəfəyə üz tutduğundan, ərəb dili yenidən gündəmə gəldi. Artıq bu qədim fəlsəfə əsasən səfəradlar tərəfindən kütləvi şəkildə ərəb dilindən İntibah dövrünün ümumi elmi dili olan latın və sonralar da latından digər Avropa dillərinə tərcümə olunmağa başladı. Qəribə səslənsə də, VIII əsr ərzində yunanların və romalıların zəngin fəlsəfi mirasını tərcümə edərək, elə Romanın özündən də qoruyub saxlayan Şərqin ərəb dili illərlə hifz etdiyi bu qiymətli bəxşişi yenidən Qərbə qaytardı. Qərbin bu irsi, elə Qərbin özü üçün tərcüməsi də hələ antik fəlsəfənin yaranmasından xeyli əvvəl Şərqdən qovulan yəhudilərə həvalə olundu.

Amma təqribən rekonkistanın kəskinləşdiyi XIV əsrin sonlarından başlayaraq XVII əsrin əvvəllərinədək bütövlükdə tamamlanan tərcümələr (antik fəlsəfənin ərəb və qədim yunan dilindən latın dilinə tərcüməsi) mərhələli şəkildə davam edən növbəti mürəkkəb proseslərin sonunda yeni çətinliklər ilə üzləşdi. Belə ki, bu əsrədək əziyyətlər bahasına tərcümə olunmuş antik fəlsəfə və onun qəyyumu olan İntibah dövrünə meydan oxuyacaq fərqli bir ənənə formalaşdı. Bu yeni ənənə Avropa İntibah dövründə bütləşərək humanist filosofların səcdəgahına çevrilən antik fəlsəfəni şübhə altına alıb, yenidən saf-çürük etməyə başladı. Yeni dövr adlı *qəflətdən qəfil* törəyən bu ənənə artıq keçmişin qədim ənənələrindəki köhnəlikləri silərək onların yerinə öz yeni fəlsəfəsini yazmağa hazırlaşırdı. Uzaq keçmişdə son keşikçisi ərəb dili olmuş antik fəlsəfəyə amansız “divan tutan” Frensis Bekon (1561-1626), Tomas Hobbs (1588-1679), Rene Dekart (1596-1650), Con Lokk (1632-1704), Nikolas Malbranş (1638-1715), Qotfrid Vilhelm fon Leybnis (1646-1716) və digərlərindən fərqli olaraq, elə bu keçmişin yaxın Əndəlüs şəcərəsindən olan sonuncu varisi Benedikt Spinoza (1632-1677) daha mərhəmətli oldu. Bu cəhətdən yeni dövr fəlsəfəsinin banilərindən biri olan Spinozada Qərbin yeni fəlsəfəsi qədim fəlsəfəyə əlavə olunmuş nisbətən yaxın keçmişdəki zəngin Şərq ənənələrini (Əndəlüs ərəb-yəhudi məktəblərinin fəlsəfi təlimlərini nəzərdə tuturuq) də qoruyaraq eklektik[5] bir formada təzahür etdi. Tanınmış alman filosofu Eduard fon Hartman (1842-1906) da yazır ki, Spinozanın fəlsəfəsi müsəlman İspaniyasından qaynaqlanır [1, s. 277]. Düşünürük ki, Spinozanın fəlsəfi sisteminin ümumi məntiqi forması, yazı dili və başlıca terminləri Qərbindirsə, bu sistemin sirrli mahiyyəti, bədii dili və gizli işarətləri Şərqindir. Çünki spinozizm[6] yarı Qərb, yarı da Şərq

---

4 Yunanca “dəf edirəm, cavabını verirəm” deməkdir. Apologetika dini qorumağa yönəlmiş xristian ilahiyyatıdır.

5 Eklektizm müxtəlif fəlsəfi sistemlərin vəhdətidir.

6 Spinozizm termini altında ümumilikdə, Spinozanın bütöv fəlsəfi sistemi nəzərdə tutulur. Müasir tədqiqatçılar çox vaxt bu termin ilə Spinozanın özünəməxsus panteizmini də ifadə edirlər. Spinozanın fəlsəfi sistemi-spinozizm vahidlik prinsipinə tabedir. Onun substansiya adlandırdığı vahid varlıq Tanrı və ya təbiət (Deus sive natura) ilə də eynianlamlıdır. Bu vahidin əlamətlərinin həm təzahür edərək görünən, həm də düşünülə bilinən formaları atributlardır. İnsanın dərk etmə imkanları maddi və mənəvi ilə məhdudlaşdığından, insan da bu ikisini dərk etmək ilə kifayətlənməli olur. Spinozanın fəlsəfi sistemində Tanrı və substansiyaya bərabər tutulan təbiət tam olaraq maddi deyil. Təbii qanunauyğunluqlar, zəruri nizam, hadisə və proseslər arası bağlılıq və əlaqəlik, bir sözlə qanunlar formasında təzahür edən vahid bir qüvvədir. Maddilik də, bu qüvvənin daxilindədir.

mənşəli fəlsəfi təlimdir.

**Bilavasitə tanışlıq**. Qeyd etdiyimiz kimi, Spinoza öz düşüncə tərzinə görə yaşadığı əsrin əndazəsinə uyğun gəlməyən bir filosof olmuşdur. Belə ki, o, bir tərəfdən ümumiyyətlə Qərbdə "ögey" şərqli olmaqla bərabər, digər tərəfdən dövrünün tələblərinə qarşı çıxaraq həm xristian, həm də yəhudilərin dini kitablarındakı ilahi həqiqətləri də şiddətli tənqid atəşinə tutmuşdur. Bu cəhətdən, bir çox fəlsəfə tarixçiləri onu "Bibliya"nın[7] elmi-fəlsəfi dəlillər əsasında tənqidinin əsasını qoyan ilk filosoflardan biri (bəzən isə elə birincisi) hesab edirlər. Qeyd edək ki, Spinoza "Talmud"un[8] da mahir bilicisi olmaqla, bu kitablar külliyyatının da elmi tənqidçilərindən sayılır. Spinoza "Talmud"dakı ayrı-seçkilikləri, xüsusilə, yəhudi xalqının seçilmiş olmasının açıq təbliğini, "Talmud"un ümumiyyətlə subyektiv xarakter daşımasını, bu çoxcildli kitabdakı tarixi faktlarla üst-üstə düşməyən bəzi ziddiyyətli məsələləri və onların birmənalı izahlarını, eləcə də bu yəhudi təfsirlərindəki həddən ziyadə fövqəltəbii məqamları və izah mümkünsüz olan dini həqiqətləri qəbul etmirdi. Spinoza "Bibliya" və "Talmud"dakı bu kimi ifrat ünsürlərin inanclı insanlara faydalı bilik vermək iqtidarında olmasını inkar edərək açıq şəkildə yəhudi və xristian ilahiyyatına qarşı çıxırdı. Qeyd edək ki, Spinozanın əsərlərində İslamın müqəddəs kitabı Quranla da bağlı bəzi məqamlar vardır. Onun qələmə aldığı əsərlər (xüsusən də "Teoloji-siyasi traktat" adlı əsərində), eləcə də Avropanın müxtəlif ölkələrindən olan alimlərə ünvanladığı məktublardan aydın olur ki, Spinoza İslamın monoteizm prinsipləri, Quranın poetik dili və müəyyən mənada bu dinin müsəlmanlara aşıladığı (Spinozaya görə, digər dinlər və onların dindarlarından fərqli olaraq) üstün əxlaq və ədalət haqqında ümumi biliklərə malikdir. Həmçinin, Spinoza Avropada qənaətbəxş idarəçiliyə malik yeganə respublika hesab etdiyi Niderland (Yeddi Birləşmiş Aşağı Əyalətlər Respublikasının XVII əsrdə dənizlərdə Osmanlı dövləti ilə mənafeləri toqquşurdu) və bu ölkənin baş kilsəsinin də təbliğinə (XVII əsrdə bütün Qərb kilsələri xristian olmayanların hamısını kafir hesab edirdi) etinasızlıq nümayiş etdirərək, öz ümmətinə ilahi qanunların təbliği cəhətdən Məhəmməd peyğəmbəri də bütün digər monoteist dinlərin peyğəmbərlərdən ayırmırdı (Spinoza bu məsələni özünəxas şəkildə bir qədər təzadlı və bəlağətli cümlələr ilə izah etsə də, ümumi nəticə bunu söyləməyə tam əsas verir). Bundan əlavə, Spinozada İslamdakı dini həqiqətlərin təbliği ilə bağlı məsələlərin qoyuluşuna münasibət Xristianlıq və Yəhudilikdə olduğu kimi tənqidi xarakteri ilə seçilsə də, o, həqiqi inanc sahiblərinin hamısına eyni göz ilə baxmağın nəinki mümkün, hətta vacib olduğunu yazaraq insanlar arasında dini bərabərliyin zəruriliyini də önə çəkirdi. Məhz bu məqam xüsusilə Spinozanın Yakob Ostensə (1625-1678)

---

Spinozanın sistemindəki sırf maddi təbiət isə sonsuz bir varlıq və ya sonsuz modusdur (facies totius universi). Bu sonsuz modus təbii qanunların daimi təsirinə məruz qalan sonsuz forma və müxtəlifliklərə malik sonsuz bir maddi məkandır. Bu təbii qanunların maddi təbiətdə gerçəkləşmə şərtləri olan hərəkət və sükunət (motus et quies) də Spinozanın sistemində sonsuz moduslardır. Maddi təbiət və hərəkət ilə birgə sükunət maddi sonsuz moduslar kimi substansiyanın yertutarlıq, yəni maddi olan atributuna aiddirlər. Substansiyanın təfəkkür (mənəvi) atributuna aid olan sonsuz modus isə, sonsuz intellekt (intellectus infinitus) və ya Tanrının sonsuz ideyasıdır (infinita idea Dei). Spinozanın təlimində moduslar sonsuz olmaqla, konkret xassə və keyfiyyətlər qismində sonlu moduslara da bölünürlər. Vahid substansiya və ya Tanrıya daxil olan gerçəklikdəki və ya maddi təbiətdəki bütün şəkildəyişmələr, çoxluqlar və müxtəlifliklər sonlu moduslar kimi sonsuz sayda əks olunan görüntülərdirlər. Vahidin "surətini" əks etdirən sonsuz "aynalar" və ya onun "kölgələridirlər".

7 Tanax (Əhdi-Ətiq) və İncil (Əhdi-Cədid) adlı iki hissədən ibarət dini kitab.

8 İbranicə "təlim" deməkdir. Talmud İudaizmin təfsirlər külliyyatıdır.

ünvanladığı məktubda, teoloq Lambert van Veltuisenin (1622-1685) kəskin tənqidlərinə verdiyi cavabın yekununda da aydın şəkildə görünür [2, s. 881].

Spinozanın İslam dinindən (birbaşa Quran) başqa, həm də əvvəldə qeyd etdiyimiz müxtəlif tərcümələr əsasında Şərq peripatetiklərindən olan məşhur filosoflar, xüsusən Əbu Yusif əl-Kindi (Alkindus) (801-873), Əbu Nəsr əl-Fərabi (Alpharabius) (872-950), İbn Sina (Avicenna) (980-1037), eləcə də böyük İslam teoloqu, filosof və mütəsəvvüfü Əbu Hamid əl-Qəzalinin (Algazel) (1058-1111) əsərlərini mütailə etməsi də ehtimal olunur. Çünki XVII əsrdə bu İslam filosoflarının əsərləri Qərbi Avropada geniş ziyalı oxucu kütləsinə malik idi.

Qeyd edək ki, Spinozanın yaşadığı illərdə Qərb alimləri tərəfindən yenidən tədqiq olunmağa başlanan *qərbli İslam filosofları* da vardı. Belə filosoflardan biri müsəlman İspaniyasında məşşailiyin ilk böyük nümayəndələrindən sayılan İbn Baccədir (Avempace) (1085-1138). İbn Baccə öz elmi fərziyyələri və fəlsəfi-məntiqi mühakimələri ilə Spinozanın yaşadığı mexanika əsrinə böyük töhfələr vermiş Qalileo Qalileyin (1564-1642) bir sıra vacib kəşflərinə də zəmin hazırlamışdır [3, s. 246]. İbn Baccənin digər məşhur Əndəlüs filosoflarından İbn Tufeyl (Abubacer) (1105-1185) və İbn Rüşdün (Averroes) (1126-1198) sələfi olması da məlumdur. Qeyd etmək lazımdır ki, İbn Rüşdün latınlaşmış adı ilə bağlı olan averroizm təlimi XIII əsrdən başlayaraq Qərbi Avropada geniş yayılmışdır. Eləcə də, bu təlimin əsas nümayəndələrindən sayılan Brabantlı Siger (1240-1284) və Dakialı Boetsi (təq.1240-1290) orta əsr Avropa fəlsəfəsinin ən tanınmış nümayəndələrindən (mühaziərəçi sxolast professorlar) hesab olunmaqdadır. O cümlədən, İbn Rüşdün məktəbi Spinozanın dövründə də Qərb tədqiqatçılarında böyük maraq oyadırdı. Həmçinin qeyd edək ki, Averroesin Spinozaya təsiri ilə bağlı tədqiqatların tarixi də yetərincə qədimdir. Belə ki, averroizm ilə spinozizmin bağlılığına hələ Spinozanın demək olar ki, öz müasirləri də diqqət yetirmişdilər. Bu cəhətdən, alman filosofu və lüteran teoloqu İohan Frans Budde (1667-1729) də yazır ki, averroizm spinozizmin Spinozadan əvvəlki formasıdır [4, s. 260].

İbn Tufeylə gəldikdə isə qeyd edək ki, “Hay ibn Yakzan” adlı məşhur bədii-fəlsəfi əsərin müəllifi olan filosof XIV əsrdən başlayaraq XVIII əsrədək böyük bir nəsil Avropa filosof, alim və yazıçılarına (xüsusən Daniel Defonun (1660-1731) məşhur “Robinzon Kruzo” romanında bu təsir daha qabarıqdır) təsir göstərmişdir. Spinozanın Abubacerin yaradıcılığı ilə birbaşa tanışlığı da məlumdur. Hətta İbn Tufeylin müasir tədqiqatçılarından sayılan S.Attar hesab edir ki, “Hay ibn Yakzan” əsərini niderland dilinə tərcümə edən də Spinozadır [5, s. 40].[9] Abubacerin fəlsəfi irsini araşdıran digər tədqiqatçı L.E.Qudman isə belə nəticəyə gəlir ki, bu əsəri niderland dilinə tərcümə edən Spinoza yox, Bouvmisterdir [6, s. 66-67]. “Hay ibn Yakzan”ın kim tərəfindən tərcümə olunması bir qədər mübahisəli məsələ kimi qalsa da, Spinozanın əsər ilə tanışlığı tam dəqiqdir. Qeyd edək ki, ixtisasca həkim olan Yohan Bouvmister (Johannes Bouwmeester) (1634-1680) Spinozanın ömrünün sonunadək ən yaxın dostluq əlaqələri saxladığı və daima yazdığı məktublar vasitəsilə fəlsəfi fikirlərini bölüşdüyü niderland ziyalılardan biri olmuşdur.

**Bilvasitə tanışlıq**. Fikrimizcə, Spinozanın İslam fəlsəfəsi ilə bilvasitə (düşünürük ki, ən başlıca tanışlıq da elə budur) tanışlığında əsas mənbə orta əsrlərdə Əndəlüsdə yaşayıb-

9 Bu əsər 1349-cu ildə ərəbcədən ivritə, XV əsrdə isə, tanınmış italyan mütəfəkkiri və humanisti Piko della Mirandolla (1463-1494) tərəfindən ivritdən latın dilinə tərcümə olunmuşdur.

yaratmış çoxsaylı yəhudi filosoflarının, elə Spinozanın öz əcdadları tərəfindən ərəb dilindən ivrit və əsasən də latın dilinə təcümə edilmiş əsərləridir. Qeyd etmək lazımdır ki, Spinoza bu tərcümələr əsasında Əndəlüsdən olan çoxsaylı yəhudi filosoflarının zəngin fəlsəfi yaradıcılıqları ilə yaxından tanış ola bilmişdir (Spinoza ladino dilindən başqa, niderland, ivrit, ispan, portuqal və latın dillərini mükəmməl, fransız və italyan dillərini isə yaxşı bilirdi). Spinozanın əsərlərində birbaşa istinad olunan, eləcə də aşkar izi və ya təsiri duyulan belə filosoflar arasında yəhudi kəlam məktəbinin ilk nümayəndələrindən hesab edilən Saadiya Qaon (882-942), əruz vəznini yəhudi poeziyasına daxil edən Süleyman ibn Qabirol (1021-1058), sufi mistikasının təsiri altında olan Bəhya ibn Paquda (1050-1120), məşhur "Kitab əl-Xəzəri" (Kuzari) əsərinin müəllifi Yəhuda Haləvi (1075-1141), ərəb dilində yazdığı fəlsəfi traktatlardan başqa, ərəb nəzmindəki müvəşşəh (bəzəkli, bəzənmiş)[10] adlanan şeir forması əsasında poeziya nümunələri yaradan Avraam ibn Əzra (1089-1167), məşşailərin məşhur davamçısı Moşe ben Maymon (Maymonid) (1138-1204)[11], yəhudi mistikası olan kabbalanı[12] sufizmin elemetləri ilə zənginləşdirən, türk-tatar (məmlük türklərinin) dilinin də bilicisi olan "yəhudi sufisi" Avraam Əbulafiya (1240-1291) xüsusilə seçilirlər. Qeyd edək ki, Spinozanın irsində öz əksini tapmış (Spinozada bu filosoflardan bəzilərinə istinad birbaşadır) bu məşhur əndəlüslü yəhudi filosoflarından A.Əbulafiyadan başqa (o da ərəbcə mükəmməl bilirdi), digər filosoflar əsərlərini əsasən ərəb dilində yazmışlar. Bu filosofların bəzilərinin əsərləri elə onların öz sağlıqlarında, bir qismi isə XV əsrədək artıq ivrit və latın dillərinə tərcümə olunmuşdur. Fikrimizcə, Spinozanı İslama (İslami fəlsəfi ideyaları nəzərdə tuturuq) yaxınlaşdıran əsas məqamlardan biri də bu yəhudi filosoflarının əsərlərinin kökündə olan ərəb dili və bu dil ilə onlara əbədi həkk olunan İslam ruhudur. Adlarını çəkdiyimiz yəhudi filosofları İslam məkanı olan Əndəlüsdə yaşamalarından və ərəb dilində yazmalarından əlavə, həm də fərqli fəlsəfi məktəbləri təmsil edən məşhur İslam filosoflarının ideya xələfləri də olmuşlar. Məsələn, adlarını çəkdiyimiz yəhudi filosoflarından Y.Haləvinin İbn Sinanın [7, s. 100], İbn Paqudanın öz "mənəvi qardaşı" olan Qəzalinin [6, s.23], Yaxın Şərqə çoxsaylı səyahətlər edən kabbalist sufi A.Əbulafiyanın isə məşhur sufi Mühyiddin ibn Ərəbinin (1165-1240) təsiri altında olması məlumdur [8, s. 34]. Digər tərəfdən, yuxarıda adlarını qeyd etdiyimiz yəhudi filosoflarının fəlsəfi əsərlərinin ilkin dili ərəb dili olmaqla yanaşı, bu kitabların tərtib qaydası, yazı üslubu və ən əsası isə, əsərlərin yazarlarını ilhamlandıran başlıca ilham mənbələrinin özləri də ərəb mənşəlidir.

Spinozizm ilə sufizm arasında bilvasitə bənzərlik yaradan ən mühüm keçidlərdən biri də yəhudi mistikası olan kabbaladır. Belə ki, sufizm və orta əsrlərdə (XII) əsaslı surətdə formalaşaraq təlim kimi meydana gələn kabbala bir çox metafizik məsələlərin həllində oxşar mistik metodlara malikdir. Hətta, kabbala təliminin müasir tədqiqatçılarından R.Kiener sufizm və bu yəhudi mistikası arasında çoxsaylı mənbə ümumiliyinin olmasını da xüsusi vurğulayır

10 Müvəşşəhdə misralarının baş hərfləri şaquli vəziyyətdə oxunanda müəyyən söz yaranır. Bu janr sonralar Pireney yarımadasında formalaşan ispan və portuqal folklor ədəbiyyatına da güclü təsir göstərmişdir.

11 Maymonidin oğlu Avraam ben Moşe ben Maymon (Maimuni) (1186-1237) da sufizmin təsiri altında olmuş və yazdığı əsərlərdə sufiliyə böyük rəğbət nümayiş etdirmişdir. Bəzi müasir tədqiqatçılar ömrünün sonunadək Misirin yəhudi icmasına rəhbərlik etmiş Avraam Maimunini yəhudi sufi də adlandırırlar.

12 İvritcə "alma, qəbul etmə" mənalarını verir.

[9, s. 26-27]. Ümumilikdə kabbalanı tənqid etməsinə baxmayaraq, bu təlimin sehirli-sirli izi Spinozanın məşhur "Etika" adlı əsərinin sonuncu, beşinci qismində açıq şəkildə hiss olunur. Həmçinin Spinozanın əsərlərindən aydın olur ki, o, Niderlandda bu mistik təlimi təbliğ edən bəzi kabbalistlər ilə şəxsən tanışdır. Alman filosofu İohan Georq Vaxter (Johann Georg Wachter) (1663/73-1757) də 1699-cu ildə Amsterdamda nəşr etdirdiyi "Yəhudilikdə spinozizm" (Der Spinozismus im Jüdenthumb) adlı əsərində yazır ki, Spinozanın panteizm fəlsəfəsi kabbala, xüsusən də bu mistik təlimin ən tanınmış nümayəndələrindən olan Avraam Herreranın irsindən qaynaqlanır [10, s. 144]. Spinozanın günümüzədək demək olar ki, tam şəkildə gəlib çatmış şəxsi kitabxanasında yəhudi filosofu Avraam Kogen de Herreranın (Abraham Cohen de Herrera) (1570-1635) ispan dilində qələmə aldığı və bütövlükdə kabbala mistikasına həsr olunmuş "Səmanın darvazaları" (Puerta del cielo) adlı məşhur əsərinin olması da Spinozanın bu əsər ilə yaxından tanışlığını sübut edəcək dəlildir. Ümumiyyətlə, Herreranın Spinozaya təsirinin bütün incəliklərindən bəhs edən müasir və sanballı tədqiqat əsəri də vardır [11].

Qeyd edək ki, müəyyən mənada ortodoksal İudaizmə qarşı çevrilmiş dini-mistik cərəyan kimi meydana gələn kabbala təlimi sufizm ilə yanaşı, bu təlimin digər ezoterik istiqamətlərindən olan hürufilik (hürufiyyə) təriqəti ilə də müəyyən ideya yaxınlığına malikdir. Hərflərin və ədədlərin mistik mahiyyətlərindən bəhs edən kabbala (xüsusilə bu təlimdəki sefirot doktrinası) ərəbcə "hərflər" kəlməsinin şəkildəyişməsi olan hürufilik ilə bir çox metafizik sualların qoyuluşunda da bənzərdir.

**Xüsusi tanışlıq.** Fikrimizcə, spinozizm ilə İslam arasında xüsusi bağ elə orta əsr qərbi Avropa fəlsəfəsinin özüdür! Belə ki, Spinozanın dünyagörüşünün, əsasən də onun panteizm[13] fəlsəfəsinin formalaşmasında orta əsr Qərb filosof və mistiklərinin təsiri çox böyük olmuşdur. Çoxsaylı tədqiqatçıların ortaq fikirlərinə əsasən, bütün orta əsr qərbi Avropa mistik fəlsəfəsinin varisi hesab olunan Cordano Bruno (1548-1600) da panteizm problemində spinozizmin sələfidir. Qeyd edək ki, sufizmin Spinozaya birbaşa təsirinin olması faktını sübut edəcək konkret dəlillər olmadığından bu fərziyyə hər zaman bir qədər mübahisəli xarakter daşısa da, İslam mistikasının orta əsr Qərb mistiklərinə güclü təsiri bu sahədə araşdırmalar aparan bir çox tədqiqatçılar tərəfindən artıq dəfələrlə sübut olunmuşdur. Məsələn, İslam mütəfəkkir və mütəsəvvüflərinin Qərb filosoflarına təsiri ilə bağlı məsələlər ispan ərəbşünası, rahib Migel Asin Palasiosun (1871-1944) fundamental tədqiqatlarında bütün incəlikləri ilə öz əksini tapmışdır. Əndəlüs İslam mədəniyyəti tarixinin mahir bilicilərindən hesab olunan M.A.Palasios yazır ki, İbn Ərəbiyə böyük təsir göstərən İbn Masarranın mistik təlimi Raymond Lulli və Duns Skotun da ilham mənbəyi olmuşdur [12, s. 141-143]. Həmçinin o hesab edir ki, müsəlman İspaniyasında İslam ilahiyyatının tam olaraq sistemləşdirilməsi böyük alim və İslam mücəddidi İbn Həzmin (ispanca Abenhazam) (994-1064) adı ilə bağlıdırsa, bu məkanda sufizmin kök salması, o cümlədən sonralar müxtəlif sufi məktəblərinin meydana gələrək bu ərazidə yayılması ilk Əndəlüs sufi şeyxi İbn Masarranın (ispanca Abenmasarra) (883-931) adı ilə bağlıdır. Qeyd edək ki, orta əsrlərdə Əndəlüs həm də sufiliyin ən geniş yayıldığı İslam məkanlardan biri olmuşdur. Əndəlüsdən olan çoxsaylı tanınmış sufi şeyxləri haqqında İbn Ərəbinin (əsasən də

13 Yunanca "pan" bütün, "teos" Tanrı deməkdir. "Hər şey Tanrıdır" mənasını verirən panteizm Tanrını təbiət ilə eyniləşdirən fəlsəfi təlimdir.

onun müasirləri olan sufilər barəsində) əsərlərində geniş məlumata rast gəlmək mümkündür. M.A.Palasios həmçinin ərəblərin Əndəlüsdən qovulması prosesi olan rekonkistadan sonra, yəni XV-XVI əsrlərdə ispan inkvizisiyasının buradakı ən birinci yerli qurbanlarından olan alumbrados[14] adlanan "xristian dərviş" qruplarının da sufi mistiklərin davamçıları olması fərziyyəsini ilk dəfə irəli sürmüşdür. Qeyd etmək lazımdır ki, böyük ərəbşünas alimin belə düşünməsinə əsas verən amillər kifayət qədər çoxdur. Məlumdur ki, ərəblərin Əndəlüsü idarə etdiyi əsrlərdə bütövlükdə müsəlman adət-ənənələri ilə yaşayan və bu məkanda birbaşa İslam mədəniyyətinin təsiri altında olan xüsusi yerli xristian əhalisi də formalaşmışdır. Mozərəblər[15] adlanan bu ərəbdilli təbəqə ərəblərdən seçilməmək üçün hətta, bu əsrlərdə geniş İslam aləmində qəbul olunan xüsusi geyim növlərindən də istifadə edirdi. Bütün bu kimi məqamları nəzərə aldıqda İslamın, o cümlədən sufizmin Pireney yarımadasında dərin kök salaraq uzun müddət bu məkanın insanlarına güclü təsir etməsi fikri də aydınlaşır.

Orta əsrlərdə Avropada ən tanınmış filosof-mistiklərdən hesab olunan Raymond Lulliyə (1232-1315) gəldikdə isə, qeyd etmək lazımdır ki, o, həm də Qərb ərəbşünaslığının banilərindən sayılır. Ümumiyyətlə, Avropa fəlsəfə tarixində ən böyük mistiklərdən biri hesab olunan R.Lulli bir çox ezoterik məsələlərdə İbn Ərəbi xəttinin davamçısıdır. İbn Ərəbinin R.Lulliyə təsiri son illər müasir Qərb tədqiqatçıları tərəfindən aparılan tədqiqatlarda da öz əksini tapmışdır [13]. Məlumdur ki, R.Lulli həm də C.Brunonun panteizm fəlsəfəsinin formalaşmasına həlledici təsir göstrərən mütəfəkkirlərdən biridir. Qeyd etdiyimiz kimi, C.Brunonun panteizm fəlsəfəsi isə böyük ölçüdə öz əksini xələfi Spinozada tapır.

İohann Duns Skota (1266-1308) gəldikdə isə, bu filosof-sxolast da orta əsrlərdə Qərbin ən böyük teoloqlarından biri kimi tanınmışdır. Yeni dövrün əksər filosofları kimi, Spinoza da sxolastika fəlsəfəsinin tənqidçilərindən olmuşdur. Amma Spinoza "məktəb fəlsəfəsi"ni tənqid etsə də, bu dini-fəlsəfi təlimin əsas ideyalarını da müəyyən mənada (Spinoza öz əsərlərində əsasən sxolastların istifadə etdikləri terminlərə müraciət edirdi) mənimsəmişdir. O cümlədən son dövr sxolastlarının bəzi ideyaları (xüsusən də panteizm məsələlərində) onun əsərlərində şəkildəyişmiş formada əks olunmuşdur. Qeyd edək ki, Spinozaya orta əsr sxolastları arasında ən böyük təsiri göstərən məhz elə İ.D.Skotdur. Bu məsələyə diqqət yetirən müasir dövrün ən böyük filosoflarından, eləcə də müəyyən mənada spinozizmin nümayəndələrindən sayılan Jil Delez (1925-1995) də yazır ki, Spinozanın panteizminin formalaşmasında Duns Skotun təsiri böyükdür [14, s. 66-67].

Fikrimizcə, R.Lulli və İ.D.Skotun fəlsəfi təlimləri spinozizm ilə İslam mistikası olan sufizm arasında xüsusi bəndlərdir. Düzdür, bu bəndlər uzun bir zəncirin sonsuz hissələrini birbaşa əlaqələndirməsə də, onların varlığı dolayı şəkildə zəncirin *varidliyi və qırılmazlığını* təmin edir. Məhz bu kimi zəncirvari əlaqələr sufizmin başlıca ideyalarının Spinozada da öz əksini tapmasına səbəb olmuşdur. Belə əlaqələrin birbaşa gözə görünməz, amma aydın hiss olunan bilvasitə izləri spinozizm və sufizm arasındakı mənəvi yaxınlığı qaçınılmaz etmişdir. Bu kimi *incə bağlarla bağlanan* məsələlərə diqqət yetirən böyük İslam alimi S.H.Nəsr də doğru olaraq qeyd edir ki, İbn Ərəbinin irsi birbaşa latın dilinə tərcümə olunmasa da, bu hal onun

14 Xristianlığa sırf mistik formada sitayiş edən dindarlar.

15 "Mozarabes" sözündəndir. "Ərəbə çevrilmiş" və ya "ərəbləşdirilmiş" mənalarını verir.

Qərb filosoflarından Mayster Ekhart və Dante Aligyeri arasındakı mənəvi yaxınlığına maneə törətməmişdir [15, s. 77]. Qeyd etmək lazımdır ki, ümumiyyətlə fəlsəfə tarixində ən böyük xristian mistiklərindən (eləcə də ən çox tədqiq olunan) biri hesab olunan Mayster Ekhartın (1260-1328) bir çox əsas fəlsəfi ideyalarından əlavə, həm də ümumilikdə onun təliminin mistik strukturu vəhdəti-vücud[16] fəlsəfəsi ilə müəyyən bənzərliklərə malikdir. Vurğulamaq lazımdır ki, İbn Ərəbi və M.Ekhart arasındakı bu kimi mənəvi əlaqə və yaxınlıqları üzə çıxarmağa həsr olunmuş olduqca sanballı müasir tədqiqat əsəri də mövcuddur [16].

Dante Aligyeriyə (1265-1321) gəldikdə isə, qeyd etmək lazımdır ki, Avropanın fikir nəhəngi və poeziya dahilərindən hesab olunan bu filosofun ədəbi-fəlsəfi irsində islami elementlər çoxdur. Onun məşhur "İlahi Komediya" (La Divina Commedia) adlı əsərində Quranın fərqli surələrində nəql edilən əhvalatlar aşkar şəkildə öz əksini tapmışdır. Dantenin bu əsərində xüsusi ilə, Quranın "İsra" surəsində peyğəmbərin merac etməsi əhvalatı ilə bağlı məqamlar demək olar ki, olduğu formada da təkrarlanır. Digər tərəfdən, "İlahi Komediya"da sufizm elementləri, xüsusən də İbn Ərəbinin izi də duyulmaqdadır. Belə ki, böyük .eyxin "Tərcümanül-Əşvaq" (Arzuların tərcümanı) əsərində Niyaz adındakı vəsf edilən gözəli "İlahi Komediya"da İbn Ərəbinin nəzmə çəkdiyi süjetə uyğun olaraq gənc Beatriçe əvəz edir. Qeyd edək, ki, İbn Ərəbi və Dante Aligyeri yaradıcılıqları arasındakı çoxsaylı bənzər məsələlər ilə bağlı olduqca dəyərli tədqiqat əsərlərdən biri elə M.A.Palasiosa məxsusdur. O, "İslam və İlahi komediya" (La escatologia musulmana en la Divina Comedia) adlı fundamental əsərində bu iki böyük mütəfəkkərin fikirlərini tam incəlikləri ilə müqayisə edir. Maraqlıdır ki, İbn Ərəbi Şərq peripatetiklərindən fərqli olaraq latın dilinə tərcümə edilib Qərbdə latınlaşmış ad qazanmasa da, M.A.Palasios bu əsərində (eləcə də ispan dilində yazdığı çoxsaylı digər əsərlərində) İbn Ərəbinin ispanlaşmış adından istifadə edərk onu Abenarabi adlandırır. M.A.Palasios dərin və hərtərəfli tədqiqatları nəticəsində İbn Ərəbinin Dante Aligyeriyə təsirini və bu iki mütəfəkkir arasındakı mənəvi yaxınlığı tutarlı dəlillər əsasında sübuta yetirir [17]. Qeyd edək ki, Qərbin məşhur əkbəri[17] şeyxlərindən olan Rene Genon və ya Əbdül Vahid Yəhya (1886-1951) da İbn Ərəbi ilə Dante Aligyeri arasıda tarixi yox, məhz mənəvi tellərlə bağlı fikir ümumiliyin olmasını təsdiqləyir [18 s. 35-39]. İntibah dövrü fəlsəfəsinə ilk təkanı verən Dante Aligyeri ilə mənəvi yaxınlıq Spinozada da öz əksini tapmışdır. Məşhur "Dante elementləri" Spinozanın "Etika"sında, xüsusilə bu əsərin dördüncü qismində daha qabarıq şəkildə üzə çıxmışdır. Üstəlik, Spinozanın "amor Dei intellectualis" (Tanrını dərk etmə sevgisi) problemində də Dantenin sevgi izi mövcuddur. M.A.Palasiosun başladığı tədqiqatları layiqincə davam etdirən Rocer Arnaldes (1911-2006) də yazır ki, Spinoza ilə İbn Ərəbi arasında birbaşa olmasa da, müəyyən mənəvi yaxınlığın olması şübhəsizdir [1, s. 278]. Fikrimizcə, İbn Ərəbi və Spinoza arasındakı mənəvi yaxınlığı mümkün edən vasitələrdən biri və ən əsası Dante adlı çoxsaylı yolların kəsişdiyi nəhəng körpüdür.

---

16 Varlığın vahidliyi və yaxud birliyi kimi tərcümə olunan vəhdəti vücuda görə, vahid varlıq və varlığa sahib yeganə vücud Tanrıdır. Aləm bu tək varlığın görüntülər məkanı, aləmdəki bütün mövcudluqlarsa, bu vahidin təzahürləridir.

17 Şeyx əl-Əkbər, yəni ən böyük şeyx kimi də tanınan İbn Ərəbinin adı ilə bağlı təlimdir. İbn Ərəbidən sonrakı istər Şərq, istərsə də Qərb vəhdəti-vücud tərəfdarları həm də bu təlimin nümayəndələri və ardıcılları hesab olunurlar.

**Ümumi qaynaqlar**. Spinozanın fəlsəfi təliminin formalaşmasına təsir göstərən əsas mənbələrdən biri də, şübhəsiz, antik yunan fəlsəfəsinin klassik mərhələsidir. Bu dövrün əsas nümayəndələrindən olan Platon (e.ə. 427-347) və Aristotelin (e.ə. 384-322) fəlsəfi baxışları Spinozada bu və ya digər dərəcədə öz əksini tapmışdır. Həmçinin nəzərə almaq lazımdır ki, sələfləri əsasən Platon və Aristotel olan antik fəlsəfənin son dövr nümayəndələrinin izləri də Spinozada aydın şəkildə hiss olunmaqdadır. Hətta spinozizmdəki bu iz antik fəlsəfənin klassik mərhələsindən daha qabarıq formada nəzərə çarpır. Qeyd edək ki, Spinozanın irsində öz əksini tapmış qədim fəlsəfi məktəblərdən antik fəlsəfənin son mərhələsi, yəni Ellinizm dövründə meydana gələn stoisizm (stoyaçılıq) xüsusilə fərqlənir. Stoyaçıların görüşlərinin aşkar izləri "Etika"nın üçüncü və dördüncü qisimlərində tam olaraq sezilir. "Etika"nın bu qisimlərində öz əksini tapan Spinozanın əxlaq fəlsəfəsi stoisizmin Roma dövrünün nümayəndələri, xüsusən də, bu mərhələnin ən tanınmış filosoflarından olan Lutsi Anney Seneka (e.ə. 4-b.e 65), Epiktet (50-135) və Mark Avrelinin (121-180) təsiri altında formalaşmışdır. Onun fəlsəfi əsərlərində adlarını çəkdiyimiz bu stoiklərə istinadlar kifayət qədərdir. Qeyd edək ki, spinozizm ilə stoisizm arasındakı aşkar yaxınlığa bir çox Spinoza tədqiqatçıları da diqqət yetirmişdir. Bu iki təlimin hərtərəfli müqayisəsi, eləcə də stoisizmin spinozizmə təsiri C.Miller [19], F.DeBrabander [20] və digərlərinin tədqiqatlarında öz əksini geniş şəkildə tapmışdır.

Qeyd etmək lazımdır ki, Ellinizm fəlsəfəsinin ən böyük qollarından hesab olunan stoyaçılıq Şərqin müsəlman aləmində "ər-rəvaqiyyun" firqəsi kimi tanınmışdır. Ellinizm dövrünün digər bir fəlsəfi qolu olan skeptisizm (şübhəçilik) isə İslam məkanında "hisbaniyyə" (hisbanilik) təlimi adı altında məlum olmuşdur. Maraqlıdır ki, professor Ə.Əfifi İbn Ərəbinin "Füsusül-Hikəm" (Hikmətlərin əsas mənaları) adlı məşhur əsərində Şüeyb peyğəmbər ilə bağlı on ikinci bölümdə şeyxin İslam məzhəblərindən olan əşərilər ilə antik fəlsəfənin əbədi nümayəndələri olan sofistlərin fəlsəfi görüşlərini müqayisə etdiyi hissənin şərhini verərkən sofistləri də hisbaniyyə firqəsi kimi təqdim edir [21, s. 258]. Antik fəlsəfənin bu iki qolu demək olar ki, eyni əsrlərdə və eyni məkanlarda bir-birindən ayrılmaz şəkildə inkişaf etmişdir. Bu cəhətdən, antik fəlsəfənin son dövrünün "müdriklik ustaları" olan sofistlərin (II-III əsrlərdə meydana gələrək formalaşan Yeni sofistlər məktəbini nəzərdə tuturuq) təlimləri bir çox hallarda skeptisizm fəlsəfəsi ilə də sıx şəkildə bağlı olmuşdur. Qeyd edək ki, bu sonuncu məsələ Azərbaycanda fəlsəfə elminin tədqiqi və tədrisində müstəsna xidmətləri olan tanınmış fəlsəfə tarixçisi, akademik Aleksandr Osipoviç Makovelskinin (1884-1969) dünya miqyaslı tədqiqat əsərlərində geniş və hərtərəfli şəkildə öz əksini tapmışdır [22, s. 49-54]. Eyni zamanda orta əsr ərəb fəlsəfəsi, xüsusən də məntiq elmindəki antik fəlsəfədən (əsasən Aristotelin nəhəng fəlsəfi irsindən) miras qalan sillogizmlərin[18] xüsusi növü olan səfsətə (sofistika) və bu kimi digər məntiqi üsulların müxtəlif ərəb filosof-peripatetiklərinin irsində əks olunması məsələləri digər azərbaycan alimi və orta əsr ərəb fəlsəfəsi üzrə tanınmış mütəxəssislərdən biri olan Əhməd Kərədi Zəkuyevin (1888-1968) tədqiqatlarında geniş işıqlandırılmışdır [23].

Spinozanın fəlsəfi təliminin əsaslı şəkildə formalaşmasında antik dövrün sonuncu mərhələsi sayılan yeni-platonçuluq (neoplatonizm) fəlsəfəsinin də böyük rolu olmuşdur. Spinozanın yaradıcılığında elə ilk dəfə neoplatonizm fəlsəfəsinin nümayəndələri tərəfindən

18 Verilmiş iki mühakimə və onlardan çıxarılan məntiqəuyğun əqli nəticə.

sistemləşdirilərək fəlsəfi təlim formasına salınan panteizm demək olar ki, bütün mümkün formaları ilə özünün ən yüksək zirvəsinə çatmışdır. Bu cəhətdən, Spinozanı müəyyən mənada elə neoplatonizm təliminin varisi də adlandırmaq mümkündür. Digər tərəfdən isə, Spinozaya orta əsr yəhudi fəlsəfəsinin neoplatonizm nümayəndələrinin də böyük təsiri olmuşdur. Belə yəhudi (səfərad) yeni-platonçularından Leone Ebreo (Judah ben Isaac Abravanel) (1465-1523) xüsusilə seçilir. Qeyd edək ki, bir çox tədqiqatçılar Spinozanın panteizm fəlsəfəsinin son düyünü olan “amor Dei intellectualis”in məhz L.Ebreonun “Sevgi dialoqları” (Dialoghi d’Amore) adlı əsərindəki mistik sevgi problemləri ilə səsləşdiyini iddia edirlər. Belə tədqiqatçılara misal olaraq, S.B.Smit [24, s.170], L.Rays (Lee Rice) [25, s. 100-103], H.Detnier (Hubert Dethier) [26] və digərlərini göstərmək olar.

Məlumdur ki, yeni-platonçuluq təliminin İslam fəlsəfəsinə də olduqca böyük təsiri olmuşdur. Yeni-platonçuluğun banisi hesab olunan Plotinin (205-270) isə İslam fəlsəfə tarixində bütün digər qədim yunan filosofları ilə müqayisədə xüsusi üstün çəkisi vardır. Qeyd edək ki, Ellinizm fəlsəfəsinin ən böyük nümayəndələrindən biri sayılan bu filosofun təsiri İslam fəlsəfəsinin bütün məktəbləri və bu məktəbləri təmsil edən müxtəlif filosofların yaradıcılıqlarında bu və ya digər dərəcədə hiss olunmaqdadır. Bu səbəbdəndir ki, orta əsrlərdə müsəlman Şərqində Plotinə yunanların şeyxi (əl-Şeyx əl-Yunani) deyə xitab edərək, onu böyük bir ehtiram ilə xatırlayırdılar. Eləcə də məlumdur ki, Plotinin fəlsəfi görüşlərinin formalaşmasında fars və hind mədəniyyətinin də güclü təsiri olmuşdur. Hətta, o bu xalqların fəlsəfi düşüncə tərzi ilə daha yaxından tanış olmaq üçün Roma imperatoru III Qordianın (225-244) Sasanilər imperiyasına qarşı təşkil etdiyi hərbi səfərinə də qatılmışdır.

## Nəticə

Yekunda qeyd etmək istərdik ki, Spinozanın olduqca zəngin fəlsəfi irsində “Şərqin pak sevgisi” və “Qərbin xalis zəkası” müxtəlif və çoxsaylı *bağlar* ilə bağlanaraq vəhdət əmələ gətirir. İslam, Yəhudilik və Xristianlıq kimi monoteist dinlər də spinozizm adlanan mədəniyyətlərin kəsişməsində meydana gələn təkrarolunmaz təlimdə qovuşur. Bu həmahənglikdə tamamilə fərqli və məzmunu etibarilə dərin, həm də yeni bir fəlsəfə törəyir. Bütün bu özünəməxsus cəhətləri nəzərə aldıqda, Spinozanın fəlsəfi təliminin hərtərəfli öyrənilərək tədqiq edilməsi günümüzün olduqca vacib, hətta son illər qaçınılmaz zərurətinə çevrilmiş mədəniyyətlərarası dialoqa da müəyyən zəmin hazırlamış olur. Düşünürük ki, məhz Spinoza kimi həm Şərq, həm də Qərb mədəniyyətlərinin şəcərəsindən olan filosofların irsində öz əksini tapan, məqalədə də təhlil etdiyimiz incə məqamlar və mahiyyət etibarilə son dərəcə mühüm qlobal məsələlər dövrümüzün ümumi bəlasına çevrilmiş olan *məlum* arasıkəsilməz münaqişə və *hələ də davam etməkdə olan* qanlı müharibələrə son verəcək sülh danışıqlarını mümkün edir. Deməli, Spinozanın fəlsəfi sistemi həm ümumilikdə, həm də xüsusi fəlsəfi anlamda Qərb və Şərq adlı şərti məkanlar arasında *bilavasitə-bilvasitə* barışıq vasitəsidir.

## ƏDƏBİYYAT


1. Djedi Y. Spinoza et l'İslam: un etat des lieux // Philosophiques, vol.37, № 2, Quebec: Erudit, 2010, pp. 275-298.
2. Spinoza: Complete Works with translations by Shirley S. Cambridge: Hackett Publishing Company, Inc, 2002, 967 p.
3. Huff T.E. The Rise of Early Modern Science: Islam, China and the West. Cambridge: University Press, 2003, 425 p.
4. Sgarbi M. Immanuel Kant, Universal Understanding, and the Meaning of Averroism in the German Enlightenment // Renaissance Averroism and Its Aftermath: Arabic Philosophy in Early Modern Europe. New York: Springer, 2013, pp. 255-269.
5. Attar S. The Vital Roots of European Enlightenment: Ibn Tufayl's Influence on Modern Western Thought. Lanham: Lexington Books, 2010, 171 p.
6. Goodman L.E. What Does Spinoza's Ethics Contribute to Jewish Philosophy? // Jewish Themes in Spinoza's Philosophy. Albany: State University of New York Press, 2002, pp. 17-89.
7. Harvey W.Z. Ishq, hesheq, and amor Dei intellectualis // Spinoza and Medieval Jewish Philosophy. Cambridge: University Press, 2014, pp. 96-107.
8. Hames H.J. Like Angels on Jacob's Ladder: Abraham Abulafia, the Franciscans, and Joachimism. Albany: State University of New York Press, 2007, 171 p.
9. Kiener R. Ibn al-Arabi and the Qabbalah: A Study of Thirteenth Century Iberian Mysticism // Studies in Mystical Literature II, Vol.2, №2, Taichung: The English Department of Tunghai University, 1982, pp. 26-52.
10. Scholem G. Kabbalah. New York: Meridian Books, 1974, 494 p.
11. Beltran M. The Influence of Abraham Cohen de Herrera's Kabbalah on Spinoza's Metaphysics. Leiden: Brill, 2016, 449 p.
12. Palacios M.A. The Mystical Philosophy of Ibn Masarra and His Followers. Leiden: E.J.Brill, 1978, 203 p.
13. Lohr C. The Islamic "Beautiful Names of God" and the Lullian Art // Jews, Muslims and Christians in and Around the Crown of Aragon. Leiden: Brill, 2004, pp. 197-205.
14. Deleuze G. Expressionism in Philosophy: Spinoza. New York: Zone Books, 1990, 445 p.
15. Nasr S.H. İslamic Life and Thought. Albany: State University of New York Press, 1981, 232 p.
16. Dobie R.J. Logos and Revelation: Ibn Arabi, Meister Eckhart, and Mystical Hermeneutics. Washington: The Catholic University of America Press, 2010, 313 p.
17. Palacios M.A. İslam and the Divine Comedy. London: Routledge, 2008, 295 p.
18. Guenon R. The Esoterism of Dante. Paris: Sophia Perennis, 1925, 71 p.
19. Miller J. Spinoza and the Stoics. Cambridge: University Press, 2015, 238 p.

**20.** De Brabander F. Spinoza and the Stoics: Power, Politics and the Passions. New York: Continuum International Publishing Group, 2008, 148 p.

**21.** Afifi E.A. Fusüsu'l Hikem Okumaları İçin Anahtar (et-Ta'likat ala Fususi'l-Hikem) / Çevirmen E.Demirli. İstanbul: İz Yayıncılık, 2011, 512 s.

**22.** Маковельский А.О. История логики. Москва: Кучково поле, 2004, 480 с.

**23.** Закуев А.К. Из истории арабоязычной логики средних веков. Баку: Элм, 1971, 83 с.

**24.** Smith S.B. Spinoza's Book of Life: Freedom and Redemption in the Ethics. New Haven: Yale University Press, 2003, 322 p.

**25.** Rice L.C. Love of God in Spinoza // Jewish Themes in Spinoza's Philosophy. Albany: State University of New York Press, 2002, pp. 93-106.

**26.** Dethier H. Love and Intellect in Leone Ebreo: The Joys and Pains of Human Passion // Neoplatonism and Jewish Thought. Albany: State University of New York Press, 1992, pp. 353-386.

Заур Рашидов

# СПИНОЗА И ИСЛАМ


## АННОТАЦИЯ

В статье рассматриваются основные узы, которые связывают Спинозу с исламской философией. По своему философскому мировоззрению, Бенедикт Спиноза (1632-1677) отличается от всех крупных представителей западноевропейского рационализма XVII века. Как известно по происхождению Спиноза был сефардом. Сефардами называли евреев родом из Пиренейского полуострова, которых в XV и XVI веках изгнали во время реконкисты. До изгнания арабов и евреев из стран Пиренейского полуострова, Испания и Португалия долгое время находились под властью Халифата. В полуострове арабы создали государство, вошедшее в мировую историю под именем как Аль-Андалус. В этом регионе арабо-мусульманская духовная культура и богатейшее научно-философское наследия еврейских мыслителей слились вместе. После окончания реконкисты общее философское наследие арабских и еврейских ученых начали иммигрировать глубже в Европу в сознаниях сефардов. Спиноза стал хранителем и приемником андалузской философской школы.


Zaur Rashidov

# SPINOZA AND ISLAM


## ABSTRACT

This article examines the main ties that bind Spinoza with Islamic philosophy. In his philosophical worldview, Benedict Spinoza (1632-1677) differs from the all-major representatives of Western European rationalism of the XVII century. As known, Spinoza was Sephardic Jewish descent. Sephardim called the group of Jews from the Iberian Peninsula, which were expelled during the Reconquista in the XV and XVI centuries. Before the expulsion, Arabs and Jews from the countries of Iberian Peninsula, Spain and Portugal had been under the rule of the Caliphate for a long time. In the peninsula, Arabs created the state, which went down in world history as Al-Andalus. In this region, the Arab-Muslim spiritual culture and the richest scientific and philosophical heritage of Jewish thinkers have merged. After the end of the Reconquista, the general philosophical heritage of the Arab and Jewish scholars has begun to immigrate deeper into Europe in the minds of the Sephardim. Spinoza became the guardian and receiver of the Al-Andalus school.

# MÜSƏLMAN ŞƏRQİNDƏ MƏDƏNİYYƏT FENOMENİNİN SOSİAL-FƏLSƏFİ TƏHLİLİ

***Üzeyir ZEYNALOV,***
*AMEA-nın Fəlsəfə İnsitutunun dissertantı*

***AÇAR SÖZLƏR:*** *mədəniyyət, sivilizasiya, Avropa mədəniyyəti, İslam mədəniyyəti.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *культура, цивилизация, европейская культура, исламская культура.*
***KEY WORDS:*** *culture, civilization, European culture, Islamic culture.*

"Mədəniyyət" (və ya "təməddün") anlayışı ərəb mənşəli "mədinə" (şəhər) sözündən əmələ gəlsə də, məzmun baxımından "civilization" sözünün ərəb dilində qarşılığıdır. Azərbaycan dilində işlənən "mədəniyyət" termini özündə Qərbdən gələn iki fərqli termini – "kültür" və "sivilizasiya" terminlərini birləşdirir. Xüsusilə, alman fəlsəfəsində (İ.Kant) sivilizasiya və kültür anlayışları şəxsiyyətin və cəmiyyətin zahiri və mənəvi tərəflərini əks etdirmək baxımdan ikiyə bölünmüşdür. Lakin fransız və ingilis düşüncəsində bu terminlər əksər hallarda sinonim kimi işlədilmişlər [1, s. 132-133].

Osmanlı dövlətinin tənzimat (islahatlar, vesternizasiya) siyasəti Qərb maarifçilik ideyalarının (sivilizasiya, tərəqqi, millətçilik və s.) müsəlman təfəkkürünə müdaxilə etməsinə şərait yaratdı. XIX əsrdə "civilization" sözü lüğətlərdə "ünsiyyət, təhzibi-əxlaq, tədibi-əxlaq, tənis, tədib, nəzakət" kimi, "civitas" sözü isə "munis, müzəhhəbül-əxlaq, ədəbli" kimi tərcümə edilmişdir. İlk dəfə fransız şərqşünasları "İslam dini" anlayışını "ərəb mədəniyyəti", daha sonra isə xristian ərəb mütəfəkkiri Corci Zeydan "İslam mədəniyyəti" anlayışı ilə əvəz etdi. Nəticədə tənzimatçılar tərəfindən əvvəllər müşahidə olunmayan "İslam mədəniyyəti" anlayışı bu yolla ortaya çıxdı. Onlar Qərb düşüncəsinə paralel olaraq müsəlman aləmində ərəb mənşəli "mədinə" sözündən yeni "mədəniyyət və ya təməddün" termini yaratdılar. "Mədəniyyət" şəhər, qəsəbə və yaşayış yeri mənasını verən "mədinə" (cəmi: müdün, mədain) sözündən gəlir. Belə bir yerdə yaşayanlara mədəni/şəhərli və ya qəsəbəli deyilir. Bəzilərinə görə, itaət və mülk mənasını da bildirir.

"Mədəniyyət" anlayışının kökündə dayanan "şəhər" (mədinə) ismi orta əsr şəhərlərini deyil, Avropada yaranan müasir sənaye şəhərlərini ifadə edirdi. Çünki XIX əsrə aid osmanlı yazılarında "sivilizasyon" termini altında əsasən teatr, rəqs, Avropa geyim tərzi, qəzet, qumar və başqa gündəlik şəhər həyatı vərdişləri və davranışları, "mədəni insan" (civitas) ifadəsi ilə isə, "avropasayağı nəzakətli, kübar, savadlı şəhər insanı" nəzərdə tutulurdu. Azərbaycan maarifçisi Mirzə Fətəli Axundzadə "sivilizasyon" kəlməsinə belə tərif verir: "Sivilizasyon – cəhalət və barbarlıqdan qurtarıb, məişət işlərində mərifət kəsb edib, elm, sənaye və əxlaqda mümkün qədər kəmalə yetməkdən və mədəniyyət yolunda irəliləməkdən ibarətdir" [2, s. 51].

Müsəlman Şərqində orta əsr şəhərləri öz forma və məzmunu baxımdan Avropa şəhərlərindən fərqlənirdi. Çünki müsəlman şəhərləri İslam din və düşüncəsinin mərkəzləri kimi məşhur idisə, Avropa şəhərləri sənaye və texnikanın mərkəzləri kimi tanınırdı. Buna görə də, ərəbcə "şəhər" mənasında işlənən "mədinə" sözü ilə "din" sözünün arasında tarixi-semantik əlaqə mövcud idi.

Qədim Şərqdə şəhərlər tarixən sivilizasiyaların mərkəzi olmuşdur. Peyğəmbərlər də əsasən bu şəhərlərdə meydana çıxaraq inqilabi və ya irşad yoluyla ilk icmalarını formalaşdırmış, bəzən ənənəvi sistemləri ortadan qaldıraraq yeni cəmiyyət və yeni dəyərlər sistemi ortaya qoymuşlar. Həzrət Şueyb Mədyən, Həzrət İbrahim İraqdakı qədim Ur şəhərlərindən, Həzrət Yusif və Həzrət Musa qədim Misirdən, Həzrət Davud və Həzrət Süleyman Qüdsdən, Həzrət İsa Nazaretdən, Həzrət Məhəmməd (s) Məkkə şəhərindən olmuşdur. Məsələn, Həzrət Məhəmməd (s) təməli ulu babaları Həzrət İbrahim və onun oğlu Həzrət İsmail tərəfindən salınan Məkkə şəhərində uzun müddət cahilliklə mübarizə aparmış və Mədinədə yeni bir dövlətin, müsəlman mədəniyyətinin əsasını qoymuşdur. Çünki şəhərlər bütün maddi-mənəvi resursların əlaqəli şəkildə cəmləşdiyi məkandır. Adətən, böyük ticarət yollarının üzərində yerləşən şəhərlərin bazarlarında hər bir informasiya tacirlər vasitəsilə sürətlə ətrafa və digər şəhərlərə yayılırdı. Həmçinin, şəhər əhalisi arasında peyğəmbərləri dəyərləndirmək qabiliyyətində olan bilikli və dünyagörüşlü insanlar mövcud idi.

Orta əsrlərin müsəlman şəhərləri (Bağdad, Xorasan, Mərv, Mədinə) həm dini, həm də dünyəvi elmlərin mərkəzləri idilər. Şəhərlərdən uzaqda köçəri həyat tərzi sürən qruplar (bədəvilər, tərəkəmələr) İslamdan, dünyəvi elmlərdən uzaq düşdükləri üçün orta əsr "mədənililik" meyarlarına uyğun gəlmirdilər. Yəni, müsəlman aləmində İslam dini və dünyəvi elmlər sahəsində təhsil görmüş dindar, ədəbli, nəzakətli, savadlı insanlar "mədəni" sayılırdılar. Belə insanlar adətən şəhərlərdə yaşadıqları üçün həmin şəhərlər "mədinə" statusu qazanırdı. Xüsusilə, peyğəmbərlər və onların mənəvi varisləri ilə əlaqəli olan şəhərlər müstəsna rola malik olmuşlar.

Müsəlman Şərqində "şəhər" sözünü yalnız dini mərkəz kimi mütləqləşdirmək yanlış olardı. Çünki "şəhər" sözünün başqa sinonimləri də vardı. Həzrət Peyğəmbərin yerləşdiyi Yəsrib şəhərinə, əvvəl "mədinə-i Rəsul", sonra Mədinə deyilmişdir. Bu şəhərdən olanlar və ya hər hansı başqa bir şəhərdə yaşayanlar "mədəni", çöldə, şəhər kənarında yaşayan köçərilər isə bədəvi adlandırılmışdır. Şəhər qurmağa "təmdin", şəhərləşməyə "təməddün" deyilir. "Təmədyənə" sözünün özü isə "nemət və rifah içində olmaq" mənasını bildirir. Quranda "mədinə" sözü şəhər və qəsəbə mənasında istifadə edilmiş, çöldə yaşayanlara isə "ərəbi" deyilmişdir (Tövbə, 90, 97, 98, 99, 101, 120; Hucurat, 14). "Bədəvi" sözünün əvəzində isə eyni kökdən olan və eyni mənanı verən "badi", "badu" və "bədv" (Yusuf, 100; Həcc, 25; Əhzab, 20) sözləri işlənilmişdir. Quranda və hədislərdə "mədinə"dən başqa, "karye/kura" (cəm), "bəldə/biləd", "dar/diyar", "misr/əmsar" sözləri də "şəhər və qəsəbə" mənasında keçmişdir.

Şəhərlər həm dinin, həm də mənəvi tənəzzülün kəsişdiyi bir məkan kimi də tanınırdı. Həzrət Hud, Həzrət Lut, Həzrət Nuh və digər peyğəmbərlərin mənəvi tənəzzül həddinə çatan

şəhərlərə irşad məqsədilə göndərilməsi bunun təsdiqidir. Qurani-Kərimdə peyğəmbərlər vasitəsilə göndərilən xəbərdarlıqdan nəticə çıxarmayan həmin şəhərlərin yer üzündən silinməsi və əhalisinin məhv edilməsi ilə bağlı kifayət qədər ayə vardır (Həcc, 45, 48; Ənbiya, 26; Hud, 102 və s).

***İbn Xəldunun mədəniyyət konsepsiyası və ya "ümran elmi"***

Tunisdə doğulmuş, yüksək təhsil görmüş və müxtəlif yüksək vəzifələrdə çalışmış İbn Xəldun (1332-1406) ilk dəfə tarix fəlsəfəsinin, sosiologiya və politologiya elmlərinin əsasını qoymuşdur. Onun sosial problemlərə yanaşması əvvəlki antik müəlliflərin "filosofların idarə etdiyi dövlət" (Platon), o cümlədən müsəlman mütəfəkkirlərin peyğəmbərlərin idarə etdiyi "fəzilətli şəhər" utopik yanaşmasından çox fərqlənirdi. Onun metodu çox sonralar Avropa mütəfəkkirlərində müşahidə olunan empirik-realist yanaşma idi. O, dövlət idarəetmə işlərindən əldə etdiyi təcrübə, mütaliə və fitri zəka hesabına sosial elmlərin tədqiqində yeni yol açmışdır.

İbn Xəlduna görə, cəmiyyət təbiətdən asılılığı azaltmaq üçün insanların bir araya gəlməsindən təşəkkül tapırsa, dövlət öz soyunu digərlərindən qorumaq istəyən ağıllı insanların bir araya gələrək təşkilatlanması və ortaq qanunlara itaət etməsi nəticəsində ortaya çıxır (Bu ideya XVII əsrdə Tomas Qobbs, Jan Jak Russo, Con Lokk tərəfindən irəli sürülən "ictimai müqavilə" ideyasının əsasında dayanır). Onlar arasında coğrafi şərait, iqlim, maddi təminatın forma və tərzləri, iqtisadi şərtlər, istehsal şəkli və sosial münasibətlərdən irəli gələn fərqlər müxtəlif növ mədəniyyətlərin (ümran) meydana çıxmasına səbəb olur. Bu mədəniyyətlər arasında oturaq və köçəri mədəniyyətlər bir-birindən çox fərqlənirlər.

*Köçəri mədəniyyət* oturaq həyat tərzindən əvvəl olan ilk sosial birlik formasıdır. Köçərilər (bədəvilər) oturaq əhalidən fərqli olaraq, qənaətkar, qəbiləyə sadiq, sadə, kobud, utancaq, sərt, cəsarətli, özünəinamlı, döyüşkən və əxlaqlıdırlar. Onların təhlükəsizliyini qoruyan dövlətləri olmadığı üçün hər biri hər an kənar təhlükəyə qarşı müqavimət göstərməyə və şəhərlərə hücum etməyə hazırdırlar. Onlar öz həyati tələbatlarını ödəmək məqsədilə istehsal edirlər. Lakin onların istehsalı artırmaq, zənginləşmək, rahat həyata qovuşmaq, boş vaxt əldə etmək istəkləri nəticəsində əlavə dəyərlər artır və onlar tədricən oturaq həyata (hadari) cəhd edirlər. Son nəticədə isə onlardan yalnız əsəbiyyə bağları (nəsil əlaqələri) güclü olan köçərilər dövlət qura bilirlər. Əsəbiyyənin bir-birinə qarşı sadiqliyi, passionarlıq (sosial fəallığın yüksəlişi) gücü və cəsarətləri qələbə üçün zəmin hazırlayır.

İbn Xəlduna görə, dövlətlər də insanlar kimi yaranır, inkişaf edir və məhv olur. O, bunun beş mərhələdən keçdiyini bildirir. Bütün mədəniyyətlər bu mərhələləri keçirlər. Çünki onlar təbiətin və tarixin mahiyyətində dayanan obyektiv qanunauyğunluqlara bağlıdır.

*Oturaq mədəniyyət* dövlətin yaranması ilə ortaya çıxır. Dövlət çərçivəsində qohumluq əlaqələri məhdud olduğu üçün ictimai birliyə ehtiyac vardır. İctimai birliyi təmin edən amillər xanədana bağlılıq və din duyğusudur. Güclü nəsillər (əsəbiyyə) tərəfindən qəbul edilən din digər nəsillərə də sirayət edərək ictimai şüuru (əsəbiyyə) formalaşdırır. Çünki digər qəbilələr güclü nəsillərin içində əridiyi kimi, güclü nəsillər də onlarla dini zəmin üzərində inteqrasiya

olunurlar. Nəticədə, din vahid ictimai şüurun formalaşmasına, güclü dövlət və mədəniyyətin formalaşmasına və onun qorunmasına şərait yaradır. Lakin İbn Xəldun özündən əvvəlki müsəlman mütəfəkkirlərini hökmdarlıq ilə peyğəmbərliyi bir-birinə qarışdırdıqları üçün tənqid edir və bildirir ki, onlar arasında zəruri bağlılıq yoxdur.

Dövlət öz əhalisinin maddi və fiziki təhlükəsizliyini təmin etdiyindən əhali əsgərlikdən və istehsaldan uzaqlaşaraq ədəbiyyat, musiqi, memarlıq, ticarət və digər gəlirli işlərlə məşğul olurlar. Əsəbiyyənin passionarlıq gücü tədricən azaldığı üçün onların yerini dövlətdə muzdlu əsgər və bürokratiya sistemi əvəz edir. Təhlükəsizlik, əmək bölgüsü, yüksək gəlir onları daha gözəl, incə və yeni tələbatlara sürükləyir və onlar zövq düşkünlüyünə, eqoistliyə, pis vərdişlərə, tənbəlliyə, dəbdəbəyə aludə olaraq öz ilkin sifətlərini tədricən itirirlər. Dövlətin verdiyi təhlükəsizlik hissi onların döyüşkənlik və cəsarətlərinin ortadan qalxmasına, məmurların zülmünə itaət etmələri şərəf və müstəqilliklərinin qorxaqlıq, yaltaqlıq və qəddarlıqla əvəzlənməsinə səbəb olur.

İqtisadi rifah yüksəldikcə hökmdar şəxsi gəlirlərini və vergiləri azaldıb dövlətin maliyyə mənbələrini artırır, abadlaşdırma işlərinə diqqət yetirir. Bu sülh və sabitlik mərhələsində xalq tam təmin olunaraq özündən razı hala gəlir, idarəetmədə yeniliklər bitir və əvvəlkilər təqlid olunur. Hamıya elə gəlir ki, bu durum həmişə davam edəcəkdir. Güclü dövlət başçısı bu mərhələni bir qədər uzada bilər. Lakin onun dövləti öz şəxsi maraqları çərçivəsində idarə etməsi, dövlətin firavanlıq və israfçılıq səviyyəsinə yetişməsi onun tənəzzülünü qaçınılmaz edir. Çünki harınlamış məmurlar və ordu rəhbərliyinin dəstəyini almaq üçün vergilər artırılır, iqtisadiyyat zəifləyir və nəticədə dövlət gəlirləri azalır. Məmurların dövlətə bağlılıqları zəifləyir, iqtisadiyyat dayanır, doğum azalır, əhalisi çox olan şəhərlərdə əhali və ekoloji problemlər yaranır, bölgələrdə siyasi separatçılıq meylləri baş qaldırır, paytaxtda ordu və məmurlar real hakimiyyəti öz əllərinə alırlar. Nəticədə, kənardan gələn güclü tayfalar (əsəbiyyə) bu dövləti istila edərək onun yerində yeni bir dövlət qururlar.

İbn Xəlduna görə, avtoritar hakimiyyət olmadan cəmiyyətdə sülh və əmin-amanlıq yaratmaq mümkün deyildir. Belə bir cəmiyyətin mövcud olması üçün hər bir vətəndaş yüksək fəzilət və bilik sahibi olmalıdır. Reallıqda isə, bu mümkün deyildir. İnsan ağlına əsaslanan siyasi idarəetmə sistemində buraxılan səhvlər ağır nəticələr verir və bəzən güc tətbiqinə, despotizmə şərait yaradır. O, Əməvi və Abbasi hakimiyyətlərini dini deyil, ağıla əsaslanan sultanlıq idarəetməsi kimi qiymətləndirmiş və bu hakimiyyətlərin ərəb əsəbiyyətini ortadan qaldırdığını bildirmişdir. Mütəfəkkirin fikrincə, ən yaxşı idarəetmə sistemi şəriət qanunları əsasında dini idarəetmədir. Çünki burada həm vətəndaş, həm də dövlət paralel şəkildə idarə olunur, həmçinin dünya və axirət məsələləri öz həllini tapır. İbn Xəldun din və dövlətin bir-birindən ayrılmasına qarşı çıxır və xəlifəlik institutu çərçivəsində dini idarəetməni məqbul hesab edirdi [3].

Mədəniyyət və dövlət anlayışları bir-birini tamamladığı üçün İbn Xəldun onları əsasən vahid "ümran" anlayışı ilə ifadə edir. Ümranın ortaya çıxdığı mühit şəhər mühitidir. Lakin şəhər mühitini yaradan, yəni ümranı cəmiyyətə gətirən güc əsəbiyyədir. Bu anlayış böyük və güclü tayfaları ifadə etməklə yanaşı, həmçinin onların ruhundakı passionarlığı ifadə edir. İbn Xəldunun əsəbiyyə anlayışının ifadə etdiyi ikinci əsas məna - passionarlıqdır (bu anlayış L.Qumilyov

tərəfindən irəli sürülmüşdür). Əsəbiyyə mədəniyyətin yaranmasında əsas güc olmasına baxmayaraq, dinin fövqündə mədəniyyət yaratmaq iqtidarında deyildir. Çünki mədəniyyətin cismi əsəbiyyə, onu idarə edən və tənzimləyən isə din olur. İbn Xəldun mədəniyyətin yaranmasını passionarlığın və dini birliyin təmin olunması, onun inkişafını elmlərin inkişafı, süqutunu isə mənəvi-əxlaqi keyfiyyətlərin zəifləməsi ilə əlaqələndirir. Lakin mütəfəkkir əhli-kitab olmayan xalqların qurduqları mədəniyyətləri misal göstərərək, bunun universal bir qanunauyğunluq olmadığını bildirir. Belə çıxır ki, bununla mütəfəkkir hər bir mədəniyyətin yaranma, inkişaf və tənəzzülünün öz daxili qanunları olduğunu bildirməyə çalışır. Qeyd edək ki, İbn Xəldunun sosial fəlsəfə ilə bağlı irəli sürdüyü bu və digər ideyaları Avropa mütəfəkkirləri tərəfindən geniş istifadə olunmuşdur.

## ƏDƏBİYYAT


1. Луков Вл.А. История культуры Европы XVIII–XIX веков. М.: ГИТР, 2011.
2. Axundzadə M.F. Kəmalüdövlə məktubları. Bakı: 1985.
3. İbn Haldun. Mukaddime. Şark-İslam Klasikleri (Milli Eğitim Bakanlığı). İstanbul: 1990.

Узеир Зейналов

## СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ ФЕНОМЕНА КУЛЬТУРЫ НА МУСУЛЬМАНСКОМ ВОСТОКЕ

### РЕЗЮМЕ

В статье внимание уделяется формированию понятии «культура» на Мусульманском Востоке, и сопоставительному анализу выражений, эквивалентных данному понятию в западной философии. Также указывается, что существительное «город» (мадина), стоящее в корне понятия «культура», означало не средневековые, а современные промышленные города, возникающие в Европе. Так как в османской письменности XIX века под термином «цивилизасьон» в основном подразумевались театр, танцы, европейский стиль одежды, газеты, азартные игры и другие повседневные привычки и поведения городской жизни, а выражение «культурный человек» (civitas) означало «вежливый, аристократический, образованный городской житель с европейскими манерами». В статье исследуется концепция культура или «наука цивилизации» (умран) одного из великих философов восточного мира Ибн Халдуна, Он четко разграничивал оседлую и кочевую культуры. Ибн Халдун обозначал понятии культура и государства единым словом «умран», так как данные понятии дополняют друг друга.

Uzeir Zeynalov

## SOCIAL AND PHILOSOPHICAL ANALYSIS OF THE CULTURE PHENOMENON IN THE MUSLIM EAST

### SUMMARY

In the article, an attention is paid to formation of the concept of “culture” in the Muslim East and comparative analysis of expressions equivalent to this concept in the Western Philosophy. It is also indicated that a noun “city” (Medina) that stands in the root of the concept of “culture” expressed not the cities of the Middle East, but modern industrial cities formed in Europe. Because in Ottoman writings related to the XIX century, under the term of “civilization” mainly theatre, dance, European style fashion, newspaper, gambling and other daily urban life habits and conducts were intended, however, the expression of “a man of culture” (civitas) meant “European-style kind, noble, educated town’s man”. In the article the concept of culture or Ibn Khaldun’s (one of the great philosophers of the East) “science of umran”, has been studied. He distinguished nomadic and sedentary cultures one from other. As “culture” and “state” concepts complete each other, Ibn Khaldun expressed them under the one concept of “umran”.

# DİN, ƏXLAQ, MƏNLİK, ESTETİKA VƏ İCTİMAİ BAXIŞLAR SİSTEMİNİN FORMALAŞMASINDA ŞÜURUN ROLU

***Bəhruz GÜLMALIYEV,***
*Naxçıvan Dövlət Universitetinin dissertantı,*
*Naxçıvan Universitetinin müəllimi,*
*Naxçıvan MR Dini Qurumlarla İş üzrə*
*İdarəsinin baş məsləhətçi-hüquqşünası*

***AÇAR SÖZLƏR:*** *din, şüur, dərketmə, əxlaq, estetik zövq.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *религия, сознание, познание, этика, эстетическое удовольствие.*
***KEY WORDS:*** *religion, consciousness, cognition, morality, aesthetic pleasure.*

İctimai baxışlar sistemi: ictimai varlığı müəyyən sinfi mənafe mövqeyindən əks etdirən ideyalar, baxışlar və nəzəriyyələrin məcmusudur. O, hər hansı sinfin siyasi, fəlsəfi, dini və s. xüsusiyyətlərini özündə əks etdirən baxışlar sistemidir, gerçəkliyin nəzəri baxımdan dərk olunub ümumiləşdirilməsidir. Cəmiyyətdə sinfin əsaslı mənafeyi məhz ictimai baxışlar sistemi vasitəsilə daha dəqiq və dolğun ifadə olunur, bu da onun həmişə sinfi xarakter daşıdığını göstərir. Məhz dərin sinfi xarakter daşıdığına görə bir sıra müəlliflər ictimai baxışlar sisteminə "şüurun sinfi tərəfi", "nəzəri sinfi özünüidarəetmə" və s. kimi təriflər verirlər. Mütərəqqi inqilabçı siniflərin ictimai baxışlar sistemi də mütərəqqi, elmi olur, irticaçı siniflər isə həmişə köhnə, mürtəce ideyaları təbliğ edir, öz istismarçı təbiətlərinə haqq qazandırmağa çalışırlar. Ona görə də onların ictimai baxışlar sistemi mürtəcedir [1, s. 64].

İctimai baxışlar sistemi müəyyən bir ideyanın, yaxud ideyalar toplusunun sistemləşdirilməsidir, ideologiya formasına salınmasıdır. O, əvvəlcə ayrı-ayrı adamlar tərəfindən ideya şəklində yaradılır, sonra sinfin üzvlərinə, xalqa, millətə, kütləyə aşılanır. İdeologiya təklikdə quru sözdən başqa bir şey deyil, lakin o, insanların şüuruna, baxışlarına çevriləndə qarşısıalınmaz maddi qüvvəyə çevrilir. Vaxtilə fəlsəfəni, digər sosial elmləri ideologiyalaşdırırdılar, fəlsəfəyə dünyagörüşü kimi baxırdılar. Məsələn, K.Marks deyirdi ki, fəlsəfə proletariatda öz maddi qüvvəsini, proletariat da fəlsəfədə öz mənəvi ideyasını tapmış olur. İctimai baxışlar sistemi ictimai şüur hadisəsidir [2, s. 283].

İctimai baxışlar sistemi cəmiyyətin dünyanı (bütövlükdə) və onun ayrı-ayrı tərəflərini qavramaq səviyyəsini əks etdirən nəzəri baxışlar sistemidir. Bu sistem ictimai şüurun nisbətən daha yüksək səviyyələrindən biri olaraq dünyanı nəzəri cəhətdən əks etdirir.

İctimai baxışlar sisteminin mahiyyəti müəyyən sosial qrupların mənafeyini əks etdirməkdir. Bu, sinif, etnik qrup, hakim elita və ya müxalifət ola bilər. İctimai baxışlar sistemi

formasına görə obyektiv, məzmununa görə subyektivdir və ictimai inkişafın tələblərinə sosial qrupların baxışını nəzəri-sistemləşdirilmiş şəkildə ifadə edir. Eyni zamanda, bu qrupların sosial-siyasi hərəkatlarını əsaslandırır və onlara bəraət qazandırır.

İctimai baxışlar sistemində mühüm cəhət onun hansısa müəyyən mənafeyi əks etdirməsidir və onun həyata keçirilməsi üçün mənəvi vasitə olmasıdır. Deməli, nə qədər ki, qrupların, birliklərin, bəşəriyyətin hansısa bir mənafeyi mövcuddur və onların ödənilməsində zəruri ehtiyac vardır, ictimai baxışlar sistemi də mövcud olacaqdır [3, s. 369, 370].

İctimai şüur: ictimai varlığın inikasıdır, cəmiyyətin mənəvi həyatının başlıca hissəsidir. İctimai şüur insanların əməli fəaliyyətlərində istinad etdikləri və rəhbər tutduqları ictimai ideya və nəzəriyyələrin, siyasi, elmi, hüquqi, fəlsəfi, dini, əxlaqi, bədii baxışların, ictimai hiss, psixologiya, vərdiş və mənəvi keyfiyyətlərin məcmusudur [1, s. 60].

İctimai şüur ictimai-tarixi prosesin zəruri tərəfi və bütövlükdə cəmiyyətin funksiyasıdır. İctimai həyat prosesini ictimai şüursuz təsəvvür etmək mümkün deyil. İctimai şüursuz tarix əslində mənəvi-ruhi bir xaosa çevrilərdi [3, s. 366]. Çünki şüur olmadan insan cəmiyyəti, sosial münasibətlər formalaşa bilməz, cəmiyyətdə kəskin bir durğunluq formalaşardı. Belə olan halda insan hər hansı bir əşyadan qəti surətdə fərqlənməzdi.

Şüur mürəkkəb ideal informasiya prosesi kimi müəyyənləşdirilir və insan beyninin fəaliyyəti ilə bağlıdır. Beyində 100 milyarddan artıq sinir hüceyrəsi fasiləsiz işləyir və onların hər biri öz növbəsində daha 10 min digər hüceyrə ilə informasiya və siqnallar mübadiləsi aparır [4, s. 276].

Bir çox mütəfəkkirlərin fikrincə, insan öz şüurunun sirri üzərində hələ ən qədim zamanlardan düşünməyə başlamışdır. Əsrlər boyu onlar şüurun təbiətini aşkar etməyə çalışmışlar. Onlar "cansız materiya öz inkişafının müəyyən səviyyəsində canlı materiyanı, canlı materiya isə şüuru necə doğurmuşdur? Onun strukturu və funksiyaları nədən ibarətdir? Duyğulardan və qavrayışlardan fikrə, hissi-konkretdən mücərrəd-nəzəriyyəyə keçməyin mexanizmi necədir? Necə olur ki, şüur beyin qabığında cərəyan edən maddi fizioloji proseslərlə əlaqələnir?" kimi suallara cavab axtarmışlar. Bunlar və bir çox başqa problemlər uzun müddət ərzində ciddi obyektiv elmi tədqiqat üçün əlçatmaz qalmışdır [5, s. 68].

İctimai şüur ayrıca bir fərdin deyil, toplumun, kollektivin və s. ümumi baxışlar toplusu və münasibətidir. K.Marks və F.Engels elmə zidd olan idealist baxışları tənqid edərək göstərmişlər ki, ictimai şüurun meydana gəlməsi səbəblərini insanların beynində deyil, maddi nemətlərin istehsal üsulunda axtarmaq lazımdır. İctimai şüur maddi istehsal münasibətləri ilə bağlıdır, insanların ictimai əməli fəaliyyəti prosesində meydana gəlir. Bu isə o deməkdir ki, ictimai varlıq birinci, ictimai şüur isə ikincidir. "İnsanların şüuru onların varlığını müəyyən etmir, əksinə, insanların ictimai varlığı onların şüurunu müəyyən edir" [6, s. 7].

İctimai şüur ictimai varlığın inkişafından irəlidə gedə bilər. Bu o hallarda baş verir ki, alimlər, görkəmli siyasi xadimlər cəmiyyətin inkişafının dərk olunmuş qanunlarına arxalanaraq, bu inkişafın perspektivlərini elmi surətdə əvvəlcədən görsünlər.

İctimai şüur ictimai varlığı əks etdirir. Cəmiyyətin maddi həyatı, onun istehsal üsulu,

istehsal münasibətləri necədirsə, insanların ideyaları və baxışları da elədir. Belə ki, kapitalizmdə bir cür, sosializmdə isə başqa cür ictimai ideyalar və nəzəriyyələr, baxışlar və əhval ruhiyyə mövcuddur. Məsələn, istehsal münasibətlərinin istehsal vasitələri üzərində xüsusi mülkiyyətə arxalandığı kapitalizm cəmiyyətində hakim siniflərin əxlaqının əsasını fərdiyyətçilik prinsipi təşkil edir. İstehsal münasibətlərinin ictimai sosialist mülkiyyətinə əsaslandığı sosializmdə əxlaq kollektiv xarakter daşıyır. Deməli, ictimai varlıq dəyişildikdə, ictimai şüur da dəyişilir, yəni ictimai varlığın dəyişilməsi ictimai şüurun dəyişilməsinə səbəb olur.

İctimai şüur formaları bir-birindən fərqlənsə də, onların arasında sıx qarşılıqlı əlaqə və mürəkkəb qarşılıqlı təsir var. Məsələn, ictimai şüurun siyasi forması əxlaqa, dinə, fəlsəfəyə və incəsənətə çox güclü təsir göstərir.

F.Engels “Lüdviq Feyerbax və klassik alman fəlsəfəsinin sonu” adlı əsərində qeyd edirdi ki, ictimai şüur formaları insanların ideoloji münasibətlərinin formalaşmasında müxtəlif rol oynayır. Burada ictimai şüurun siyasi forması, siyasi ideologiya öz əhəmiyyətinə görə birinci sıraya keçir.

Bununla yanaşı, nəzərə almaq lazımdır ki, konkret tarixi şəraitdən asılı olaraq müxtəlif tarixi dövrlərdə ictimai şüurun başqa formaları da birinci sıraya keçə bilər. Məsələn, orta əsrlərdə ictimai həyata din daha güclü təsir göstərirdi. Bu dövrdə siyasi ideyalar da, mənəviyyat da, incəsənət də dini çalar alırdı [7, s. 283-292].

Bəşəriyyət var olmağa başladığı andan etibarən ictimai şüurun bütün formaları mövcud olmamışdır. İctimai quruluş və obyektiv aləm mürəkkəbləşdikcə, həmçinin insan idrakı, zehni qabiliyyəti, təfəkkürü inkişaf etdikcə ictimai şüurun müxtəlif formaları təşəkkül tapmışdır. Bu forma müxtəlifliyinin əsasında idrak obyektinin fərqli olması dayanır. İctimai şüur ətraf mühitdəki müxtəlifliyi onun yalnız məzmununa görə deyil, həmçinin dərk edilmə məsələsinə görə fərqləndirir. İctimai şüurun formaları hər bir reallığı özünə məxsus formada əks etdirir.

Əxlaqi şüur: Əxlaqi şüurda fərdlərin, sosial qrup və birliklərin, bütövlükdə cəmiyyətin davranış normalarını və onların qiymətləndirilməsini ifadə edən baxışlar və təsəvvürlər əks olunur. Əxlaq da hüquq və vəzifələr kimi insanların davranışını tənzim edir, lakin bir çox cəhətdən onlardan fərqlənir.

Əxlaq cəmiyyətin hər bir ictimai-iqtisadi formasiya və sivilizasiyasının bütün mərhələsi üçün zəruridir; əxlaqi normalar ictimai rəy tərəfindən yaradılır və bu rəy də onu qoruyur. Əxlaqın normaları ideal-ruhi sanksiyalara malikdir, yəni hər bir şəxs öz davranışını ictimai rəy baxımından qiymətləndirib qərar qəbul etməlidir. Əxlaq normaları dövlət tərəfindən tənzimlənməyən sahələrə qoşulur. Məsələn, dostluq, yoldaşlıq, sevgi və s. [3, s. 369, 375].

İctimai münasibətlərdə bir sıra özünütənzim mexanizmləri fəaliyyət göstərir ki, bunlar həmin münasibətlərin bərpasını və inkişafını təmin edir. Bunlar həm iqtisadi mexanizmlər, həm də dövlət, hüquq, əxlaq kimi sosial institutlardır. Burada əxlaqi sərvətlər fərdi şüurun bütün psixi vəziyyətini cəmiyyətdə yaranmış sosial qarşılıqlı münasibətlərə uyğunlaşdıraraq, əxlaqın parlaq oriyentirləri kimi xüsusi rol oynayırlar.

Əxlaq ictimai inkişafın gedişini ya sürətləndirmək, ya da ləngitmək qabiliyyətinə

malikdir. Qabaqcıl mənəviyyat insanların həyatında yaxınlaşan inqilabi dəyişikliklərin carçısı olaraq cəmiyyəti irəli aparan sosial qüvvələrin əhval-ruhiyyələrinin və dünyaya baxışlarının dəyişməsini sanki özünə toplayır.

Müxtəlif tarixi dövrlərdə əxlaqi şüurun müxtəlif strukturları mövcud olmuşdur. Xüsusi həyat tərzi insanda əxlaqi şüurun xüsusi növünə rəvac verir. Bu şüurda onun sosial mühitə, özünə, bütün dünyaya münasibəti ifadə olunur. Əxlaqi şüurun məzmunundakı fərqlər onun quruluşunda, adamların davranışının tənzim olunması üsullarında da fərqlərə səbəb olur. Buna baxmayaraq, əxlaqi şüurun strukturunun bəzən ümumi əlamətlərindən (davranış, hərəkət) danışmaq mümkündür. Bu əlamətlər onu şüurun başqa növlərindən (elmi, bədii və s.) ayırır. Bunlar əxlaqın ən geniş mücərrəd xarakteristikaları və elə sosial-psixoloji mexanizmləridir ki, formaca müxtəlif dövrlərin adamlarında oxşar olub, çox vaxt müxtəlif normativ məzmunu bərqərar edir.

Əxlaqi şüurun müxtəlif dövrlərin və cəmiyyətlərin adamları üçün ümumi olan strukturunun ayrılması ciddi metodoloji çətinliklər və mübahisəli məsələlər sırasına aiddir. Lakin əxlaqi şüurun ümumi strukturunun mücərrədləşməsi mütləq olmalıdır: əks təqdirdə, əxlaq bir-biri ilə əlaqəsi olmayan mərhələlərə bölünər, keyfiyyətcə özünəməxsus formaların əvəzlənməsi varisliyinə malik olan birtipli hadisə kimi əxlaqın inkişafını başa düşmək olmazdı. Lakin bu ümumi strukturu əxlaqın bir kateqoriyasını mücərrədlik yolu ilə digərindən çıxarmaqla deyil, yalnız tarixən məzmunlu sistemlərin təhlilinə əsaslanmaqla ayırmaq olar [8, s. 29, 33, 103].

Əxlaqı eyni zamanda ruhun xarakteri kimi xarakterizə edə bilərik. İstər sosial, istərsə də qeyri-sosial mühitdə insan ruhunu istiqamətləndirən əxlaq kodeksidir. Əxlaq eyni zamanda davranışları çərçivəyə salır. Vicdan anlayışı müəyyən qədər üstün olan insanlarda əxlaq bir növ azadlığın məhdudlaşdırılması kimi başa düşülə bilər. Yəni əxlaq olmasa, ictimai mühitdə özbaşınalıq, dələduzluq, qeyri-etik davranışlar, nəfsin mənfi istəklərinə meyillilik baş alıb gedər. Əxlaq bu çərçivəni qoruyucu funksiyanı icra edir. Bütün dinlərin və filosofların konkret dərk edə bilmədikləri ruh-nəfs əxlaqla daim mübarizə şəraitindədir. Bir çox hallarda yüksək əxlaq qalib gəlsə də, çox vaxt əksi olur.

İnsan ruhunda bir neçə vəziyyət mövcuddur. Məsələn, hiss, sevgi, ehtiras, qabiliyyət, əxlaqi əsaslar, həssaslıq və s. Əxlaqi əsaslar (yaxud ruhun xarakteri) odur ki, onların sayəsində biz yaxşı və ya pis ehtiraslarımızı idarə edirik, məsələn, qəzəbi. Əgər biz coşqun şəkildə qəzəbləniriksə, onda pis idarə edirik, onu cilovlaya biliriksə, yaxşı və s. Bütün qalan ehtiraslar da eynilə bunun kimidir [9, s. 148].

Müəyyən sosial məziyyətlər fonunda əxlaq normalarını ümumiləşmiş formada belə təsvir edə bilərik: Sosial-İnsan, Din-İnanc, Təbiət-Varlıq, Vicdan.

**Sosial-İnsan:** Kainatda baş verən demək olar ki, bütün sosial proseslərin bir və ya hər iki tərəfini insan təşkil edir. Sosial ailə mühitinin formalaşmasında insan faktorunun rolu danılmazdır. Burada insanın müxtəlif insanlarla münasibətləri əsas rol oynayır – o, valideyn və ya övladdır, dost və ya ailə üzvüdür, qonşu və ya qohumdur və s. Əlbəttə ki, bu münasibətləri formalaşdıran və nizama salan əxlaq, əxlaqi dəyərlərdir. İctimai şüurun və sosial amilin

formalaşmasında əxlaqın insan üzərində təsiri əsas şərtlərdəndir. Cəmiyyət həyatına nəzər salsaq, əxlaqdan kasad cəmiyyətlərdə neqativ halların hökm sürdüyünün, əxlaqi dəyərlərin əsas götürüldüyü cəmiyyətlərdə isə hərtərəfli tərəqqinin baş verdiyinin şahidi olarıq.

**Din-İnanc:** İctimai şüuru inancsız təsəvvür etmək mümkünsüzdür. İnsan zehnindəki təsəvvürlər nəticəsində tarixin hər dövründə təbiətüstü qüvvə axtarışında olmuşdur. Dinlər tarixinə nəzər salsaq, dini inancdan kənar cəmiyyətə rast gələ bilmərik. Müxtəlif cəmiyyətlər və ya fərdlər ayrı-ayrı tanrılara sitayiş etsələr də, bunların hamısı eyni inanc, hiss və duyğu nəticəsində baş vermişdir.

Günümüzdə üç ilahi qaynaqlı və müxtəlif millətlərə məxsus olan milli dinlər mövcuddur. Əxlaqi normalar bütün bu dinlər və onların nümayəndələri arasında münasibətləri tənzimləyən əsas ünsürdür. Dinlər arasında əxlaqi normalara riayət etmək öz-özlüyündə tolerant dəyərlərə yiyələnmək və onun prinsiplərini tətbiq etmək deməkdir. Dinlər arasında qarşılıqlı hörmət, dözümlülük olarsa, bu gün qlobal problem kimi dini qarşıdurmanın heç bir formasına rast gəlinməz.

**Təbiət-Varlıq:** Mahiyyətindən asılı olmayaraq kainatdakı bütün cisimlər müəyyən funksiyanı həyata keçirmək üçün yaradılmışdır. Şüur və təbiət-varlıq aləminin qarşılaşdırılması fonunda varlığın funksiyasının düzgün şəkildə icra edilməsi məsuliyyəti əxlaqi ölçülərin üzərinə düşür. Məsələn, stul əyləşmək üçün yaradılıb. Biz onun üzərində əyləşərkən o, yaradılış funksiyasını icra edir. Biz onun üzərinə çıxsaq, stula əziyyət vermiş olarıq. Bu, öz növbəsində əxlaq prinsiplərinin düzgün şəkildə icra olunmamasıdır. Başqa cür izah edək, qoyunun funksiyası insanları süd, yun və s. ilə təmin etməkdir. Bunu edərkən qoyun yaradılış funksiyasını icra etmiş olur. Əxlaqi normalar tələb edir ki, qoyun saxlayan şəxs onun suyunu, yemini vaxtlı-vaxtında versin. Əxlaqi normalara riayət etməyib qoyunun yemini, suyunu verməmək şüurun təbiət-varlıq aləminə yanlış əxlaqi yanaşmasıdır.

Misallardan da aydın olduğu kimi, ictimai şüur ilə təbiət-varlıq aləmini nizama salan ünsür əxlaqdır, əxlaqın tətbiq edilməsidir.

**Vicdan:** İctimai şüurun, ictimai davranışın mənfi və ya müsbət olduğunu təyin edən birinci ünsür vicdandır. Fiziki və metafiziki varlığa olan münasibətin yanlış, yaxud doğru olduğunu o müəyyən edir. Vicdan cəmiyyətdə əxlaq normalarına riayət edilməsinin ilkin səbəbidir. Vicdan olmasa, əxlaq da olmaz. Məsələn, yalan danışmaq əxlaq normalarına ziddir. Bunun düzgün davranış olmadığını isə vicdanımız müəyyən edir.

**Dini şüur:** Araşdırmalar nəticəsində belə qənaətə gəlinmişdir ki, din duyğusu fitridir. O, ilk insanla bərabər ortaya çıxmışdır və insan var olduğu müddətcə də öz varlığını davam etdirəcəkdir. Harada insan cəmiyyəti varsa, orada mütləq din mövcuddur. Bəşər tarixi boyu insanın əsas sayıla biləcək bir çox xüsusiyyətləri olsa da, din bunların ən öndə gələni olmuşdur.

Dini şüur təbiətüstü varlığa inancdan formalaşmışdır və şüurun ən qədim formalarından biridir. Demək olar ki, ilk insanın mövcudluğu ilə din və dini şüur da mövcud olmuşdur.

Bəzi filosoflara görə, ilk dini şüurun yaranmasına insanın təbiət qüvvələri qarşısında acizliyi, onlara təsir etmək imkanının məhdudluğu, təbiət və digər elmlərin inkişaf etməməsi,

yazının olmaması və s. amillər təsir göstərmişdir. Dinin ilk formaları insanlar tərəfindən müxtəlif təbiət hadisələri və heyvanların tanrılaşdırılması ilə əlaqəli olmuşdur. Dinin bu ibtidai formaları (animizm, totemizm) ilk dövrlərdə formalaşmağa başlasa da, sonrakı dövrlərdə yaranmış dinlərə də sirayət etmişdir.

Bəzi filosoflar ilk dini duyğunun politeizm olduğunu iddia edirlər. İslam filosofları isə bunun əksinə, ilk dini duyğunun monoteizm olduğunu irəli sürürlər. Onlar İslamın müqəddəs kitabı Qurani-Kərimə istinad edərək Yer üzündə yaradılan ilk insanın Adəm olduğunu və onun uca, əzəmətli, qüsursuz Allaha sitayiş etdiyini bildirirlər (Bəqərə, 30-31). Onlara görə, politeizmin formalaşması sonradan monoteizmin yanlış anlaşılması və tətbiq edilməsi nəticəsində baş vermişdir.

Bütün dinlərdə tanrı, kainat, insan, təbiət və s. ilə bağlı dini təsəvvürlərlə yanaşı, özlərinə xas ayin və mərasimlər mövcud olmuşdur. İlk dinlərdə bu ayin və mərasimlər tanrılaşdırdıqları “qüvvələrdən” qorxma, hər hansı metafizik qüvvələri (şeytan, cin, mələk) insan iradəsinə tabe etmə, şər qüvvələrdən qorunma, mədət umma (quraqlıq zamanı yağışın yağmasını istəmək) və s. məqsədilə həyata keçirilirdi. İlahi qaynaqlı dinlərdə isə dindarlar həmin dinlərin hökmlərinə uyğun olaraq ayin və mərasimləri yerinə yetirib, Allahdan kömək, xeyir-bərəkət diləyirlər.

Dünya dinlərinin meydana gəlməsi müxtəlif ölkələr və xalqlar arasında siyasi, iqtisadi və mədəni əlaqələrin uzunmüddətli inkişafının nəticəsidir. Bütün dinlərdə elmin və texnikanın inkişafı, cəmiyyət həyatındakı dərin inqilabi proseslərlə əlaqədar olaraq yeni şəraitə uyğunlaşma, inkişaf və yeniləşmə prosesi gedir. Lakin müasir dünyada dini şüurun yanlış istiqamətləndirilməsi nəticəsində dinlərdən yeniləşmə, inkişaf, uyğunlaşma kimi yox, adət-ənənə, mərasim və s. kimi istifadə edilir.

**Mənlik şüuru:** Şüurun digər bir növü mənlik şüurudur. Bu, insanın fəal mövqe tutması, subyektin öz-özündən ayrılması, öz “mən”inin imkanlarını düzgün qiymətləndirmək qabiliyyəti, daha konkret ifadə ilə desək, özünə kənardan baxıb, fəaliyyətini qiymətləndirmək şüurudur. Mənlik şüuru müəyyən tarixi şəraitdə dəyişən, zənginləşən, öz müxtəlif forma və səciyyələri olan şüurdur [10, s. 149].

Kainat insandan ətraf aləmlə birgə özünü də kəşf etməyi tələb edir. Bu şüur növü insanın özünü dərk və kəşf etməsidir. İnsanın nəyə qadir olması, ən böyük çətinliklərə tab gətirə bilməsi və ya əksinə, tab gətirə bilməməsini anlaması mənlik şüurunun əsas predmetləridir.

İnsanın özünü şəxsiyyət kimi dərk etməsi məhz mənlik şüuru deməkdir. Mənlik şüuru sosial həyat tərzinin təsiri altında formalaşır ki, bu da insandan öz hərəkətlərinə nəzarət etməyi, öz əməlləri üçün məsuliyyət daşımağı tələb edir [5, s. 75].

İnsan “mən”inin kəşfi şəxsiyyətin uzunmüddətli inkişafı nəticəsində baş vermişdir. Uşaqlıq dövründən başlayaraq insan özünü dərk etməyə başlayır. Bununla da özünüdərkin ilkin ibtidai forması yaranır. Daha sonrakı yaşlarda bunun sahəsi genişlənir. Məktəb illərində oğlan və qızlarda şəxsiyyətin dərkinin yeni mərhələsi başlayır. Artıq bu dövrdə, ələxüsus, yetkinlik dövründə yeniyetmələr xarici görkəmlərinə, gözəl və nöqsanlı tərəflərinə diqqət yetirməyə başlayırlar. Daha yuxarı yaşlarda insan özünün hansı ixtisas və ya peşəyə daha uyğun olduğunu

dərk edir və özünü həmin istiqamətə yönləndirir. Beləliklə, özünüdərkin daha geniş forması başlayır.

İnsanın digərlərinə qarşı münasibətinin həddini müəyyən dərəcə mənlik şüuru təyin edir. Belə ki, özünə bələd olan şəxs hansı xasiyyətə sahib biri ilə hansı tərzdə rəftar ediləcəyini bilir. Kimə hansı formada güzəşt edilməli, kimə hansı fomrada davranılmalıdır və s.

Bu, öz-özlüyündə onu göstərir ki, ictimai şüur növü olan mənlik şüuru sosial münasibətlərin şəkilləndirilməsində müəyyən dərəcədə rol oynayır. Belə ki, şəxsiyyət olaraq formalaşmayan, başqa ifadə ilə desək, özünü dərk etməyən sosial münasibətlərdə fəal iştirak edə bilməz və yaxud nöqsanlı iştirak edər.

**Estetik** şüur: İctimai şüurun ən rəngarəng və zövq oxşayan forması estetik (bədii) şüurdur. Estetik sözü yunancadan tərcümədə “hiss edən”, “hiss olunan” mənalarını verir [3, s. 366]. İstehsalat sahəsində insan yalnız maddi nemətlər istehsal etməklə yetinmir, mənəvi və zövq oxşayan, insana hüzur və rahatlıq verən nemətlər də ortaya qoyur. İnsanın zehni inkişaf etdikcə bir-birindən gözəl və faydalı nemətlər istehsal etməyə və onları bir-birindən fərqləndirməyə, həmçinin yeni-yeni zövqlər əldə etməyə çalışır.

Əmək bölgüsünün təkmilləşməsi ilə öz əsərlərində insan ruhunu oxşayan sənətkarlar – rəssamlar, heykəltaraşlar, arxitektorlar, şairlər, yazıçılar, bəstəkarlar və başqaları meydana gəlir. Bu yolla xüsusi peşə sahəsi – incəsənət yaranır, yaradıcı bədii sənət əsərləri dünya mədəniyyətini zənginləşdirir. Həmin incəsənət sahəsi varlığı bəzən bədii boyalar və obrazlar vasitəsilə, real-fantastik formada əks etdirir.

Hər bir əmək fəaliyyəti fəhlə, kəndli, sənətkar əməyi olmasından asılı olmayaraq yaradıcı proses sayıldığına görə özündə həm də bədii keyfiyyətləri əks etdirir. Əməkdə insan nə qədər azad və yaradıcı olursa, onun əməyinin məhsulları bir o qədər incəsənətə yaxınlaşır, bədii sənət nümunələrinə çevrilir. Bu yolla da musiqi əsərləri, rəsmlər, heykəllər, memarlıq nümunələri və s. meydana gəlir. Bu bədii sənət əsərlərində, bədii obraz və təsəvvürlərdə gerçəkliyin maddiləşmiş təcəssümü əks olunur, onlar da bizim hiss üzvlərimizə təsir edərək, müəyyən emosional reaksiya doğurur. Bu, onu göstərir ki, bədii şüurda əyani hissi obrazlar mərkəzi yer tutur. Onların vasitəsilə insan nəinki müəyyən hissi vəziyyət əldə edir (sevinir, kədərlənir), həm də hadisələrdən bədii zövq alır, gerçəklik hadisələrinin mahiyyətinin emosional-idraki dərk edilməsində geniş imkanlar qazanır. Məhz bu yolla elmlə incəsənətin sıx əlaqəsi özünü göstərir [1, s. 76, 77].

## ƏDƏBİYYAT


1. Maqsud Cəlilov. Sosial Fəlsəfə. Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin mətbəəsi, 1992.
2. Əlikram Tağıyev. Fəlsəfə. Bakı: ADMİU mətbəəsi, 2012.
3. Həmid İmanov. Fəlsəfə. Bakı: Turan evi şəşriyyatı, 2005.
4. Ramiz Mehdiyev. Fəlsəfə. Bakı: Şərq-Qərb mətbəəsi, 2010.
5. F.V.Konstantinov, A.S.Boqomolov, Q.M.Qak, Q.Y.Qlezerman, V.J.Kelle, P.V.Kopnin, İ.V.Kuznetsov, S.T.Melyuxin, V.S.Semyonov, A.Q.Sipirkin, M.M.Rozental, M.N.Rutkeviç, A.F.Şişkin, D.İ.Çesnokov. Marksizm-Leninizm Fəlsəfəsinin Əsasları. Bakı: Maarif nəşriyyatı, 1980.
6. K.Marks. Siyasi İqtisadın Tənqidinə Dair. Bakı: Azərnəşr, 1955.
7. D.İ.Danilenko, B.İ.Syusykalov, A.S.Vişnyakov, P.K.Qaldyayev. İbtidai Fəlsəfə Kursu. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1969.
8. A.İ.Titareçko, A.Hüseynov, Bakştanovski, Y.V.Soqomonov, A.Q.Xarçev. Marksist Etika. Bakı: Maarif nəşriyyatı, 1985.
9. Ə.S.Abasov, N.A.İmanov. Qədim Yunan Fəlsəfəsi Antologiyası. Bakı: Yeni Nəsil nəşriyyat-poliqrafiya mərkəzi, 2005.
10. Maqsud Fərhadoğlu. Fəlsəfənin Əsasları. Bakı: Maarif nəşriyyatı, 1996.

Бахруз Гюльмалиев

# РОЛЬ СОЗНАНИЯ В ФОРМИРОВАНИИ РЕЛИГИИ, МОРАЛИ, САМОПОЗНАНИЯ, ЭСТЕТИКИ И СИСТЕМЫ ОБЩЕСТВЕННОГО ВЗГЛЯДА

## РЕЗЮМЕ

С появлением первого человека существовали религии и религиозные убеждения. В последующие периоды религия сформировала и направила образы этики, самоуважения, эстетики и общественного мышления для развития сознания. Сознание выступало не только с позиции индивидуума, оно так же давало чувствовать свое влияние над такими понятиями как семья, единство, коллектив, общество. Таким образом сформировалось общественное сознание.

Bahruz Gulmaliyev

# THE ROLE OF CONSCIOUSNESS IN THE FORMATION OF RELIGION, MORALITY, SELF-CONSCIOUSNESS, AESTHETICS AND THE SYSTEM OF PUBLIC ATTITUDES

## SUMMARY

Religion and religious belief appeared with the birth of the first man. In the later periods, the development of consciousness has formed and guided religious morality, self-esteem, aesthetics and public thinking. Consciousness represents not only individual position, but also has great impact on such concepts as family, unity, collective and society. Thus, public consciousness has been formed.

# SON ŞİRVANŞAH BÜRHAN ƏLİ DÖVRÜNƏ DAİR SİKKƏLƏRİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ
## (Yeni numizmatik tapıntılara istinadən)

***Aygün MƏMMƏDOVA,***
*AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin*
*"Numizmatika və epiqrafika" elmi fond şöbəsinin*
*elmi işçisi, tarix üzrə fəlsəfə doktoru,*
*aygun_kons@mail.ru*

***AÇAR SÖZLƏR:*** *şirvanşah, Bürhan Əli, sikkələr, dəfinələr, Bakı, Şirvan, Səfəvilər, Osmanlılar.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *ширваншах, Бурхан Али, монеты, клады, Баку, Ширван, сефевиды, османы.*
***KEY WORDS:*** *shirvanshakh, Burkhan Ali, coins, buried treasure, Baku, Shirvan, the Safavids, the Ottomans.*

Zəngin irsə malik olan Azərbaycan numizmatikası yeni tapıntılar sayəsində maraqlı tarixi faktlar üzə çıxarır. Biz də apardığımız bu tədqiqat işində XVI əsrə aid Şirvan sikkə tapıntılarının yeni tiplərini elmi dövriyyəyə cəlb edərək son şirvanşah Bürhan Əlinin (1539-1543) nadir sikkə emissiyalarını təqdim etmişik.

Son illərə aid dəfinələrin tədqiqi əvvəlki tarixi araşdırmalarda əksini tapmış Şirvanşah-Səfəvi münasibətlərinin tarixinə yeni mövqedən yanaşmaq zərurətini doğurmuşdur. Belə ki, sikkələrin Bürhan Əlinin adına zərb edilməsi onun Şirvanda faktiki hakimiyyətə sahib olduğu ehtimalını doğurur.

Numizmatların məlumatlarına əsasən [1; 2], 2017-ci ildə tapılma yeri və tam tərkibi məlum olmayan, təxminən 10 kq-lıq Ağqoyunlu, Şirvanşah və Səfəvi sikkələrindən ibarət Böyük Şirvan Dəfinəsindən (BŞD) 200 ədəd sikkənin təyinatı müyyənləşdirilmişdir. Bu sikkələr bir sıra toplularda ümumi və yığcam şəkildə nəşr edilmiş və geniş marağa səbəb olmuşdur.

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin "Numizmatika və epiqrafika" elmi-fond şöbəsinin müdiri, t.e.d, prof. Əli Rəcəbli 18-22 aprel 2017-ci ildə Rusiya Federasiyasının Velikiy Novqorod şəhərində keçirilən XIX Ümumrusiya Numizmatika Konfransında iştirak etmişdir. 140-dan artıq mütəxəssisin toplandığı beynəlxalq konfransda çıxış edən numizmat-alim "Şirvanşahların nadir sikkələri" adlı məruzəsində V Məhəmməd ibn Əhməd (981-991), Qubad ibn Yəzid (1043-1049) və Bürhan Əlinin (1539-1543) nadir sikkələrindən danışaraq yeni maraqlı tarixi faktları diqqətə çatdırmışdır. Texniki səbəblərə görə həmin məruzə çap edilmədiyindən, ictimaiyyətə çatdırılmamışdır [1]. Bu məruzədə əksini tapmış Bürhan Əli dövrünə aid unikal sikkələrin təsnifatını oxuculara təqdim edirik.

Məqalədə göstərdiyimiz numizmatik faktlardan əlavə, digər zərbxanalar və zərb tarixlərinə malik sikkə tiplərinin olması haqqında da məlumatlar mövcuddur.

Beləliklə, şəkillərini təqdim etdiyimiz yeni tapıntılar şirvanşah Bürhan Əlinin sikkə emissiyalarını tiplərə ayırmağa imkan verir (bax: qrafik təsvirlər: şəkil 1 – 12).

*I tip.* Bu tipə aid sikkələr eynilə Şahruxun h. 944 = 1537/1538-ci il sikkələrini təkrarlayır. Bu emissiyanın h. 946 = 1539/1540-cı ildə təzahür etməsi qanunauyğundur və Şahruxun ölüm tarixi ilə eynidir.

*II tip.* H. 947 = 1540/1541-ci il tarixi ilə zərb edilən bu tip sikkələr araşdırmaya cəlb etdiyimiz Bürhan Əli sikkələrinin ən aydın göstəricisidir. Sikkə üzərindəki ifadələr məlumat zənginliyi ilə seçilir.

Bakı zərbxanasında belə sikkələr fərqli olaraq "bəlәde Bakuyə" (Bakı ərazisi) şəklində zərb edilmişdir.

Hökmdarın adı, zərb yeri və tarixi tam olaraq bilinən bu sikkənin digər tipində hökmdarın adı qısa (sultan Əli), zərb yeri isə sadə şəkildə (Bakuyə) həkk edilmişdir.

*III tip.* Zərb tarixi h. 948 = 1541/1542-ci il olan belə sikkələr əvvəlkilərlə müqayisədə xeyli fərqlənir. Hökmdarın adı və titulu, həmçinin zərbxananın qeyd edilmədiyi bu cür sikkələrdəki şiə simvolu, ehtimal ki, emitent adına eyhamdır.

*IV tip.* Bu tipə aid I növ sikkələr III tipə bənzəyir, fərq yalnız zərb ilində (h. 949 = 1542/1543) və tərtibatdadır.

Bu tipin II və III növləri arasındakı fərq sikkənin dairəsi daxilindəki ifadələrin yerdəyişməsi ilə nəzərə çarpır.

*V tip.* Belə sikkələrin kartuşları Şirvanşah sikkələrinə mənsub xarici görünüşə malikdir. Üst tərəfdəki sünni simvolu mərkəzi hissəyə Allah kəlamının əlavə edilməsi ilə qabardılmış, sikkənin arxa tərəfində isə əvvəlki şiə simvolundan fərqli olaraq sünni iman simvolu və zərb tarixi (h. 950 = 1543/1544) həkk edilmişdir.

Bu tipin digər nümunələrində də sünni iman simvolu və zərb tarixi hər iki tərəfə zərb edilmişdir. Belə sikkələri ətraflı tədqiq edən G.Zlobin bu cür zərb üsulunu adi uyğunluq və texniki təsadüf saymır [2]. Sikkənin hər iki tərəfinin möhürləri fərqlidir.

Bu tipin III növü II növün tərtibatını təkrarlayır. Sikkənin arxa tərəfinin mərkəzində zərb tarixi olsa da, sikkə kənarındakı ifadə emitentin titulu və adına işarədir.

*VI tip.* Bu tipə aid sikkələr V tipin xüsusiyyətlərini təkrarlayır. Həm üst, həm də arxa tərəfdəki mərkəzi kartuşda "Allah" kəlamı, sikkə möhürü daxilində isə şiə iman simvolunun bir hissəsi emitentin titulu və adı ilə həkk edilmişdir.

*VII tip.* Bu tipə aid sikkələrin digər tiplərdən əsas fərqi ilk növbədə 5 illik xronoloji fasilə ilə izah olunur. Qeyd edilən dövrün zəngin hadisələri nəzərə alınarsa, bu, uzunmüddətli fasilədir. Lakin erkən emissiyalarla bu emissiya arasındakı bənzərlik həm oxşar zərb ardıcıllığında, həm də texnikada nəzərə çarpır. H. 949 = 1542/1543-cü ilə aid sikkələri təkrarlayan sikkələrin üst tərəfində emitentə işarə edən şiə iman simvolu, digər tərəfində isə sünni iman simvolu yazılıb [2].

Bu tipə aid sikkə möhürlər, kalliqrafik və digər mürəkkəb həndəsi xətlər və d. detalların aşağı keyfiyyətli zərbi nəzərə çarpır.

Yuxarıda qeyd etdiyimiz sikkələrin nominalı və çəki normasının təyini vacib məsələlərdəndir. Son illərə aid tarixi araşdırmalar nəticəsində belə sikkələrin nominalının axırıncı şirvanşah sikkələri ilə analogiya təşkil etdiyi məlumdur. Türkçə "akçe", azərbaycanca "ağça" termini ilə ifadə edilən h. 949-956 = 1542-1549-cu illərə məxsus, tədqiqata cəlb etdiyimiz sikkələrin çəkisi zərb ili və tipindən asılı olaraq 0,29 – 0,42 q arasında dəyişir.

Son şirvanşahların sikkələrini aşağı çəkili Səfəvi nominalları ilə müqayisə edən G.Zlobin onları 3 Qərb standartına ayırmışdır:

1) H. 937 = 1530/1531-ci ilə dair 0,79 q çəkili 5 dinar;

2) H. 947 = 1540/1541-ci ilə dair 1,24 q çəkili 10 dinar və 0,622 q çəkili 5 dinar;

3) H. 949 = 1542/1543-cü ilə dair orta çəkisi 1,05 – 0,525 q olan 3 (normativ çəki 0,372 q) və ya 3,5 dinar (normativ çəki 0,36 q).

Təhlil əsasında aşağıdakı qənaətlər əldə edilmişdir:

1) Bakı zərbxanasına aid yeni sikkələr Dərbənd şirvanşahlarının son sultanı Bürhan Əlinin hakimiyyəti dövrünə aiddir;

2) Sultan Bürhan Əli h. 946-950 = 1539-1543-cü illərdə sikkə zərbi hüququnu həyata keçirmişdir;

3) H. 946-947 = 1539-1540-cı illərə aid sikkələrdə sultanın adı olsa da, h. 948-950-ci illərə dair sikkələr anonim zərb edilib;

4) H. 946-950 = 1539-1543-cü illərdə Şirvan vilayətində yeni emissiya mərkəzi kimi fəaliyyət göstərən Bakı (bələd Bakuyə) müstəqil, siyasi və numizmatik avtonom vahid idi;

5) H. 955-956 = 1548-1549-cu illərə aid emissiyaları nəzərə alaraq, sultan Bürhan Əlinin hakimiyyəti dövrünün mərhələvi olduğunu söyləmək mümkündür;

6) Yeni emissiya mərkəzi olan Bakıda 7 orijinal tipli sikkə zərb edilmişdir;

7) Sikkə zərbi emissiyasının artması ilə anonimlik və sikkə tərtibində şiə dini təsirinin artırılması nəzərə çarpır;

8) Yeni orijinal sikkə tiplərinin nominalı Səfəvilərin II və III standartının 3 dinarına müvafiqdir.

Yeni aşkar edilmiş numizmatik faktlar h. 946-947 = 1539-1541-ci illərdə Bakıda sultan Bürhan Əlinin adından kəsilmiş sikkələrdəki ifadələrin əsasən iki istiqamətdə dəyişdiyini sübut edir:

1) şiə dini ifadələrinin və anonimliyin artırılması ilə davam etdirilən zərbdə əvvəlcə hökmdarın tam adı;

2) sonrakı zərbdə isə titulunun həkk edilməsi dayandırılmışdır. Bu dövrə aid son sikkələrdəki şiə simvolu Səfəvi idarəçiliyinə tabe olmanı bildirməklə real hökmdara eyhamdır.

Qeyd edilən dövrə dair son sikkələrdə zərbxana adının olmaması isə Bürhan Əlinin hakimiyyət hüququndan, eləcə də sikkə zərbi hüququndan məhrum olmasını göstərir. Yazılı mənbələrdə bu barədə məlumat verilməsə də, görünür, siyasi təzyiqlərə məruz qalan Bürhan Əli Şirvanı tərk eməyə məcbur olmuşdur.

Tarixi məlumatlara əsasən: "… Bürhan Əli sultan həmin dövrdə dəfələrlə qoşun toplayaraq Səfəvi canişini Əlqas Mirzə ilə döyüşmüş, hər dəfə məğlub olduğundan Osmanlı padşahlarına sığınmışdır" [3, s. 73; 4].

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

H. 946-950 = 1539-1541-ci illərə aid çoxsaylı Şamaxı sikkələrinin tədqiqi sayəsində Bürhan Əli ilə I Təhmasib arasında ciddi rəqabətin olduğunu söyləmək mümkündür. Həmçinin şirvanşah Şahruxu həbs edərək qətlə yetirən, Şamaxı, Dərbənd və başqa şəhərləri ələ keçirən I Təhmasibin Bürhan Əli ilə mübarizəyə hazır olmadığını da iddia etmək yerinə düşərdi [5, s. 353].

Bu qənaətlər Bürhan Əli ilə Səfəvi dövləti arasında vassal münasibətlərinin olduğunu sübut edir.

Məqalədə təqdim etdiyimiz VII tip sikkələrin təhlili sayəsində həmçinin Bürhan Əlinin Osmanlıya arxalanaraq h. 955 = 1548/1549-cu ildə Şirvana qayıtmasını və Şamaxı ilə yanaşı, Bakıda da sikkə zərbi üçün fərman verdiyini söyləmək mümkündür.

Beləliklə, yuxarıda qeyd olunanlar göstərilən dövrdə Şirvanda baş verən siyasi hadisələrə yeni nəzərlə baxmağı tələb edir, son şirvanşah Bürhan Əli dövrünə aid sikkələr isə onun Şirvan dövlətçiliyini bərpa etməyə nail olduğunu göstərir.

## ƏDƏBİYYAT

**1.** https://ru.sputnik.az/science/20170420/409917166/numizmatika-doklad-armjanskij-chekanka-monet.html

**2.** Злобин Г.В. Ширваншах Бурхан Али и сефевиды, в свете новых нумизматических исследований / https://www.academia.edu/34246274

**3.** Rəcəbli Ə.M. Şirvanşahlar dövlətində sikkə zərbi (VIII – XVI yüzillər) (üç dildə). Bakı: Elm və təhsil, 2015.

**4.** Rəcəbli Ə.M. "Şirvan şahı" Əlqas Mirzə və şirvanşah Bürhan Əli Soltanın unikal sikkələri // Milli Azərbaycan Tarixi Muzeyi-2016. Bakı: 2016, s. 4-9.

**5.** Злобин Г.В. Монеты Ширваншахов династии Дербенди (третья династия 784-956 г.х. = 1382-1548 гг.). Москва: Маска, 2010.

Айгюн Маммадова

## ОСОБЕННОСТИ МОНЕТ ПЕРИОДА ПРАВЛЕНИЯ ПОСЛЕДНЕГО ШИРВАНШАХА БУРХАНА АЛИ
(На основе новых нумизматических находок)


РЕЗЮМЕ

В статье, представлена обширная информация об особенностях монет, отчеканенных в период правления ширваншаха Бурхана Али, изложено монетное дело, раскрыты новые исторические факты о монетном дворе Бакуйе (Баку), коротко освещены отношения между ширваншахами и сефевидами.


Aygun Mammadova

## PECULIARITIES OF COINS RELATING TO THE REIGN OF THE LAST SHIRVANSHAKH BURKHAN ALI
(Based upon new numismatic finds)


SUMMARY

The article contains extensive information on the peculiarities of coins minted during the reign of the last shirvanshakh Burkhan Ali, the coinage is described, new historical facts about the Bakuye Mint (Baku) are revealed, a brief reference to the relations between the Shirvanshahks and the Safavids is made.

## Sultan Bürhan Əli dövrünə (1540-1549) dair sikkələrin qrafik təsvirləri

<table>
<tr>
<td><br>Şəkil 1.<br>Ü.t.: mərkəzdə yazı: “Bürhan Əli sultan ?”;<br>Sikkə kənarında dairə yoxdur.<br>A.t.: mərkəzdə altıbucaqlı kartuşda zərb tarixi: “947”; yuxarı tərəfdə: “zərb”, aşağı tərəfdə: “Bələd Bakuyə” (Bakı ərazisi).<br>Ətrafında xətlə işarələnmiş dairə.</td>
<td><br>Şəkil 2. I tip.<br>Ü.t.: mərkəzdə yazı: “Sultan Əli… ?”;<br>Sikkə kənarında xətli dairə.<br>A.t.: mərkəzdə üçbucaqlı kartuş daxilində nöqtələr. Kartuşdan hər üç kənardan ayrılan xətlər üç seqment əmələ gətirir. Seqmentlərdə zərb tarixi və zərb yeri: “946, Bakı zərbi”.<br>Sikkə dairəsinin ətrafında xətlə işarələnmiş dairə.</td>
</tr>
<tr>
<td><br>Şəkil 3. II tip.<br>Ü.t.: mərkəzdə yazı: “Əli Sultan… ?”;<br>Sikkə kənarında xətli dairə.<br>A.t.: mərkəzdə altıbucaqlı kartuşdan ayrılan qarmaqlar sikkə kənarındakı dairəylə birləşərək iki<br>seqment əmələ gətirir. Mərkəzdə zərb tarixi: “946, Bakı zərbi”.<br>Yuxarı seqmentdə sağdan sola: “Bakuyə”.<br>Sikkə dairəsinin ətrafında xətlə işarələnmiş dairə.</td>
<td><br>Şəkil 4. III tip.<br>Ü.t.: mərkəzdə iman simvolu: “Allahdan başqa ilah yoxdur/ Muhəmməd Allahın elçisidir”.<br>Sikkə kənarında xətli dairə.<br>A.t.: mərkəzdə yazı: “8 ‘ Əliyyən /vəliyullah/ 94”.<br>Sikkə dairəsinin ətrafında xətlə işarələnmiş dairə.</td>
</tr>
</table>

<table>
<tr>
<td><br>Şəkil 5. IV tipin I növü.<br><br>Ü.t.: mərkəzdə yazı: “Allahdan başqa ilah yoxdur/ Muhəmməd Allahın elçisidir”;<br>Sikkə kənarında xətli dairə.<br>A.t.: mərkəzdə yazı: “Allah (başı aşağı yazı) Əli / Vəliyullah / 949”.<br>Sikkə dairəsinin ətrafında xətlə işarələnmiş dairə.</td>
<td><br>Şəkil 6. IV tipin II növü.<br><br>Ü.t.: mərkəzdə dairəvi iman simvolu, sağdan sola: “Allahdan başqa ilah yoxdur/ Muhəmməd Allahın elçisidir”;<br>Sikkə kənarında xətli dairə.<br>A.t.: mərkəzdə yazı: “Əli / V/əli/ullah… ?”.<br>Sikkə dairəsinin ətrafında xətlə işarələnmiş dairə.</td>
</tr>
<tr>
<td><br>Şəkil 7. IV tipin III növü<br><br>Ü.t.: mərkəzdə dairəvi iman simvolu, sağdan sola: “Allahdan başqa ilah yoxdur”;<br>Sikkə kənarında xətli dairə yoxdur.<br>A.t.: mərkəzdə yazı: “Əli / Vəli/ullah… ? ”.<br>Sikkə dairəsinin ətrafında xətlə işarələnmiş dairə yoxdur.</td>
<td><br>Şəkil 8. Tip V – 1.<br><br>Ü.t.: mərkəzdə düzbucaqlı kartuşda yazı: “Allah”. Ətrafında iman simvolu: Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın elçisidir”;<br>Sikkə kənarında xətli dairə.<br>A.t.: mərkəzdə düzbucaqlı kartuşda yazı: “950”. Ətrafında iman simvolu: “Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın elçisidir”.<br>Sikkə dairəsinin ətrafında xətlə işarələnmiş dairə.</td>
</tr>
</table>

| | |
|---|---|
| <br>*Şəkil 9. Tip V-2.*<br><br>Ü.t.: mərkəzdə düzbucaqlı kartuşda zərb tarixi: “950”. 9 rəqəminin yazılışı fərqlidir.<br>Ətrafında iman simvolu: “Allahdan başqa ilah yoxdur/ Muhəmməd/ Allahın elçisidir”;<br>Sikkə kənarında xətli dairə.<br>A.t.: mərkəzdə düzbucaqlı kartuşda zərb tarixi, sağdan sola: “950”. Ətrafında iman simvolu: “Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın elçisidir”.<br>Sikkə dairəsinin ətrafında xətlə işarələnmiş dairə. | <br>*Şəkil 10. Tip V – 3.*<br><br>Ü.t.: mərkəzdə düzbucaqlı kartuşda zərb tarixi, sağdan sola: “950”. Ətrafında iman simvolu: “Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın elçisidir”;<br>Sikkə kənarında xətli dairə.<br>A.t.: mərkəzdə düzbucaqlı kartuşda zərb tarixi: “950”. Üst tərəfdə yazıdan hissə: “su/ltan Əli”.<br>Sikkə dairəsinin ətrafında xətlə işarələnmiş dairə. |
| <br>*Şəkil 11. Tip VI.*<br><br>Ü.t.: mərkəzdə düzbucaqlı kartuşda yazı: “Allah”. Ətrafında yazıdan bir hissə: “/Su/ltan Əli vəli Allah”;<br>Sikkə kənarında xətli dairə.<br>A.t.: mərkəzdə düzbucaqlı kartuşda zərb tarixi: “950”. Ətrafında iman simvolu və: “/Su/ltan Əli vəli…?”.<br>Sikkə dairəsinin ətrafında xətlə işarələnmiş dairə. | <br>*Sikkə 12. Tip VII.*<br><br>Ü.t.: mərkəzdə üç sətirdə iman simvolu: “Allahdan başqa ilah yoxdur / Muhəmməd/ Allahın rəsuludur”;<br>Sikkə kənarında xətli dairə.<br>A.t.: mərkəzdə yazı: “Əli vəli/A/llah 956”.<br>Sikkə dairəsinin ətrafında xətlə işarələnmiş dairə. |

# TARİXİ-MİFOLOJİ PERSONAJLAR CAVİD ROMANTİZMİ FÖVQÜNDƏ

***Rəhim HƏSƏNOV,***
*AMEA-nın Fəlsəfə*
*İnstitutunun doktorantı,*
*hesenli.82@inbox.ru*

***AÇAR SÖZLƏR:*** *Cavid yaradıcılığı, tarixi personajlar, mifoloji personajlar, romantizm cərəyanı, saray çəkişmələri, bəşəri problemlər.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Творчество Джавида, исторические персонажи, мифологические персонажи, направления романтизма, дворцовые интриги, общечеловеческие проблемы.*
***KEY WORDS:*** *Javid's creativity, historical characters, mythological characters, romanticism movement, palace intrigues, universal problems.*

XX əsr Azərbaycan ədəbiyyatı tarixində Hüseyn Cavid (1882-1941) yaradıcılığının özünəməxsus yeri var. Mütəfəkkirin yaradıcılığında xalqımızın çoxəsrlik ədəbi-bədii ənənələri əks olunmuşdur. Bu baxımdan ədibin zəngin irsində hər zaman aktuallığını qoruyub saxlamağı bacaran tarixi-mifoloji ünsürlər də öz əksini tapmışdır. Şair və dramaturq Hüseyn Cavid romantizm cərəyanının nəhəng nümayəndələrindən biri kimi ədəbiyyat tariximizdə parlaq bir səhifə yaratmışdır. Ümumiyyətlə, XVIII yüzilliyin sonlarında Avropada meydana gələn romantizm cərəyanının nümayəndələri hər zaman çoxsaylı oxucu kütləsi tərəfindən böyük rəğbət qazanmışdır. Azərbaycan ədəbiyyatında Hüseyn Cavidlə eyni dövrdə yaşayıb yaratmış romantizm cərəyanının davamçıları sırasında Məhəmməd Hadi (1879-1920), Abbas Səhət (1874-1918), Abdulla Şaiqin (1881-1959) də adını vurğulamaq yerinə düşərdi.

Ədəbi-bədii yaradıcılığa şeir yazmaqla başlayan Hüseyn Cavidin hələ ilk yaradıcılıq nümunələrində keçmişə və əfsanəvi obrazlara meyl etməsi müşahidə olunur. “Hələ şeir yaradıcılığı dövründə biz Cavidin keçmişə meyl etdiyini, əsərlərinə keçmişdən mövzu seçdiyini görmüşdük. Onun romantik sənətkar kimi keçmişə marağının təsadüfi olmadığını, bütün romantiklərə xas keyfiyyət olduğunu demişdik. Şairin keçmişdən bəhs edən şeirlərində hətta əfsanə əlamətlərinə rast gəlmişdik. Həmin əlamətlər onun dramaturgiyasına da keçmişdir. Özü də daha geniş, daha əsaslı şəkildə. Ümumiyyətlə, Cavid romantizmə yaxınlaşdıqca, bu sənətin dərinliklərinə vardıqca oradan əfsanələrə, sehrə gəlib çıxır, əfsanələr aləminə dərindən bağlanırdı” [1, s. 80].

Mənzum faciələrin müəllifi olan Hüseyn Cavid eyni zamanda ədəbiyyatımızda milli romantik nəzmin də banisidir. Şairin hələ 1913-cü ildə çap olunmuş “Keçmiş günlər” adlı ilk kitabında dini-mifoloji obrazlara rast gəlmək mümkündür. Bu kitabda ehtiva olunmuş “Hübuti-Adəm” (“Adəmin (cənnətdən) enməsi”) adlı poemasında şair Adəm və Həvva haqqında dini hekayələri nəzmə çəkir, Adəmin Haqq tərəfindən cənnətdən qovulmasını təsvir edir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

“Gəlib Həq canibindən əldə fərman,
Demiş: Çıq, ey səfalətpərvər insan!
Çıq, ey qafil bəşər!
Dəf ol, çəkil, get!
Bu lahuti təfərrücgahı tərk et!
Degil layiq sana gülzari-cənnət...
O süfliyyətlə hissi-adəmiyyət
Bu ülviyyatı hiç eylərmi idrak?” [2, s. 28]

Onun 1918-ci ildə qələmə aldığı “İblis” əsərindəki İblis, Mələk və Teyf kimi obrazlar da mifoloji zəmində hazırlanmışdır. Bununla yanaşı, əsərdə Birinci Dünya Müharibəsində iştirak edən zabit və əsgərlər də tarixi obraz kimi təsvir olunmuşdur. Dörd pərdədən ibarət olan bu faciənin ilk pərdəsində ədib İblis və Mələk obrazlarının dilindən bəşəri problemlərdən, Adəm övladının törətdiyi dəhşətlərdən söhbət açır, insanlar arasında zəlalətin baş alıb getdiyini vurğulayır. Əsərdəki Mələk obrazının insanların bir-birinə qarşı törətdiyi vəhşiliklərin, bütün bəşəriyyəti saran qırğınların səbəbini İblisdə görməsinə baxmayaraq, İblis bunu inkar edir və özünün də bir zamanlar mələk qismində yaradıldığını oxuculara xatırladır:

“Bən şimdi bir ataş, fəqət əvvəlcə mələkdim,
Həp Xaliqə təsbih idi, təhlil idi virdim,
İlk öncə mələklər bəni təqdis ediyordu,
Adəm kibi bir sayğısız axır ləkə vurdu.
Alçalmadı, yüksəldi fəqət şöhrətü şanım,
Allah ilə bir zikr edilir namü nişanım” [3, s. 12]

Ədibin “İblis” əsərində toxunduğu tarixi obrazlardan biri də Zərdüşt (e.ə. 628-551) peyğəmbər obrazıdır, əsərdə ataşi mədh edən İblis Zərdüştün fəlsəfi sisteminin əsasının da ataş olduğuna diqqət çəkir. Cavidin Zərdüştün ataşpərəstlik ideologiyasından bəhs etməsi onun fəlsəfi təfəkküründə Şərq mifologiyasının və Şərq etiqadının əsaslı mövqe tutmasından xəbər verir. Bildiyimiz kimi, Zərdüştilik təliminə görə, xeyir və şər arasında gedən mübarizə odu təmsil edən xeyir allahı Hörmüzdün (Ahura Məzda) qələbəsi ilə başa çatır. Ümumiyyətlə, xeyir və şər obrazlarının təzadlı biçimdə canlandırılması Cavid yaradıcılığının mühüm qayələrindən birini təşkil edir.

İblis insanların Allaha daha yaxın olan və ilahi qüdrətin əks olunduğu “cəbərut” (ibranicə “qüdrət” deməkdir) məqamından enməsinə istehza ilə gülür, insanların mənəvi kamillik yolundan azmasına tənə edir. Ümumiyyətlə, şifahi ədəbiyyatdan, mifologiyadan qaynaqlanan İblis obrazı yazılı ədəbiyyatda da olduqca çox işlənmiş bir mövzudur. Lakin Cavidin yaratdığı İblis obrazı bir sıra xüsusiyyətlərinə görə digərlərindən fərqlənir. “Qeyd edək ki, dünya ədəbiyyatında demonizm ideyasına istər Şərq, istərsə də Qərb müəllifləri tərəfindən dəfələrlə müraciət olunmuşdur. Dantenin “İlahi komediya”, Belmontun “Təbliğçi İblis”, Kalderonun “Ecazkar sehrbaz”, B.Cononun “Şeytan”, Marlonun “Doktor Faust”, Hötenin “Faust”, Bayronun “Qabil”, Lermontovun “Demon”, F.M.Klingerin “Faust, onun həyatı, fəaliyyəti və cəhənnəmə atılması” və b. əsərlərdə müəlliflər əzəli Xeyir-Şər mübarizəsi tematikasına müraciət etmiş, bir çox həyati həqiqətlərə cavab tapmağa çalışmışlar. Məhcər ədəbiyyatının digər görkəmli

nümayəndəsi Cübran Xəlil də bu obraza müraciət etmişdir. Azərbaycan ədəbiyyatında bu mövzuya müraciət edən bir çox müəlliflər var: Ə.Haqverdiyev, M.Hadi, M.Sabir və b. Lakin onların əsərlərində yaradılan İblis surətlərinin heç biri sənətkarlıq və bədii təsir qüvvəsinə görə H.Cavidin İblisi ilə müqayisə edilə bilməz" [4, s. 79].

Cavidin 1922-ci ildə ərsəyə gətirdiyi dörd pərdədən ibarət olan "Peyğəmbər" dramı da tarixi məzmunda yazılmışdır. İslam dininin banisi Məhəmməd peyğəmbərə (570-632) ithaf olunmuş bu əsərdə həm tarixi, həm də mifoloji personajlar öz əksini tapmışdır. Dramda Məhəmməd peyğəmbərlə yanaşı, Əbu Taliboğlu, yəni Əli ibn Əbu Talib (599-661), Xəttaboğlu, yəni Ömər ibn Xəttab (581-644) kimi mühüm tarixi obrazlara da yer verilmişdir. Mifoloji personajlara isə Mələk, İskelet kimi obrazları misal göstərmək olar. Bəzi tədqiqatçılar Peyğəmbər, Mələk və İskelet obrazlarının eyni olduğunu iddia edirlər. "Əslində bunların üçü də Peyğəmbərdir. Mələk və İskelet onun düşüncələridir. Mələk Peyğəmbərin Allah tərəfindən rəsul seçiləndən sonra onu İlahi ilə bağlayan ruhi aləmi, İskelet isə Məhəmmədi maddi aləmə bağlayan və son nəhayətdə təklifi, qərarı, fikri ilə razılaşmalı olan reallıqdır" [5, s. 294].

Əsərdə Cavid cəbərut, yəni mücərrədliklər aləmi və mələkut, yəni ruhlar aləmindən də bəhs edir və onun şeirinin mələkut aləmində dinlənildiyini peyğəmbərin dilindən verir. Xatırladaq ki, mələkut aləmi ruh və mələklərlə ehtiva olunan dördüncü səma qatıdır ki, dini əqidəyə görə, bu aləm nurdan yaranmışdır.

"Daima ruhumu oqşar cəbərut,
Şerü ilhamımı dinlər mələkut" [3, s. 161]

Hüseyn Cavid 1925-ci ildə qələmə aldığı "Topal Teymur" tarixi dramında isə böyük türk hökmdarı, məğlubedilməz sərkərdə Əmir Teymuru (1336-1405) sonsuz rəğbətlə mədh edir. Dramaturqun yaratdığı Əmir Teymur obrazı təkcə dövlət adamlarının qayğısına qalmaqla kifayətlənmir, eyni zamanda yazıçı və şairlərə də böyük qayğı göstərir. Əmir Teymur dövlətin rifahı və inkişafı üçün əlidən gələnləri əsirgəmir, sadə və yoxsul adamları da qəbul edir, onların şikayətlərini dinləyir və onun hüzuruna qəza hakimi Mamay xandan şikayətə gəlmiş kasıb rəncbərin halına da acıyır.

"Topal Teymur" əsərində verilmiş tarixi personajlardan biri də Osmanlı sultanı İldırım Bəyaziddir (1360-1403). Öz soykökünə və Şərq ənənələrinə sadiq qalan Əmir Teymurdan fərqli olaraq, İldırım Bəyazid şərab və qadın düşkünüdür. Bəyazidin sarayında türk kimliyindən, türk milli-mənəvi dəyərlərindən, Şərq mühitindən əsər-əlamət yoxdur. On iki qadınla ailə həyatı qurmuş İldırım Bəyazidin həyat yoldaşlarının əksəriyyəti serb və yunan mənşəlidirlər. Ümumiyyətlə, Serbistan şərabının mədh edildiyi Osmanlı sarayında türk ruhundan çox xristian ruhu hiss olunur və sarayda xristian mənşəli qadınlar hökmranlıq edirlər. Cavidin əsərdə verdiyi Meliça obrazında bu tam təfərrüatı ilə əks olunmuşdur.

Əmir Teymurun məktublarına istehzalı və təhqiramiz cavablar yazan İldırım Bəyazidin bu lüzumsuz hərəkəti Meliçanın təhriki ilə etdiyi göz qabağındadır. Onun təlxəyi Əmir Teymuru kinayəli sözlərlə gülünc vəziyyətdə təsvir edir. İldırım Bəyazidə "Tanrı qulu Teymurdan Sultani-Rum Yıldırım Bayazidə" deyə başlayan məktubunda Əmir Teymur Osmanlı sultanını sülhə və birliyə çağırır: "Bən sizi bir türk xaqanı olaraq sayarım və zatınıza qarşı hörmət bəslərim, fəqət siz bəni saymazsanız, aramız soğuyar və bu soğuqluğun nəticəsi pək acı olur" [3, s. 290].

“Topal Teymur” əsərinin sonunda Əmir Teymur ilə İldırım arasında keçən dialoqda Osmanlı sultanı səhv etdiyini anlayır və Bəyazid qəribə də olsa, Teymurun bu qələbəsi sayəsində artıq türk-İslam dünyasının başsız qaldığını etiraf edir. Əmir Teymur isə Bəyazidə qalib gəlməsinə baxmayaraq, təvazökarlıq nümayiş etdirir və Osmanlı sultanına hörmət göstərir. Bir zamanlar Abbasi xəlifəsinin “Sultan-ı İqlim-i Rum” (“Anadolu ölkəsi sultanı”) deyə müraciət etdiyi İldırım Bəyazid Əmir Teymurun ona verdiyi məktubu oxumaqdan imtina edir. Bu məktubda İldırım Bəyazid Əmirə təhqiramiz cavablar yazmasına baxmayaraq, Əmir yenə də adil davranaraq sultanı bağışladığını bildirir.

Ümumiyyətlə, Teymurilər imperiyasının (1370-1507) banisi olan Əmir Teymur əsərdə adil və müzəffər obraz kimi verilmişdir, o hökmranlığı altında olan kəndlilərə, əsgərlərə, zabitlərə qarşı mülayim davranır. Cavid şübhəsiz ki, Əmir Teymuru bu əsərdə ideallaşdırmışdır, bu isə ədibin romantizm cərəyanına meyl etməsi ilə həmahəngdir. Hər kəsə qarşı ədalətli davranan hökmdar minbaşı Orxana müraciət edərək vurğulayır ki, “Teymur şahmat oynarkən belə, taxtadan yapılmış küçük bir piyadayı qeyb etmək istəməz” [3, s. 299].

“Topal Teymur”da Əmir Teymurun hərəmi olan Dilşad ağa, “Teymurnamə” əsərinin müəllifi Kirmani, Əmir Teymurun vəziri Divanbəyi, Osmanlı sarayının sədrəzəmi Əli Paşa, Şeyx Buxari kimi obrazlar da verilmişdir. Əsərdə verilən Şeyx Buxari Məhəmməd ibn Abdulla (1368-143) İslam və təsəvvüf fəlsəfəsi ilə məşğul olan bir din alimidir. Şeyx Buxari 1390-cı ildə Osmanlı sultanı İldırım Bəyazidin qızı Hundi Fatma Xatunla evləndikdən sonra Əmir Sultan kimi tanınmağa başlayır. İldırım Bəyazid müdrik və ağıllı Şeyx Buxarinin nəsihətlərini qulaq ardına vuraraq müharibəyə can atır.

Çandaralı Əli Paşa 1387-1406-cı illərdə Osmanlı sarayında sədrəzəm kimi çalışmış real tarixi obrazlardan biridir. Osmanlılarla Teymurilər arasında 1402-ci ildə baş vermiş Ankara döyüşündə Çandaralı Əli Paşa da sol cinahda iştirak etmişdir. Əli Paşa Osmanlı sultanına döyüşdən əvvəl bəzi məsləhətlər versə də, İldırım Bəyazid bu məsləhətlərə qətiyyən əhəmiyyət vermir. Ümumiyyətlə, Çandaralı Əli Paşanı alim, dəyərli və tədbirli bir vəzir, təşkilatçı bir sərkərdə, qüdrətli bir dövlət adamı, mahir bir diplomat kimi xarakterizə edən Osmanlı tarixçiləri onun, eyni zamanda eyş-işrət düşkünü olduğunu da qeyd edirlər. Çandaralı Əli Paşanın bu sonuncu mənfi keyfiyyəti isə Osmanlı sultanı İldırım Bəyazidin xüsusiyyətləri ilə üst-üstə düşür.

Ədib həmçinin əsərdə Əmir Teymurun oğlu Cəlaləddin Sultan Miranşah (1368-1408), Qaraqoyunlu dövlətinin banisi Qara Yusif (1389-1420) kimi tarixi şəxsiyyətləri ayrıca ədəbi obraz kimi verməsə də, onların da fəaliyyətinə toxunur. Xüsusilə Əmir Teymur ilə Divanbəyi arasında gedən dialoqda bu iki şəxsin - Miranşahla Qara Yusifin ictimai-siyasi fəaliyyəti müzakirə edilir, İldırım Bəyazid ilə Qara Yusif arasındakı yaxınlaşmadan söhbət açılır.

Əmir Teymurun sarayında ictimai-siyasi vəziyyətin müzakirə edildiyi bir vaxtda İldırım Bəyazidin sarayında eyş-işrət hökm sürür. Osmanlı sarayında Cücə adlı təlxək sultanın göstərişi ilə Əmir Teymuru kinayəli şəkildə istehza obyektinə çevirir. Əslində Cavid bu obrazın dilindən Əmir Teymurun həyatının bəzi önəmli məqamlarına toxunur: “Bən həqq və ədalət nümayəndəsiyim. Əgər bir məmləkətdə zülm və istibdad güclənirsə, kənardan baqıb duramam. Xəlqin əmniyyəti için zülmün kökünü qazımaq və o məmləkəti uslandırmaq istərim. İştə buna görədir ki, Xorasana girdim, bütün İranı devirdim, Moskof tərəflərini sardım, Hindistana

vardım. Əvət, bənim böyük Teymur... Bənim sarsılmaz imperator!..” [3, s. 279]

Cavidin 1928-1929-cu illərdə qələmə aldığı “Knyaz” adlı beş pərdəli faciədə də tarixi məqamlar əks olunmuşdur. Əsas hadisələrin Tiflis və Berlində baş verdiyi bu əsərdə 1920-ci il Gürcüstanda bolşevik inqilabından söhbət açılır.

Müəllifin 1932-ci ildə yekunlaşdırdığı “Səyavuş” əsərinin epiqrafında ədib “Şərqin böyük dahilərindən Firdovsinin min illiyinə ithaf” [6, s. 119] etdiyini vurğulayırdı. Beş pərdəli bu mənzum faciə İran-Turan müharibələrinə həsr olunmuşdur. Əsərin mövzusu böyük fars-tacik şairi Əbülqasım Firdovsinin “Şahnamə” epopeyasından götürülmüşdür. Bu nöqteyi-nəzərdən də ədibin qələmə aldığı “Səyavuş” əsərindəki obrazlar yarı tarixi, yarı əfsanəvi surətlərdir.

Zaman etibarilə “Səyavuş” əsərində cərəyan edən hadisələr təxminən VII əsrin ortalarında baş verir. Əsərdə adı Şərq dünyasında dillərə dastan olan məşhur qəhrəman Zal oğlu Rüstəmdən, türk xaqanı Əfrasiyabdan, Səyavuşun atası Keykavusdan və ögey anası Südabədən də söhbət açılır. Zal oğlu Rüstəm kimi qorxmaz və mübariz olan Səyavuş tez bir zamanda saray çəkişmələrinin qurbanına çevrilir, saray intriqaları fonunda ona atılan iftiranı səbirlə qarşılaması əsərin baş qəhərəmanının mənəvi-psixoloji cəhətdən də kamil bir insan olmasına bariz nümunədir. Mənfi obrazda verilmiş Suriya kralının qızı Südabənin günahsız və məsum Səyavuşa iftira atmasına baxmayaraq, Səyavuş bu əxlaqsız qadını bağışlayır. “Səyavuşdan rədd cavabı alan Südabə böhtana əl atır, yaxasını cırıb sinəsini çölə çıxarır və bunu Səyavuşun ona təcavüzü kimi qələmə verir.

Belə olanda ağıllı və hiyləgər Keykavus münəccimi çağırıb məsləhət istəyir. Burada H.Cavid atəşpərəstlikdən istifadə edir. Münəccim təklif edir ki, atəş çatılsın, hər ikisi atəşdən keçsin, günahkar yanacaq, günahsız qalacaq. Belə olduqda Südabənin fitnəsi açılır. Keykavus onun edamına sərəncam verir, fəqət humanist və xeyirxah Səyavuş atasından onu zindana salmağı xahiş edir” [7, s. 26].

Dramaturqun 1935-ci ildə yazdığı “Xəyyam” tragediyasında isə fars şairi, riyyaziyatçı və filosof Ömər Xəyyam (1048-1131), Böyük Səlcuq imperiyasının sultanları Alparslan (1029-1072) və Məlikşah (1055-1092), Səlcuqluların vəziri Nizamülmülk (1018-1092), ismaililərin lideri Həsən Sabbah (1055-1124), iyirmi yeddinci Abbasi xəlifəsi Müqtədirbillah (1056-1094) və s. kimi real tarixi obrazlar əks olunmuşdur. Bu baxımdan “Xəyyam” əsərində verilən real tarixi obrazlar say nisbəti ilə digər əsərlərdən üstünlük təşkil edir, desək, doğru olar. “Xəyyam” əsərində təsvir olunan dramatik konflikt xəlifə və şair arasında öz zirvəsinə çatır, xəlifə şairdəki cəsarətə heyran qalsa da, onun edam olunması barədə fərman verir. Əsərdə “Siyasətnamə” kimi sanballı əsərin müəllifi məşhur siyasətçi Nizamülmülkün ismaililər tərəfindən sui-qəsdə məruz qalması səhnəsi də təsvir olunmuşdur.

Əsərin əvvəlində Ömər Xəyyam, Nizamülmülk və Həsən Sabbah bir-birilərinə arxa olacaqlarına and içirlər. Lakin Nizamülmülkün təkidi ilə içilən bu anda Həsən Sabbah sadiq qalmır və əhdinə xilaf çıxaraq Əbu Tahirin vasitəsilə Nizamülmülkü qətlə yetirdir. Nizamülmülk özü kimi müdrik olan Ömər Xəyyamın zəkasına pərəstiş edir, vəzir cəhalət çənbərində çabalayan insanların içərisində, qaranlıq və zillətdə olan dünyada şairi parlaq günəşə bənzədir və onu aşağıdakı sözlərlə mədh edir:

“**Xəyyam**
Varlığım bir hiçə bənzər mübhəm,
“Hiç var olmaz, buna yoqdur şübhəm”.
Bana yan baqsa əgər anlamayan,
Sanma eylər buna ruhum isyan.
Anlayanlar belə yan gözlə süzər,
O baqışlar bəni üzdükcə üzər.

**Xacə Nizam**
Saqın, aldırma kor olsun da cihan,
Günəşin nuruna gəlməz nöqsan.
Sən küçülsən də böyüksün, hətta
Qopsa zülmət, yenə parlar o zəka!..” [6, s. 41]

Ümumiyyətlə, zəngin və rəngarəng məzmuna malik olan Hüseyn Cavidin yaradıcılığında tarixi və mifoloji personajlar üstünlük təşkil edir. Ədibin yaradıcılığında mühüm yer tutan tarixi və mifoloji obrazlar əsasən romantizm cərəyanı fövqündə əks olunmuşdur. Cavidin tarixi hadisələri öz ədəbi-bədii əsərlərində düzgün şəkildə realizə etməsi onun dünyagörüşünün zənginliyindən, bilikli və məlumatlı olmasından xəbər verir.

Dini-mifoloji məzmunlu kamil və sanballı əsərlər ərsəyə gətirməsi onun zəngin Şərq bədii-fəlsəfi mühitindən xəbərdar olmasına əyani sübutdur. Həmçinin onu da vurğulamaq yerinə düşərdi ki, Cavid yaradıcılığında mistisizm və sufizm elementləri də öz əksini tapmışdır. Bu baxımdan Cavid yaradıcılığının ədəbi-bədii, tarixi, dini, fəlsəfi cəhətdən araşdırılması məqsədəuyğundur. Biz inanırıq ki, bütün dövrlər üçün aktual olan Cavid yaradıcılığı gələcəkdə də öz layiqli qiymətini alacaqdır.

## ƏDƏBİYYAT


1. Vəli Osmanlı. Azərbaycan romantizmi. I cild. Bakı: “Elm”, 2010.
2. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. I cild. Bakı: “Lider nəşriyyat”, 2005.
3. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. III cild. Bakı: “Lider nəşriyyat”, 2005.
4. Türk dünyasını işıqlandıranlar: M.Akif Ersoy, Hüseyn Cavid. Beynəlxalq konfransın materialları. Bakı: 2013.
5. Şəmil Kamil oğlu Sadıqov. Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası. Bakı: 2011.
6. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. V cild. Bakı: “Lider nəşriyyat”, 2005.
7. Gülşən Əliyeva-Kəngərli. Şeirlə yazılmış türk tarixi: “Səyavuş”. 525-ci qəzet, 2015, 10 yanvar.

Рагим Гасанов

## ИСТОРИКО-МИФОЛОГИЧЕСКИЕ ПЕРСОНАЖИ В СВЕТЕ ДЖАВИДСКОГО РОМАНТИЗМА

### РЕЗЮМЕ

Исторические и мифологические персонажи преобладают в творчестве Гусейна Джавида, имеющее богатое и многогранное содержание. Исторические и мифологические образы, занимающие важное место, в основном отражены в свете литературного направления романтизма. Верная реализация Джавидом исторических событий в своих литературно-художественных произведениях сообщает нам о его богатом мировоззрении, начитанности и светлом уме.

Создание им созревших и увесистых произведений с религиозно-мифологического аспекта является очевидным доказательством о его осведомленности относительно Восточной художественно-философской среде, а также было бы уместным отметить, что в творчестве Джавида нашли свое отражения элементы суфизма и мистификации. С этой точки-зрения целесообразно рассмотрение и изучение Джавидского творчества при свете литературно-художественного, исторического, религиозного и философского аспектов. Неслучайно отмечание в настоящее время 135 летней годовщины творчества Джавида – требование современного периода, времени. Мы верим, что и в будущем актуальное во все времена творчество Джавида сохранит свое достойное место и заслуженное значение.

Rahim Hasanov

## HISTORICAL AND MYTHOLOGICAL CHARACTERS IN THE LIGHT OF JAVID ROMANTICISM

### SUMMARY

Historical and mythological characters with rich and colourful content prevail in Huseyn Javid`s creativity. Historical and mythological characters, which are occupying an important place, have been reflected above the romanticism trend. Realizing historical event in his literary and artistic works on correct way informs us his richness of perspective, intelligence and well read.

Also in religious and mythological spectrum to produce complete and weighty works are visual proof, also it should emphasise that, elements of mysticism and Sufism have been reflected in Javid's creativity. In this regard, it is advisable to explore Javid's creativity in literary, historical, religious, philosophical spectrum. As it is the demand of the modern period and time, it is no coincidence that today the 135th anniversary of Javid's creativity is celebrated. We believe that in the future, Javid's creativity, which is actual for all periods, will preserve its worthy place and deserved value.

# XIX ƏSRDƏ AZƏRBAYCANDA NƏQŞİBƏNDİLİYİN İNKİŞAFINDA ŞEYX MAHMUD ALMALILININ XİDMƏTLƏRİ

***İbrahim EROL,***
*Türkiye Cumhuriyeti, R. T. Erdoğan Üniversitesinin öğretmeni, Temel İslam Bilimleri Anabilim Dalı Doktora Programı öğrencisi*

***AÇAR SÖZLƏR:*** *Azərbaycan, nəqşibəndilik, sufilik, təriqət, şeyx, möcüzə, dua, məqam.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Азербайджан, Нагшбандиййа, суфизм, тарикат, шейх, чудо, молитва, степень.*
***KEY WORDS:*** *Azerbaijan, Naqshibandiya, Sufism, tarikat, sheikh, miracle, prayer, degree.*

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra onun milli-mənəvi və dini dəyərlərinə maraq artmışdır. İslam dininin nəzəri və təcrübi əsaslarının tədqiqi sufiliyin, daha dəqiq desək, Azərbaycanda təriqətlərin araşdırılmasını zəruri etmişdir. Azərbaycanın tarixi coğrafiyasında dünyaya gəlmiş, təhsil alaraq fəaliyyət göstərmiş sufilərin, həmçinin digər yerlərdə iz qoymuş azərbaycanlı təsəvvüf təmsilçilərinin tədqiq edilməsi nəinki Azərbaycanın sosial həyatı, həmçinin din tarixinin qaranlıq səhifələrini aydınlatmaqdadır.

Bir sıra tədqiqatçıların haqlı qeydlərinə əsasən, İslam sufiliyinin çoxsaylı təlimləri sırasında nəqşibəndilik geniş yayılmışdır. Bu gün də bu təlimin müxtəlif ölkə və regionlarda sosial mövqeyindən asılı olmayaraq, çoxsaylı tərəfdarları vardır.

Müasir dövrdə Azərbaycan və Türkiyə dövlətləri qarşısında duran mühüm vəzifələrin bir hissəsi də demokratik dövlətiçiliyi möhkəmləndirməkdən, mənəvi mükəmməlliyə və ümumbəşəri dəyərlərə sahib çıxmaqdan, həmçinin ötən nəsillərin nümunəvi sosial və etik ənənələrini dirçəltməkdən ibarətdir. Məhz buna görə də XIX əsrdə Azərbaycanda fəaliyyət göstərmiş nəqşibəndilik təriqətinin azərbaycanlı ardıcıllarının həyatının və irsinin öyrənilməsi nəinki Azərbaycanın din tarixinin, həmçinin Türkiyə və Azərbaycan əlaqələrinin tarixi keçmişinin araşdırılması baxımından əhəmiyyətlidir.

Müstəmləkə şəraitində fəaliyyət göstərən azərbaycanlı ilahiyyatçıların fəaliyyətini təsdiqləyən maddi və mənəvi materialların itməsi təhlükəsi nəzərə alınaraq qorunmalıdır. Bu səbəbdən də insan həyatında vacib olan humanizmin mühafizəsində Nəqşbəndiliyin bir çox sosial-etik əsaslarının öyrənilməsi aktualdır.

XIX əsrin əvvəllərində çar Rusiyasının bütün cəhdlərinə baxmayaraq, Qafqazın bütün bölgələrindəki İslam alimləri öz əqidə və inanclarından dönmür, ətraflarına tərəfdarlar toplayır, İslam həqiqətlərini yaymağa, çar zülmünə qarşı çıxmağa səsləyirdilər. Belə alimlərdən biri də azərbaycanlı övliya, dövrünün tanınmış nəqşibəndi şeyxi Mahmud Əfəndi olmuşdur.



Mahmud Məhəmməd oğlu Əfəndiyev[1] [1, s. 339] 1809-cu ildə[2] [2, s. 25; 3, s. 69-70] keçmiş Car-Balakən mahalının (1860-cı ildən Yelizavetpol quberniyasının Zaqatala mahalı, 1930-cu ildən hazırkı dövrədək Qax rayonu) Almalı kəndində dünyaya gəlmişdir.

Hələ uşaq ikən həmin dövrdə Azərbaycanda ənənəvi təhsil müəssisəsi olan mədrəsədə müxtəlif müəllimlərdən dərs almışdır. Güclü zəkası ilə yaşıdlarından fərqlənən Mahmud qısa müddətdə ərəb dilini mükəmməl öyrənmiş, şəriət elmləri ilə yanaşı, digər elmləri də dərindən mənimsəmişdir. Onun ərəb dilində qəsidələr yazması yüksək bilik sahibi olduğunun göstəricisi idi [3, s. 69].

Xoş niyyətli olması, möhkəm yaddaşı və iti ağlı ilə seçilən, xalqın "Mahmud Əfəndi" adlandırdığı bu şəxs gənclik illərində İlisu sultanı Daniyal Sultan (hakimiyyət illəri - 1831-1844)[3] və onun yaxını Ağabəy Rutullunun (əl-İlisulunun - 1810-1846)[4] yanında katib (mühərrir) vəzifəsində işləyərək gözəl natiqlik qabiliyyəti ilə çox insanı özünə heyran etmişdir.

Sonralar Mahmud Əfəndi Qax rayonunun Lələli kəndindən olan tanınmış Şeyx Yunus Əfəndidən[5] (1804-1862) mənəvi dərs almış [3, s. 71-72, 95] və bu tədrisi sayəsində "vilayətul-suğra" (Yaradanın sevimlisi səviyyəsinə çatmaq üçün ilkin pillə) məqamına yüksəlmişdir.

Yunus Əfəndinin ona ünvanladığı duada belə buyurulur: "Ey oğul! Mən bacardığım həddə qədər səni yetişdirdim. Lakin sən təriqətdə Allahın sənə qismət edəcəyi dərəcəyə çatdıracaq digər müəllimə rast gələcəksən!" [4].

Uzaqgörən, yüksək dərəcəli məqama malik Şeyx Yunus Mahmud Əfəndinin gələcəkdə

---

1 Babasının adı – Sadiq, babasının atasının adı – Mustafa

2 Məhəmməd Əfəndinin doğum tarixi, həmçinin etnik mənsubiyyəti günümüzdə də mübahisə doğurur. M.Şabanoğluya görə, 1809-cu, M.Hacıyevə görə, 1810-cu ildə dünyaya gəlmişdir. Fikrimizcə, məqaləmiz bu məsələnin aydınlığa çıxmasına vəsilədir.

3 Daniyal bəy 1844-cü ildən imam Şamilə (1797-1871; hak. dövrü 1834-1859) sığınaraq onun sadiq məsləkdaşı, naibi olur. Mahmud Əfəndinin öz rəhbərinə qoşulması haqqında dəqiq məlumat olmasa da, onun Molla Məhəmməd Yaraqlıdan vird (şeyxin müridə tapşırığı) alması haqqında qeyd vardır. Bu virdə əsasən, Mahmud Əfəndinin Daniyal sultanla birgə cihadda iştirakını ehtimal etmək mümkündür.

4 Qeyd olunan dövrdə Rutul mahalı Azərbaycanın Qax rayonunun İlisu sultanlığının tərkibində olub, sonrakı illərdə bu mahal Dağıstana daxil edilib.

5 Kiçik yaşlarından şəriət elmlərini bilən Lələli Yunus Əfəndinin gənclik illərində mənəvi və ruhani tərbiyəçisi görkəmli Şeyx İbrahim Qutqaşınlı olmuşdur. O, 18220-ci ildə keçmiş Qutqaşın, indiki Qəbələ rayonunda dünyaya gəlmiş, 1844-cü ildə Osmanlı xilafətinə köçərək mənəvi atası – Hacı Yəhya bəyin himayəsi ilə İstanbulda yaşamış və öldükdən sonra burada dəfn edilmişdir. Şeyx məqamına yüksələn, görünüşü ilə vahimə yaradan hörmətli Yunus Əfəndinin çoxsaylı müridləri olmuşdur. Yunus əfəndinin qəbri Kürmükçay (Alazan çayı) sahilindədir. Hazırda onun evi, məscid və ziyarətgahının bərpaya ehtiyacı vardır.

tanınmış övliya olacağını öncədən hiss etmiş, hətta özündən də ali məqamda olduğunu vurğulamışdır. O, qısa müddətdə sevimli yetirməsinə öyrətdiklərini təbliğ etməyə icazə vermişdir.

O cümlədən Şeyx Ziyauddin Şirvani və Məhəmməd Yaraqlı Mahmud Əfəndiyə zikr təlqinini (1777-1838) aşılamışlar. Mahmud Əfəndinin mənəvi tərbiyəsində dövrünün beş görkəmli şeyxinin, həmçinin digər ustadların xidməti olmuşdur [3, s. 73-74].

Ortaboylu, arıq bədən quruluşlu, uzunsifətli, ağsaqqallı görünüşə malik, dərin nüfuz sahibi olan Şeyx Mahmud Əfəndi qısa zamanda xeyirxah əməlləri ilə məşhurlaşmış [5, s. 74-76], nəqşibəndilik təriqətinin təlimlərini, İslam dinini yüksək səviyyədə təbliğ edərək xalqın hörmətini qazanmışdır [3, s. 70].

1859-cu ildə [3, s. 87] Mahmud Əfəndi öz müridləri ilə görüşündə onlara öyüd, nəsihət verərək bunları söyləmişdir: “Bütün işlərinizdə və çətinliklərdə Yaradana üz tutun; özünüzdən əvvəlki saleh alimlərin göstərişlərinə əməl edin; qəlbinizin istək və arzularına tənqidi yanaşın, Peyğəmbərimizin (s) sünnəsinə əməl edin, həyatınızın heç bir anını faydasız keçirməyin; insanlara qarşı rəhmli olun; pislik etməyin. Allahı gizli və açıq zikr edin; həyatın keçici həvəslərinə uymayın; peşman olanları düzgün yola istiqamətləndirin. Allahı daim xatırlayın, qeybət, pis fikirlərdən uzaq olun, sizə haram olana baxmaqdan çəkinin” [6].

Şeyxin yanına gələn ziyarətçilərdən toplanan nəzir-niyaz, ehtiyacı olan insanlara paylanırmış, “bazardan çörək və başqa ərzaq isə borc hesabına alınırdı” [2, s. 24].

Mahmud əfəndinin nəslindən olan Sabitova Əlfiyyə Həmzə qızı qeyd edir ki, “Nənəm Rəbiqədən eşitmişdim ki, Mahmud Əfəndi dua zamanı əllərini qaldırarkən, bir əlini o birindən yuxarı tuturdu, çünki həmin əli Qafqaz müharibəsində yaralanmışdı. Bu səbəbdən o, ilk dəfə Permə sürgün edilmişdi” [3, s. 12].

Şeyx Şamil hərəkatının bitdiyi dövrdə yarım milyon qoşunla bir dəstə mücahidi təslim olmağa məcbur edən çar hököməti [2, s. 24] Mahmud Əfəndini Qafqazın müxtəlif bölgələrində yaşayan digər şeyxlər kimi siyasi çevriliş etməkdə günahlandıraraq bir neçə il həbsdə saxlamışdır. Bəzi faktlara istinadən [3, s. 75], Mahmud əfəndinin həbs müddətində nümunəvi davranışının nəzərə alındığını və ilkin sürgündən azad edildiyini qeyd edə bilərik.

Lakin Mahmud əfəndi sürgündən Vətəninə deyil, Tatarıstan Respublikasının Qazan şəhərinə yola düşür. Şeyx Haşim Yəmşaninin[6] icazəsi və xeyir-duası ilə Şeyx Mahmud fəaliyyətinə burada davam edir.

Tatarıstanın nəqşibəndi şeyxlərinə arxalanan Mahmud Əfəndi [7] 1862-ci ildə (bəzi qeydlərdə - 1963-cü ildə) [7, s. 127-143] doğma kəndi Almalıya qayıdır [2, s. 25]. Dini fəaliyyətinə davam edərək müridlər yetişdirməklə məşğul olan Mahmud Əfəndi tezliklə yüksək savada malik hörmətli şəxs kimi (qütb) tanınır. Nəinki Car-Balakən ərazisində, həm də Cənubi Dağıstanın Samur çayı hövzəsindəki ərazilərdə ardıcıllar toplayan [8, s. 287-289] Şeyxin məşhurluğunu [7, s. 127-143] görən qəlbiqara insanlar onun haqqında çar hökuməti dairələrinə böhtan dolu xəbərlər verirlər. Mahmud Əfəndi iftiraçıların ona öz Vətənində rahatlıq verməyəcəklərini bildiyi üçün Həştərxana köçməyi qərara alır.

---

6 Cənubi Qafqazın şimal ərazisindən olan, nəqşibəndiyyə-xalidiyyə təriqətinin təmsilçisi bu şəxs haqqında məlumat verən A.V.Sızranovun araşdırmasına əsasən, bəzi sufi ruhani şəcərələrində onun adı İsmayıl Siracəddin Şirvani (Kürdəmirli) ilə birgə çəkilir.

O, insanlara belə müraciət edir: "Mən burada məzarımı görmürəm. Sizə xələflərim olan müridlərimi əmanət edirəm. Məndən aldığınız feyz və bərəkəti onlardan alın. Dünyəvi məsələrin həllində ardıcılım olan Hacı Baba Əfəndiyə, təriqətlə bağlı məsələlərdə isə Şeyx Əhməd Talalıya müraciət edin" [3, s. 89].

1863-cü ildə baş verən Zaqatala üsyanından sonra Rusiya hökumətinə etiraz edən 1000 nəfər seçmə şəxsiyyətin sürgün olunduğunu, 18 nəfərin edam edildiyini bilən Mahmud Əfəndi 8 xələfinə "səqqul-icazə" sənədini verərək, növbəti il gizli şəkildə Həştərxan şəhərinə hicrət edir [2, s. 26].

Həştərxanda da öz xeyirxah əməlləri ilə məşhurlaşan Mahmud Əfəndi çoxsaylı təriqət müridlərinin rəhbəri olmuşdur [3, s. 101-102].

XX əsrin əvvəllərində Həştərxan şəhərində fəaliyyət göstərən 13 sufi şeyxinin rəhbəri və Mahmud Əfəndinin yetirməsi olmuş Əbdülvahab savadlı və hörmətli şəxs olduğundan həm katib, həm də məscid imamı vəzifələrində çalışmışdır [3, s. 127]. Arxiv sənədlərinə əsaslansaq, Əbdülvahab Əliyev Həştərxanda məscidin imamı işləmişdir. Hazırda şəhərdəki 1 saylı Mərkəzi məscid (və ya "Vahab məscid" adlanan abidə) onun qardaşı, dəri zavodlarının sahibkarı, imkanlı şəxs Əbdürəhimin maddi vəsaiti hesabına inşa edilmişdir. Əbdülvahab Əliyev ikimərtəbəli evini Şeyx Mahmuda hədiyyə etmişdir.

1899-cu ildə dünyasını dəyişən Şeyx Əbdülvahab Mahmud Əfəndinin yanında dəfn edilmişdir [3, s. 125].

"Dağıstanlılar Həştərxanı "sürgün şəhəri" olaraq tanıyırlar. Çoxsaylı üsyanlar və etirazların iştirakçıları bu şəhərə sürgünə göndərilmiş, çox adam üçün isə bura ötəri sürgün şəhəri deyil, əbədi yaşayış məkanı olmuşdur" [9]. Bu şəhər XVI əsrin II yarısı-XX əsrin əvvəllərində Rusiyada müsəlmanlıq düşüncəsinin və sufiliyin mərkəzi olmuşdur. Arxiv sənədlərinə əsasən, XX əsrin əvvəllərində Həştərxan quberniyasında 209 məscid mövcud idi [3, s. 130- 131].

Məşhur şərqşünas Mirzə Kazım bəy (1802–1870) yazır: "Buxara şeyxləri tez-tez Həştərxan vasitəsilə Dağıstana gələrək orada təriqət qaydalarını tədris edərdilər. Dağıstan ruhaniləri isə çox vaxt Kiçik Asiyadan Məkkəyə, oradan isə Türküstana səyahət edər, geri dönərkən Buxaradan keçərək karvanla Orenburq və Həştərxana gələr, sonra yenidən vətənlərinə qayıdardılar" [10, s. 21].

Ömrünün sonunadək Həştərxanda qalaraq yerli əhali tərəfindən yaxşı münasibətə layiq görülsə də, təqiblərdən yaxa qurtara bilməyən Mahmud Əfəndinin buradakı həyatının çox hissəsi hakim dairələrin, Rusiya hökumətinin nəzarətində keçmişdir. O, ahıl yaşına çatandan sonra təqiblərdən azad olmuş, Həştərxandakı arxiv sənədlərinə istinadən, yalnız həmin vaxt ona "meşşan" (çar Rusiyasında şəhər əhalisinə mənsub adam – İ.E.) adı verilmişdir [3, s. 130].

Vətəninin həsrətini çəkən Mahmud Əfəndiyə insanlar bir vəli kimi ehtiram etsələr də, o deyirdi: "Mən necə vəliyəm ki, Vətənimi tərk edib, qürbətə getməyə məcbur olmuşam?" Yuxarı vəzifəli şəxslər onun bu həsrətinə son qoymağa çalışmış, nəzarətdən azad olunaraq Vətəninə qayıtmaq icazəsini almağa nail olmuşlar. Lakin ağır xəstə olduğu üçün getməyə taqəti olmamış və qürbətdə dünyasını dəyişdiyinə görə "şəhid" adını qazanmışdır [3, s. 124].

Bəzi qeydlərə görə, o, 20 yanvar 1876-cı ildə bir həftə davam edən xəstəlikdən sonra dünyasını dəyişmişdir [2, s. 26; 3, s. 123]. Qəbri Həştərxanın şimal-şərqində Leninsk rayonunun



Məşayix qəsəbəsi (bu məkanda çoxsaylı müqəddəs şəxslər dəfn olunduğundan qəsəbənin və qəbiristanlığın adı "Məşayix"dir; ərəbcədən tərcümədə "şeyxlər" mənasını verir) [3, s. 125] qəbiristanlığında, öz vəsiyyətinə əsasən, sufi şeyxi Zamanul Buxarinin (Məsləddin Zaman Hacı Buxarinin) yanında dəfn edilmişdir [5, s. 74-76]. Hazırda bu məkan ziyarətgah kimi tanınır.

Mahmud Əfəndinin həyat yoldaşı Fatihət, qızı Ərəfat, yeznəsi Musa Hafi Adelşinovun (1855-1938), həmçinin ardıcılı Şeyx Əbdülvahabın qəbirləri də bu qəbiristanlıqdadır [3, s. 125].

2000-ci ilin əvvəllərində buradakı ziyarətgah yenidən təmir edilmiş, ziyarətçilər üçün böyük məscid tikilmişdir [11].

Həştərxan şəhərinin Bolşıye İsadı rayonunda hazırda Mahmud Əfəndi adına sufi mədrəsəsi fəaliyyət göstərir [3, s. 69].

1992-ci ildə Qax rayonunun tarix-diyarşünaslıq muzeyinin direktoru işləmiş Natiq Abbasov Mahmud Əfəndi haqqında ətraflı məlumatlar toplamaq məqsədilə Həştərxan Dövlət Arxivinə sorğu məktubu göndərmişdir. Cavab məktubunda həqiqətən də Şeyxin görkəmli və nüfuzlu şəxs olduğu, müasir dövrədək qəbrinin və bir neçə kitabının qorunduğu, əsərlərinin ətraflı tədqiq edilməyə ehtiyac olduğu bildirilmişdir [5, s. 15].

Müasir dövrdə Qax rayonunun Almalı kəndində Mahmud Əfəndinin birotaqlı evdə onun nəslindən olarlar yaşayırlar. Onun bəzi şəxsi əşyalarının qorunduğu bu ev keçmiş dövrdə olduğu kimi saxlanılmışdır.

Mahmud Əfəndinin iki oğlu olmuşdur – Molla Abdullah (Muhəmmədarif) və Əbdürrəhman Hacı Tərxani. Muhəmmədarif Almalı kənd qəbiristanlığında dəfn edilmişdir [3, s. 124, 128].

Həştərxan limanının baş direktor müavini A.S.Şeyxzadə Dağıstanın Həştərxan şəhərindəki arxiv sənədlərini tədqiq edərək Mahmud əfəndi haqqında qiymətli məlumatlar toplamışdır.

Onun araşdırmasına görə, 1876-cı ilin arxiv materiallarında qeyd edilib ki, "Həştərxan şəhərindəki Ağ məscid küçəsində (hazırda Qazan küç. 43) 43 saylı ikimərtəbəli, yaxınlığında əlavə tikilisi olan daş ev meşşan Mahmud Əfəndi Əfəndiyevin şəxsi mülkiyyəti olub".

Beləliklə, arxiv sənədlərindən Mahmud Əfəndinin soyadının "Əfəndiyev" olduğu, nəzarətdən azad edildikdən sonra ona "meşşan" adının verildiyi aydın olur [3, s. 130].

Mahmud Əfəndinın sürgün edilərək Gürcüstanın Tbilisi şəhərindəki Metex qalasındakı zindanda saxlanıldığını deyənlər də vardır.



Aşağıdakı görkəmli səkkiz şəxs Mahmud Əfəndinın Azərbaycan əsilli yetirmələri olmuşlar:

1) Talalı Şeyx Əhməd Əfəndi (təxminən 1839-1904) – Zaqatala rayonu yaxınlığında dəfn edilib [3, s. 120].

2) Hacı Cəbrayıl Əfəndi – (?-1864 – (M.Şabanoğlunun araşdırmasına görə 1889) – Məzarı Qaxın Ləkit kəndindədir.

3) Hacı Həmzət Əfəndi (?-1890) – Qaxın İlisu kəndində vəfat edib, "Beşbulaq" abidəsi yaxınlığında türbəsi vardır.

4) Hacı Həzrət Əfəndi (?-1866) – Qaxın Saxur kəndində dəfn edilib (Tədqiqatçı M.Hacıyev bu şəxsiyyətin adının Həzrət deyil - Hacı Həmzət Əfəndi ibn Hacı Osman Əfəndi Zaxurlu olaraq qeyd edir) [3, s. 90].

5) Hacı İsmayıl Əfəndi (?-1884) – Qaxın Suvagil kəndində vəfat və dəfn edilmişdir.

6) Hacı Məhəmməd Əfəndi Ruçi (? -1885) – Qaxın Şotavar kəndində dünyasını dəyişmiş, məscidin həyətində dəfn edilmişdir.

7) Hacı Baba Əfəndi (?-1886) – Qaxda vəfat edərək burada da dəfn olunmuşdur.

8) Hacı Nurullah Əfəndi əl-Bakali (?-1896) – Qaxın Layısqı kəndində evinin yaxınlığında dəfn edilmişdir.

Digər iki yetirməsi - Məhəmmədzakir Çistavlı (?-1892/1893) və Əbdülvahab Əliyev (?-1899) Həştərxanda yaşamışlar.

Mahmud Əfəndinın ədəbi yaradıcılığından bəhs edən tədqiqatçı M.Şabanoğlu onu "vəhdəti-vücud" fəlsəfəsinin hökmlərinə riayət edən klassik şeir bilicisi" adlandırmışdır.

Müxtəlif dilləri mənimsəmiş bu alimin bizə gəlib çatmış türkcə qəzəlləri (11, s. 27-30), "əl-Qəsidə əl-Mahmudiyyə" əsəri, bir neçə mənzuməsi ayrıca tədqiqat mövzuları olaraq işlənilməlidir. Onun "Tuxfətul-əxbab əl-xalidiyyat" adlı əsəri Maxaçqala şəhərində çap edilmişdir (260 səh., ərəb dilində).

Mahmud Əfəndi haqqında müxtəlif dillərdə çoxsaylı qəsidələr (poemalar) yazılmışdır.

## ƏDƏBİYYAT


1. Сызранов А.В. Астраханско-кавказские суфийские связи // Кавказский сборник. Т. 8 (40). Под ред. В.В. Дегоева. М.: НП ИД «Русская панорама», 2014.
2. Şabanoğlu M.Ş. Talanın yastı yolu. Bakı: AME nəşr., 2001.
3. Гаджиев М.М. Солнце наставления. Шейх Махмуд-Афанди. Его наставники и преемники. Махачкала: Нур-ул Ислам, 2011.
4. Духовный мир ислама / http://madrasah2.ru/svetochi-ummyi/duhovnyiy-mir-islama-23
5. Abbasov N.Z. Qədim Azəri yurdu – Qax. Bakı: Ağrıdağ, 2000, 171 s.
6. Махмуд Афанди. Воспитанник Пророка Мухаммада (салляллаху алейхи ва саллям) / http://islamdag.ru/lichnosti/26774
7. Сызранов А.В. Культ мусульманских святых в Астраханском крае / http://journal.iea.ras.ru/archive/2000s/2006/2006_2_Syzranov.pdf
8. Кемпер М. К вопросу о суфийской основе джихада в Дагестане // Подвижники ислама: Культ святых и суфизм в Средней Азии и на Кавказе / Сост. С.Н.Абашин, В.О.Бобровников. М.: 2003.
9. Мухаметов А.Р. Махмуд-афанди ал-Алмали объединяет Кавказ и Урало-Поволжье / http://www.ansar.ru/person/mahmud-afandi-al-almali-obedinyaet-kavkaz-i-uralo-povolzhe
10. Казембек М. А. Мюридизм и Шамиль. Махачкала: 1990.
11. Глава 2. Суфизм на территории России: Поволжье и Приуралье. 2.1. Суфизм в Поволжье и Приуралье / http://www.idmedina.ru/books/school-book/?589b

Ибрагим Эрол

# ЗАСЛУГИ ШЕЙХА МАХМУДА АЛМАЛЫЛЫ В РАЗВИТИИ УЧЕНИЯ НАГШБАНДИЙЙА В АЗЕРБАЙДЖАНЕ XIX ВЕКА

## АННОТАЦИЯ

В статье впервые на основе литературы, высказываний свидетелей, архивных материалов и др. источников, освещена биография и деятельность азербайджанского богослова, последователя Накшбандийского учения, суфийского шейха Махмуда Эфендиева Алмалылы (1809 - 1876), известного также под псевдонимом “Астрахани”. Особо изложены его чудеса, также дана короткая информация о его семье, последователях, подчеркнуто его азербайджанское происхождение.

В результате деятельности шейха Махмуда учение Накшбандиййа приобрело популярность не только в Азербайджане, а также за его пределами.

Ibrahim Erol

# SHEIKH MAKHMUD ALMALILI’S CONTRIBUTION TO THE DEVELOPMENT OF NAQSHIBANDIYA DOCTRINE IN AZERBAIJAN OF 19TH CENTURY

## ABSTRACT

Based on a review of literature, testimonial statements by witnesses, archive documents including other relevant sources, the article for the first time reveals life and biographical activity of Azerbaijani theologian Makhmud Efendiyev Almalili (1809- 1876). Being a follower of Naqshibandi doctrine, he was a Sufi sheikh, better known under a pseudonym “Astrakhani”. The article emphasizes his miracles and points out his azerbaijani origin. It also provides brief information on his family, followers as well.

As a result of sheikh Mahmud’s activity Naqshibandi doctrine has gained popularity not only in Azerbaijan but also abroad.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

# XANIMANA ƏLİBƏYLİNİN YARADICILIĞINDA DİNİ MOTİVLƏR

**_Elmira MUSTAFAYEVA,_**
*Azərbaycan Dillər Universiteti,*
*filologiya üzrə fəlsəfə doktoru*

***AÇAR SÖZLƏR:*** *İslam, Quran, uşaq ədəbiyyatı, poeziya, Xanımana Əlibəyli.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Ислам, Коран, детская литература, поэзия, Ханымана Алибейли.*
***KEY WORDS:*** *Islam, the Quran, children's literature, poetry, Khanimana Alibeyli.*

Uşağın dinlədiyi laylalardan sonrakı dönəmlərdə anladılan atalar sözü və məsəllərə, uşaq oyunlarına, bilməcələrdən əfsanələrə, dastanlarımızdan qəhrəmanlıq hekayələrinə, dualardan ağılara, bayatılara qədər hər şey xalq ədəbiyyatının inciləri kimi nəsildən-nəslə ötürülmüşdür. Odur ki, uşaq ədəbiyyatının ən zəngin qaynaqlarından olan xalq ədəbiyyatı nümunələri uşaqlar üçün yazılan hər bir əsərdə öz əksini tapmışdır. Sətirlərində xalq müdrikliyinin incəliklərini əks etdirən istənilən yazıçı sanki sağlam bir binanın bünövrəsini qoymuş olur. O cümlədən şəfqət, mərhəmət, sevgi, sülh dini olan İslam dinində də uşaq tərbiyəsi ilə bağlı çox gözəl örnəklər var. Məsələn, Quranda Həzrət Loğmanın oğluna verdiyi öyüd və hikmətli sözlər bu baxımdan gözəl nümunə təşkil edir: **"Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu (dediklərim) vacib əməllərdəndir! Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz!"** (Loğman, 17-18).

XIX əsrdən başlayaraq Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndələri F.Köçərli, A.Şaiq, Q.Zakir, M.Ə.Sabir, R.Əfəndizadə, A.Səhhət, S.M.Qənizadə, S.S.Axundov və başqaları şifahi xalq ədəbiyyatından zaman-zaman bəhrələnmiş və sanballı əsərlər yaratmışlar. Həmin ənənə bu günə qədər davam edir və 60-90-cı illərdən müasir dövrə qədər yazılan əsərlərdə xalq nağıllarından, əfsanə və rəvayətlərdən, yanıltmac və tapmacalardan, laylalar və oxşamalardan, qəhrəmanlıq dastanlarından uşaqları düşündürən, onlara düzgün istiqamət verən ən gözəl örnəklər öz əksini tapır.

Zeynal Cabbarzadə, Teymur Elçin, İlyas Tapdıq, Xalidə Hasilova, Əzizə Əhmədova, Hikmət Ziya, Zahid Xəlil, Əli Səmədli, Qəşəm İsabəyli, Ələmdar Quluzadə, Sevinc Nuruqızı və başqa uşaq yazarları ədəbiyyatın bədii imkanlarından istifadə edərək uşaqların dünyagörüşünün formalaşmasında rol oynamış, öz əsərləri ilə onların zəngin aləminə daxil ola bilmişlər.

Belə sənətkarlardan biri də öz orijinal üslubu ilə seçilən, körpə balaların könül dünyasını sevindirən, Azərbaycan uşaq ədəbiyyatının inkişafında yorulmadan çalışan şair Xanımana Əlibəylidir.

O, 1920-ci ildə Bakının qədim qəsəbələrindən olan Keşlədə ziyalı ailəsində Azərbaycanın ilk hüquqşünası olan Sabir bəy Əlibəyovun ailəsində anadan olmuşdur. Orta təhsilini Bakıda almış, həkim olmaq arzusu ilə yaşamışdır. Bu arzu ilə o, Azərbaycan Tibb İnstitutunun müalicə-

profilaktika fakültəsinə daxil olmuş, institutu bitirdikdən sonra uşaq həkimi işləmişdir. Gənclik illərindən ədəbi fəaliyyətə başlayan X.Əlibəyli "Ana" adlı ilk şeiri ilə "Azərbaycan qadını" jurnalında görünməyə başlamışdır. Bu isə onun ədəbiyyata olan həvəsini daha da artırmış və ədəbiyyatın nəzəri problemlərini dərindən araşdırmaq məqsədi ilə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra da uzun illər uşaqların sağlamlığının keşiyində dayanmış, onlarla daha yaxın ünsiyyətdə olmuş, ədəbiyyatın uşaqların mənəvi aləminə təsir gücünü hiss edərək, onlar üçün gözəl əsərlər yazmağı qarşısına məqsəd qoymuş və bədii yaradıcılıq fəaliyyətini genişləndirmişdir.

Xanımana Əlibəyli uşaqlar üçün əsərlər yazıb-yaradarkən təkcə öz müşahidələri, iş təcrübəsi ilə kifayətlənməmiş, Azərbaycan uşaq ədəbiyyatının qiymətli ənənələrinə söykənərək araşdırmalar aparmış, özəlliklə M.Ə.Sabir, S.M.Qənizadə, R.Əfəndiyev, A.Səhhət, A.Şaiqin balalarımıza töhfə etdikləri klassik əsərlərimizi, uşaq şairlərinin sənətin qızıl fondundakı digər yadigarlarını ələk-vələk edərək sevə-sevə öyrənmişdir. O, yalnız Azərbaycan klassiklərinin yaradıcılığını araşdırmamış, eyni zamanda dünya klassiklərinin yaradıcılığına dönə-dönə müraciət etmişdir. Bir uşaq şairi kimi qələminin püxtələşməsində, mövzu və obrazlar aləminin zənginləşməsində, sənətkarlıq vərdişinin cilalanmasında uşaq ədəbiyyatının öncüllərindən olan Korney Çukovski, Samuel Marşak, Sergey Mixalkov, Nikolay Nosov, görkəmli rus şairəsi Aqniya Barto kimi sənətkarların əsərlərinin danılmaz rolu vardır.

Bu işə ürəkdən yanaşan X.Əlibəyli vaxt tapdıqca bəzi Avropa uşaq ədəbiyyatı korifeylərinin əsərlərindən nümunələr seçib onları dilimizə çevirərək nəşr etdirmiş, bu yolla uşaq ədəbiyyatını daha da zənginləşdirmişdir.

Bundan əlavə şairənin yaradıcılığında Allaha, Qurana bağlılıq motivləriylə rastlaşırıq:

Sanki Allah bir qarlı qış
Mənə şeir verdi bəxşiş.
O, qışımı yaz eylədi
Bəxtimi bəyaz eylədi.
Allah onu etdi ətir,
Səpdi aylara, illərə...

Xanımana Əlibəylinin Azərbaycan uşaq poeziyasının çoxsaylı qələm sahiblərindən fərqlənən başlıca cəhəti o idi ki, şair bütün ömrünü ancaq uşaq poeziyasına həsr etmiş, yaradıcılığı boyu körpə balalar üçün gözəl süjetlər, hikmətli əhvalatlar, axıcı qafiyələr, uşaqlara nikbin ruh aşılaya biləcək poetik misralar yaratmışdır.

İki odlu günəş var:
Ömrümüzü qoruyur,
Onun birisi ürək!
O lap gecəquşu tək,
Sinədə çalıb qanad,
"bub-bub, "bub-bub..." səslənir.
O birilə kainat,
Qızınaraq bəslənir.
Biri isidir canı,
O birisi dünyanı.

Xanımana Əlibəylinin poeziyasının bir çox mühüm və xarakterik cəhətləri vardır. Onun əsərləri uşaqlara məhəbbət, ata və anaya, ümumiyyətlə, böyüklərə hörmət, özündən kiçiklərə

şəfqət, mərhəmət, dostluqda dürüstlük, insan əməyinə və istedadına ehtiram, təbiət gözəlliklərinə vurğunluq kimi hisslər aşılayır.

X.Əlibəylinin kiçik yaşlı qəhrəmanları böyük mənəvi dəyərlərin daşıyıcılarıdır. Müəllif onların bu yüksək keyfiyyətini obrazların özlərinin psixoloji durumundan çıxış edərək yığcam, müxtəsər, olduqca təbii və inandırıcı göstərir. O, qısahəcmli bir şeirdə balacalar üçün elə bir lövhə, vəziyyət, yaxud məqam təsvir edir ki, uşaqların həmişə gözlərində böyüdüb, bənzəməyə çalışdıqları, bir çox hallarda təqlid etdikləri böyüklərlə, habelə heyvanlarla, quşlarla münasibətlərinə dair onların yaddaşlarında izlər buraxan mənzərələr yaradır. O, azyaşlıların hər şeyə təəccüblə baxan sual dolu gözlərini ətraf mühitə, dünyaya açan, mənəvi tələblərinə cavab verən şeirlərin müəllifidir.

X.Əlibəyli 1955-ci ildə “Balaca həkim” adlı ilk şeirlər kitabını nəşr etdirmiş, sonrakı illərdə “Dovşanın ad günü”, “Meşə həkimi”, “Novruz və Murtuz”, “Yaz konserti”, “İşləməyən dişləməz”, “Məni günəşə at”, “Sənubərin gözləri”, “Çoxbilmiş çəpişlər”, “Ləpələrin nağılı”, “Bir gölün sahilində”, “Sevimli şəhid babam” və sair uşaq şeir və poemalarından ibarət kitabları çap olunmuşdur. Onun poemaları ilə tanış olduqda artıq bir ifadəyə, yersiz təsvirçiliyə rast gəlmirik.

Xanımana Əlibəyli uşaqların şəkilli kitablarda daha çox rast gəldiyi heyvanlar və quşlar aləminin ən tipik təmsilçilərini bir araya toplayır. Məsələn, bir şeirində o, hər bir heyvanın və quşun səciyyəvi əlamət və cizgilərini əks etdirən özəlliklər taparaq onların maraqlı təsvirini yaradır. Müəllif hər obrazı öz dili ilə danışdırır və balaca dostların həyəcanla izlədikləri hadisədən nəticə çıxarmağı onların öz ixtiyarına buraxır.

Dovşana bax, dovşana,
Bu gün nə tez oyandı,
O hoppanıb-hoppanıb
Pəncərədə dayandı.
Açılıb pəncərəsi
Bağ-bağçaya taybatay;
Tutuquşunun səsi
Salıb aləmə haray:
Dovşanın ad günüdür,
Dovşanın şad günüdür!

Uşaqları belə şeir nümunələri ilə tanış edəndə onların suallarına düzgün cavab vermək üçün Quran ayələrindən, oradakı ibrətamiz qissələrdən istifadə etmək olar. Onlara izah etmək lazımdır ki, hər yer Allahı və Onun sonsuz gücünü tanıdan gözəlliklərlə doludur. Sevimli ağ dovşanı, delfinlərin gülər üzlərini, kəpənəklərin qanadlarındakı möhtəşəm rəngləri və ya mavi dənizi, yamyaşıl meşələri, rəngarəng çiçəkləri və bunlar kimi saymaqla bitməyəcək bir çox gözəlliyi düşünün. Bütün bunlar məhz Uca Yaradanın əsəridir. Bütün bunları düşünərək, yaratdığı bu gözəlliklərə baxaraq Allahın ucalığını görə bilərsiniz. Bu baxımdan uşaqlarımızı milli, mədəni, dini dəyərlərimiz əsasında tərbiyə etmək üçün uşaq ədəbiyyatının üzərinə böyük məsuliyyət düşür.

Xanımana Əlibəylinin yaradıcılığı dağlar, çaylar, şəlalər, güllər, çiçəklər -Azərbaycanın rəngarəng təbiət təsvirləri ilə zəngindir. Şair uşaqların heyvanlara olan münasibətini həyat hadisələrindən kənarda təsvir etmir. Onun fikrincə, insan heyvanları və quşları sevməklə yanaşı, onlara kömək etməyi bacarmalıdır. Heyvanlar insanların ən yaxın dostudur və körpəlikdən bu

münasibətləri hiss edən uşaqlar daha mərhəmətli olurlar. Məsələn, "Balaca həkim" adlı poemada Xanımana Əlibəyli sərrast söz düzümü, poetik obrazlılıq yaratmaqla uşaqları düşündürməyə çalışır. Bu əsərdə müəllifin əsas təsvir və tərənnüm obyekti heyvanlar, onların kukla və oyuncaq variantlarıdır. Poemada iştirak edən bütün heyvanlar, quşlar bərk "xəstələniblər". Bu xəstələri müalicə edən çox mərhəmətli və şəfqətli balaca bir qızcığazdır. Anasının hər gün xəstəxanaya getdiyini söyləyən bu balaca "həkim" özü də divanın üstündə "xəstəxana" açıb və çox həyəcanla sağ qoluna aypara nişanı bağlayıb balaca dostlarını müalicə etməyə başlayır.

Bu balaca qızcığaz həm böyük həvəslə, həm də çox hiss və həyəcanla öz işinin öhdəsindən gəlməyə çalışır. Ailədə gördüyü münasibətləri, özü xəstələnən zaman aldığı müalicəni və anasının dediklərini yadda saxlayan balaca dostlarını tez sağaltmaq üçün dərhal tədbir görür, səhərəcən öskürən itinin belinə banka salır, dərman içirir, üzünü məstan pişik cırmaqlamış keçinin yarasına yod sürtür, üstünü örtüb yatırdır. Ağıllı qızcığaz gözəl kuklası Güldəstəni də unutmur. İki gündür xəstələnən kuklasının qoluna məlhəm qoyur. Hamını yerbəyer edib yatırdır və özü də səssizlikdən darıxmağa başlayır.

Bu poemanı sadəcə oxuyub keçmək mümkün deyil. Buradakı bitkin fikirlər, canlı təsvirlər, daxili dinamikaya, sonsuz enerjiyə malik olan qəhrəmanın bilik və bacarıq nümayiş etdirə bilməsi uşaq psixologiyasını və xarakterini çox yaxşı bilən müəllifin uğurudur.

Şair müxtəlif illərdə "Nişanlı quş", Gözəllər gözəli", "Aycan", "Çunquş", "Kənd həkimi", "Durnalar lələk salır", "Meyvələrin şahı" və s. əsərlərini yazmışdır. Balaca tamaşaçıları unutmayan müəllifin bir çox əsərləri Gənc tamaşaçılar və Kukla teatrında tamaşaya qoyulmuş, "Çunquş" pyesi Hindistanda böyük rəğbətlə qarşılanmışdır.

Beləliklə, ədəbiyyat, o cümlədən uşaq ədəbiyyatı cəmiyyətdəki inancların, dəyərlərin bir nəsildən digərinə ötürülməsində əvəzedilməz vasitə rolunu oynayırlar. Buraya uşaqlara islami dəyərlərin aşılanması da daxildir. Bu baxımdan, uşağın gələcəkdə mənsub olduğu cəmiyyətin dəyərlərinə hörmətlə yanaşması, onları qoruyub saxlaması, əxlaqi dəyərlərlə yanaşı, elmi yeniliklərdən də uzaq düşməməsi, aid olduğu topluma yadlaşmaması, o cümlədən sevgi, hörmət, ədalət kimi məziyyətləri mənimsəməsində ədəbi yaradıcılıqla məşğul olanların, xüsusilə uşaq ədəbiyyatı müəlliflərinin üzərinə böyük məsuliyyət düşür.

## ƏDƏBİYYAT


1. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Ziya bünyadov, Vasim Məmmədəliyev). Bakı: 2010.
2. B.Nəbiyev. Ədəbi düşüncələr. Bakı: "Gənclik", 1971.
3. X.Əlibəyli. Əziz komissar. Bakı: "Gənclik", 1980.
4. Müasir Azərbaycan ədəbiyyatı, II c., Bakı Universiteti nəşriyyatı, 2007.
5. Türk xalqları ədəbiyyatı (II) Beynəlxalq Uşaq Ədəbiyyatı Konqresi, Materiallar, 13-15 noyabr 2008-ci il, Bakı.
6. Y.Qarayev, Ş.Salmanov. Poeziyanın kamilliyi. Bakı: "Yazıçı", 1985.
7. Zahid Xəlil, Fizuli Əsgərli. Uşaq ədəbiyyatı. Bakı: ADPU-nun nəşri, 2011.

Эльмира Мустафаева

# РЕЛИГИОЗНЫЕ МОТИВЫ В ТВОРЧЕСТВЕ ХАНЫМАНА АЛИБЕЙЛИ


## АННОТАЦИЯ

Ханымана Алибейли является одной из талантливых писательниц, пришедших в азербайджанскую детскую поэзию в 60-80-х.гг. прошлого века. В азербайджанской детской поэзии у этой поэтессы свой почерк и только ей присущий оригинальный стиль. Она посвятила детям всю свою достойную жизнь, и, наряду с тем, что она была педиатром, ее беспокоил также внутренний мир детей. Х.Алибейли часто путешествовала в прекрасном и чистом детском мире, выбирая темы, отвечающие художественному вкусу детей. Маленькие герои поэтессы, с которыми они встречались каждый день – разные звери, птицы и куклы, - несут в себе большой духовно-ценностный заряд. Поэтесса, которая любима и детьми, и взрослыми, своей поэзией и явлением своей личности привнесла в азербайджанскую детскую поэзию честь и достоинство. В детской литературе должны найти свое отражение все литературные жанры, будь то поэзия, рассказ, сказки, пьесы и другие. Через аргументированные и понятные детям объяснения нужно в доступной форме раскрыть им тайну существования Всевышнего, волшебную книгу Священного Корана, все красоты и мудрость исламской религии.


Elmira Mustafayeva

# RELIGIOUS MOTIVES IN KHANIMANA ALIBAYLI'S CREATIVITY


## ABSTRACT

Khanimana Alibayli is one of the talented writers of Azerbaijan Child's Literature in 60-80s. The poetess has her own original style in children's literature. She has dedicated her honorable life only to children and as a pediatrician she has thought their spiritual world. Khanimana Alibayli has often travelled the world of her little friends and has chosen themes for their tastes. The poetess has dealt little heroes in her poets such as animals, birds, dolls that children meet every day. Khanimana Alibayli has brought honor and dignity to Azerbaijani literature and had been loved by children as well by adults. In children's literature, a great attention should be given to all the literary types at any genres such as poems, novels, stories, tales, plays, and convincing evidences should be given about the existence of God, our miraculous book the Quran and the beauty of Islam.

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalda digər nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.

2. Məqalənin mətni jurnalın redaksiyasına A4 formatda, "14" ölçülü hərflərlə, yuxarıdan və aşağıdan 2 sm, soldan 3 sm, sağdan 1 sm məsafə ilə, 1,5 intervalla, Azərbaycan və rus dilində Times New Roman şriftində 1 nüsxədə çap edilərək elektron variantda jurnalın məsul katibinə təqdim edilir.

3. Məqalədə müəllifin işlədiyi müəssisə və həmin müəssisənin ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

4. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, s. aydın şəkildə verilməlidir.

5. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və [1] və ya [1, s.119] kimi işarələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad edilərsə, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

6. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Eyni məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

7. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

8. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasə verilməlidir. Məqalələrin həcminin 8-10 səhifə, xülasələrin isə 5-8 sətir olması tövsiyə edilir.

9. Məqalənin müxtəlif dillərdəki xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir. Müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllif və ya müəlliflərin tam adı göstərilməlidir.

10. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

11. Məqalənin keyfiyyətinə, göstərilən faktların doğruluğuna və digər məlumatlara görə müəllif cavabdehlik daşıyır.

12. Dini mövzuda yazılmış elmi-kütləvi məqalələrin nəşrə hazırlanmasına aid beynəlxalq təcrübəyə əsaslanaraq müqəddəs və görkəmli din xadimlərinin adı çəkilərkən xüsusi xitab formasından istifadə olunması məqsədəuyğun hesab edilir.

# К СВЕДЕНИЮ АВТОРОВ

1. В журнале издаются безукоризненно отредактированные, краткие научные статьи, которые являются результатом новейших исследований, не предоставленных другим изданиям.

2. Текст статьи предоставляется ответственному секретарю журнала в электронном варианте, напечатанном в 1 экземпляре, шрифтом Times New Roman на азербайджанском и русском языках, в формате А4, с “14” размером букв, в интервале 1,5, на расстоянии от полей страницы сверху и снизу 2 см, слева 3 см, справа 1 см.

3. В статье должно быть указано учреждение, где работает автор, адрес данного учреждения и электронная почта автора.

4. В заключение статьи в ясной форме необходимо показать соответствующий характеру статьи научный результат, к которому пришёл автор, научное новаторство работы, практическую значимость и прочее.

5. Научная ссылка в связи с темой обязательна. Список литературы, данный в конце статьи должен быть пронумерован по порядку встречаемых в статье ссылаемых литератур и обозначен как {1} или {1, стр.119}. Если в статье будет ссылка на одинаковую литературу, тогда данная литература должна быть помечена прежним номером.

6. Информация о каждой ссылке в списке литератур должна быть полной и точной. Библиографическое описание ссылаемого источника зависит от её типа (монография, учебник, научная статья и т.д.). При ссылке на одинаковые статьи, симпозиумы, конференции и тезисы прочих влиятельных научных мероприятий должно быть указано название доклада или же тезиса. При библиографическом описании ссылаемого источника необходимо основываться на требования имеющей силу инструкции о “Порядке оформления диссертаций” Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики пункта 10.2-10.4.6 части “Использованная литература”.

7. В списке литературы, данной в конце статьи нужно отдать предпочтение научным статьям, монографиям и прочим надёжным источникам последних 5-10 лет.

8. Должно быть дано резюме на языке статьи и ещё 2 языках дополнительно. Рекомендуется, чтобы объём статьи был в пределах 8-10 страниц, а резюме 5-8 строк.

9. Резюме статьи на разных языках должно быть идентичным и соответствовать содержанию статьи. Научный результат, к которому пришёл автор или авторы, новаторство научной работы, практическая значимость и прочее должны быть в краткой форме отображены в резюме. Резюме должно быть серьёзно отредактировано с научной и грамматической точки зрения. В каждом резюме нужно в полном виде указать название статьи, имя автора или же авторов.

10. В каждой статье следует указать индексы UOT или коды типа PACS и ключевые слова. Ключевые слова должны быть даны на трёх языках (на языках статьи и резюме).

11. Автор несёт ответственность за качество статьи, достоверность указанных фактов и прочих сведений.

12. При упоминании имён святых и видных религиозных деятелей считается целесообразным использовать особую форму обращения, основываясь на международную практику относительно подготовки к печати научно-популярных статей, написанных на религиозную тему.